ƏZİZƏ CƏFƏRZADƏ

# ELMİ ƏSƏRLƏRİ

## VII CİLD

XƏLQİYYAT DƏFTƏRLƏRİ

ƏZİZƏ CƏFƏRZADƏ

# ELMİ ƏSƏRLƏRİ

## VII CİLD

## XƏLQİYYAT DƏFTƏRLƏRİ

Bakı-2026

**Toplayanı:** **Əzizə Cəfərzadə,**
filologiya elmləri doktoru, professor

**Tərtib edənlər:** **Tacir Səmimi,**
filologiya üzrə fəlsəfə doktoru, dosent
**Turan İbrahimov,**
texnika üzrə fəlsəfə doktoru

**Redaktoru:** **Tacir Səmimi**

**Texniki redaktoru, əlyazmaların kompüter yığımı:** **Aygül Cəfərzadə**

**Naşiri:** **Turan İbrahimov**

**Əzizə Cəfərzadə. Elmi əsərləri: VII cild, Xəlqiyyat dəftərləri / Bakı: SkyE, 2026, 518 s.**

Oxuculara təqdim edilən bu kitaba Xalq yazıçısı, filologiya elmləri doktoru, professor Əzizə Cəfərzadənin Azərbaycanın bölgələrindən topladığı müxtəlif folklor nümunələri – bayatılar (nanaylar, haylalar), ovsunlar, sayaçı və atalar sözləri, tapmacalar, yanıltmaclar, düzgülər, xalq hekayələri və s. daxil edilmişdir. Yazıçının toplayıb bədii əsərlərində istifadə etdiyi və eləcə də özünün yazdığı bayatılar da kitabda yer almışdır.

Kitab geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

**ISBN 978-9952-440-37-4**

**© Turan İbrahimov, 2026**

# ƏZİZƏ CƏFƏRZADƏ ƏSƏRLƏRİNDƏ İSTİFADƏ EDİLMİŞ FOLKLOR ÖRNƏKLƏRİ

## “NATƏVAN HAQQINDA HEKAYƏLƏR”DƏN

Kisə tikdim dolmadı,
Suya saldım, solmadı.
Elçi, dilin qurusun,
Özüm deyən olmadı.

Ay hacıleylək,
Yerişi lək-lək,
Qurbağa göldə—
Çaylardan əl çək!

Saç bağım,
Saçaq bağım,
Güllər açar
Haçaq, bağım?

Bəyim gəlir uzaqdan,
Mən baxıram bayaqdan,
Canım sənə sadağa
Bir ay mınnan qabaqdan.

Əmə, Qəmbərim, əmə.
Sirrini heç kimə demə,
Qabağında quzuplov
Şəkərə dönsə də yemə!...

Aşığıyam yar aşığı.
Canım aldı yaraşığı.
Tərlan könlüm, yara şığı
Ol qonağı o gülən dəm.

Mən aşiq girdə şirin.
Yeməyə girdə şirin.
Sənin kimi dostnan
Danışım bir də şirin.

Arazı keçən də var,
Suyundan içən də var,
Çəkmə qərib adımı
Ha burdan keçən də var.

Qarabağdan bağ olmaz,
Qara salxım ağ olmaz,
Qonşuda qız sevənin
Ürəyində yağ olmaz.

Bu dağlar ərən dağlar,
Gülü yox dərəm, dağlar,
Belə dərdlər əlindən
Ürəyim vərəm bağlar.

Ay doğdu qəlbiləndi,
Gün doğdu qəlbiləndi,
Quran gəti, əl basım,
Bu qəlb o qəlbiləndi.

Su gəlir lülə-lülə.
Yar gəlir gülə-gülə.
Əlində ipək dəsmal
Qan-tərin silə-silə.

Ay doğdu qəlbi nara,
Gün doğdu qəlbi nara,
Dilinən dost olanın
İşiynən qəlbin ara.

Çıxdım aya baxmağa,
Qapıya kilid taxmağa,
Oğlan xına göndərib
Qız əlinə yaxmağa.

Əzizinəm Qarabağ,
Qara salxım, qara bağ,
Tehran cənnətə dönsə,
Yaddan çıxmaz Qarabağ.

Ay da ulduzun nəri,
Xiyar, qarpızın təri,
Gəl alım xan qardaşa
Olum baldızın, Pəri.

Ağırrığım, uğurruğum,
Piləmbəri,
Baxtı bəri,
Baxtım açılsın.

Yallı yallının bəndi,
Yallı bürüdü kəndi,
Pul verin, satın alın
Yarım oturan kəndi.

Atıl-batıl çərşənbə
Baxtım açıl, çərşənbə...

Mən aşığam o duzağ,
O cənnətdi, o duzağ,
Səməndər fikirli aşiq
Olmaz səndən od uzağ.

Əziziyəm mərdə mərd,
Kim deyər namərdə mərd?
Qiyamət o gün qopar,
Baş əysə namərdə mərd.

Ağbaba yolu fərman,
Torpağı cana dərman,
Yardan bir xəbər aldım
Yarı dərd, yarı dərman.

Ağbabada yağdı qar ,
Amandı, pərvərdigar!
Bir yanıma qar yağıb
Bir yanımdan köçdü yar.

Ağbaba çiçəkləndi,
Gün vurdu göyçəkləndi.
Başlandı toy yuxası
Ayrılıq gerçəkləndi.

Aşıq arxa dolandım,
İpək tək çarxa dolandım.
Qərib ölkə, yad ellər
Qorxa-qorxa dolandım.

Qarabağda talan var,
Zülfün üzə salan var.
Gedirsən, tez qayıt gəl
Gözü yolda qalan var.

Araz aşanda mələr,
Kür qovuşanda mələr.
Analar balasından
Ayrı düşəndə mələr.

Ay günü, günün qara,
Eyləmisən günüm qara.
Canına düşsün qarayara!

# ROMANLARDAN

## "ALƏMDƏ SƏSİM VAR MƏNİM"DƏN

Pirdirəki pirivüz,
Mən də sizin birivüz.

**Mahnı:**
Sabah olar, qazlar gələr,
Dörd bir yanı tozlar gələr,
Tamaşana qızlar gələr.

Dur get, oğlan, sabah oldu,
Yandı bağrım, kabab oldu.
Mənim canım sənə qurban,
Sənin canın həlak oldu.

Sabah olar atlar gələr,
Dörd bir yanı tozlar gələr,
Tamaşana yadlar gələr.

Dur get, oğlan, sabah oldu,
Yandı bağrım kabab oldu.
Mənim canım sənə qurban,
Sənin canın həlak oldu.

Ay gəzəyən Xanımağa,
Pitik neynəsin yağa?
Yançağını bas yerə
Cəhd elə çalxamağa.

**"Mütrüf havasını":**

Meyyiti getdi divana,
Cəzası qaldı rizvana,
Dağıldı öyü mütrüfün,
Verildi suyu mütrüfün.
Çillə-çülə kamanda
Ənniyi qaldı tükanda.

Qoy mənə Kür desinlər,
Kürdən də kür desinlər,
Əlini əlimə versinlər
Şirvandan sür desinlər.

Şirvanda xan olmuşam,
Çində xaqan olmuşam.
Əlim yardan üzülüb
Yernən yeksan olmuşam.

Sarı başmaq zənənə,
Dünyada gözəl çox, mənə nə.
On iki imam qənim olsun,
İlqarından dönənə!...

Quzum bulağa çıxıb,
Qalxıb bulağa çıxıb.
Siz Allah, xoş söz deyin,
Yarım qulağa çıxıb!

Ay batdı, qaş qaraldı,
Didəmdə yaş qaraldı,
Dərdimi dağa dedim
Dağ yandı, daş qaraldı.

**"Dua":**
Yerdən illəllah,
Göydən illəllah,
Ya Pirdirəki, səndən illəllah,
Ya Şıx Eyib, səndən illəllah,
Ya Pirsaat, səndən illəllah!
Ya Dədəgünəş, səndən illəllah!

Ayişə: — Huy-huy-huy baba!
Arvadlar (Xor) : — Huy-huy şıx baba!
Ayişə: — Haqq-ey, haqq-ey!

Ay doğdu Allah,
Təbarəkallah!
Var bir niyyətim:
Nədi qismətim?

**"Sağrı başmaq" mahnısı:**
Sağrı başmaq zənənə,
Dünyada gözəl çox, mənə nə?
On iki imam qənim olsun
İlqarından dönənə.
Sağrı başmaq mərd olu,
Geyməyən namərd olu.
İstədiyinə getməyənin
Ölənəcən ürəyində dərd olu...

Şirvanın yastı yolu,
Su gəldi basdı yolu.
Gedirdim səni görəm,
Yağılar kəsdi yolu.

Şirvana paşa gəldi,
Gör nə tamaşa gəldi.
Şükür gördüm üzünü,
Hər arzum başa gəldi.

Güllübəyim nazanda,
Aşı bişirər qazanda.
Özü yeyər nimçədə,
Ərinə verər çömçədə.

…Ətəkliyin piləydi,
Çıxma çölə küləydi,
Salam verdik almadın,
Sımsığına nə dəydi?

Qadam sənin ac ağzuva,
Əppəyə möhtac ağzuva.
Əppək tapıb xoruldayır,
Eşşək kimi zırıldayır.

Xətcə biçindən gəlir,
Sayad bulaqdan gəlir.
Xanbikə bağdan gəlir,
Orcalı dağdan gəlir!...
Əcəb eləyirəm!
Əlimin içindən gəlir,
İçinin içindən gəlir,
İçində bir noxud var,
Onun da içindən gəlir.

Cad fətiri, bulaq suyu,
Güllübəyim — qarnın quyu.

Yedici[1] Sənəmin səsinə səs verirdilər:
Sənəm: — Müsibətdi, müsibət.
Gəlinlər: — Olmaz belə müsibət!
Sənəm: — Oldu belə müsibət.
Gəlinlər: — Olmaz belə müsibət...
Sənəm: — Şəhid öldü, müsibət.
Gəlinlər: — Olmaz belə müsibət...
Sənəm: — Cavan öldü müsibət...
Gəlinlər: — Olmaz belə müsibət...
Sonra Sənəm ağıya keçdi:

Əzizim qannıları,
Qan tutsun qannıları.
Qudurmuş it olaydım
Tutaydım qannıları.

Göydə buludum səni,
Sərim qurudum səni.
Ölüb torpağa getsəm —
Bəlkə unudum səni.

---

[1] Yedici – d. Ağıçı, yas məclislərində avazla oxşayan qadın.

Şirvanın dağları var,
Meyvəli bağları var.
Rəhm elə, ay Əzrayıl,
Dalıycan ağları var.

Yolum düşdü Garısa,
Söylə sözün varısa.
Beş günüm sənə qurban,
On gün ömrüm varısa.

Sənəm, səsəmi gəldin?
Dabanbasamı gəldin?
Sağ günündə gəlmədin —
Öldü, yasamı gəldin?

Getmişəm elüvüzdən,
Nə gələr əlüvüzdən?
Olmuşam bir yaşılbaş
Uçmuşam gölüvüzdən.

***

Ay Cəbi oğlu Cavad,
Əlində qələm-davat,
Dövrəsin aldı saldat,
Boğazdan asdı cəllad...

Ay Cəbi oğlu Cavad,
Əlində qələm-davat,
Dövrəsin aldı saldat
Boğazdan asdı cəllad.

Cavad yatdı at belinə,
Keçməzdi düşmən əlinə,
Düşdü namərdin felinə,
Boğazdan asdı cəllad...

Fit dağından yel tək əsdi,
Alxas bəyin əhdin kəsdi,
Cavadım Koroğlu səsdi.
Boğazdan asdı cəllad...

Ay Cəbi oğlu Cavad,
Əlində qələm-davat,
Dövrəsin aldı saldat
Boğazdan asdı cəllad.

***

Şirvanın gecələri,
Banlaşır beçələri.
Sənsiz mən necə yatım—
Bu uzun gecələri?

Şirvanın şirin narı,
Yeməyə şirin narı,
Sovqatı sizin olsun,
Göndərin bizim yarı.

Aşıq dar üstən gəlir,
Heyva nar üstdən gəlir,
Qırılmışın mahnısı
Hamısı yar üstən gəlir.

Qız qızıla dönübdü,
Xəbəri yox oğlanların...
Halva dadlı, təmlidi,
Satan da məlhəmlidi.

***

**"Cigir-cigir" mahnısı:**

Tiflisin bürcü mənəm,
Dil bilməz gürcü mənəm,
Baş qoyum dizin üstə,
İl yatsam incimərəm.
Cigir-cigir, cigir-cigir.
Sənə qurban yazıq canım...

***

Şirvanın yolu həşəm,
Ağlamaq olub peşəm.
Hardadı mənim yarım,
Bir aydı görməmişəm.

Şirvandan təhərim var,
Altımda kəhərim var.
Əyil üzündən öpüm
Bir ağır səfərim var...

Şirvana binə gəlləm,
Gedərəm genə gəlləm.
Birdə üzünü görsəm,
İmana dinə gəlləm.

Arazıyam adanın,
Quluyam şahzadanın.
Çıxaydım, qabağına,
Sənə gələn qadanın.

Oba keçir çaxnaqdan,
Sular doymaz axmaqdan.
Gözlərimə tor gəlib,
Yollaruva baxmaqdan.

Yol üstə kor bulağam,
Bağrı sulağ-sulağam.
Hansı yoldan gələsən,
O yola göz-qulağam.

Soldu güllərim haray...
Susdu bülbülüm haray...

Bala, bala bal dadı,
Balam adam alladı.
Şirini şirin olur,
Acısı da bal dadı.

Şirvanın biyanı var,
Otu var, biyanı var.
Barı gəl, yuxuma gir,
Desinlər, hayanı var.

Şamaxı vətənimiz,
Durmadı yatanımız.
Əl-ələ verdi getdi
Dili söz tutanımız.

Şirvanın aşığı var,
Sazı var, aşığı var,
Belə qara günlərin,
Həlbət bir işığı var.

## "VƏTƏNƏ QAYIT"DAN

Apardılar gülümü,
Sındırdılar belimi.
Gəl çıx dağlar başına,
Deyim dərdi-dilimi.

Sarı sarını tutsun,
Boya sarını tutsun
Sən fələyə neynəmişdin, gəlin,
Ahın Tarını[1] tutsun!!! heyyy!...

Apardı tatar məni,
Qul elər, satar məni.
Vəfalı dostum olsa,
Axtarar tapar məni hey!...

Şaftalıyam, kalam mən,
Dilim yoxdu, lalam mən.
Qərib ölkə, yad ellər,
Çətin ki, sağ qalam mən...

Əzizim, ayrı düşdüm,
Sağ idim, sayrı düşdüm.
Gül əkən yovuğ düşər,
Mən əkdim — ayrı düşdüm.

Mən aşığam Salyana
Dara zülfün, sal yana.
Necəsən bir ah çəkim,
Kür quruya, sal yana?!

---

[1] Tarı – d. Tanrı, Allah.

Göydə ağ daş,
Yerdə ağ daş,
Ağ daş, qara daş,
Mən sənnən siğə qardaş.
Ağ daş, qara daş,
Allah mənə bir qardaş!

A mını yaradan Tarı,
Kəkilin daradan Tarı...

Gedər xan olar gəlməz,
Bağrı qan olar gəlməz.
Alar tərsanın qızın,
Dilin öyrənər gəlməz.

Əzizim kətən yaxşı,
Geyməyə kətan yaxşı,
Gəzməyə qərib ölkə,
Ölməyə Vətən yaxşı.

## ”YAD ET MƏNİ”DƏN

Bu yol Şirvan yoludur,
Piyalələr doludur,
Çiyinmə kölgə düşdü.
Dedim ki, dost qoludur.

Şirvanın sucaqları,
Od tökər ocaqları,
Hamı yara qovuşdu,
Mən gəzdim bucaqları.

Şirvanın ağ alması,
Yeyilir ağ alması.
Qiyamət günə qaldı,
Yaramın sağalması.

Pirdirəki dağımdı,
Qoynu qəm oylağımdı.
Yaş tökər leysan kimi,
Deyər yaman çağımdı.

Bu gələn arabadı,
Qoy gəlsin, arabadı.
Dünənki cənnət şəhər,
Bax, bu gün xarabadı.

Dağda biyan varmola,
Soyub yeyən varmola.
Bu əcəlsiz qırğına
Hayıf deyən varmola?

Şirvanın düz hasarı,
Yollardan üz hasarı.
Mərdin ağac kölgəsi,
Namərdin yüz hasarı.

Şirvandan karvan gedir,
Qabaqda sarvan gedir.
İntizar gözlərimdən
Gecə-gündüz qan gedir.

Göy bulud, Şirvan ayaz,
Yaz məni, Şirvana yaz.
Günün yad eldə keçir,
Dərdini Şirvana yaz.

Əzizim dalda yeri,
Meh vurmaz dalda yeri.
İki könül bir olsa,
Tez tapar dalda yeri.

Palazda narıncı var,
Abı var, narıncı var.
Hardasan, ay insafsız!
Dalınca zarıncı var.

Bağırrı gəm üstədi,
Qışlağı çəm üstədi.
Pərnaz nə hava çalsa,
Hamısı qəm üstədi.

Ay Ələsən, Ələsən,
Ömrün vermə yelə sən.
Hər işdə səbirli ol,
Peşman olar tələsən.

Qonşuda qız sevənin
Ürəyində yağ olmaz.

Pəlvan çıxıbdı göyə,
And içib əlif-beyə.
Qırmızı paltar geyə,
Ay dili, pəlvan dili.

Şirvandı, xan yeridi,
Gülüstan can yeridi.
Sağıma güllə dəydi,
Solumdan qan yeridi.

Gülü-gülüstan üstünə,
Gün düşdü bostan üstünə.
Gedin deyin o tülküyə,
Gəlməsin aslan üstünə!

Gülü-gülüstan üstünə,
Şeh düşüb bostan üstünə.
Gedin deyin o aslana:
Dağ gəlir aslan üstünə!

Şirvanın boz dağları,
Tutubdu toz dağları.
Arxam, köməyim olsa,
Aşaram tez dağları.

Şirvanım gədikləri,
Heyvandır yedikləri,
Yadıma bir-bir düşər,
Yarımın dedikləri.

Əzizim dalda yeri,
Meh vurar dalda yeri.
İki könül bir olsa,
Tez tapar dalda yeri.

Şamaxı bazarımış,
Mirzələr yazarımış,
Nə duman var, nə də çən,
Yar yardan azarımış...

İstəkanım qanlıdı,
Toxunma dərmanlıdı,
Burda bir qız görmüşəm,
Anası şirvanlıdı.

Şirvana yol bağlaram,
Çaylar kimi çağlaram,
Qərib ellərə düşsəm,
Vətən deyib ağlaram.

Qorxdu, dönübən oldu,
Şeybani bizim Hophop,
Axır ki, dağıdacaq
Şirvanı bizim Hophop...

Əyri ağac düzəlməz,
Rəndə vursan yuz yerdən.

Şamaxı bazar imiş,
Oxuyan yazar imiş,
Gəldi gülüm soldurdu,
Nə yaman azar imiş.

Əziziyəm qəmdə gül,
Qəmdə danış, qəmdə gül,
Ağ gündə gülən könlüm,
Mərd igidsən, qəmdə gül!

Təbriz üstü Miyana,
Bülbül gülə dayana,
Oxu, bülbülüm oxu, bala,
Bəlkə yarım oyana.

Təbriz üstü Marağa,
Zülfün gəlməz darağa,
Mənim yarım uşaqdı, bala,
Öyrətməyin arağa...

Şirvanın boz dağları,
Basıbdı toz dağları,
Yadına düşər ağlar,
Qəribin öz dağları.

Şirvanın yastı yolu,
Su gəldi basdı yolu.
Gedirdim kama çatam,
Yağılar kəsdi yolu.

## "BAKI-1501"DƏN

Araxçının yan qoyub,
Yan qoyub, bu yan qoyub,
Qapıdan keçən oğlan
Ürəyimə qan qoyub.

Xəzri onları əldən salanda arvad gülə-gülə səslənərdi:

—Qızım, sən ananın ilkisən, qaç bir əncir ağacını yellət. Onda qız əncir ağacının dibinə qaçar, kövrək budaqları tərpədər və gülərək deyərdi:

Mən anamın ilkiyəm,
Ağzı qara tülküyəm,
Xəzri get, gilavar gəl.

Külək boğanaq salanda onu "qovardı":

Ayran verməz öyünə,
Qonaq qoymaz öyünə.

Əncir sabahi,
Doldur tabaği.
Aç qaşqabaği,
Ay sarı sabahi!...

Eləmi sinə-sinə,
Yar gəlir sını-sinə,
Dünyaya sığmaz başım
Sığıbdı sinəsinə.

Taxtın bərəkallah, gəlin.
Bəxtin bərəkallah!
Ağ əllərə əlvan həna
Yaxdın bərəkallah, gəlin,
Yaxdın bərəkallah!

Su içdim qurtum-qurtum,
Əl ver əlindən tutum.
İki dünya bir olsa
Sənsən mənim umudum.

Ay doğar aşmaq istər,
Gül-dodaq yaşmaq istər,
Mənim bu dəli könlüm.
Yara qovuşmaq istər,

Səhərdən ağlayan bülbül,
Sən ağlama, mən ağlaram.
Ciyərim dağlayan bülbül,
Sən ağlama, mən ağlaram.

Bülbülüm, geydin yaşılı,
Süsən sünbülə dolaşı.
Ağlamaq manə yaraşı,
Sən ağlama, mən ağlaram.

Bülbülüm, geydiyi sarı,
Mən ağlaram zarı-zarı,
İtirmişəm nazlı yarı,
Sən ağlama, mən ağlaram.

Bu dünyada çoxdur vəli,
Hamısına dedik bəli,
Ey tanrı aslanı Əli,
Yardım eylə qiyamətdə.

Yayı alafını yığıram, qışı karvana gedirəm.

Sərçə deyil, sərin verim,
Bildirçin deyil birin verim.
Bir dəvədən sənə mən nə verim?

Eləmi düşən ağlar,
Qürbətə düşən ağlar,
Düşmən gözünə düşsün
Saçına düşən ağlar.

Eləmi xan ədalı.
Kölgədi xana dalı,
Bir oğul itirmişəm,
Xan elli, xan ədalı.

Ay ağalar, ay qazılar,
Yar yaman allatdı məni,
Əl atdım yar ətəyinə—
O kənara atdı məni.

Tor atdım eşqin gölünə,
İlişdi sonam telinə,
Düşdüm bir nadan əlinə-
Ucuz alıb-satdı məni.

Dərdini de biləndərə,
Dərd başına gələnlərə,
Hər üzünə gülənlərə
Ehtibar eyləmək olmaz.

Söz var kəsdirər başı,
Söz var kəsər savaşı,
Söz var ağulu aşı
Bal ilən qaymaq edər.

Ərəb gəldi hay verün,
Nə istəsə pay verün,
Aza duran döyürlər
Gətirün tay-tay verün.

## "SABİR"DƏN

Balam bulağa gəlsin,
Minsin ulağa gəlsin
"Ata, hardasan?" — desin,
Səsi qulağa gəlsin, heyyyy...

Qarşımızda odu zağ,
O qarğadı, odu zağ,
Qoy dərdin mənə gəlsin
Tək olsun səndən uzağ.

## "QOBUSTAN ÇÖKƏKLƏRİNDƏ"DƏN

Ağlayan göz,
Ağladan söz,
Utanmayan üz...
Üçü də bunda var.

Birinci qız — Ülkər ucadı, oğlan!
Əli yar, Əli yar!
Getmə gecədi, oğlan!
Əli yar, Əli yar!
Dedin: başım ağrıyır,

Əli yar, Əli yar!
İndi necədi, oğlan?
Əli yar, Əli yar!
Hamı — Köynəyi düyməli yar,
Əli yar, Əli yar.
İkinci qız — Bulaq başı pıtıraq,
Əli yar, Əli yar!
Yaxına gəl oturaq,
Əli yar, Əli yar!
Birin sən de, birin mən,
Əli yar, Əli yar!
Bəlkə gücü batıraq,
Əli yar, Əli yar!
Hamı — Köynəyi düyməli yar,
Əli yar, Əli yar!
Sənəm— Su gəldi qarpızlığa,
Əli yar, Əli yar!
Töküldü yarpızlığa,
Əli yar, Əli yar!
Gördün işin fənadı,
Əli yar, Əli yar!
Özün vur arsızlığa,
Əli yar, Əli yar!

Qabaqda gedən arvana[1]...
Atası düşsün tufana...

Gömuş bağa girdi, gəl!
Budağı sındırdı, gəl!
Qoyma, gomuş yiyəsi!
Uşaqları qırdı, gəl!

---

[1] Arvana – d. İki hörgüclü dişi dəvə.

Səknə badam, badamı,
Gün yandırır adamı,
Əvvəl sənə mən qurban,
Sonra kəndin adamı.

Anam bulağa gəlsin,
Minsin ulağa, gəlsin.
"Bala, hardasan?" — desin,
Səsi qulağa gəlsin.

Səknə badam gəl bizə,
Sürməni çək qaş-gözə,
Toyunda kimlər süzə?
Gəlməyəsən heç gözə.

Kərbəlada gül ağlar,
Gül ağlar, bülbül ağlar,
Belə balası ölən ana,
Tökər başa kül ağlar.

Üzərliyim çatdasın,
Yaman gözlər partdasın.
Sən alışıb yanıncan
Qada bizdən addasın.

Deyərəm Həsənsizəm,
Həsənsiz, Hüseynsizəm,
Üç bacı qardaşıyam
Ölürəm kəfənsizəm.

Çalalarda qu varmı?
Qu qanadın yuvarmı?
İmam Hüseyn eşqinə
Yaralıya su varmı?

## "ANAMIN NAĞILLARI"NDAN

Mən aşıq, düşən ağlar,
Atlanıb düşən ağlar.
Düşsün əğyar gözünə
Saçına düşən ağlar.

Mən aşıq, qana daqlar,
Ox titrər, qanad ağlar.
Ovum yaralı getdi,
Boyandı qana dağlar.

Mən aşıq, gülə damlar,
Şeh yağa, gülə damlar.
Bu damlar o damlardı,
Hanı o gül adamlar?!

Apardılar gülümü,
Elədilər zülümü.
Gəl çıx dağlar başına,
Deyim dərdi-dilimi.

Mən aşiqəm od uzaq,
O cənnətdi o duzax,
Səməndər fikif aşiq.
Olmaz səndən od uzaq!

Göydə ağ daş.
Yerdə ağ daş,
Ağ daş, qara daş
Siz olduz siğə qardaş.

Eləmi qanlıları,
Qan tutsun qanlıları,
Qudurmuş it olaydım,
Tutaydım qanlıları.

Barmağı üzük yeridi,
Qolu bilərzik yeridi.
Ana can, qonağım qızdı.

Qız gəldim, qız getdim, Gün Günəş oğlu!
Hamıdan tez getdim, Gün Günəş oğlu!
Narınc-turuncunu apardım, Gün Günəş oğlu!
Dalımcan gələsən, Gün Günəş oğlu!

Qız gəldim, qız getdim, Gün Günəş oğlu!
Hamıdan tez getdim, Gün Günəş oğlu!
Narınc-turuncunu apardım, Gün Günəş oğlu!
Dalımcan gələsən, Gün Günəş oğlu!

İynə alan, sancaq alan,
Gülüşün, qızlar, gülüşün!

Qarşıda odu-Para!
Ay doğdu o da para,
Vardı bir odu sönmüş,
Canımdan od apara?!

Mələ, ay quzum, mələ,
Çörəyim, duzum, mələ!
Mən mələdim, gəlmədi,
Sən mələ, bəlkə gələ.

Şirvanı seçəmmirəm,
Sevdadı, keçəmmirəm.
Könlüm ipək yumağı
Dolaşıb—açammıram.

Şirvanın kədikləri,
Heyvadı yedikləri,
Yadıma bir-bir düşər,
Yarımın dedikləri.

Qoy mənə Kür desinlər,
Kürdən də kür desinlər,
Əlini əlimə versinlər,
Şirvandan sür desinlər.

Piyalələr qannıdı,
Toxunma dərmanlıdı,
Burda bir qız sevmişəm
Xan soylu, Şirvanlıdı.

Şirvanın şirin narı,
Yeməyə şirin narı,
Sovqatı sizin olsun
Göndərin bizim yarı.

Şirvanın torpağıyam.
Xan qızının sağıyam.
Al yanaqda gül açmış
Mən onun yarpağıyam.

Şirvanın gecələri,
Banlaşır beçələri,
Sənsiz mən necə yatım
Bu uzun gecələri?

Qara çadır his tutmaz,
Qızıl nimçə pas tutmaz,
Çoban oğlan ölməynən
Xanın qızı yas tutmaz.

Bu yol Şirvan yoludu.
Piyalələr doludu,
Çiynimə kölgə düşdü
Dedim ki, yar qoludu.

Şirvanın sucaqları,
Od tökər ocaqları,
Hamı yara qovuşdu,
Mən gəzdim bucaqları.

Şirvanın yolu həşəm.
Ağlamaq olub peşəm.
Hardadı mənim yarım?
Üç gündü görməmişəm.

Şirvanın dağları var.
Meyvəli bağları var.
Rəhm elə, zalım yağı.
Dalıycan ağları var

Şirvanım düz hasarı,
Yollardan üz hasarı,
Mərdin ağac kölgəsi
Namərdin yüz hasarı.

Şirvana paşa gəldi,
Gör nə tamaşa gəldi?!
Şükür, gördüm üzünü,
Hər arzum başa gəldi.

Şamaxı bazarımış,
Mirzələr yazarımış,
Nə duman var, nə də çən
Yar yardan azarımış!

Şamaxı dağ içində,
Gülü bardağ içində,
Bu yerlərdən qız sevən
Yanacaq yağ içində.

Şirvanın yastı yolu,
Su gəldi, basdı yolu,
Gəlirdim səni görəm,
Yağılar kəsdi yolu.

Şirvana binə gəlləm,
Gedərəm, genə gəlləm,
Bir də üzünü görsəm,
İmana-dinə gəlləm.

Şirvandı, xan yeridi,
Fit dağı can yeridi;
Sağıma bir ox dəydi
Solumnan qan yeridi,

Şirvanda xan olmuşam,
Çində xaqan olmuşam,
Əlim yardan üzülüb
Yernən yeksan olmuşam.

Şirvanın boz dağları.
Basıbdı toz dağları,
Yadına düşər ağlar
Hərənii öz dağları.

Şirvandan karvan gedir,
Qabaqda sarvan gedir
İntizar gözlərimdən
Laxta-laxta qan gedir.

Uzaqdan gördü səni,
Şirvandan sürdü səni,
Sən bir məsum quş idin
Bir namərd vurdu səni.

Şirvanın ağ alması,
Yeyilir ağ alması,
Qiyamət günə qaldı
Yaramın sağalması.

Tüfəngim dolu saçma,
Gül yarım, məndən qaçma!
Yeddi yerdən yaram var,
Bir yara da sən açma!

Şirvanın boz dağları,
Basıbdı toz dağları,
Arxam köməyim olsa,
Aşaram tez dağları.

Şirvanın aşığı var,
Sazı var, aşığı var.
Belə qara günlərin
Həlbət bir işığı var.

Şirvanın biyanı var,
Otu var, biyanı var,
Barı gəl yuxuma gir
Desinlər hayanı var.

Şirvandan təhərim var,
Altımda kəhərim var,
Əyil üzündən öpüm,
Bir ağır səfərim var.

Şamaxı vətənimiz,
Durmadı yatanımız,
Əl-ələ verdi getdi,
Dili söz tutanımız.

Göy bulud, Şirvan ayaz,
Yaz məni, Şirvana yaz,
Günün yad eldə keçər,
Dərdini Şirvana yaz.

Eləmi gül duyumu,
Açılsın gül düyümü,
Mən o yara qovuşsam
Görərlər güldüyümü.

## "SƏYYAH (ELDƏN-ELƏ)"DƏN

Şirvanın elatları,
Çəmdə otlar atları,
Bəyə-xana baş əyməz
Şirvanın arvadları.

Sandığın üstə sandıq,
Yarın oduna yandıq.
Bircə dilək söylədik,
Səni də adam sandıq.

Uçurtdum qara tovuğ,
Qondu Erbilə yovuğ.
Hamı gedənlər döndü,
Dönmədi başı savuğ.

Dədəm olmayacaqsan,
Nənəm olmayacaqsan,
Niyə belə yanırsan?
Kərəm olmayacaqsan...

Aydan arı, ay bala!
Sudan duru, ay bala!
Mən yarıya bilmədim
Sənsə yarı, ay bala!

Bu yol Cavada gedər,
Aşar Cavada gedər,
Uçub könlümün quşu
Gör nə havada gedər.

Axşamlar, ay axşamlar,
Şam yanar ay axşamlar.
Evli evinə gedər,
Qərib harda axşamlar?

Ağ dəvə kallah gedər,
Gah əyilər, gah gedər.
Qorxma, a dərviş oğlan,
Üstündə Allah gedər!

Dağların qan düşüb,
Gecənin yarı düşüb.
Qınamayın bu qızı,
Yadına yarı düşüb.

Almanı al vaxtında,
Heç yemə kal vaxtında,
Açdı yaxam bəndini,
Dilimin lal (dal) vaxtında.

Ay doğdu dam üstünə.
Gün doğdu dam üstünə.
Bu gedən gözəl dərviş,
Durub qızlar qəsdinə.

Yaralarım üzləndi,
Dərə-təpə düzləndi.
Durdum Allah çağıram,
Evliyalar gizləndi...

Ay doğdu dam üstünə.
Dərviş, bürün postuna.
Dünyada xayın çıxmaz,
Əsil dost can dostuna.

Gəlin gedək xanlara,
Yalvaraq imamlara.
Su səpək, çadır quraq,
Qardaş gələn yollara.

Köynəyi var qırmızı,
Ətəynə tökdüm duzu.
Kül başuva, anası
Dərviş apardı qızı...

Ay qara oğlan,
Çıx damda tovlan.
Qoy qızlar görsün,
Dərdindən ölsün.

Dəvə gəlir kallahı,
Ovsarın al kallahı.
Sən dayan, dur yerində,
Mən çağırım Allahı!

Qəribəm bu vətəndə,
Gözüm yoldan ötəndə.
Qəriblik yaman olur,
Baş yastığa yetəndə.

Əzizim, vətən yaxşı,
Geyməyə kətan yaxşı.
Gəzməyə qərib ölkə,
Ölməyə vətən yaxşı.

## ""GÜLÜSTAN"DAN ÖNCƏ"DƏN

Səknəbadam, badamı,
Gün yandırır adamı.
Əvvəl sənə mən qurban
Sonra kəndin adamı...

Bu dağlardan keçmişik,
Bulaqlardan içmişik.
İnci-mərcan içindən,
Bircə yaqut seçmişik.

Bu dağlardan keçmişik,
Sizin bağa girmişik,
Qızıl gülün üzmüşük.
Sizin qızı söömüşük,
Bir "hə" söylə, ay quda!
Al almağa gəlmişik,
Verin qızı, ay quda!

Şal almağa gəlmişik,
Oğlanın adamıyıq
Aparmağa gəlmişik.
Ver gəlinimi, ay quda!

Oğlan adamı,
Yesin badamı.
Ay qız adamı,
Alsın qadamı.

Bulaq başı pıtırağ,
İrəli gəl oturağ,
Birin sən de, birin mən

Bəlkə günü batıraq...
Allahım, Allahım, Allah.
Sultanı saxla nəzərdən,
Hər cür azar-bezardan.
Nökəri gəlsin bazardan
Gətirsin qaqa-billə,
Dindirək şirin dillə.

Mahnı -Duet:

Zərqələm:

Gürcü qızı, gürcü qızı,
Gözlərin var—dan ulduzu,
Yanaqların al-qırmızı.

Kütah dəflə:

Gəl, qadan alım, gül, qadan alım.
Şirindi, şirin, dil, qadan alım.

Zərqələm:

Gərdənin var qu boğazı,
Sahibin ellər ağası,
Canıma dəysin qadası.

Kütah dəflə:

Gəl, qadan alım, gül, qadan alım.
Baldan şirindi dil, qadan alım.

Zərqələm:

Gürcü qızı su sonası.
Oğlanları xan balası,
Hüsni-cahan qız anası.

Kütah dəflə:

Gəl, qadan alım, gül, qadan alım.
Kəmər qurşayıb bel, qadan alım.

Zərqələm:

Gürcü qızı bağrım əzər,
Tə'rifi dillərdə əzbər.
Xan ərinə verin xəbər.

Kütah dəflə:

Gəl, qadan alım, gül, qadan alım.
Səf çəkib baxar el, qadan alım.
Eşqindən yandım, bil, qadan alım.
Qabaqda gedən ağ qurşaq,
Anasına iyli qursaq.
Qabaqda gedən ağ qurşaq,
Ayağına mıxlı başmaq.

Dalda qalan arvana,
Anasın verim sarvana.
Dalda qalan arvana,
Anasın asım şalmana.

Ortadakı ortaya,
Vurun qarın-qartaya.

Tapıl, tapıl, axça verim,
Tapılmasan, mıxça verim.

Dağa getdim örüşə,
Tələsirdim görüşə,
Mən səndən ayrılmaram
Düşman görə gülüşə.

Ay burdan yürüyənlər,
Gülü üzün bürüyənlər,
Sizə sadağa getsin
Yar deyib çürüyənlər.

Şirvanın biyanı var,
Otu var, biyanı var.
Qardaş, gəl qapımnan gir
Desinlər, hayanı var.

Aşıq ozanım mənim,
Qaynar qazanım mənim.
Səni mənə yazıbdı
Yazı yazanım mənim.

Barama qurdu üstə,
Oturub durdu üstə.
Kişiyə oğul gərək
Ev tikə yurdu üstə.

Apar Garısa məni,
Elə varısa məni.
Dığa əsir apardı
Kafır urusa məni.

Küdrüdən keçmək olmaz,
Nohurdan içmək olmaz.
Namərd düşman sözüynən.
Mərd dostdan keçmək olmaz.

İşim, işim iş olsun,
İşim uçsun quş olsun.
Mələklər bacım olsun,
Pərilər iməcim olsun.

"İşbitmə" ovsunu:

Şeytana nəhlət,
İşimə bərəkət.
Bir qarı gəlsin,
Ərişin yesin,
Arğacı qalsın.

Su gəldi bənddən getdi,
Kəklik kəməddən getdi,
Allah, sən irəhm elə
Millətim əldən getdi.

Fit dağının yaylaqları,
Düzdə otlar daylaqları,
Urüsun sarı sərdarı
Şoşkəsi belində getdi.

Şirvana saldat gələla
Bülbülüm gülündə getdi.
Kişnəşən atlar, dəvələr
Küdrünün çölündə getdi.

Mədəto şapqası haça?
Aman vermir xan göz aça.
Bir oğlu qayadan uca
Arzusu dilində getdi.

Bəydə, xanda qeyrət hanı?
Qoşun tutubdu cahanı,
Tükəztban, Ümmihanı
Yaylığı əlində getdi.

Şirvanlı Əhmədəm, tanı,
Yağı gördüm tüküm sanı,
Urus tökdü müslüm qanı
Millətin yolunda getdi.

## "ZƏRRİNTAC-TAHİRƏ"DƏN

Əmiqızı, can Əmiqızı;
Sinədə mərcan Əmiqızı,
Mən sənə heyran, Əmiqızı.

Göydə buldum səni,
Sərim qurudum səni.
Ölüb torpağa getsəm,
Sanma unudum səni.

Eləmi ad oldun, gəl,
Ağzımda dad oldun, gəl!
Günün qürbətdə keçdi,
Yurduna yad oldun, gəl! (ƏC[1])

Təbriz üstü Miyana.
Bülbül gülə dayana.
Oxu, bülbülüm, oxu!
Bəlkə yarım oyana.

Eləmi yara qannı,
Əl qannı, yara qannı,
Qürbətdə düşüb qalsam,
Qəsd elər yara qannı!

Eləmi üzlər səni,
Çağırır qızlar səni,
Aldı bağrına basdı,
Yovşanlı düzlər səni.

Arazda buz ağladı,
Yanda yarpız ağladı,
Oğlan o tayda qaldı,
Bu tayda qız ağladı.[2]

---

[1] (ƏC)- lə işarə edilmiş bayatılar Əzizə Cəfərzadənin özünə məxsusdur.

[2] Bu bayatı "Rübabə sultanım", "Xəzərin göz yaşları"əsərlərində də istifadə edilib. Sistemi pozmamaq üçün təkrarı məqbul sayıb qəsdən hər üç yerdə saxlamışıq.

## "İŞIĞA DOĞRU"DAN

Mən aşiq qaya kəndi,
Dağ kəndi qaya kəndi,
Balam yara qovuşur
Çağırın toya kəndi.

Çalada qutan mənəm
Buyuruq tutan mənəm,
Ləşkəri bada gedib
Qalası batan mənəm.

Əzizim kətan yaxşı,
Geyməyə kətan yaxşı.
Gəzməyə qərib ölkə,
Ölməyə vətən yaxşı.

Gedirsən "dur" deyən yox,
Kabab çəkdim yeyən yox,
Bu ölüm köynəyini
Məndən özgə geyən yox.

Əzrayıl, üz görmüsən,
Yolunu düz görmüsən,
Aparmısan balamı
Məni yalqız görmüsən?

Bu yerdə xanım ağlar,
Cismimdə canım ağlar
İtirdim gül balamı,
Damarda qanım ağlar.

Eləmi dərd-dəyəni,
Gəl gəzək dər-dəyəni.
Tapmadım bircə kəsi
Düzəldə dərd əyəni.

## "BİR SƏSİN FACİƏSİ"NDƏN

Başına mən dolanım,
Mən dönüm, mən dolanım.
Böyü, boya-başa çat,
Kölgəndə mən dolanım.

Fələyi dindirəydim,
Bilməzin bildirəydim.
Sənə yazı yazanda
Qələmin sındıreydım.

İlana bax, ilana,
Gedər girər dalana.
İmansız qaynanalar
Tez uyarlar yalana.

Eləmi qış öyünnən,
Yanı qamış öyünnən.
İlan yuvadan çıxmaz—
Sən çıxdın qış öyünnən.

Laylay evim-eşiyim,
Qızıldandı beşiyin.
Sən yat, şirin yuxu tap,
Anan çəksin keşiyin.

Eləmi göz gözüvə,
Dikmişəm göz gözüvə.
Axtardım tapammadım,
Oxşadam göz gözüvə.

Bu yol Cavada gedər,
Aşar Cavada gedər.
Uçub könlümün quşu
Gör nə havada gedər.

Tapmadım itirmədən,
Hər quşa yetirmə dən.
Eşitdim rəqib ölüb,
Qutardım it hürmədən.

## "RÜBABƏ SULTANIM"DAN

Araz qırağı ləklər,
Çırmanıb ağ biləklər.
Düşmənə xəbər olsun,
Hasil oldu diləklər.

Aşıq ozanım mənim,
Qaynar qazanım mənim.
Əzəldən belə yazıb
Tale yazanım mənim.

Göy üzü damar-damar,
Göydən yerə nur damar.
Qəlbim zərif şüşədir,
Sən sındırsan, kim yamar?

Bostanda tağım ağlar,
Basma, yarpağım ağlar.
Sağam, (ay ana) özüm ağlaram,
Ölsəm — torpağım ağlar.

Dağlara binə gəlləm,
Gedərəm, yenə gəlləm.
Bir də üzünü görsəm,
(ay qardaş, can qardaş, )
İmana, dinə gəlləm.

Ölsə, bacılar ölsün,
Heç deməsin, vay qardaş.

Atlı çapar, ay dayı,
Ürəyim qopar, ay dayı,
Burdan gəlib keçəndə
Məni də apar, ay dayı.

Fələyi dindireydim,
Bilməzin bildireydim,
Balama yazı yazanda
Qələmin sındıreydim.

Bayquş mənəm, bayquş mən,
Hər quşlardan say quş mən.
Nə bəlalı başım var,
Sızıldaram yay-qış mən.

Helindədi, helində,
Qanadları belində.
Gecə-gündüz yol gedir,
Yerindədi, yerində.

Karvan gecədən gedir,
Aşıb təpədən gedir,
Allahım, irəhm elə,
Millətim əldən gedir.

Başımda var darağım,
Ürəyimdə şam dağı.
Talehim yazılanda
Sönmüş imiş çırağım.

Ağ dəvə gallah gedər,
Gah dayanar, gah gedər,
Qorxma, ay balaca qız,
Üstündə Allah gedər.

Arazda buz ağladı,
Yanda yarpız ağladı.
Oğlan bu tayda qaldı,
O tayda qız ağladı.

Fələyi dindireydim,
Bilməzin bildireydim.
Mənə yazı yazanda
Qələmin sındıreydim.

Araz aşanda mələr,
Kür qovuşanda mələr.
Analar balasından
Ayrı düşəndə mələr.

Arazam, Kürə bəndəm,
Bülbüləm, gülə bəndəm.
Dindirmə, qan ağlaram,
Bir şirin dilə bəndəm.
(Yanıqlı dilə bəndəm)

Araza gəmi gəldi,
Suların nəmi gəldi.
Dur, bir qolboyun olaq,
Ayrılıq dəmi gəldi.

Oğlan adamı,
Yesin badamı.
Ay qız adamı,
Alsın qadamı.

Əzizim qazançanı,
Doldur ver qazançanı.
Cəfa çəkdim, ev tikdim,
Bəs mənə qazanc hanı?

Su gəldi, bənddən getdi,
Kəklik kəmənddən getdi,
Allah, sən rəhm elə,
Millətim əldən getdi.

Qarşımızda ay açar,
Lala, cövhər gül açar,
Millətim girdaba düşüb,
Haqdan ona bir açar.

## "XƏZƏRİN GÖZ YAŞLARI"DAN

Xəzərin suyu zər-zər,
Bağrım başı qan süzər.
Zorunan ayırdılar
Ayrılığa kim dözər?
(Həlimə Vəliqızı)

Eləmi Aşqabada,
Sən də gəl Aşqabada.
Aləm əcəldən ölsə,
Biz getdik başqa bada.

Görünən o tay dağlar,
Ayırdı o tay, dağlar!
Bu yanda millət mələr,
Necədi o tay, dağlar?

Gizlin göyərdilən səməni,
Saxla məni,
İldə göyərdərəm səni.
Atıl odun üstündən.

Əsdi Xəzər yelləri,
Pərən saldı elləri.
Gözü yaşlı qoydular
Neçə həsrətliləri.
(Həlimə Vəliqızı)

Od qoy odun üstündən.
Ağırlığım tökülsün
Pak olum, təmiz olum,
Çıxım odun üstündən.

Qızım, qızım, qızana,
Qızımı verrəm ozana.
Ozan axça qazana,
Qızım geyə, bəzənə.

Araza gəmi gəldi,
Suların nəmi gəldi.
Dur bir qol-boyun olaq,
Ayrılıq dəmi gəldi.

Xəzərin suyu zər-zər,
Bağrım başı qan süzər
Zorunan ayırırlar,
Ayrılığa kim dözər?
(Həlimə Vəliqızı)

Vay dədəm vay, nənəm vay
Bakıya gəldi tramvay.

Bu zamananın qızları,
Ərə gedər özləri,
Kəbin kəsər özləri.

Bağrımda yüklü gəmi,
Yükü ayrılıq qəmi,
Xəzərim, göz yaşım çox,
Silən yoxdu didəmi.
(Pünhan Səda)

Soruşma haralıyıq,
Xəzər, Kür haraylıyıq.
Xain, namərd üzündən,
O taylı, bu taylıyıq.
(Həlimə Vəliqızı)

Yağı verdi fərmanı,
Ayırdı candan-canı.
Xəzərin sinəsinə
Düzüldü qəm karvanı.
(Pünhan Səda)

Fələyin qəhri sənə,
Gəlmədi rəhmi sənə,
Doldurdu qəm piyaləsin,
İçirtdi zəhri sənə.

Gözüm səndən su içib,
Dərd bibi həmdəm deçib.
Nə deyim, keçən keçib,
Ümidlə yaşa, Xəzər!
(Xuraman Vəfa)

Xəzərdən gəmim getdi,
Yarım, həmdəmim getdi.
Gülü əlimdə qaldı,
Gözləri nəmli getdi.
(Həlimə Vəliqızı)

Fələk coşdu, çağladı,
Qəlbimə daş bağladı,
Mənə bir baxt yazdı
ki, Göylər belə ağladı.
(Pünhan Səda)

Xəzərin suları şor,
Yorğanım, döşəyim qor.
Səbəbini milləti
Dərbədər salandan sor.
(Pünhan Səda)

Arazı ayırdılar,
Qumunan qayırdılar
Mən sizdən ayrılmazdım,
Zülmünən ayırdılar.

Arazda buz ağladı,
Yanda yarpız ağladı.
Oğlan o tayda qaldı,
Bu tayda qız ağladı.

## "EŞQ SULTANI"NDAN

Vermə Xəzərə məni,
Çəkər bazara məni,
Aç belindən qurşağı,
Salla məzara məni.

Apardı Batı məni,
Qul elər satı məni,
Yollar uzun, mən yorğun,
Doğrayıb çatı məni.

Gələn nəfəsdir mənə,
Yad yer qəfəsdir mənə.
Yuxumda Bayat gördüm,
Yuxusu bəsdir mənə.

Əslim sorsan, Bayatdı,
Dərd məndə qatbaqatdı,
Qədimlərdən bəllidi,
At at deyil, muraddı.

Bayatın bulağı var,
Elatda yığnağı var.
Sirrin yara gizli de,
Yerin də qulağı var.

Bu dərənin uzunu,
Çoban, qaytar quzunu.
Get, atama nökər ol...
Bəlkə verdi qızını.

Laylay deyim, yat bala,
Ay noğul, nabat bala.
Ananın ah-naləsiynən
Fələyi oyat, bala!

Üzərriyim çatlasın,
Yaman gözlər pırtlasın.

Əslim Bayatdı, Bayat,
Cibimdə noğul, nabat,
Atalar yaxşı deyib:
Baxtın yatdı, sən də yat. (ƏC)

Bayatda qar ətri var,
Bağında bar ətri var,
Ölsəm, sinəm yumayın,
Sinəmdə yar ətri var.

Su gələr arxa, haray,
Tökülər çarxa, haray,
İgid qürbətə düşsə,
Çağırar arxa, haray.

Bala, vay,
Bal yemədim, bala, vay,
Çöp yığdım, yuva qurdum,
Uçurtmadım bala, vay.
Dağların çiçəyi, ana, vay,
Güllərin göyçəyi, ana, laylay,
Dağların çiçəyi, ana, laylay...

Ağ alma, qızıl alma,
Nimçəyə düzül alma.
Çirkin al, əsil olsun,
Bədəsil gözəl alma.

Yanı yəhər qaşında,
Gözü ocaq başında,
Oturmusan at üstə,
Düşübən qoymasana…

Fini-fini fincan,
İçi dolu mərcan.

Hanı bu uşağın xalası?
Xalası qazan qarası.
Hanı bu uşağın dayısı?
Dayısı meşə ayısı.

Dağlara hünü gəldi,
Hününün mini gəldi,
Evim onda yıxıldı,
Üstümə günü gəldi.

Hanı bu uşağın bibisi?
Bibisi əkilə düyüsü.
Hanı bu uşağın əmisi?
Əmisi dərya gəmisi.

Sarımsağım, soğanım,
Yad qızından olanım,
Atana qurban olum
Anan olsun qurbanım.
(Əminə Hacı Şıxbala qızı, Bakı)

Mən gəlinimi az istəyirəm,
İkicə gözünü boz istəyirəm,
Oğul üzünə həsrət qalsın,
Hər doğduğun qız istəyirəm.
Mən qayınanamı çox istəyirəm,
İkicə gözünü yox istəyirəm
Əlində murdar qaşıq,
Qabağında p... istəyirəm.

A qaynana, sən məniynən düz danış,
Dalına qoyaram tükdən naz balış.
Oğlun evə gələndə, köpək,
Bir az az danış.

Altı daş, üstü aş,
Yenə oğlumun evi.
Altı daş, üstü aş,
Yenə oğlumun evi…

Alnan abı, bəylərin babı,
Alnan yaşıl, əcəb yaraşır.
.....
Ölsəm sinəm yumayın,
Sinəmdə yar ətri var.

Quzum bulağa çıxıb,
Enib bulağa çıxıb,
Siz Allah, xoş söz deyin,
Yarım qulağa çıxıb.

Piləmbəri…
Baxtı bəri,
Baxtım açılsın...

# POVESTLƏRDƏN

## “QARATEL”DƏN

Lay-lay dedim yatasan,
Qızılgülə batasan.
Gül yastığın içində
Şirin yuxu tapasan.

## “BİR ZƏRRƏ İZ...“DƏN

Əzizim nə danışım...
Nə deyim, nə danışım.
Qulam, qulluqdan düşdüm,
Taxsırım, nə danışım?

Dağlar dağımdı mənim,
Qəm oylağımdı mənim.
Dindirmə qan ağlaram,
Qəmli çağımdı mənim.

Eləmi dağ çəmənə,
Gün düşdü Dağçəmənə.
Dərdin zərrəcə olsa,
Görünər dağca mənə.

Aman naşı əlindən,
Atmaz daşı əlindən.
Yastıq şikayət eylər
Gözüm yaşı əlindən.

## “ƏLLƏRİNİ MƏNƏ VER”DƏN

Qaraçı qız, qara qız,
Qaraçı qız, şirin söz.
Qaraçı qız, qaraca
Bax falıma burdaca...

## "HUN DAĞI"NDAN

Gəl gedək Hun dağına,
Yaş tökək Hun dağına.
Oğlu ölən ananın
Qan damar qundağına.

Göğtanrı hey baxırdı...
Yaratdığı kişinin
Tutduğu işlər
Yandırırdı... Yaxırdı.

Qadındı dünen qaz uçdı,
Qanadi dön boş boldı.
Qarlı Altayda sapandım
Qara qözumden yaş qeldi. [1]

O tayda mal mələdi,
Bu tayda mal mələdi,
Atın yiyəsiz qaldı,
Başımda şal mələdi heyy...

Su axar, gələr ağlar,
Dağ-daşı dələr ağlar,
Balan beşikdə qalıb
Süd deyər mələr ağlar.

Tanrım, bundan üç dənə ver,
Üç dənə vermə, beş dənə ver,
Göydə gedən quşlara ver,
Mən tək görməmişlərə ver...

## "CƏLALİYYƏ"DƏN

Atdı-çapar, ay dayı,
Ürəyim qopar, ay dayı,
Burdan gəlib keçəndə —
Məni də apar, ay dayı!

Yad ağlar, yalan ağlar.
Anam ağlar gerçəkdən,
hey!...

Aslan gedər ovuna,
Ceyran düşər tovuna,
Hanı bunun anası,
Gəlsin bala lovuna.

Bu paltar xasa paltar.
Dönübdü nəsə paltar,
Ölüb igid, yiyəsi
Batıbdı yasa, paltar.

---

[1] Ucalardan yüz qaz uçdu.
Dönəndə beş dön ondu,
Qarlı Altaydan uzaqlandım
Qara gözlərimdən yaş gəldi.

Məni bir ağı vurdu,
Dolaşdı, bağı vurdu.
Səhər-səhər bəllədi
Axşamın çağı vurdu... Hey!...

Araşqını biçmişəm,
Biçib gülə bükmüşəm.
Cəm gözəllər içində
Təkcə səni seçmişəm.

Araşqının dar-darı,
Gəl başımın sardarı,
Evimizə gəlmədin,
Qonşumuza gəl barı.

Araşqının haşımı,
Hara qoyum başımı?
Mən səndən əl çəkmərəm
Sil gözüvün yaşını!

Araşqının dürəngi,
Yuma gedər irəngi,
Hara qoyub gedirsən
Mənim kimi zirəngi?

Araşqının gümüşdü,
Gümüşdən bağrım bişdi.
Bağda duran gözələ
Bir baxdım, gözüm düşdü.

Araşqının məndədi,
Yumuşam çəməndədi,
Dünya gözələ dönsə
Mənim gözüm səndədi.

Araşqının xəzəli,
Danışmağın məzəli,
Hara qoyub gedirsən
Mənim kimi gözəli?

Araşqının ipəkdi,
Naxışları piləkdi,
Qaynatam Məkkə xoylu
Qaynanam da köpəkdi.

Arazın qıraqları,
Dolu gələr arxları.
Şeh düşmüş gülə bənzər
Yarımın dodaqları.

Arazda daşqına bax,
İgidin məşqinə bax.
Dərdimdən dağa çıxdım,
Dedilər: Eşqinə bax!

Bu dağdan köçüm aldım,
Vətəndən gücüm aldım,
Yüz yerdən oxlansam da,
Yağıdan öcüm aldım.

Ələk kimi ələnnəm,
Dərdə-qəmə bələnnəm,
Bircə balam eşqinə,
Qapı-qapı dilənnəm.

Çalada qutan mənəm,
Buyuruq tutan mənəm,
Qoşunu bada gedib,
Leşkəri batan mənəm.

Göbəyin ağ dələmə,
Görmüşəm, düyməmələmə!
Qaşların canım alır,
Gözünü sürmələmə!

Aşıq haramı dağlar,
Peykan yaramı dağlar,
Çağırram haray, bala!
Kəsib aranı dağlar.

A hilları, hilları,
Bir arvad aldım — qarı,
Oğlu-qızı cəhənnəm —
Özü yaza çıxsın barı!

Yerim uca saldılar.
Ucadan uca saldılar.
Mən səndən ayrılmazdım
Məni gücə saldılar.

Əmim oğlu, necəsən?
Haxışta!
Neçə çaylar keçəsən.
Haxışta!
Saçım ola üzəngi,
Haxışta!
Atdanasan, keçəsən,
Haxışta.
Bizim gəlin sağ olsun,
Doğduğu oğlan olsun,
Sonbeşiyi qız olsun.

## “ATA HAQQI”NDAN

Yerimi uca saldılar.
Ucadan uca saldılar.
Mən səndən ayrılmazdım
Məni gücə saldılar.
Bu yurda gələn varsa,
Bağrımı dələn varsa.
Torpaq o vaxt vətəndi
Uğrunda ölən varsa.

## “SƏMƏNDƏR QUŞU”NDAN

Vay dədəm vay, nənəm vay...
Bakıya gəldi tramvay...
Tramvayın milləri,
Açıb qızıl gülləri.
Bu zamananın qızları
Ərə gedər özləri...
(Kəbin kəsər özzəri).

Paprusum yana-yana,
Od düşüb şirin cana.
Elçi gedib almaram səni,
Qalarsan yana-yana.

Mən gəlinimi az istərəm,
Ər çomağın saz istərəm,
Oğul üzünə həsrət qalsın,
Hər doğduğun qız istərəm.

Qayınanamı çox istərəm.
İkicə gözünə ox istərəm.
Əyninə gicitkən köynək,
Əppəyini yox istərəm.

Helindədi, helində,
Qanadları belində,
Gecə-gündüz yol gedir,
Yerindədi, yerində.

Ömrümdə bir gülmədim,
Göz yaşımı silmədim,
Sərçə bala çıxartdı,
Sərçəycən də olmadım.

Eləmi necə dağlar,
Yol kəsib neçə dağlar,
Yetim yanağı bilər
Göz yaşı necə dağlar.

Verərsən şordan-mordan,
Mala vurruq ordan-burdan.
Verərsən ətdən-mətdən
Vurarıq bərkdən-bərkdən.

Şilafqası qərişni,
Şalvarı zəqrənişni.
Elə ki, minir faytuna
Olur lap simpatişni.

Aşıq oralı ollam,
Ağlı-qaralı ollam.
Sağ yanında yer elə, ay bala!
Mən də oralı ollam.

**Mahnı duet:**

— Gürcu qızı, Gürcü qızı...
Yelənin at, üzün görüm...
— Oğlan, oğlan, ay gözəl oğlan,
Məgər dağlara getməmisən,
Dağlarda lalə görməmisən?...
— Gürcü qızı, gürcü qızı,
Yelənin at, dodağın görüm.
— Oğlan, oğlan, ay gözəl oğlan,
Məgər bağlara getməmisən,
Ağacda gilas görməmisən!?
— Gürcü qızı, gürcü qızı,
Bir gülümsə, dişin görüm,
— Oğlan, oğlan, ay gözəl oğlan,

Məgər zərgərə getməmisən,
Zərgərdə inci görməmisən?
— Gürcü qızı, gürcü qızı,
Yelənin at, döşün görüm.
— Oğlan, oğlan, ay gözəl oğlan,
Məgər bostana getməmisən,
Tağda şamama görməmisən?

**"Günülər" havası:**

O çitdən, bu çitdən neçiyə verirsən?
Bivafa qızlara nisyə verirsən.
Nəlbəki, boşqab, çini dərdi çəkim,
Yoxsa oturum günü dərdi çəkim?
Nəlbəki, boşqab, çini neynər mənə?
Yarım yar olsa günü neylər mənə?

**Meyxana:**

Oturmuşdum dalanda, səbir gəldi duranda,
Oğlan, əlin qurusun, qıza şillə vuranda.
A balaca, balaca, balaca, gəlir sorağın sənin
Bir dəvəyə yük oldu burun-qulağın sənin.

Aydan arı, ay bala!
Gündən duru, ay bala!
Mən yarıya bilmədim,
Sənsə yarı, ay bala!

## "İKİ ANA"DAN

A laylay balasına,
Göllərin sonasına.
Nənəsi özü qurban,
Balamın balasına.

## "QORXULU HƏQİQƏT"DƏN

Gəlin, balalı getdin!
Başı bəlalı getdin,
Dünyaya tək gəlmişdin,
Yeddi balalı getdin.

## "NƏNƏMİN DƏFNİ"NDƏN

Şəfqətini bu dizin,
Üstündə yatan bilər.
Acısını dənizin,
Gəmisi batan bilər.

Bu yerdən xanım gedir,
Dalınca canım gedir.
Bir yerdən yaralandım,
Yüz yerdən qanım gedir.

## "XƏYALIM MƏNİM"DƏN

Açılıb güllər, bacı!
Oxur bülbüllər, bacı.
Yanuvu kömbə yandırır,
Keçər bu günlər, bacı!

## "HEKAYƏLƏR"DƏN

## "XƏZƏR"DƏN

Dərya səndən kim keçdi,
Kim qərq oldu, kim keçdi?
Söylə son nəfəsində
Ürəyindən kim keçdi?

## "BÜLBÜLÜN NAĞILI"NDAN (rəvayət)

Mən aşiqəm dilən gəz,
Bağda gülə dilən gəz.
Qürbətdə xan olunca,
Vətənində dilən, gəz.

## "KÖLGƏ"DƏN

Əzizim vətən yaxşı,
Geyməyə kətan yaxşı,
Gəzməyə qərib ölkə,
Ölməyə vətən yaxşı...

## "QIZBİKƏ-QIZ QALASI"NDAN

Əziziyəm qız qala,
Tikdiribdi qız qala.
Namərd oğullar ölə,
Vətən üçün qız qala.

## "ANALARIN XASI"NDAN

Bala, bala bal dadı,
Balam adam alladı.
Şirini şirin olur,
Acısı da bal dadı.

## "SİMAVƏR"DƏN

Hey ağladım, gülmədim,
Göz yaşımı silmədim.
Sərçə bala çıxartdı,
Sərçəycən da olmadım.

## "EL QIZI"DAN

Bu dağlar haça dağlar,
Zirvəsi uca dağlar.
Yetimin dodaqları
Hey deyər "ha cad[1]", ağlar.

## "ÇEVRİLMİŞ ZƏMİ"DƏN

Bu dağlar ulu dağlar,
Çeşməli, sulu dağlar,
Burdan bir igid gedib,
Göy kişnər, bulud ağlar heyyyy.....

---

1 Cad – Darı unundan bişirilən çörək.

## “ONDA VƏ İNDİ”DƏN

Kərbəlada gül ağlar;
Gül ağlar, bülbül ağlar.
Sərdar tək oğlu gedən ana,
Tökər başa kül, ağlar.

## “SƏFƏRNAMƏLƏR”DƏN

Gəl gedək Daşbulağa,
Suyu meyxan bulağa,
Sən dərdli, mən yaralı
Tökək qan-yaş bulağa.

Apardılar gülümü,
Sındırdılar belimi,
Gəl çıx dağlar başına,
Deyim dərdi-dilimi.

Aşıq arxa dolandım,
İpək tək çarxa dolandım.
Qərib ölkə, yad ellər,
Qorxa-qorxa dolandım.

Araz aşanda mələr,
Kür qovuşnda mələr,
Analar balasından
Ayrı düşəndə mələr.

Arazıyam adanın,
Quluyam şahzadanın.
Çıxaydım qabağına
Sənə gələn qadanın.

Arazı ayırdılar,
Qum ilə qayırdılar.
Mən səndən ayrılmazdım,
Zülmnən ayırdılar.

Araza gəmi gəldi,
Sulara qəmi gəldi.
Dur bir qol-boyun olaq,
Ayrılıq dəmi gəldi.

Mən aşığam qəmdə gül,
Qəmdə danış, qəmdə gül.
Şad günümdə gülmüsən,
Mərd igidsən qəmdə gül.

(S.Murtuz)

Mən aşiqəm Ağdama,
Qonaq gəlin Ağdama.
Ağdama kəc baxanın
Gözlərinə qan dama.
S. Murtuz)

Əzizinəm ağ dama,
Qonaq gəlin Ağdama...
Ağdama kəc baxanın
Gözlərinə ağ dama.
(S. Murtuz)

Süsənbər suda səni,
Saxlasın xuda səni,
Əlacım ona qalıb
Görüm yuxuda səni.

Araza gəmi gəldi,
Suların nəmi gəldi,
Dur bir qolboyun olaq,
Ayrılıq dəmi gəldi.

Qəlbim qubar yedi, gəl!
Arzun, sözün nədi, gəl!
Körpən bu gün dil açıb:
"Ata-ata!" dedi, gəl!

Arazda buz ağladı,
Yanda yarpız ağladı,
Oğlan bu tayda qaldı,
O tayda qız ağladı.

Apardılar gülümü,
Elədilər zülümü.
Gəl çıx dağlar başına,
Deyim dərdi-dilimi.

Arazı ayırdılar,
Qum ilə qayırdılar.
Mən səndən ayrılmazdım,
Zülm ilən ayırdılar.

Yaxdı ayrılıq bizi,
Çağladı qəm dənizi,
Sevdik Bakı – Təbrizi
Ağladıq da, güldük də.

## "GÜNDƏLİKLƏR"DƏN

Əzizim gül məkanda,
Gül bitər gül məkanda.
Səni görüb gülürəm,
Mən handa gülmək handa?

Araz aşanda mələr,
Kür qovuşanda mələr.
Analar balasından
Ayrı düşəndə mələr.

Arazı ayırdılar,
Qum ilə qayırdılar.
Mən səndən ayrılmazdım
Zülmünən ayırdılar.

...Yad ağlar yalan ağlar
Anam ağlar gərçəkdən.

Arazam keç üstümdən,
Çək karvan köç üstümdən
Əlimlə dərd əkmişəm
Oraq al, biç üstümdən.

Arazam keç üstümdın
Çək karvan köç üstümdən
Əlimnən dərd əkmişəm,
Dəryaz al biç üstündən.

Bostanda tağım ağlar,
Dəymə yarpağım ağlar
Nə qədər sağam özüm ağlaram
Ölsəm torpağım ağlar; hey...

Şalım qara boyandı,
Ucu yerə dayandı,
Bizim ah-naləmizdən
Göydə fələk oyandı.

Arazıyam adanın,
Quluyam şahzadanın
Çıxeydım qabağına
Sizə gələn qadanın.

Kül başuva a xondu,
Gör başuva nə qondu?! ...

Kərbəlada gül ağlar.
Gül ağlar, bülbül ağlar
Belə igidlər itirən xalq
Tökər başa kül ağlar.

Su gələr axar gedər,
Evləri yıxar gedər,
Dünya bir pəncərədir
Hər gələn baxar gedər.

Ağ dəvə gallah gedər,
Gah dayanar, gah gedər,
Qorxma, ay qaraca qız,
Üstündə Allah gedər.

Haray, ellilər, haray,
Şana tellilər, haray,
Bəndəmi sel apardı
Əli bellilər, haray.

Araza gəmi gəldi,
Suların nəmi gəldi.
Dur bir qolboyun olaq,
Ayrılıq dəmi gəldi.

Qoy məni el götürsün,
El yusun, el götürsün,
Qardaş qəbrimi qazsın,
Çiyninə bel götürsün.

Aşıq ozanım mənim,
Qaynar qazanım mənim.
Əzəldən belə yazıb,
Yazı yazanım mənim.

Mən aşiq Kəsəmənnən,
Yol gedir Kəsəmənnən,
Ölən Toyludan olsun,
Ağlayan Kəsəmənnən.

Eləmi Kəsəmənən ,
Yol gedir Kəsəmənən.
Deyirlər rəqib ölüb,
Gəl gedək yasa mənnən.

Burda bir xanım ağlar,
Qoşa qardaşım gedib,
Damarda qanım ağlar
Cismimdə canım ağlar.

## "AZƏRBAYCANIN AŞIQ VƏ ŞAİR QADINLARI" (1991) KİTABINDAN

Laylay, beşiyim, laylay!
Evim-eşyim, laylay,
Sən yat, şirin yuxu tap.
Çəkim keşiyin lay-lay.

Laylay dedim həmişə
Karvan kedər yemişə
Yastığında kül bitsin,
Döşəyində bənövşə.

Araz daşanda mələr,
Kür qovuşanda mələr
Analar balasından
Ayrı düşəndə mələr.

Analar anar ağlar,
Gününü sanar, ağlar,
Dönər göy göyərçinə,
Yollara qonar ağlar.

## GÜLGƏZ

Əsas etibarilə bayatıçı kimi tanıdığımız Gülgəz adlı sənətkarımız haqqında mənbələrdə heç bir tərcümeyi-hal məlumatına təsadüf etmədik.

Hansı əsrdə yaşadığı belə məlum deyildir.

Bayatılarına on səkkizinci əsrdə üzü köçürülmüş cünglərdə təsadüf edilir. Əldə edilən bütün bayatılarında adını təxəllus kimi işlətmişdir. İşlətmədikləri isə ümumi bayatı fondumuza imzasız nümunələr kimi olmuşdur.

Aşağıda, adını söylədiyi bir neçə bayatısını nümunə veririk. Elə bunlar da Gülgəzin maraqlı bir sənətkar olduğunu sübut edir.

Seyvanın qur ucada,
Kor möhtac quru cada.
Gülgəzin göz yaşından
Qalmadı quru ca da.

Bağında ha səndəli,
Mən dəli, ha sən dəli.
Gülgəz, yarana dəysin
Təbibin hasand əli.

Gülgəzin gül adaşı,
Mey daşı, gül a daşı.
Yıxar bülbül öyünü,
Kim atsa gülə daşı.

Gülgəzinə qıy davar,
Mehman üçün qıy davar,
İtirməmiş ağlını
Bir kamanın qıy da, var!

## PƏRNAZ

Pərnaz Azay qızı təxminən 1860/62-ci illərdə Şamaxı rayonunun Bağırlı kəndində köçəri ailəsində anadan olmuşdur. Onun atası Azay da Dovğaçı oğlu təxəllüsü ilə şeirlər yazmışdır. Pərnaz xalqımıza xas olan xalçaçılıq sənətini də gözəl bilmiş, toxuduğu xalça və xalça məmulatının üstünə incə naxışlar vurması ilə də tanınmışdır.

El arasında öz gözəl təbi, bayatıları və sənətkarlığı ilə tanınmış olan bu qadın, həm də ağbirçək el anası kimi sevilmiş, hörmət görmüşdür.

1902-ci ildə o Şamaxı zəlzələsi baş verərkən, qohumu, məşhur inqilabçı Əlheydər Qarayevin atası Ağakazim Qarayevkildə qonaq imiş. Bu zaman zəlzələnin törətdiyi dəhşətləri öz gözlərilə görmüş və bu münasibətlə bir sıra ağı-bayatılar qoşmuşdur.

Nəslindən olan ziyalıların deməyinə görə Pərnaz sivadsız olmuş, şeir və bayatılarını sinədən — bədahətən söyləmişdir.

Pərnaz uzun omür sürmüş, təxminən 106 yaşında ikən 1968-ci ildə doğma kəndində vəfat etmişdir.

Qəbri Bağırlı məzarlığında atası şair Dovğaçı oğlu Azayın qəbrinin yanındadır.

Pirdərəki dağımdı,
Qoynu qəm oylağımdı.
Yaş tökür leysan kimi,
Deyir yaman çağımdı.

Bu gələn arabadı,
Qoy gəlsin arabadı.
Dünənkn cənnət şəhər
Bax, bu gün xarabadı.

Dağda biyan varmola
Soyub yeyən varmola,
Bu əcəlsiz qırğına
Hayıf deyən varmola?

Sürü biyana gəlsin,
Yesin, biyana gəlsin,
Deyin o vəfasıza
Dönsün bu yana gəlsin.

Yulğunlu, ay yulğunlu,
Yığıb getdim yulğunu.
Varmı bir mənim kimi
Çoxlu dərdlər yorğunu?

Çəkməsi cığ-cığ eylər,
Evimizi palçığ eylər.
Zəhləm gedər o yardan
Hər gecə acığ eylər.

Eyvanım həsir mənim,
Ürəyim əsir mənim.
Toyumu tez eyləyin,
Yarım tələsir mənim.

Palazda narıncı var,
Abı var, narıncı var.
Hardasan, ay nainsaf,
Dalınca zarıncı var.

Quzunu alan olmaz,
Ağıla salan olmaz,
Deyillər yarım gəlir,
Bu boyda yalan olmaz.

Şəhərə yol eylədim,
Kağızı bol eylədim,
Yuxusuz gecələrdə
Göz yaşım bol eylədim.

Şəhər yolu köndələn
Qolum gəlmir döndərəm,
Yazı-pozu bilmirəm
Məktub yazıb göndərəm.

Karvan keçər toz eylər,
Paxıl gözü boz eylər,
Qonşunu qara geysin,
Yar gələndə söz eylər.

Mən aşıq taxta yeri,
Dolan gəl taxta yeri.
Gəl ikimiz bir yataq
Qovurur şaxta yeri.

Şirvanın dağlarıynan
Meyvəli bağlarıynan,
Sənin qurbanın olum
Yanımın ağlarıynan.

Su götürdüm hovuzdan,
Xoşum gəlir tovuzdan,
Yar mənə pencək alıb
Astarı qanovuzdan.

Bağırrıdı obamız,
Dovğaçıdı babamız,
Yara qurban oleydi
Bizim cəddi-obamız.

Şəhərin dam öyləri,
Əsil tərxan öyləri,
Zəlzələ viran qoydu
Dağıldı şam öyləri.

Simavər pıqqıldayır,
Qəndqıran şıqqıldayır.
Zəhləm gedir o yardan
İş bilməz, nıqqıldayır.

Bağırrı kəm üstədi,
Qışlağı çəm üstədi,
Pərnaz nə hava çalsa,
Hamısı qəm üstədi.

Küdrünün örüş yeri,
Ot yeri, örüş yeri.
Qışlağın zağaları
Qızların görüş yeri.

Küdrünün alaları,
Boş qalıb çalaları,
Susuz qalıb ceyranı
Mələşir balaları.

## ZEYNƏB ZƏRBƏLİ QIZI

Zeynəb Zərbəli qızı təxminən 1860-62-ci illərdə Şirvan mahalının Kolanı elatının Goran tayfasında, köç binəldrinin birində anadan olmuş, babası şair Çürük İslamın yanında böyümüş, şeirə həvəslənmiş, şeir qaydalarını da ondan öyrənmişdir.

Atasının İsmayıl adlı çobanını sevmişsə də ona verilməmiş və bu münasibətlə "İsmayıl" rədifli gəraylısını qoşmuşdur.

Babasının vəfatı, 1919-cu ildə baş vermiş vəba, inqilabdan əvvəlki kəndlərdə haqsızlıq və zülmün ifşası, sonralar isə Böyük Vətən müharibəsi ilə əlaqədar bir sıra şeir və bayatılar söyləmişdir.

Zeynəbin üç oğlu və bir qızı olmuşdur.

1942-ci ildə təxminən 80-85 yaşlarında vəfat etmiş, Küdrü Düzündəki Dağ-Kolanı qəbiristanında dəfn olunmuşdur.

Küdrünün katan qarı,
Novruzun ötən qarı.
Allah tezbazar etsin
Axşamdan yatan qarı.

Bağda bitən gavalı,
Asta çalın qavalı,
Hitler dava elədi,
Bizə dəydi zavalı.

Mis qazanın paxırı,
Oğlan, qaytar naxırı,
Darıxma, çoban bala,
Qız sənindi axırı.

Mələ, qoyunum, mələ,
Səsin daşları dələ,
Mən mələdim gəlmədi,
Sən mələ, bəlkə gələ.

Bu dərənin uzunu,
Oğlan, qaytar quzunu,
Get dədəmə çoban ol,
Bəlkə verə qızını.

Saçları güllü sənəm,
Gül vurub güllü Sənəm,
Sən igidlər nəslisən,
Dəyməz heç güllə sənə.

Arxac üstü boyana,
Getmə məndən o yana.
Çəkərəm pünhan-pünhan,
Vermərəm dərd bəyana.

Xoruz ban qabağında,
Sübhün dan qabağında.
Yarım bir bizə gələ,
Verəm can qabağında.

Kasıb yatağan olu,
Dərdə batağan olu.
Zalımın qovğasından
Mərdə çatağan olu.

Goran elli olmuşuq,
Aran-çöllü olmuşuq.
Zalım, zülüm əlindən
Qarət elli olmuşuq.

Eşit, bezar olmuşam,
Ellər gəzər olmuşam.
Hitlerin qovğasından
Dərdə dözər olmuşam.

Dağları qar alıbdı,
Yağıbdı, qaralıbdı,
Qalın bir meşəlikdə
Tək budaq saralıbdı.

Görükən qarağandı,
Çərəndi, qarağandı,
Əzrayıl ovdan gəlir,
Əlləri qara qandı.

## PÜSTƏ ŞİKAR QIZI

Püstə Şikar qızı təxminən 1880-ci ildə Şirvanın Təklə elatının Muradlı tayfasında anadan olmuşdur. Köçəri həyat keçirmişdir. 13 yaşında ikən ərə verilmişdir. Ağır həyat keçirmiş, dörd övladından üçü ölmüş, biri də ömrünün axır illərində müharibədən şikəst qayıtmışdır.

1947-ci ildə Göycay rayonunun Müskürlü kəndində vəfat etmiş və İslambaba qəbiristanında dəfn edilmişdir.

Əzizinəm öz ərkim
Öz ahım var, öz ərkim,
Balam ölür iz qalmır,
Mən dözürəm, dözər kim?

Aşıq düşdü xam canım,
Dünyadan nakam canım.
Fələk sənə güc gəldi,
Oldun ona ram, canım.

Ürəyim qandı, tarı.
Dərdimi qandı tarı,
Xalqı soyub talayan
Bəyinən xandı, tarı.

Ömrümdən acı illər,
Tora düşdü könüllər.
On üç yaşında gəldim
Ər evinə, ay ellər.

Arxalığı naxışla,
Naxış vurub naxışla.
Gündüz yar sənin olsun,
Gecə mənə bağışla.

Arxalığın narıncı,
Demədim ki, yar inci.
Özün yada yar oldun,
Məni qoydun zarıncı.

Ata elim Təklədi,
O da məni təklədi:
Baxtım ayaq açmadı,
Uşaq tək iməklədi.

## BAŞXANIM ŞƏFİ QIZI

Deyilənə görə 1878-ci ildə Göycə mahalının Daşkənd kəndində anadan olmuşdur. Aşıq Savadın böyük bacısıdır. Qardaşı, dövrün mütərəqqi ziyalısı Molla Hacı Rəhimdən mükəmməl təhsil alıb. Qadınlara savad, "qara" öyrətməyə çalışıb. 2 oğlunun cəbhədə həlak olduğunu eşidəndən, — sinəsinə bala dağı çəkiləndən sonra, 1949-cu ildə doğma Daşkənd kəndində vəfat etmiş, orada da dəfn olunmuşdur.

Dərd çəkən canım oldu,
Çürüyən yanım oldu.
Taleyim ayaq xanım,
Adım Başxanım oldu.

Ömrümün zamanında,
Ox gördüm kamanında.
Qazdırın məzarımı,
Qardaş qəbri yanında.

Allah, eylə sən kərəm,
Ağlayıram yüz kərəm.
Oğul-oğul deməkdən,
Gözdən oldu Məhərrəm.[1]

Şura gəl, ay şura gəl,
Bəyi qıra-qıra gəl.
Zalımlar azğınlaşıb,
Əvvəl, əvvəl bura gəl.

Dərələr çiçəkləndi,
Mal-qara yedəkləndi,
Allah sənə mən qurban,
Zalımlar kötəkləndi.

Göylər bulutdu haray,
Eli qəm tutdu haray.
Yuxulu körpələri
Güllə oyatdı, haray!

El-oba cəfadadı,
Top, tüfəng havadadı.
Analar, alğış deyin,
Oğullar davadadı.

Dağ batıb gül ətrinə,
Tellər düşüb çətrinə.
Qızlar, hünər göstərin,
El-vətənin xətrinə!

Dağ günəşim, dağ ayım,
Pozulubdu halayım.
Sənin şəfəqlərinlə
Bəlkə gedə ax-vayım.

## GÜLGƏZ MAQSUD QIZI
(Qarabağlı qızı)

1876-cı ildə Qarabağ mahalının Bəciravan kəndində köçəri təklə ailəsində doğulmuş və heç bir təhsil görməmişdir.

16 yaşında ikən zorla yeddi yetim üstünə, Göyçədə tanınmış Kalvayı Camal ağaya verilmişdir. Ərindən və yetimlərdən xeyli sitəm çəkmiş, adı ilə və ya "ana" deyil, "qarabağlı qızı" çağırılmışdır.

Ərinin sitəmlərindən cana gəlib dəfələrlə canına qəsd edirsə də, sağ qalır. Özünün də bir neçə övladı olur. Kalvayı Camalın ölümündən sonra vətəninə qayıdır, xəstələnir, vəfat edir. (İli müəyyən deyil).

Gülgəz çox gözüaçıq, hazırcavab, rəvan təbə malik bayatıçı qadınlarımızdan olub.

Əziziyəm gül gəzə,
Bülbül gərək gül gəzə,
Həsrətinlə yanıram,
Xəbər göndər Gülgəzə.

Necə xara əyilim,
Çəkmir ata meyilim,
Yaxam yetim əlində,
Kalvayı Azreyilim.

Mətləbi sözümdən al,
Pərdəni üzümdən al.
Yarım, gəl gir qapıdan,
Bəxşişi özümdən al.

Ağamdan nar düşdü gəl,
Dağlara qar düşdü gəl.
Canım zalım əlində,
Yadıma yar düşdü, gəl!

Əzizim yar aşıqdan,
Xəbər al yar aşıqdan.
İl tamam olmayıbdı,
Düşmüşəm yaraşıqdan.

Canım dərd qucağında,
Öləm mərd qucağında.
Zaman qismət eyləyib,
Quzu qurd qucağında.

Elim gəlib dağdadı,
Piltə yanır yağdadı.
Ömür keçir, gün keçir,
Könlüm elə "ax"dadı.

Təhlədi elim haray,
Cənnətdi çölüm haray,
Qürbətdə yurd salmışam,
Vətəndə ölüm, haray!

Yarı gözüm görəydi,
Odum, gözüm görəydi.
Görmədiyim xoş günü,
Oğlum, qızım görəydi.

## AĞCAQIZ

Ağcaqız Kərbəlayı Dadaş qızı İmanova XIX əsrin təxminən səksəninci illərinin əvvəllərində indiki Neftçala rayonunun Hacimanlı kəndində dünyaya gəl miş, 1974-cü ildə yüz ilə yaxın ömür sürən el sənətkarı, həmin kənddə də vəfat etmişdir.

Əsli Şirvan ellərindən olub, XIX əsrin ortalarında Şamaxıda baş verən böyük zəlzələlər nəticəsində kəndləri Neftçalaya köçmüşdür.

Ağcaqız el içində bayatıları, qoşma və gəraylıları ilə tanınıb. Qoşduqları indi də ağızlarda dolaşır. Qocalıqdan şikayət, xüsusilə "Alaçıq" rədifli qoşması diqqətə layiqdir.

Bu dörd bəndlik qoşma ömrü alaçıqlardan keçən köçəri ana— qadının ağır həyatını elə dəqiq, dürüst yanıqlı təsvir edir ki, bunu yalnız həmin həyatı yaşamış, dərindən duymuş söz sənətkarı bacara bilər. On dörd yaşından evlilik həyatı yaşamağa başlayan Ağcaqız, həm də gözəl əl qabiliyyətinə malik imiş, xalçalar, əlvan corablar, bəzək əşyası toxuyarmış.

Ağcaqız, yaya döndüm,
Qış getdi, yaya döndüm,
Ürəkdə var həsrətim,
Əyildim, yaya döndüm.

Ağcaqız, mələr qoyun,
Yatağa gələr qoyun.
Canım bir dərdə düşüb
Adımı "Mələr" qoyun.

Ağcaqızam bir bəndi,
Qızlar bağlar bir bəndi.
Bir bağa bağban oldum,
Yüz arxa var, bir bəndi.

## GÜLƏNDAM

Deyilənə görə Aşıq Ələsgərin "Güləndam" rədifli parçası məhz bu bayatıçı Güləndam xanıma qoşulmuşdur. Həyatı rəvayətlərlə doludur. Bir müddət qaçaq Dəli Alının dəstəsində olmuş, Dəli Alının bacısı oğlu Zeynalabdının ömür-gün yoldaşı imiş. Aşıq Bəsti ilə görüşlərindən də danışılır. Haqqında isə yazanlar məktubun yazıldığı ildə 131/145 yaşı olduğu göstərilir.

Eləmi mərdə məni,
Salmısan dərdə məni.
Namərdə qul olmaram,
Qurban kəs mərdə məni.

Bağça barsızdı-gülür,
Heyva-narsızdı, gülür.
Ürəyim qan ağlayır,
Üzüm arsızdı, gülür.

Eləmi oyan yeri,
Yatmısan—oyan, yeri!
Yüz gün sel oya bilməz
Bir gün qəm oyan yeri.

Bu gecə bəyən gecə,
Dost boyun əyən gecə.
Bədəndə can titrəyər,
Əl-ələ dəyən gecə.

Qarşında tək də var,
Yoldan enən tək də var.
Bəxtəvər cüt başına,
Heç demirsən tək də var.

## GÜLÜMSOLTAN

Hacıyeva Gülümsoltan Həmidalı qızı 1897-ci ildə Şamaxı qəzasının Ərəbşalbaş kəndində anadan olmuşdur.

Az bir müddət kənd molla məktəbində oxumuşdur. Ailə köçəri həyat keçirdiyindən məktəbi bitirə bilməmişdir. Kiçik yaşlarında Hacıbala adlı bir nəfərə ərə verilmişdir. Sonralar molla yanında öyrəndiklərini də unutmuş, qələm alıb yazmamış, bayatılarını yeri düşdükcə bədahətən söyləmişdir.

Ərinin vəfatından sonra Nurbala və Nənəxanım adlı iki uşağını tək və çətinliklə dolandırmış, böyütmüşdü. Gülümsoltan nənə dilavər, hazırcavab, haqsızlığa qarşı mübariz qadın olmuşdur.

A həndi, həndi cəhrə,
Ayağımın bəndi cəhrə.
Vurub səni sındırram,
Gəzərəm kəndi cəhrə.

parçası Gülümsoltan nənənin cəhrə dustağı olduğu günlərin yadigarıdır.

Dağıstanın dağı var,
Yola çıxma, yağı var.
İnsafsız, dəymə mənə
Məndə əskər dağı var.

Aşıq yüz il başacan,
Yaşa yüz il başacan.
Bu dostluq, bu təntənə,
Getsin yüz il başacan.

## NAYIB ŞİRVANİ

1902-ci ilin payızında Həştərxan şəhərindəki müsəlman qızlarına məxsus dördsinifli məktəbdə təzə bir müəllim göründü. Son dərəcə gözəl sifətlə. Uzun, qara hörüklərə malik olan ucaboylu, zərif vücudlu bu gənc – 18 yaşlı azərbaycanlı qızı Nayıb Səmədzadə idi.

O, 1884-cü ildə Şamaxı şəhərində Molla Niyazın ailəsində anadan olmuşdu. Nayıb 2 yaşında ikən atası vəfat etmiş və anası başqasına ərə getdiyindən qız Tiflisdə yaşayan dayısı Səməd bəyin himayəsində olmuşdur. Məhkəmədə dilmanclıqla məşğul olan Səməd bəy Nayıba əsl atalıq qayğısı göstərmiş, onu böyütmüşdür. Əvvəlcə özü, sonra isə dəvət etdiyi müəllimlər ona təhsil vermişdir. Artıq 16 yaşında ikən Nayıb fars və rus dillərini mükəmməl bilmiş, ədəbiyyat, tarix, dilçilik, poetika, incəsənət və s. elmlərə aid mübahisələrdə dərin biliyini nümayiş etdirmiş, gözəl şəkillər çəkmiş, mahnılar bəstələmiş, bir neçə alətdə çalmış, məlahətli səslə oxumuş, əsl Şərq rəqqasələrinin qibtə edəcəyi bir tərzdə rəqs etmişdir.

Tiflisdə ikən Nayıb üçün elçi gələnlərə Səlim bəy yalnız bir cür cavab vermişdi:

— Nayıb doğma şəhərimiz Şamaxıda məktəb açıb dərs deyəcək.

Bu niyyətlə Səməd bəy Nayıbı müəllimlik hüququ almaq üçün komissiya qarşısına gətirir. Komissiya üzvləri tərəddüd etmədən, böyük bir fərəh hissi ilə ona bu hüququ verirlər. (Gürcüstan SSR Dövlət arxivi, f. 54, iş 120, siyahı 12). Bundan cəmi bir ay sonra, 1902-ci ilin yanvar ayının əvvəllərində Səməd bəy Nayıbla bərabər Şamaxıya köçmüşdür.

Lakin bunların gəlişinin beşinci günü dəhşətli zəlzələ şəhəri viran qoymuşdur. Səməd bəy zəlzələdə həlak olduğu üçün uzaq qohumu Məşədi Ağaveysin ailəsinə qoşulub əvvəlcə Vladiqafqaza, oradan isə Həştərxana gəlmişdir. O zaman qız məktəbində dərs demək üçün müəllimlərə ehtiyac çox idi. Buna görə də Nayıb şəhərdəki müsəlman qızlarına məxsus məktəbə rus müəllimi təyin olmuşdu. Bu məktəbdə tatar, başqırd, qazax qızları ilə yanaşı bir neçə azərbaycanlı, özbək, hətta bir osetin qızı da oxuyurdu. Belə milli tərkibi olan siniflərdə rus dilini tədris etmək son dərəcə çətin idi. Buna baxmayaraq, Nayıb qızlara rus dilini sonsuz həvəslə öyrədirdi. Elə birinci dərs ilinin sonunda məktəbi yoxlayan məktəb müfəttişi İ.S.Samoylov yazmışdı. "Məktəbin müəllimləri içərisində Nayıb Səmədzadə xüsusilə fərqlənir. Bu qız elə bir biliyə malikdir ki, hətta universitetdə dərs deməyə layiqdir. Cəmi doqquz aylıq bir dövr ərzində o, müsəlman qızlarına rus dilində danışmaq öyrətmişdir. Nayıb Səmədzadə ilə şəxsi söhbətim zamanı məlum oldu ki, bu qız fəlsəfə, məntiq, tarix və dilçilik elmlərlə yaxından tanışdır."

Nayıb Azərbaycan və fars dillərində qəzəllər, ana dilində qoşma və bayatılar yazmış, bunlara müsiqi bəstələyərək qadın toylarında və qonaqlıqlarda oxumuşdur.

Tiflisdə olduğu kimi, burada da elçilər qapını kəsmiş və nəhayət 1904-cü ilin fevralında Məşədi Ağaveys Nayıbın etirazına baxmayaraq onu varlı tacir Hacı Muxtara ərə vermişdir.

Nayıbın faciəli günləri başlanmışdır. O qızıl gülün içində yaşasa da, ah-nalə çəkmiş, uzun müddət göz yaşları tökmüşdür. Əri Hacı Muxtar 60-65 yaşlı qoca, çirkin bir kişi, günüsü Zibeydə isə dalaşqan, sözbaz və acıdil bir arvad

olmuşdur.

Nayıbın daha nəinki məktəbə getməyə, hətta çalmaq, oxumaq və rəqs etmək ixtiyarı yox idi. İndi o, yalnız yaza bilərdi. Odur ki, Nayıb Şirvani təxəllüsü ilə qəzəllər, qoşmalar, bayatılar yazmağa başlamışdır. Onun bayatılarında Vətən həsrəti, nakam məhəbbət və günülük bəlası əsas mövzu kimi işlənir.

Ağ köynəyi baxıya,
Üstünə gün şaxıya.
Əzrayıl özü gəlsə
Gedərəm Şamaxıya.

Mən aşıq, duz verəni,
Duz alıb, duz verəni.
Dünyada diri yansın
Könülsüz qız verəni.

Nayıbın məhəbbət mövzusunda olan qoşmaları lirik, aşiqanə şeirlərdir. Biz Nayıb Şirvaninin adı ilə bağlı olan 8 bayatı, 2 qoşma, 1 qəzəli onu şəxsən tanıyan ər və arvad toylarında çalıb-oxuyan Bədirnisənin dilindən yazmışıq. Nayıbın həyatı haqqındakı məlumatların da çoxunu bu qadın bizə vermişdir. Həmin faktları başqa qocalar da təsdiq edirlər.

Nayıbın ər evindəki həyatı çox faciəli şəkildə, özü də tezliklə başa çatmışdır. 1905-ci ilin sonlarında Hacı Muxtar qəflətən ölmüş və onun əmisi oğlu Saday Nayıbı zorla çəkib evinə aparmışdır. Lakin artıq belə dözülməz həyatdan cana doymuş Nayıb elə həmin gün zəhər içib özünü öldürmüşdür.

Nayıb Səmədzadə (Şirvani) demək olar ki, Azərbaycanda yaşamamışdır. Lakin o həmişə vətəni Azərbaycanı sevmişdir. Bu istedadlı Azərbaycan qızının əsərlərini toplamaq və geniş oxucu kütləsinə çatdırmaq vacibdir.

## AŞIQ SƏNƏM

Balakən rayonunda Gülüzən kəndində dünyaya gəl miş, orada da vəfat etmişdir. Aşıq Sənəm uzun ömür sürmüş. 1928-ci ildə I Aşıqlar qurultayında öz tamburu ilə iştirak etmişdir. Sənəm bu yerlərdə Muğal adlanan Azəri tayfalarından biri arasında yayılmış "hayla gecələri"nin iştirakçısı olmuşdur. El şənliklərinin sevimli aşığı külli miqdarda hayla-bayatı qoşmuşdur. Bunları gözəl, məlahətli səsi ilə, çaldığı tanburun müşayiətilə oxumuşdur.

Qədim musiqi alətlərimizdən olan tanburda, "çay daşı, çaylaq daşı" və s. kimi el havalarını məharətlə ifa edən Aşıq Sənəm yaradıcı sənətkar olmuşdur.

Car yoluna gələsən,
Əsgər paltarı geyəsən.
Kağız yazıb yollaram,
Qum kəndinə gələsən.

Bu dərə uzun dərə,
Yazılubdur dəftərə.
Burda işim düzəlmir,
Mən gedirəm sərdərə.

Ay doğubdu bizlərə,
Qulaq verün sözlərə.
Bu canım qurban olsun,
Yalqız qalan qızlara.

Aşıqlara, sazlara,
Tamburda qotazlara.
Bu canım qurban olsun
Gəlinlərə, qızlara.

Quşların cürə-cürə,
Uçar gedər hündürə,
Qız, mənimlə dostluq et,
Düşmənlər hürə-hürə.

Namaz qıldım sünnətə,
Adam saldım minnətə.
Atanı ilan vursun,
Anan getsin cənnətə.

Oğlan, otur daş üstə,
Yumru papaq baş üstə.
Oğlan deyər: "bir öpüş",
Qızlar deyər: "baş üstə!"

Bir cüt quş var gül üstə,
Bir cüt göz var yol üstə.
Allah, məni öldürmə,
Toyum vardır il üstə.

Bu gecə ziyan gecə,
Yar boyun əyən gecə.
Cəsəddə canmı qalar,
Əl-ələ dəyən gecə?

Lampa üstündə şüşə,
Gül üstündə bənövşə.
İlahi, yada salaq,
Bəlkə sevən yar düşə.

Ay qız, adın Səlminaz!
Kağız verim, otur yaz!
İkimizin toyu var,
Üstə gələn qara yaz.

Əl yaylığı açılmaz,
Saçaqları saçılmaz,
Bu mənim sönmüş göylüm
Yar görməsə açılmaz.

Bu daşdan aşmaq olmaz,
Kağızdan başmaq olmaz.
Küsülü yar ötürdüm,
Daha barışmaq olmaz.

Suya gedən sarı qız,
Sarı köynək, sarı qız.
Gözləri şah alması,
Özü dünya malı qız.

Yarım gəzmə al gündə,
Çıxıb otur balkunda.
Ömrünə duaçıyam
Əl götürüb hər gündə.

Yarım, üzündə zərdə,
Düşmüşəm mən bu dərdə.
Vallah dözə bilmirəm
Yarım olmayan yerdə.

Dağlarda, meşələrdə,
Şam yanar şüşələrdə.
Sən-girdin yar qoynuna,
Mən qaldım guşələrdə.

Dəryalar üzə-üzə,
Üzübən çıxdım düzə.
Bir Allah kömək olsun
Bu bizim ikimizə.

Mən gedirəm o üzə,
Qayıdaq çıxaq düzə.
Ay quşlar, siz şad olun
Meşələr qalır sizə.

Yarımın adı Mirzə,
Göndərmişəm Tiflisə.
Sovqatın istəmirəm,
Sağlığı gəlsin bizə.

Tutdum bağı şərikə,
Dişlədim, oldu ləkə.
Necə yaman olurmuş,
Yar olmayan mərəkə.

Yağış yağır üstümə,
Xəbər apar dostuma.
Əgər məni sevirsə,
Sayə salsın üstümə.

Əlinə can əlinə,
Tamburun beş telinə.
Aç qolların sarmaşım,
Sənin incə belinə.

Düşdüm dərya dibinə,
Əl uzatdım gülünə.
Gülüm şeytan olubdu,
Bir çatmadım sirrinə.

Gəlinə bax, gəlinə,
Sarmaşaydım belinə.
O qızın incə beli,
Haçaq düşər əlimə?

Tambur çalır siminə,
Düşmüşəm həvəsinə.
Bir neçə hayla deyim,
Yarımın həvəsinə.

O palutun tirinə,
Bir çatmadım sirrinə.
Qalanla işim yoxdu,
Qurban olum birinə.

Su gəlir qalxa-qalxa,
O qızın alı Zalxa.
Bu gün bir yar sevmişəm,
Qardaşdan qorxa-qorxa.

Ay Sənəm, qalx ayağa!
Su doldur, qalx ayağa!
İllər xəstəsi canım,
Yar gəldi, qalx ayağa!

Ağac başında qabaq,
Yarpağı tabaq-tabaq.
Sizin kimi şeylərin,
Ağzına bir şapalaq.

Ağacdan kəsdim budaq,
Yerə düşüncə tutaq.
Bundan bizə yar olmaz,
Gəl təzədən yar tutaq.

Dəf çalan nazik barmaq,
Başında qızıl qarmaq,
Qız, sana layiqdimi,
Məni bu dərdə salmaq?

Tambur çalan tək barmaq,
Kəmərin qızıl qarmaq.
Oğlan, sana eyibdi,
Məni sevib, onu almaq.

Bu gecə toy olacaq,
Qız-gəlin oynayacaq.
İlan vurmuş anası,
Qızını qoymayacaq.

Dəryada qızıl balıq,
Üstü göy, altı qanıq.
Çox istədim gəlmədin,
Canıma qoydun yanıq.

Ay gedib batan yerdə,
Can-cana qatan yerdə.
Ağ üzündən öpəydim,
Sarmaşıb yatan yerdə.

Ay doğdu batan yerdə,
Can-cana qatan yerdə.
Dosta yadigar verdim,
Yaxından ötən yerdə.

Dəryanın o üzündə,
Ağ oynatdım düzündə.
İki muraz istədim,
Biri qaldı gözümdə.

Seyrəcin o üzündə,
Ceyran otlar düzündə.
Qoşa xallar görmüşəm,
Yarımın ağ üzündə.

Xəncərin bağı qasma,
Tasmadan qoyun asma!
Düşmən dili çox olar,
Hər dilə qulaq asma!

Yağış yağar Şirvana,
Gün doğar hər bir yana.
O deyilmi yar gəlir
Şam kimi yana-yana?

Dağların bulağına,
Köynəyin zolağına,
Məmələrin ağzıma
Üzün də ki, bir yana.

Səhər getdim dükənə,
Sataşdım gül əkənə,
Mənim qorxum ondadı
Yarsız ömrüm tükənə.

Məsinə, can məsinə,
Ağ qolun düyməsinə.
Bu canım qurban olsun
Balamın kirvəsinə.

Qaradağın başına,
Qurban olum qaşına.
Qırmızı döşlük olub,
Sarılaydım döşünə.

Çıxdım bulaq başına,
Baxdım evin tuşuna.
Bir nişanlı qız gördüm
Oxşar cənnət quşuna.

Atılar ton qoşuna,
Vurular mərd başına.
Nə insafsız zabitdi,
Baxmayır göz yaşına?

Yarımın zülfü qara,
Ağ üzdə zülfü qara.
Hər kim mana eləsə,
Tapşırram zülfüqara.

Çıxdım hündür çinara,
Xəbər yolladım Cara.
Məndən çox salam olsun,
Sevdiyim əziz yara.

Biz hara, bura hara?
Bizi saldılar tora.
Bizi tora salanı,
İmansız getsin gora.

Seyrana gedən olsa,
Qızıl gül görən olsa.
Yazıb kağız göndərrəm,
Dostuma, gedən olsa.

Tamburun üzü taxta,
İkimiz bir otaqda.
Mən nə çarə eləyim
Allah verməyən baxta!

Haylaya girdim bağa,
Qızıl gülü dərmağa.
Qızıl gül də bəhanə,
Sevən yarı görmağa.

Tullanıb girdim bağa,
Başım dəydi yarpağa.
Qorxa-qorxa gedirdim
Gözüm sataşdı sağa[1].

---

[1] Sağa - " sənə"deməkdir.

Ağac başında qarğa,
Ağzım dolu qovurğa
Sizin kimin şeyləri,
Yolda mana buyurğa.

Əl vuraram qaşığa,
Söz deyərəm aşığa.
Mən səni alacağam,
Evimə yaraşığa.

O qıza bax, o qıza,
Çəpərdən baxır bizə.
O qızı mənə verməsəz
Axirət olmaz sizə.

Göydəki dan ulduza,
Maraldakı buynuza.
Heyif döyül o şahbaz,
"Həsən" deyən donquza?

Mən aşıq gül alanda,
Gül bitər Gülalanda.
Yarım yadıma düşər,
Əlimə gül alanda.

Oturmuşdum binədə,
Tambur çaldım sinədə.
Üç ildən bir görsəm də,
Unutmaram genə də.

Əzizim gül üzənə,
Gün düşdü gülüzənə.
Sənəmi görmək istəsən,
Gəlginən Gülüzənə.

Ay qaraşalvar oğlan,
Üzündə xal var, oğlan!
Anam sənə qız verməz,
Gəl ona yalvar oğlan.

Samavar duran yerdə,
Puçunu buran yerdə.
Ət gedir, sümük qalır
Qocalıq gələn yerdə.

Ay qız çıxma çəkilə,
İpək köynək sökülə.
Baxmaqnan gözmü doyar,
Səndə olan şəkilə?

Sənəm eli çağırır,
Siyah teli çağırır.
Sinəm üstə Əzrayıl,
Dilim yarı çağırır.

Keçirəm Kür üstündən,
Min atı sür üstümdən.
Mən ölürəm qədərsiz,
Ağlama dur üstümdən.

Tamburun yeddi bəndi,
Bazardan aldım qəndi.
Kor olaydı gtözlərim,
Gördü, ürəyim yandı.

Oxuyan Sənəmdimi?
Gözlərnndə nəmdimi?
Görənlərdən xəbər al,
Əvvəlki Sənəmdimi?

Ağ papaq geyən molla,
Dayan, söz deyən, molla!
Arzumanın olmasın,
Kəbinim kəsən molla!

Dağlar başı dolama,
Bəylər gedir salama.
Yar özü bostançıdı,
Məndən istər şamama.

Aşiqəm Güləndama,
Şeh qonub gül əndama.
Bir tafta köynək olam,
Yapışam gül əndama.

Gün çıxıbdı yoluma,
Kəmər bağla belimə.
Qız, sənin ağ məməni,
Alaydım sağ əlimə.

Bazardan aldım kağız,
Papiros qoy yara, qız!
Ox, sana qurban olum,
İncəbel, qarayanız!

Sən mənim ovum, ay qız,
Çaxmağım, qovum, ay qız.
Yoldaşıma gəlsənə,
Qurbanın olum, ay qız.

İstol üstə sinimiz,
Birdi, ay qız, dinimiz.
Sevən yar gedir əldən,
Nədi onda günümüz?

Getdim gördüm Qanığı,
Suları bulanığı.
Ölsəm də yaddan çıxmaz,
Əziz yarın yanığı.

Pəncərə ay işığı,
Oldum ellər aşığı.
Gedibdi, gələr tapar,
Məhləmin yaraşığı.

Qoyun-quzu qarışdı,
Cavan canım alışdı.
Sən Şəkidə, mən burda,
Bu necə ismarışdı?

Yar köynəyi bizdədi,
Düymələri düzdədi.
Getdim yarı görməyə,
Dedilər: Tiflisdədi.

Əlimdəki sazımdır,
Sazım mənə lazımdı.
Gülüm olmayan yerlər,
Mənə nəyə lazımdı?

Bu gecə nə gecədi?
Ay ülkərdən ucadı.
Şeyx olub bir biləydim,
Yarın halı necədi?

Arxalığın aldımı?
Qıraqları şaldımı?
Qonşudakı Maşonun
Dodaqları baldımı?

Yol ilən gələn varmı?
Oynayıb gülən varmı?
İtirmişəm yarımı,
Yerini bilən varmı?

Üzüm varmı üz kimi?
Göydəki ulduz kimi.
Ay qız, məmən çıxıbdı
Qazaraqlı qoz kimi.

Qara atın yalmanı,
Göyə atdım almanı,
Oynatmaqçın istərəm
Qoynundakı almanı.

Gəldi gülün zamanı,
Ay canımın cananı.
Bircə görmək istərəm
Uzaqdakı cavanı.

Yarım aldatdı məni,
Qürbətə atdı məni.
Ana, yazdığın kağız
Yaman ağlatdı məni.

Qarğı tək oydun məni,
Soğan tək soydun məni.
Nə kölgədə bəslədin,
Nə günə qoydun məni.

Alma tək soydun məni,
Yeməmiş doydun məni.
Nədi günahım mənim,
Yandırıb oydun məni?

Tökərəm qan-yaşını,
Qaraldır qız qaşını.
Bilmirəm ki, hardadı
Gözümüzün işığı.

Arxalığın astarı,
Köynəyin qılasları,
Ol Xuda ayırmasın,
Bizi təki dostları.

Gözlərin zil qədəri,
Qaşların mil qədəri.
Hər sabah üzün görsəm,
Açıllam gül qədəri.

Bu yolun iki qatı,
Səllim buraxdım atı.
Çox da baha demərəm,
Yüz manatdı qıymatı.

İstəkanın yarısı,
İçdim qaldı yarısı.
Bir gecə qonaq saxla,
İnsaf dinin yarısı.

Samavarın sarısı,
İçdim qaldı yarısı,
Yarıma göz vuranda
Gedir gözüm qarası.

Hayla haylanın başı,
Hayla bilməyən naşı,
Hayla bilmək yaxşıdır,
Qərib yerin yoldaşı.

Yoldaşım, hayla deyək,
Soyub gəmiyin yeyək.
Bizə hamısı birdi,
Sənə hansını deyək?

Qar yağır kürək-kürək,
Damları dirək-dirək,
Qonşuda bir qız gördüm,
Öpməyə ürək gərək.

Bu gün bayram elərik,
Bağda seyran edərik.
Yar bayrama gəlməsə,
Bayramı tərk elərik.

Gəl oturub çay içək,
Göy qılasdan don geyək.
İqrar üstə durmağa
Quran gəti and içək.

Barmağında bir üzük,
Sağ qolumda bilərzik.
Mən ona qurban olum,
Boynumdan beli nazik.

Tamburun teli nazik,
Qol üstə cüt bilərzik.
Yara nişan vermişəm
Qırmızı qaşlı üzük.

Samavar üstə çaynik,
Yarın olsun üradnik.
Dur şikayətə gedək,
Divan qursun naçalnik.

Şişədəki nabatam,
Döşündəki saatam.
Yar məni əldən qoymaz,
Mən ayrı bir Nabatam.

Taxt üstündə yatmışam,
Əlimdə şam tutmuşam,
Yadıma yar düşübdür
Dünyanı unutmuşam.

Ay mənim molla yarım,
Yaylığı yolla, yarım!
Mana gələ bilmirsən
Kağız yaz yolla yarım.

Bağda bağbanın ollam,
Saxla bağbanın ollam,
Əgər könlün istəsə,
Gəlib qurbanın ollam.

Xəncərimi bağlaram,
Düşmənləri dağlaram.
Yadıma yar düşəndə,
Tifil kimi ağlaram.

Ay mənim neçə yaram,
Sızıldar gecə yaram.
Sən bilmə, Allah bilir
Mən sənə necə yaram.

Ustulda oturmuşam,
Ağır söz götürmüşəm,
Quran gəti əl basım,
Yardan əl götürmüşəm.

Zərlnyəm zərd olmuşam,
Qüssədən dərd olmuşam.
Qürbətə gələn gündən
Biyabəngərd olmuşam.

Qara qazan asaydım,
Alta çırpı basaydım.
Sözündən dönən qızı
Saçlarından asaydım.

Talaha yol salaydım,
Xırmanı bol salaydım.
Mən istəyən gözəlin,
Qoynuna əl salaydım.

Qaşları qələm-qələm,
Pulum yox səni alam.
Səni gürcü aparsın,
Mən gəlib satın alam.

Dağın ətəyindəyəm,
Gülün butağındayam.
Ölsəm də fikri yoxdur,
Yarın otağındayam.

Alma versə yeyərəm,
İpək versə boyaram.
Üç gün çörək yeməyib,
Səni görsəm doyaram.

Palutun yeri mənəm,
Torpaqda çürümənəm.
Gəlsinlər ziyarətə,
Qızların piri mənəm.

Tamburun teli mənəm,
Şirvanın yeli mənəm.
Girəydim qız qoynuna,
Cənnətin gülü mənəm.

Xəncərin dəsti mənəm,
Qaldıran üstə mənəm.
Sevgim əlimdən getsə,
Dünyanı kütəmənəm.

Dağıstan tuncu mənəm,
Gün düşsə incimənəm.
Sən məndən incisən də,
Mən sənjən incimənəm.

Su üzündə üzmənəm,
Hər sitəmə dözmənəm.
Mən sənə bənd olmuşam,
Ölməmiş əl üzmənəm.

Evciyini bəzərəm,
Dörd dövrəsin gəzərəm,
Səni evdə görməsəm.
Qapına daş düzərəm.

Dağdan-dağa gəzərəm,
Quşlara dil yazaram.
Bir quş məni aldatdı,
Daha quşdan bezaram.

Hündür evlər gəzmərəm,
Xırda qablar düzmərəm.
Molla yada düşəndə,
Vallah gülər gəzmərəm.

Gedirəm yol üstəyəm,
Bülbüləm gül üstəyəm.
Əzrayıl, alma canım,
Nişanlı, toy üstəyəm.

Bu yolu yürüyürəm,
Qar kimi əriyirəm.
Yarım, sənin dərdindən,
Ölmürəm, çürüyürəm.

İraq yerdən gəlirəm,
Yar, dərdindən ölürəm.
Əgər mənim dostumsan,
Hazırlıq gör, gəlirəm.

Yol uzunu gedirəm,
Bilmirəm nə edirəm.
Ay qız, sənin dərdindən,
Baş götürüb gedirəm.

Getmə-getmə, gəlirəm,
Sən getsən mən qalıram.
Yarım sənin dərdindən,
Can üstəyəm, ölürəm.

Yazı yaza bilmirəm,
Qara poza bilmirəm.
Vətən orda, mən burda,
Ayrı dözə bilmirəm.

Ağ almanı ataydım,
Atıb əldə tutaydım.
Ay qız, nigahlın olub,
Bircə ömür yataydım.

Tüfəng olub ataydım,
Bir mənzilə çataydım.
Döşün üstə baş qoyub,
Şirin yuxu yataydım.

Naxırda ağ inəyim,
Ağılda sağ inəyim.
Kömürdən qara yandı,
Kağızdan ağ ürəyim.

Bağa su düşdü neynim,
Tənək su içdi neynim.
Allah pay paylayanda,
Mənə bu düşdü neynim.

Tambur saz oldu neynim?
Ördək qaz oldu neynim?
Mən bir azara düşdüm,
Səbəb qız oldu neynim?

Paprusu çəkər dostum,
Dodağı şəkər dostum.
Sən paprusu çəkəndə,
Mən sənə nökər, dostum.

Barmağı üzük yarım,
Qolu bilərzik yarım.
Əyil üzündən öpüm,
Dodağı nazik yarım.

Bu yoldan işləyəydim,
Xəncər gümüşləyəydim.
Eşq ilə yarı sevib,
Üzündən dişləyəydim.

Zərnə yolun düz gördüm,
Bir qəmzəli qız gördüm.
Saçları üç yüz manat,
Hələ mən ucuz gördüm.

Faytonda otur, dostum,
Gözləri lotu dostum.
Mən sənin halalınam,
Farağat otu, dostum!

Barmağından çıxdı qan,
Mən and içdim, sən inan.
Gəlib yadıma düşdü,
Səninlə keçən zaman.

Yolumuz qaratikən,
Kimdir papiros çəkən?
Qara qaşlı olmusan,
Məni yandırıb tökən!

Çəpər basma, ay oğlan!
Yolum kəsmə, ay oğlan!
Mən özgənii malıyam,
Sən tələsmə, ay oğlan.

Fayton gəlir yoluynan,
Bülbül oynar gülüynən.
Allaha barı dostum
Məni saxlar diliynən.

Çöldə tutdum bir ceyran,
Mən sənə oldum heyran.
Əyil üzündən öpüm,
Hürünün qızı Məryəm.

Mən gəlirəm iraqdan,
Çıxdı gülüm bulaqdan.
Kaş adını soraydım,
Bal süzülən dodaqdan.

Qızıl kəmər taxarsan,
Öz canına baxarsan,
Bir azca səbir eylə,
O zülümdən çıxarsan.

Ağ almanı soymazsan,
Xalq sözünə uymazsan,
Çox etiqad eylərəm,
Sözüm yerdə qoymazsan.

Ay qız, mənim payımsan,
Göy üzündə ayımsan,
Mən səni çox istərəm
Yaxşı mənim tayımsan.

Sarayda tütün düzən,
Qələm, qaş, gözlər süzən.
Gözüm sənə düşübdü,
Köynəyi çoxlu düzən.

Divardan tambur asdun,
Mən idim əziz dostun.
Hər nə dedin, sən dedin,
Mən nə dedim, sən küsdün?

Samavarı qurginan,
Burğusunu burgunan,
Əgər mənim yarımsan,
Gəl qarşımda durgunan.

Su gəlir axmaq ilən,
Qayalar yıxmaq ilən.
Gözəldən gözmü doyar
Göz ilə baxmaq ilən?

Tambur ilən, saz ilən,
Ördək ilən, qaz ilən.
Bircə gecə yataydım,
Sevdiciyim qız ilən.

Paprusu çəkməginən,
Qutunu əyməginən,
Ay dostum, gəl yaxına,
Yandırıb tökməginən.

Maral çıxdı qamışdan,
Buynuzları gümüşdən.
Əziz dostum, pay saxla,
Qoynundakı yemişdən.

Mən gedirəm Ağdaşdan,
Papağım düşdü başdan.
Sən deyibən gəlmişəm,
Oldum qohum qardaşdan.

Mən gəlirəm Ağdaşdan,
Sən kirpikdən, mən qaşdan.
Nə atam yox, nə anam,
Yaranmışam ağ daşdan.

Ocağa qazan asın,
Altına odun basın.
Mən burda hayla deyim,
Siz ordan qulaq asın.

Əzizim hara gəlsin,
Zülfünü dara gəlsin.
Mənsiz bayram eləsən—
Bayramın qara gəlsin.

Boz atın boylamasın,
Çək başın oynamasın.
Gəlirsən səhərdən gəl,
Ürəyim oynamasın.

Paprusu yandırarsan,
Asanca qandırarsan.
Ay incə belli yarım,
Nə məni yandırarsan?!

Lampanı alışdırsın,
Şişəni yapışdırsın.
Əziz yarım küsübdü,
Bir Allah barışdırsın.

Bu fayton bizim olsun,
Topları qızıl olsun.
Biz alası qızların
Ömürü uzun olsun.

Tənək əkdik bağ olsun,
Bağ artırdım dağ olsun.
Bir neçə hayla dedim,
Eşidənlər sağ olsun!

İstəkanın ağ olsun,
İçi dolu yağ olsun.
Biz burda hayla deyək,
Eşidənlər sağ olsun.

Tamburun qolu uzun,
Qoluna mərcan düzüm.
Yarım var uzaqdadı,
Mən buna necə dözüm?

Tamburun sapı uzun,
Çantaylar düzüm-düzüm.
Əyil üzündən öpüm,
Sən mənim qumral gözüm.

Qamış taladan azar,
Yar görüb ağlım azar.
Mən bir gözəl sevmişəm,
Açmamış gülə bənzər.

Əzizim nədən bağlar,
Pərvanə nədən bağlar.
Əkmə namərd zəmisin
Nə bitər, nə dən bağlar.

Əziziyəm baş bağlar,
Başın yuyar, yaş bağlar.
Yarından ayrı düşən,
Ürəyinə daş bağlar.

Büzmə köynəy büzülsün,
İncə belin üzülsün,
Siftə gedən gecəsi
Yardan əlin üzülsün!

Ağacdakı xurmalar,
Qız, yaxanda düymələr.
Qız, üstündə qan olar,
Qaş-gözün az sürmələ.

Su gəlir bəndər-bəndər,
Dağlardan qarı əndər!
Dərmansız dərdə düşdüm,
Al dərmanı tez göndər!

Bulaxda beş yaxa var,
Gümüşdən aftafa var.
Maral qızın başında,
İpəkdən alafa var.

Ayağında məsi var,
Qoynunda məməsi var.
Əl salıb incitməyin,
Onun da yiyəsi var.

Dərya susuzmu qalar?
Dibi qumsuzmu qalar?
Dünyada sağ adamın
Könlü yarsızmı qalar?

Samavar dolub daşar,
O gül kimə yaraşar?
O gül bizim olmasa,
Tamam dağ-daş ağlaşar.

Aşağıdan su doldurur,
Yuxardan bulandırır.
O yanda bir gəlin var,
Vallah, məni yandırır.

Pəncərədə otdu yar,
Yapıncını götdü yar.
Oba qalın, yol iraq
Gör ha yana ötdü yar?

Cara gedən yardılar,
Qızıl gülü dərdilər.
Var olsun bu el-oba,
Yarı yara verdilər.

Baxdım iraq görükür,
Çöldə çıraq görükür.
O dostumun köynəyi
Zolaq-zolaq görükür.

Bostanda yemiş olar,
Yeməmiş dəymiş olar.
Oğlanı dərdə salan,
Qız deyən ölmüş olar.

Yanaşı beş otaqlar,
İçində qızıl taxtlar.
Bir-bir yadıma düşər
O gəlib keçən vaxtlar.

Dağda maral tək otlar,
Gah səs eylər, gah otlar.
Səndən mənə yar olmaz,
Mənim ürəyim çatlar.

Bu yol yolamı gedər?
Ceyran çöləmi gedər?
On beşinə yetən qız,
Evdə yolamı gedər?

Bu yoldan xanım gedər,
Ardınca canım gedər.
Bir yerdə yaralandım,
Min yerdən qanım gedər.

Dostum, başına gələr,
Sürmə qaşına gələr.
Bir neçə hayla desəm,
Sənin xoşuna gələr.

Arxalığa biçərlər,
Qırağından tikərlər.
Mən səndən soruşuram:
Tükü nəylə seçərlər?

Dama buğda sərərlər,
Çıxma boyun görərlər.
Sənin sümbül saçından,
Heykələ bağ hörərlər.

İstəkənə sal şəkər,
İstambul ordu tökər.
Yar yadıma düşəndə
Ürək yanıb qan tökər.

Zərqala oldu şəhər,
Gəzək biz ayrı təhər.
Üzü qırmızı güldü,
Qoynunun içi gövhər.

Qaşların qaradandı,
Haq bizi yaradandı.
Qurban olduğum Allah,
Bu sevda haradandı?

Buğdalar köklü nədi,
Yar sevdim bir dənədi.
Olmuşam yar dəlisi,
Deyirlər divanədi.

Tamburun teli laldı,
Bazardan aldım baldı.
Qızlara qurban olum,
Gəlinlər ayrı maldı.

Bu yoldan yol ayrılar,
Zülmündən tel ayrılar.
Namərdlə yoldaş olan
Mərddən də tez ayrılar.

Gecə keçdi çağırır,
Xoruz çeşti çağırır,
Sinəm üstə əzrayıl,
Dilim dostu çağırır.

Meşədə dad şan gəlin,
Qurşağı qurşan gəlin.
Ərin xoryaddı sənin,
Gəl ondan boşan, gəlin!

Məhlədə bitər söyüd,
Yarpağı gömgöy söyüd.
Kiçikcə bir yar sevdim,
Xudam, sən özün böyüt.

Boz at mindim, boz oldu,
Yorğa sürdüm, toz oldu.
Qız yaylığın düşmüşdü
Mən götürdüm söz oldu.

Buxarı qurum oldu,
Yandıqca qurum oldu.
Yoldaşların içində
O qıza zülüm oldu.

Ağac yandı köz oldu,
Əyri kösöy düz oldu.
Əziz yara, deyəsən,
Dəyən bircə söz oldu.

Padnosa əl vuruldu,
Carda mizan quruldu.
Yarım ötüb gedəndə,
Tiflisə tel vuruldu.

Cara gedən bir yoldu,
Biri sağ, biri soldu.
İki sinən arası
Damağa gedən yoldu.

Qoruqda qoyun-quzu,
Qoyuna verdim duzu.
Dövlətə susamayın,
İgidə verin qızı.

Bazardan aldım qutu,
İçində kəklikotu.
Dizin üstə baş qoyum,
Çimdikləmə, düz otu.

Hündür dağların düzü,
Canına al bu sözü.
Qərib canı yandırır,
Cavan ölmüşün qızı.

Üstündəki aya bax,
Bu evdəki toya bax.
Toyda yarım oynayır
Halal olsun, boya bax!

Armud ağacı butağ,
Armud düşüncə tutağ.
Köhnə yardan yar olmaz,
Gəl təzədən dost tutağ.

Ay doğdu, qadir Allah!
Sevdamız nədi, Allah?
Muraz üstə qalanın
Murazın yetir, Allah!

Ay doğdu bədir, Allah!
Bu sözlər nədir, Allah?
Cavanı cavana yazan
Üstəki qadir Allah!

Danış, tamburum, danış,
Bir sən mənimlə barış.
Açıban qollarını,
Gəlib boynuma sarış.

Buxarı pis olarmış,
Yandıqca his olarmış.
Özgə dərdlərə şükür,
Yar dərdi pis olarmış.

## GÖYÇƏK NƏNƏ

Bayatı söyləyən sinədəftər nənələrdəndir. Yevlax şəhərindən alınmış bir neçə bayatısını kitaba daxil etməyi lazım bildik. Onların ruhundakı zarafat, şuxluq, nəcib hisslər əksər bayatılarımıza xasdır. Göyçək nənə müasirimiz, əsrimizin yaşıdı olsa da, bayatıları klassik bayatı xəzinəmizin inciləri ilə səsləşir.

Boz atım boza-boza,
Boynunda qızıl qoza.
Asta yeri, çər dəymiş,
Yarı batırdın toza.

Bənövşəyəm qataram,
Kol dibində bitərəm.
Gözlərəm, yarım gəlməz,
Boynum əyri tutaram.

Boz at, minərəm səni,
Yorğa sürərəm səni.
Məni yara yetirsən
Məxmər çullaram səni.

Göydən ələk asılıb
İçinə kül basılıb.
Gözəl qızın kəbini
Pis oğlana kəsilib.

Arxalığın çin-çini,
Öpüm ağzın içini.
Gedibdi, gələcəkdi,
Məhlənin göyərçini.

## HƏCƏR

Bərdə rayonunda, Tərtər çayının sol sahilində yer ləşən Muğanlı kəndindəndir. Xalq poeziyasının in cilərinə vaqif, dastanlarımızı, nağıllarımızı, aşıq şeirlərimizi bilən sinədəfərərdir. Arabir bayatılar da söylədiyi olub.

Başı bəlgəli dağlar,
Dibi kölgəli dağlar.
Gözlərim yol gözləyir
Bəlkə el gəli, dağlar?!

Eləmi meh dumalı,
Tutubdu meh dumalı.
Butün gedənlər gəldi
Bəs mənim Mehdim hanı?

Gəncədən gəl, Gəncədən,
Atın yesin yoncadan.
Sevdim, ala bilmədin
Belin sınsın, incədən.

Qəlyanın odu keçdi,
Od gətir, odu keçdi.
Oğlun evlənsin, nənə!
Gözəllər odu keçdi.

Qəlyanı bayaq çəkdim,
Doldurdum bayaq çəkdim.
Səni bivəfa gördüm,
Əl üzdüm, ayaq çəkdim.

Sən gedən ev şad olsun.
Sürmə çək qaşa dolsun.
Səni məndən eləyən,
Nə gülsün, nə şad olsun.

# XƏLQİYYAT DƏFTƏRLƏRİDƏN BAYATILAR

## DƏFTƏR – 1[1]

Qazıməmməd (indi Hacıqabul), Əlibayramlı (indi Şirvan şəhəri), Bakı və Şamaxı rayonlarından

### A.

Araz aşanda mələr,
Kür qovuşanda mələr.
Analar balasından
Ayrı düşəndə mələr.

Araz axar axmaqdan,
Gedən yola baxmaqdan.
Gözlərimə qan damdı
Yollarına baxmaqdan.

Arazı ayırdılar,
Qum ilə qayırdılar.
Mən səndən ayrılmazdım,
Zülümnən ayırdılar.

Araz, Araz can Araz.
Min yerdən axan Araz.
Yarın əlindən getsin,
Sən də mən tək yan Araz.

Ay doğdu peşman-peşman,
Gün doğdu ona düşman.
Mən fələyə neyləmişdin.
Fələy oldu mənə düşman.

Ay doğdu minarədən,
Gün doğdu minarədən.
Səni mənə yetirsin
Yeri-göyü yaradan.

Ay doğdu qəlbiləndi,
Doğduqca  qəlbiləndi.
Quran gətir əl basım,
Bu qəlb o qəlbinəndi.

Ay doğsun, aydın olsun.
Gün doğsun, aydın olsun.
Eşitdim yarın gəlib,
Gözlərin aydın olsun.

---

[1] Udulu Musanın bayatı və şeirləri Dəftər-5-də ayrıca toplandığı üçün bu dəftərdəki bayatıları da ora keçirdik.

Ay doğdu qəlbi para,
Gün doğdu qəlbi para.
Diliynən dost olanın
İşiynən qəlbin ara.

Arazam Kür üstümdən,
Min atı sür üstümdən
Bu tər şəfa təridi,
Ölmərəm dur üstümdən.
(Ağaxanım Zülfüqarova)

Araz qırağı əkin.
Aldılar əlimdəkin,
Heç kafər, heç müsəlman.
Olmasın mənim təkin.

Araz, Araz xan Araz,
Min yerdən qalxan Araz.
Sevdiyim dəryadadı
Gəl eyləmə qan Araz.

Arazıyam adanın,
Quluyam şahzadanın,
Çıxaydım qabağına
Sənə gələn qadanın.

Araz, Araz xan Araz,
Sultan Araz xan Araz.
Yarım qalıb o üzdə,
Gəl eləmə qan Araz.

Ay doğdu yalan-yalan,
Düşmənə düşsün talan.
Ayrılsın ayrı düşsün,
Bizə ayrılıq salan.

Ay doğdu gədiyindən,
Tanaram geydiyindən.
İgid ona deyərəm.
Dönməsin dediyindən.
(Əminə Hacı Şıxbala qızı).

Ay doğdu üzə düşdü,
Sürmələr gözə düşdü.
Hamı ev-eşik oldu,
Ayrılıq bizə düşdü.

Ay qız adın Xanşəkər,
Atan şamama əkər.
Səni mənə versələr,
Ollam atana nökər.

Atan tutdum səni,
Əcəb ovutdum səni.
Ömr üzdüm, cəfa çəkdim,
Şükür böyütdüm səni.

A laylay, butam laylay,
Qardaşım, atam laylay.
İntizaram yatasan,
Mən də bir yatam laylay.

A laylay yenə laylay,
Can deyim sənə laylay.
Sənə gələn dərd-bəla
Qoy gəlsin mənə laylay.

Ağac başında Əli,
Altında yaşıl xəli.
Allah muradın versin,
Ya Məhəmməd, ya Əli.

Aşığam Əli bağlar,
Döşənib xəli bağlar,
Sidqi dürüst olanın
Kəmərin əli bağlar.

Aşığam üz yerdən üz,
Sonalar üz yerdən üz,
Kipriklər kölgə salmış,
Yarılmış yüz yerdən üz.

Ağac ağacdan uca,
Ağaca çıxdı cücə.
Məni sənə verməzlər
Bitdi toyuq, kor cücə.

Ağac başında kişmiş,
Quruyub yerə düşmüş.
Məni sənə verməzlər,
Saplağına dən düşmüş.

Ay doğdu nara dəydi,
Göydə ülkara dəydi.
Dilin qurusun ağac,
Nə dedim yara dəydi.

Araza gəmi gəldi,
Kükrədi gəmi gəldi.
Ağlayın, a gözlərim,
Ayrılıq dəmi gəldi.

Ana, məni az ağla,
Qış sızılda, yaz ağla.
Hərdən yadına düşsəm,
Ağ kağıza yaz ağla.

Anam bulağa gəlmiş,
Minsin ulağa gəlmiş.
Bala, hardasan desin
Səsi qulağa gəlsin.
(Gülnobat)

Ay gedən səniynənəm,
Gəl getmə səniynənəm.
Bülbül güliynən olsa,
Mən elə səniynənəm.

A laylay, gülüm laylay
Gülüm, sünbülüm laylay
Böyü səni sazanda
Mən də bir gülüm laylay.

A laylay, quzum laylay,
Ayım, ulduzum laylay.
Sən hasilə yetincə
Hər dərdə dözüm laylay.

Anan gül düzər sənə,
Bacın gül üzər sənə,
Tarıdan əhdim budu
Dəyməsin nəzər sənə.

Araz coşanda bilər.
Kür qovuşanda bilər
Yar-yarın qədrini
Ayrı düşəndə bilər.

Aşıq ellərdə də var,
Sonam göllərdə də var,
Sizdəki iyidlərdən
Bizim ellərdə də var.

Apardı tatar məni,
Qul olar, satar məni.
Vəfalı yarım olsa
Axtarar tapar məni.
(Gülnobat)

Apardı Xəzər məni,
Gözləyir bezar (bazar) məni.
Sərdəftərin başında
Qul deyib yazar məni.

Apardə Bozat məni,
Oxladı sayat məni,
Baş qoyum dizin üstə
Çox yatsam oyat məni.

Altmışda at gedərəm,
Üstündə mat gedərəm,
Əvvəli sərdar canım
Indi soldat gedərəm.

**B.**

Bu gül o gülə yetməz,
O gül bu gülə yetməz.
Mən bir gül iyləmişəm,
İyi burnumdan getməz.
(Gülzaman)

Bu yollardan yol düşdü,
Budağ sındı, qol düşdü.
Bizim yollar bağlandı,
Ayrı yandan yol düşdü.
(Mələk)

Bu dağlar ərən dağlar,
Gülü yox dərəm dağlar,
Belə dərddər əlindən
Ürəyim vərəm bağlar.
(Salatın)

Biçinçi xara bağlar
Dərz biçər, xara bağlar,
Çağurun anam gəlsin,
Özgələr xarab ağlar.
(Gülnobat)

Bu gələn Şəkər olsun,
Kəklik tək səkər olsun.
Atsın hicran oxunu,
Şirin can səpər olsun. (Xeyri)

Bu dağların meşəsi,
İylidi bənövşəsi.
Könülsüz gedən qızın,
Ağlamaqdı peşəsi. (Xeyri)

Bu bayram bayram döyü,
Noruzdu, bayram döyü.
Gəlsön bayram elərəm,
Gəlməsön bayram döyü.
(Zərxanım)

Bu çaya çay demərəm,
Axmasa çay demərəm,
Mən dünyada, ay bala,
Heç sənə vay demərəm.
(Gülnobat)

Bağça məndə, bar məndə,
Heyva məndə, nar məndə,
Sinəm əttar dükanı,
Hər nə desən var məndə.
(Xeyri)

Başına mən dolanım,
Mən dönüm, mən dolanım.
Böyü boya-başa çat,
Kölgəndə mən dolanım.

Boğazımda silsilə,
Meh düşüb qızılgülə.
Oğlan, faytonçu gəti
Gedək sevgilimgilə.
(Əminə İslam qızı)

Bulağın başı mənəm,
Dibinin daşı mənəm.
Kim qardaşın ağlasa
Gözünün yaşı mənəm.

Bozatım boza-boza,
Boynunda qızıl qoza.
Asta yeri, çər dəymiş
Yarı batırdın toza.

Boz at minərəm səni,
Yorğa sürərəm səni,
Məni yara yetirsən
Məxmər çullaram səni.

Boya-buxuna dol gəz,
Boynuma dola qol gəz.
Cavanlar sinə minar
Sən də bir igid ol gəz.

Bayram bayramın olsun,
Ellər heyranın olsun.
Niyə belə gec yatdın
Anan qurbanın olsun.

Bürünüb dona bülbül,
Köç eylər sona bülbül.
Balam dil açan günü,
Mat qalar ona bülbül.

Balama can demişəm,
Ağlama can demişəm.
Balam dil açan günü
Quzu qurban demişəm.

Bənövşədən tutaram,
Kol dibində bitərəm,
Gözlərəm yarım gəlməz
Boynum əyri bitərəm.

Balam yatıb beşikdə,
Bülbül oxur eşikdə.
Sən yat, yuxu alginan
Mən durmuşam keşikdə.

**D.**

Dərya bulandı yenə,
Dibin qum aldı yenə
İki yumruq bir başa
Beynim bulandı genə.

Dağlarda geyik mənəm,
Buynuzu böyük mənəm.
Bir belə ki dərdim var,
Nə yaxşı döyükmənəm.
(Gülcənnət)

Dərdimin hansın deyim,
Oxuyum yarsın deyim,
Hamsın deyə bilmərəm,
Barı qoy yarısın deyim.

Dam dikdim yalan oldu,
Ömrümə talan oldu.
Nə çubuğun bərkidən,
Nə keçəm salan oldu.

Dağlara binə gəlləm,
Gedərəm genə gəlləm.
Bir də üzünü görsəm,
İmana dinə gəlləm.

Dağlar başı tütündü,
Kimin bağrı bütündü.
Tez gəl üzünü görüm
Dünya ölüm-itimdi.

Dağlar mənə qar göndər,
Əsirgəmə bar göndər.
Ya bu dərdə şərik ol
Ya dərmanın var göndər.

Dağlar səni əndərim,
Yönün bəri döndərim.
Müşkül işim düşübdü,
Sənə kimi göndərim?

Dağların hülüsü var,
Eli var, ulusu var.
Göydə parça buludun
Nə yaman dolusu var.

Dağlarda hünü də var,
Milçək var, hünü də var.
Bacı ilə qardaşın
Gərəkli günü də var.

Dağları qəcəl aldı,
Ovçular macal aldı.
Bir yanım qərib ölkə,
Bir yanım əcəl aldı.

Dağlar dağımdı mənim,
Qəm oylağımdı mənim.
Dindirmə qan ağlaram,
Qəmli çağımdı mənim.

Dağların qarı mənəm,
Gün dəysə ərimərəm.
Qəbrimi quzayda qaz,
Cavanam, çürümərəm.

Dağ döşündə damım var,
Bağımda bağmanım var.
Gəl qapımdan gir qardaş
Desinlər adamı var.

Dağlarda lala yalqız,
Gül bitər, lala yalqız.
Qorxuram qərib öləm
Məzarım qala yalqız.

Dağda maral çaş mələr,
Çaş dolanar, çaş mələr.
Ananın ah-vayından,
Dağ inildər, dağ mələr.

Dağları aşan mənəm,
Əlində yovşan mənəm.
Çox da yarım kasıbdı,
Ölsəm də boşanmaram.

Dağlar marala qaldı,
Otu sarala qaldı.
Soyuq bulaq, göy çəmən,
Oda marala qaldı.

Dağlarda maral könlüm,
Heç tapmaz qaral könlüm.
Tağı ölmüş bostan kimi,
İndi qal, saral könlüm.

Dağda maral durubdu,
Maral boynun burubdu.
İki ovu bir axşam,
Haman ovçu vurubdu.

Dərdim dərdüvü ötər,
Mənə öz dərdim yetər.
Bir dərdə düşmüşəm ki,
Ölü dərdindən betər! (Zabitə)

**E.**

Evində eşiyində,
Yat bala beşiyində.
Dan ulduzu birdə mən,
Durmuşuq keşiyində.

Eləmi bağ çəpəri,
Bağ pəri, bağ çəpəri.
Çəpər bağ dolanmaqdan,
Dolanar bağ çəpəri.
(Borcalı)

Eləmi qana dağlar,
Ox titrər, qanad ağlar
İtirmiş maralını,
Batıbdı qana dağlar.

Ev tikdim tağlı olsun,
Bağ saldım, bağlı olsun.
Deyirlər: haçan gələy?
Deyirəm, sağlıq olsun.

Eləmi göz dərməni,
Könlümü göz dərməni.
Məndə var göz ağrısı,
Səndə var göz dərməni.

## Ə.

Əzizim yar incidi,
Yar durdu, yar incidi.
Dilim yanasan səni,
Nə dedin yar incidi?

Əzizim yar içərdən,
Sök bağrım yar içərdən.
Getdi gözüm qarası,
Çıxmadı yar içərdən.

Əziziyəm yüz məndən,
Əlli məndən, yüz məndən.
O qədər ağlayırdım,
İnciyibdi üz məndən.
(Gülnobat)

Əziziyəm gavalı,
Yemək olmaz gavalı.
Araya dava düşdü,
Bizə dəydi zavalı. (Gülnobat)

Əzizim daldasına,
Dal verib daldasına.
Əlüvi dalda elə,
Mən girim daldasına. (Mələk)

Əzizim günahım var,
Bəndəyəm ilahım var.
Göz gördü, könül sevdi
Mənim nə günahım var.

Əzizim balamanı,
Asta çal balabanı.
Hamının balası gəldi,
Bəs mənim  balam hanı?

Əzizim bu dağınnan,
Gül dərdim budağınnan.
Mərdin töyləsi yaxın
Namərdin otağından.

Əzizim neylim sənə,
Düşübdü meylim sənə.
Mən dönsəm üzüm dönsün,
Sən dönsən neylim sənə.
(Böyükxanım)

Əzizim əymə məni,
Gəl munca əymə məni.
Tifil tək ağlaram mən,
Ağzımı əymə mənim.

Əzizim bu damaqda,
Bu dildə, bu damaqda.
Ölsün məcnun görməsin,
Leylisin bu damaqda.

Əzizim yar məkanı,
Ay üzün yar məkanı.
Uçulsun uca dağlar,
Görünsün yar məkanı.

Əziziyəm elçilər,
Suyu yola el çilər.
O gün qurban kəsərəm
Bizə gəlsə elçilər.

Əzizim Gəncə daşı,
Kür daşı, Gəncə daşı.
Qonşun bədxəsyət olsa,
Yığ evin Gəncə daşı.

Əzizim qara dağlar,
Kəkilin dara dağlar.
Sonanı yar itirmiş
Bir onu qara dağlar.

**G.**

Gəl gedək daş bulağa,
Suyu sərxoş bulağa
Deyək öz dərdimizi
Tökək qan-yaş bulağa.

Gəlsin qardaş ağlasın,
Qurub bardaş ağlasın.
Sənin bu əhvaluva,
Tamam dağ-daş ağlasın.

Göydə gedən sonalar,
Bir-birinə yan alar.
Sənin qurbanın olsun
Oğlu ölən analar.

Gülüşün gülüşündü,
Güldün bağrım üşündü.
Gülüş könül isidər,
Bəs o nə gülüş idi. (Xeyri)

Gözümnən gilə gəldi,
Yaş gəldi, gilə gəldi.
Bacı-qardaş deməkdən,
Sümüyüm dilə gəldi.

Gəl gedəl Ərzuruma,
Kağız yaz Ərzuruma.
Dəvəsi ölmüş ərəbəm,
Dözərəm hər zuluma.

Götürün köndələni,
Gözüm görsün gələni.
Qəbrə necə qoyallar
Bu dərdinnən öləni.

Gəl yola, bir gəl yola,
Qolun boynuma dola.
Ağzı nədi bağlarda,
Lala sənə tay ola. (Xeyri)

Getmə, getmə amandı,
Dağlar başı dumandı.
Gəlişüvə mən qurban,
Gedişün nə yamandı. (Xeyri)

Gəncə yolu buyumuş,
Arxa dolan suyumuş.
Vədə verdin gəlmədin,
Ehtibarın buyumuş.

Gəldi oğlan adamı,
Ağam sındır badamı.
Sındır qoy dalı qatda,
Görməsin qız adamı.

Göz gördü bu Salmanı,
Bağban sən busalmanı.
Saçından öyrənmişəm
Üzdən busə almanı. (Xeyri)

Göydən bələk asılıb,
İçinə gül basılıb.
Körpə qızın kəbini
Pis oğlana kəsilib.

**H.**

Haray dəli olmuşam,
Dərddən dəli olmuşam.
Çək qılıncı vur boynum,
Öldürməli olmuşam.

Həyətimiz xanadı,
Üstü balaxanadı.
Dəsmal gəti, gül apar,
Əcəb xəlvətxanadı.

**X.**

Xırdacasan, məzəsən,
Sən hər güldən təzəsən.
O günə qurban olum,
Ayaq tutub gəzəsən.

Xalçanın gülü yansın,
Od tutsun günü yansın.
Məndən sənə deyənin
Ağzında dili yansın.

Xalçalar, ay xalçalar,
Al çalar, yaşıl çalar.
Namərd vətən qorumaz
Düşmən görcək alçalar.

**K.**

Kətan kətana qurban,
Katan satana qurban.
Məndə yerin sərmişəm,
Çılpaq yatana qurban.

Kisə tikdim olmadı,
Suya saldım solmadı.
Elçi dilin qurusun,
Özüm deyən olmadı.

**Q.**

Qardaşım birdi mənim,
Gözümə nurdu mənim
Yada qardaş demərəm,
Talehim kürdü mənim.
(Şəfiqə )

Qərənfilsən butasan,
Məni saldın oda sən.
Mən o güldən döyürəm
İyliyəsən atasan.
(Böyükxanım)

Qır qazan daşmazmı,
Şirvana yol aşmazmı.
Darıxma əmim oğlu
Ayrılan qovuşmazmı. (Əsəd)

Qəribəm ağrır başım,
Yastığa damar yaşım.
Çıxalar çağıralar,
Qərib gəldi qardaşın.

Qardaş gəl gərəgimsən,
Hurimsən, mələgimsən,
Həmi anam oğlusan,
Həmi gəl, gərəgimsən.

Qərənfil haça bəntdi,
Sana gör neçə bəntdi.
Düşəsən mən düşən dərdə,
Görəsən necə dərddi.

Qərənfiləm qəmxaram,
Açılmağa qorxaram.
Desələr yarın gəlir
Ölü olsam qalxaram.

Qərənfil üzə düşdü,
Sürmələr gözə düşdü.
Yaylaqdan gələn çapar
Əyləndi sizə düşdü.

Qərənfil üzə gəlir,
Dolanı düzə gəlir.
Yar yolunu çaşdırıb
İnşallah bizə gəlir.

Qərənfil abı gərək,
Yar yarın babı gərək.
Zərrəcə əqli olanın
Dünyaca tabı gərək.

Qərənfil sarı gərək,
Elçimiz qarı gərək.
Yüz il yüz ilə dəysə,
Gözləyəm yarı gərək.

Qərənfil ağ oleydi,
Məskəni bağ oleydi.
Yar qapıdan gireydi,
Damağım çağ oleydi.

Qızıl gülü biçmişəm
Üstündə and içmişəm
Sevdiyimin yolunda
Mən canımdan keçmişəm.
(Əminə İslam qızı və Bikə)

Qızıl gülü dərəllər
Pünhan yerə sərəllər
Xoş o qızın halına
Sevdiyinə verəllər.

Qızıl gül dən-dən oldu,
Dərmədim dən-dən oldu.
Mən səndən ayrılmazdım
Ayrılıq səndən oldu.

Qəbrimə daş qoyaram,
Daş üstə baş qoyaram.
Bilsəm vəfalı yarsan,
Yolunda daş qoyaram.

Qardaş çıxma sözümdən,
Qan-yaş axar gözümdən.
Ər adını çəkmiyün
Ağlım gedər özümdən.

Quşum uşdu tüləkdən,
Qolum sındı biləkdən.
Mənimki belə gəlib
Çarxı dönmüş fələkdən.

Qızıl gül oyum-oyum,
Dərim sinəmə qoyum.
Yağış yağar, yer doymaz
Mən səndən necə doyum.

Qızıl gülü əkərlər,
Ondan gülab çəkərlər.
Vəfasız yarım ilə,
Özgələri səkərlər.

Qızıl gül həşəm oldu,
Dərmədim həşəm oldu.
Səndən ayrı düşəli
Ağlamaq peşəm oldu.

Qızıl gül oyum-oyum
Dərim sinəmə qoyum.
Yağış yağar yer doymaz,
Mən səndən necə doyum.

Qızıl gül bağım olsun,
Bağlar oylağım olsun.
Tanrıdan arzum budu
At minən çağım olsun.

Qurban aran, dağ sənə,
Güllü bağça-bağ sənə.
A yaylay, bala laylay
Tutmuşam qaymağ sənə.

Qızıl gül butam laylay,
Ətrinə batam laylay.
Balam ərsəyə gələ
Toyunu tutum laylay.

**L.**

Laylay dedim adına,
Allah çatsın dadına.
Mən yadına düşəndə,
Laylam düşsün yadına.

Laylay dedim ucadan,
Səsim çıxmaz bacadan.
Allah səni saxlasın
Çiçəkdən, qızılcadan.

Laylay beşiyim laylay,
Evim eşiyim laylay.
Sən yat, şirin yuxu tap,
Çəkim keşiyim laylay.

Laylay dedim yatasan,
Qızıl gülə batasan.
Qızıl gülün içində,
Şirin yuxu tapasan.

Laylası var balamın,
Yuxusu var balamın.
Uzaq ağır səfərdə,
Atası var balamın.

Laylay gül dəstəsinə,
Dər göndər ustasına.
Mən özüm qurban olam
Balanın xəstəsinə.

Laylay dedim həmişə,
Karvan gedər yerişə.
Yastığında gül bitsin,
Döşəyində bənövşə.

Laylay çallam hər aylar,
Hər ulduzlar, hər aylar.
Başım yağı əlində,
Dilim səni haraylar.

Layla deyərəm yatınca,
Gözlərəm ay batınca.
Canım cəzana gəldi
Sən hasilə çatınca.

Laylamı qan dilimdə,
Açıldı can dilimdən.
Sənə layla deməkdən
Açıldı qan dilimdən.

Layla çaldım boyana,
Boyan bağdan oyana.
Hərdən bir layla çallam
Bəlkə balam oyana.

Layla yaralı qurban,
Könlü qaralı qurban.
Bostana dolu düşmüş
Tağı yaralı qurban.

Laylay çiçəyim laylay,
Gözəl-göyçəyim laylay.
Sən istənsən ağarar
Qara birçəyim laylay.

Laylay gözüm işığı,
Evimin yaraşığı.
O gün olsun toyunda
Oxutdurum aşığı.

Laylası dərin bala,
Yuxusu sərin bala.
Tanrıdan əhdim budu
Toyunu görüm bala.

Laylayam el başına,
Sancılsın tel başına.
Kim səni istəməsə,
Qalmasın il başına.

Layla toyun qurbanı,
Kəsim qoyun qurbanı.
Sən yeri bir mən baxım,
Olum boyun qurbanı.

Layla dedim yat bala,
Yuxuna şəkər qat bala.
Ümidim bircə sənsən,
Böyü, başa çat bala.

Layla deyim boyunca,
Söyləyərəm doyunca.
Ömrüm-günüm uzansın
Bu balamın toyunca.

Layla ay balam laylay,
Alınmaz qalam laylay.
Sənə kəc baxanları
Yandırsın nalam laylay.

Layla deyim ağlama,
Ürəyimi dağlama.
Böyü, bir qoç igid ol
Mənə ümid bağlama.

Layla deyim boyunca,
Baş yastığa qoyunca.
Pardaxlan qızıl gülüm,
Bir iyləyim doyunca.

Ay laylay, quzu laylay,
Dilimin sözü laylay.
Böyü, sən ol dayağı,
Ananın gözü laylay.

**M.**

Mən aşığam dəmə gəl,
Söhbətə gəl, dəmə gəl.
Dərd bilən özü gəlsin,
Dərd bilməzə demə gəl.
(Məryəm)

Maral yerün şam oldu,
Otda yerün can oldu.
Yollaruva baxmaqdan
Gün gəldi axşam oldu.

Mən bu bağa gəlmişəm,
Yağa-yağa gəlmişəm.
Alıbdı dərd canımı,
Ağlamağa gəlmişəm. (Mələk)

Maralın ucasından,
Xəbər al xocasından.
Od yanmaz, tüstü çıxmaz
Yetimin bacasından. (Mələk)

Mən səni Leyli gördüm,
Leyli gileyli gördüm.
Altun daş, üstün torpaq,
Torpaqdan öylü gördüm.

Marala bax, marala,
Düzdə gəzə qarala.
Səndən mənə yar olmaz,
Az qəlbimi yarala.

Mən aşiq yarısında,
Ağ yaylıq qarısında.
Səni kimlər qarğıdı,
Qaldun yol yarısında.

Mən aşıq elə gəlləm,
Dolanım belə gəlləm.
Elçiyə yox desələr,
Mən özüm dinə gəlləm.

Mən ağıq səmək olmaz,
Səməyi yemək olmaz.
Dərdün başdan aşsa da
Hər yerdə demək olmaz.

Məni vurub talxınan,
Götür başuva qalxınan.
Mənə Allah eləyib,
Nə işim var xalxınan.
(Gülnobat)

Mən aşiq dərmə-dərmə,
Xallarun dərmə-dərmə.
Yetişməmiş bostanda
Çağırram dərmə-dərmə.

Mən aşiq odu getdi, O
cənnət odu getdi.
Cənnətin külbəsindən,
Cəhənnəm odu getdi.
(Salatın)

Mən aşıqəm sağdan gəl,
Soldan gəlmə, sağdan gəl.
Könlüm səni istəyir,
Bir dümanlı dağdan gəl.

Mən aşiqəm Daşkəndə,
Ayaq götür aş kəndə.
Biz yazığın ahından
Nöş yağmayır daş kəndə.

Mən aşıq suca hanı,
Suyun tək suca hanı.
Mən ləbin teşnəsiyəm
Götürsə su cahanı.

Mən aşıq Hun dağına,
Gün düşüb Hun dağına.
Səni doğan ananın
Od düşüb qundağına.
(Mələk)

Mən aşiq neynim sənə,
Düşübdü meylim sənə.
Qızıldan qiymətdisən
Düşmüsən, neylim sənə.

Mən aşıq girdə şirin,
Yeməyə girdə şirin.
Sənin kimi qardaşnan,
Danışam bir də şirin.
(Gülnobat)

Mən aşıq gül ambarı,
Bağlanın gül ambarı.
Fələk məni qoymadı,
Doyunca güləm barı.

Mixək əkdim ləyəndə,
Mixək boynun əyəndə.
Quzu qurban demişəm
Əlim əlinə dəyəndə.

Mən ölürəm çiçəkdən,
Üzümü qoru milçəkdən.
Yad ağlar, yalan ağlar,
Anam ağlar gərçəkdən.

Mən aşıqam boyana,
Dəstə dərdim boyana.
Çəkərəm pünhanı,
Vermənm dərdim bəyana.
(Gülnobat)

Mərciməy gilə-gilə,
Ölçürəm bilə-bilə.
Yar qapıdan girəndə,
Baxıram gülə-gülə.

Mən aşığam ayağa,
Atım getmir ayağa.
Sən məni salmaseydin,
El salmazdı ayağa.
(Salatın)

**N.**

Nazik çəkmə ipliyi,
Qardaşın köynəkliyi.
Qardaş bir qız sevibdi,
Ağ otağın kəkliyi.

Nərgizi üzüm laylay,
Yaxana düzüm laylay.
Sən böyü, mən qocalım,
Toyunda süzüm laylay.

Nöşün getdün suva sən,
Sudan aldun duva sən.
Bir quşcan da olmadun
Bağlamadun yuva sən. (Gülnobat).

**O.**

O tayda qoçdar durar,
Yeriməyi xoşdar durar.
Özün getdin qurtardın,
Qoyduğun daşdar durar.

**P.**

Payız gedər yaz gələr,
Ördək gedər, qaz gələr.
Belə tərxam igidlər,
Dünyaya az-az gələr.

Pəncərə beş-beş qara,
Oğlan göyçək, qaş qara.
Beş ildi yar sevmişəm
Indi çıxıb aşkara.

**S.**

Sən mənim  yan ürəyim,
Doludu qan ürəyim.
Mən səni çağırmaqdan,
Oldu büryan ürəyim.
(Mələk)

Sən mənim andım qardaş,
Şəkərim, qəndim qardaş.
Ləblərində su gətir,
Alışdım, yandım qardaş!
(Gülzaman).

Sarı gilas rəngimdə,
Sapı var biləngimdə.
Allah məni öldürməz,
Arzum var ürəgimdə. (Əsəd)

Sən mənim ağa qaynım,
Sallan gəl bağa qaynım.
Malım yox qurban deyəm,
Canım sadağa qaynım.

Su gəlir ardağınnan,
Doldur ver bardağınnan.
Yarın yaxasın açdım
Xınalı barmağınnan.

Suda mindim gəmiyə,
Əzizim deyə-deyə.
Evimi sən yıxmısan,
Alıram deyə-deyə.

Sən mənim ağa qaynım,
Sabah gir bağa qaynım.
Gülün olma çiçəyi,
Sənə sadağa qaynım.

Səyyada bax, səyyada
Torun qurmuş qayada.
Toruna tərlan düşüb
Kimsəsi yox oyada.

## Ş.

Şamıla qoşun getdi,
Bilmirəm nöşün getdi.
Aləmnən bircə-bircə,
Bizdən bir qoşun getdi.
(Gülnobat)

Şamama tağda dəgər,
Saralıb tağda dəgər.
Bir yol üzüvü görmək
Min tümən nağda dəgər.
(Məryəm)

Şirvana paşa gəldi,
Gör nə tamaşa gəldi.
Yollaruva baxmaqdan,
Ömrüm başa gəldi.

Şirvanda xan olmuşam,
Çində xaqan olmuşam.
Əlim yardan üzülüb,
Yerlə yeksan olmuşam.

Şamaxı bazar imiş,
Oxuyan yazar imiş.
Tez gəldi, tez apardı,
Nə yaman azar imiş.

Şirvanın küçələri,
Banlaşır beçələri.
Sənsiz mən necə yatım,
Bu uzun gecələri.

Şirvanın şirin narı,
Yeməyə şirin narı.
Sovqatın sizin olsun,
(Sizinki sizin olsun, )
Göndərin bizim yarı.

Şirvana binə gəlləm,
Gedərəm genə gəlləm.
Bir də üzünü görsəm,
İmana-dinə gəlləm.

Şirvanın a yaz gülü,
Açıbdı bəyaz gülü,
Gözün çıxsın a bağban,
Vurubdu ayaz gülləri.

**T.**

Tüfəngüvün pası var,
Atmamısan pası var
Sənin kimi igidin,
İllərəcən yası var.
(Gülnobat)

Toğlu kəssən ət olar,
Çobana fürsət olar.
Sürüdən ayrı düşən,
Boz qurda qısmət olar.
(Ağaxanım).

**Ü.**

Üzülmüşəm, üzülmüş,
Xumar gözlər süzülmüş.
Hanı bir mənim kimi,
Əli əldən üzülmüş. (Gülnobat)

**V**

Verən sənsən, alan sən,
Heç demədin yalan sən.
Kimini ağbaxt etdün
Kimə saldun talan sən.
(Gülnobat )

Vermə Xəzərə məni,
Çəkər bazara məni.
Yada kəniz verincən
Salla məzara məni.
(Gülnobat)

Vurubdu talxa məni,
Yüz kərə çalxa məni
Ahun canınnan getməz
Yüz gölə çalxa məni. (Gülnobat)

**Y.**

Yerişin qaza bənzər,
Boyun şahbaza bənzər.
Bir də üzüvü görsəm,
Qış günüm yaza bənzər.

Yağış yağıb göllərə,
Soraq düşüb çöllərə.
Burda bir igid ölüb,
Soraq düşüb ellərə.

Yol üstə kor bulağam,
Bağrı sulaq sulağam.
Hansı yoldan gələni
O yola göz-qulağam.
(Mələk)

Yaralıyam yaralı,
İlan vuran saralı.
Yoxlasan məni yoxla
Mənim burda yaralı.
(Gülnobat)

Yıxıldım yanım ağrır,
Sərbəsər canım ağrır.
Sən yadıma düşəndə,
Tamam əndamım ağrır.
(Böyükxanım)

Yıxıldım yanım üstə,
Quş gəldi qanım üstə.
Çalışdım qutarmadım
Bir şirin canım üstə.
(Gülnobat)

Yetim mənəm, yetim mən,
Yetim əlin tutum mən.
Dərdi bazara çəkdim,
Alan olsa satım mən.
(Gülnobat)

Yığılıb oturanlar,
Ay dərdim artıranlar.
Mənə bir yol görkəzün
Bu dərddən qurtulanlar.

Yol burdan düşəndə gəl,
Zülf üzə düşəndə gəl.
Fağır könlüm qan ağlar,
Yaduva düşəndə gəl.

## DƏFTƏR – 2

Kişi:

Arablar ay, arablar,
Ayağında corablar.
Öyə qonaq gələndə
Arvad kişini xarablar.

Arvad:

Arablar ay arablar,
Ayağında corablar.
Boş çuvaldı, boş ambar,
Arvad nəyi xarablar?
(Ümbülbani, Tağılı kəndi).

## DƏFTƏR – 5: Udulu Musanın bayatıları və gəraylıları

Bu dəftərdəki qeydlərin bir qismini nənəm Rübabə xanımdan, digər bir qismini analığım Xeyri Xankişi qızından 1935-47-ci illərdə yazmışam, sonra xırda parça kağız və dəftərlərdən bura köçürmüşəm. Bu dəftərdəki qeydlər Udulu Musanın Respublika Əlyazmalar Fondundakı çüngündə yoxdur.

1.

Qalxıbdı fələyə başın,
Keyfin olsun saz, Ağuçqun[1]!
Dibindən ötən yolçular,
Baxmır sənə az, Ağuçqun!

Başın üstən duman keçər,
Çovğun, boran yaman keçər,
Verməz sənə aman keçər,
Həm ördək, həm qaz Ağuçqun!

---

[1] Ağuçqun – Tağılı kəndi ərazisində dağ adıdır.

Elim səndə sığnaq olur,
Ətəyində yığnaq olur,
Kəkliklərin oynaq olur,
Qışın olsun yaz, Ağuçqun!

Musa hər gün gəzər səndə,
Ov ovlayar, kəsər səndə,
Dönər-dönər təzər səndə,
Ceyran atda vaz, Ağuçqun

2.

Fələk səndə nə qaydadı,
Söndürdün qırağım, fələk!
Axıtdın qanlı göz yaşım,
Korşaltdın yarağım, fələk!

Görüşmədim Gülnaz ilə,
Oxumadım avaz ilə,
Yarım gəlib yüz naz ilə,
Olmadı qonağım, fələk!

Çaylar axdı selə döndü,
Ana arxı lilə döndü.
Musa, ömrüm külə döndü,
Yayıldı sorağım, fələk!

3.

Bu yol apar Kürdəmirə,
Yolda çapar Nöycü səni.
Aparar saldat Şirvana,
İncidər bir söycü səni.

Bağa daraşır taxıla,
Qoyun yığılmır ağıla,
Lənət gəlsin kor paxıla,
Yıxdı evin deyci sənin.

Fitilbörkdən çıxdı höküm,
Durum dür-düyümü töküm.
Öyün pərdilərin söküm,
Bəlkə verəm töycü səni.

Musa, dərdim başdan aşır,
Ağlın azır, huşun çaşır.
Qayneyib qazanım daşır
Yurdda qoydu yeyci səni.

A köynəyi sarı gəlin,
Sən yarunnan qarı gəlin!
Köməy olsun tarım sənə
İl başında bala görüm
Qucağında barı, gəlin!

**Bayatılar**

Barmağında üzügəm,
Candan, başdan bezigəm,
Musa, yarın dodağın
Nazik iylə, nazik əm. (Xeyri)

Aşıqdı ellər sənə
Musa tək dillər sənə.
Ağzı nədi bağçada,
Tay ola güllər sənə.

Dağlara qar düşdü gəl,
Ellərə car düşdü gəl.
Qərib qürbət ellərdə
Vətən yada düşdü gəl.

Gəl yola bir, gəl yola,
Qolun boynuma dola,
Ağzı nədi bağçada,
Lala sənə tay ola.

Ələndim ələk kimi,
Nəzildim ipək kimi,
Musa, dolan dünyanı,
Sərgərdan külək kimi.
(Xeyri)

Bu dağda çətən sarı
Geyməli kətan sarı,
Qürbətdə ölsə Musa
Çevirin vətən sarı.

Qışda yeri qar alar,
Dinmə könlüm qaralar.
Lənət gəlsin fələyə
Yazda pozar, qaralar.

Gəl yola, bir gəl yola,
Qolun boynuma dola.
Ağzı nədi baxçada
Lalə sənə tay ola.

Bu gələn Şəkər olsun,
Kəklik tək səkər olsun.
Atsın hicran oxunu
Bağrımı sökər olsun.

Musa, elədi bəsdi,
Tərlar tülədi bəsdi.
Mənə bu zalım fələk,
Hər nə elədi bəsdi.

Aman əlindən aman,
Tuti dilindən aman.
Həsrət Musa dərmədi,
Qonça gülündən aman.
(Xeyri)

Musa getdi sər aldı,
Düşmən gülü saraldı.
Gör nə bədbaxt ovçuyam,
Tərlanımı saraldı.
(Rübabə nənə)

Gülüşün gülüş idi,
Güldün könlüm üşüdi.
Gülüş könül isidər,
Bəs o nə gülüş idi.

Hayar naçar olmuşam,
Candan keçər olmuşam.
Musa, əlnən əkdiyim,
Dilnən biçər olmuşam.

Musa der yar alana,
Dilinnən yar alana.
Qorxuram ki şeh ərə
Yavuğun yaralana.

İgid getdi sər aldı,
Tərlan idi sar aldı.
Gör nə bədbaxt bağbanam,
Bağda gülüm saraldı. (Xeyri)

Aman əlindən sənin,
Acı dilindən sənin.
Həsrət Musa dərmədi,
Qonça gülündən sənin.
(Rübabə nənə)

Üzərliyi tər saxla,
Yarıma göndər saxla.
Musa, igid oğuldan
Mərd igidsən, nər saxla.

Yolum Şirvan yoludu,
Dəvə-karvan yoludu.
Musa, dərdli ürəyim,
Qannan, yaşnan doludu.

Bu yollar haça yollar,
Ha yana qaça yollar.
Yol eylə, bəlkə gəlim
Bəxtüvü aça yollar. (Xeyri)

Musa der yaralana,
Dilinnən yaralana.
Qorxuram bir şeh düşə
Gül üzün yaralana. (Xeyri)

Musa, ürək dayandı,
Eşqim ürəkdə yandı.
Gəldim cismim alışdı,
Getdin ürək də yandı.

Musa elədi bəsdi,
Tərlan tülədi bəsdi.
Mənə bu zalım fələk
Hər nə elədi bəsdi! (Xeyri)

Musa deyər dərdimi,
Bu dərd yarım dərdimi?
Bağçamda qonaq qaldı
Güllərimi dərdimi?

Musa kətdə ər idi,
Ər deyildi, nər idi.
Ah çəkdim, duman qalxdı,
Dağda qarrar əridi.

Bu dağda çətən sarı,
Geyməyə kətən sarı
Musa qürbətdə ölsə
Çöyürün vətən sarı.

## DƏFTƏR – 7: Sürahi qarının dediyi bayatılar

Fələyi dindireydim,
Bilməzin bildireydim.
Mənə yazı yazan vaxt,
Qələmin sındıreydim.

Qara qazan daşmazmı?
Şirvana yol aşmazmı?
Darıxma əmim oğlu,
Ayrılan barışmazmı
(qovuşmazmı)?

Araba bax, araba,
Qoyun vurar qaraba.
Allah bir iş işdədi,
Öyüm qaldı xaraba.

Sayada bax, sayada,
Torun qurub qayada.
Toruna tərlan düşüb,
Kimsəsi yox oyada.

Uzaq ölkə Sibirdi
Buzxanadı cəbirdi.
Gedən çox, qayıdan yox,
Yoxsa ora qəbirdi?

Bu dağın dalı əkin,
Aldılar (kafər) əlimdəkin.
Heç kafər heç müsürman,
Olmasın bənim təkin.

Qarabağın yolları,
Qara dikən kolları.
Eşitsəm sən gəlirsən,
Döşətdirrəm yolları.

Aşıq qara yaxşıdı,
Geysən qara yaxşıdı.
Qürbətdə dolanmaqdan
Getsəm gora yaxşıdı.

Mənim adım Həsəndi,
Mənzilim Daşkəsəndi.
Fələyə bel bağlama,
Fələk zincir kəsəndi.

Bu ay mənim ayımdır,
Kimlər mənim tayımdır?
Göz yaşıynan, ah nala,
Allah verən payımdır.

Mən səni el bilirdim,
Başımda tel bilridim.
Uca dağlar başında
Qurumaz göl bilirdim.

Quşum uçdu tüləkdən,
Qolum sındı biləkdən.
Bizimki belə gəldi
Çarxı dönmüş fələkdən.

Sarı gilas rəngimdə,
Sarı var biləngimdə.
Allah məni öldürməz,
Arzum var ürəgimdə.

Sarı başmaq mərd olu,
Geymiyən namərd olu.
Sevdiyinə getmiyənin
Ürəyində dərd olu.

Sarı başmaq zənənə,
Gözəl çoxdu mənə nə.
İmamlar qənim olsun
İlqarından dönənə.

Quşum gəl, ay quşum gəl,
Qanadı sınmışım gəl.
Aləm ölüb ayrılsa,
Diri ayrılmışım, gəl.

Şirvanın yastı yolu,
Su gəldi basdı yolu.
Gedirdim səni görəm,
Əzrahıl kəsdi yolu.

Əzizinəm Lənqəbizi[1],
Qəşədi Zənqəbizi.
Ondan yar olan döyül,
Salıbdı lənqə bizi.

Apardı çaylar bəni,
Həftələr aylar bəni.
Yüküm qurğuşum yükü,
Yordu bu taylar bəni.

Bu dağda maral azdı,
Avçı çox maral azdı.
Ağlama, gözəl yarım,
Ölmənəm yaram azdı.

Qərənfiləm qəmxaram,
Açılmağa qorxaram.
Eşitsəm sən gəlirsən,
Ölü olsam qalxaram.

Mən aşığam dilən gəz,
Süsən, sünbül dilən gəz.
Yad yerdə xan oluncan
Öz yerində dilən gəz.

Çağır molla Cəbini,
Deyim elim dəbini.
İnnən belə kəsməsin
Qız deməmiş kəbini.

Sabahın mehi əsdi,
Küləyi məni kəsdi.
Sağ gözüm sənə qurban,
Sol gözüm bənə bəsdi.

---

[1] Ləngəbız – Sonu Uduluya qədər çatan dağlar silsiləsi.

Öyümdə qarayçı mən,
Aləmə salayçı mən.
Ər öyü zindan kimi,
Baxtımdan harayçı mən.

Qarabağda talan var,
Zülfün yüzün salan var.
Dağılsın Qarabağı,
Gözü yolda qalan var.

Ay doğdu yalan-yalan,
Düşmana düşsün talan.
Ayrılsın ayrı düşsün,
Bizə ayrılıq salan.

## DƏFTƏR – 9 Toy bayatıları

Ay gəlin, nazən gəlin,
Bağlarda bəzən gəlin.
Ağdı biləyin gəlin,
Ağacda yarpaq kimi

Əsir ürəyin gəlin.
Hop-hop-hop
Aldadıb aldıq gəlin,
Oynadıb aldıq gəlin.

Mən aşiq elə gəlləm,
Dolannam belə gəlləm.
Elçiyə yox desələr,
Mən özüm dilə gəlləm.

Əziziyəm elçilər,
Suyu yola el çilər.
O gün qurban kəsərəm,
Bizə gəlsə elçilər.

**DƏFTƏR – 12: Nanaylar və başqa Amasiya folkloru**

Bu dağdan aşmaq olmaz,
Narıncı başmaq olmaz.
Bir cüt öpüşdən ötrü
Yarla savaşmaq olmaz.

Gedirsən əylənirsən,
Qeyri dil öyrənirsən.
Dilindən bir kağız ver,
Görüm ha vaxt gəlirsən.

Yarım gedib üç günə,
Vədə verib beş günə.
Üç gün də ona qurban,
Qoy gəlsin on beş günə.

Evləri dağa gedir,
Qar yağa-yağa gedir.
Mənim bu çox sevdiyim
İldə də dağa gedir.

Evləri Barı neynim,
Doqqazı sarı neynim.
Yaz gedir, payız gəlir,
Mən belə yarı neynim.

Ağ çuxa ağlı qalan,
Baxçada bağlı qalan
Mənnən deyiklidi, o
Ciyəri dağlı qalan.

Yarın özünə qurban,
Söylər sözünə qurban.
Yarın özü gəlməsə,
Onun özünə qurban.

Su gəlir qalxa-qalxa,
Tökülür bizim arxa.
Qonşuda bir yar sevdim
Anamdan qorxa-qoxa.

Ağbabaya yağdı qar,
Amandı, pərvərdigar.
Bir yanıma qar yağır,
Bir yanımdan keçdi yar.

Haraba bizim olaydı,
Təkəri qızıl olaydı.
Girəydim yar qoynuna,
Gecə xəlvət olaydı.

Bulağın başına gəl,
Dibinin daşına gəl.
Ağrıyıb ərin öldü,
Qaşına-qaşına gəl.

Yol olub yarı, neynim,
Yazda mən qarı neynim.
Yaz gedir, payız gəlir,
Mən belə yarı neynim.

Su gələr bağa, neynim,
Hələr yarpağa, neynim.
Küsdürmüşəm o yarı
Gəlmir otağa, neynim.

Hitlerin gəmiləri,
Gah irəli, gah geri
Evin yıxılsın, Hitler,
Ağlatdın gəlinləri.

Qızıl üzüyün yanı,
Durmur barmağım qanı.
Dünən görülən oğlan,
Bugün görünmür, hanı?

Qızıl üzüyün sapı,
Uzaq yol, bizim qapı.
Səni məndən eyləyən,
Dilənsin qapı-qapı.

Arxalığın dar-darı,
Yarı qoşun sərdarı.
Öyümüzə gəlmirsən,
Əmimgilə gəl barı.

Ay da ulduz kimidi,
Gəlin də qız kimidi.
Mən necə yalqız yatım,
Yorğanım buz kimidi.

Aydan ulduz olarmı?
Müxənnəs düz olarmı?
İt oğlu, köpək oğlu
Gəlindən qız olarmı?

Aylar ulduza dönüf,
Gəlinlər qıza dönüf.
Oğlanlar əsgər gedif,
Yorğanlar buza dönüf.

Qaşların qarasına,
Xal qoyum arasına.
Sənin kimi gözəlin,
Yalvarım anasına.

Mən səni el bilirdim,
Alnımda tel bilirdim.
Uca dağlar başında,
Ərinməz göl bilirdim.

Əlin ələminə qurban,
Qızıl qələminə qurban.
Yaxından görə bilmədim,
Uzaqdan salamına qurban.

Başında abı malı,
Yeməyə beçə balı.
Qorxma, ürəksiz qızlar,
Bu oğlan səni alır.

Bu dağdan aşmaq olmaz,
Narıncdan başmaq olmaz.
Yar məndən küsübdü,
Daha barışmaq olmaz.

Şal tuman ağdı pilə,
Gedək Laləzargilə.
Laləzar evdə yoxdu,
Gəl gedək dayımgilə.

Məni verdilər lala,
Tamah etdilər mala.
Evinə talan düşsün,
Canına min bir bəla.

Eşnəyin[1] altı bostan,
Yıxılsın Ərəbistan.
Dostumun dostu ölsün,
Gedim çıxardım yasdan.

Məxmər çuxan çemiri,
Ağ otaqda oturur.
Ağ otağın sahibi,
Niyə köksün ötürür.

Qaşdarın qaradandı,
Haq səni yaradandı.
Sevişdik, ayrı düşdük.
Bilmirəm haradandı.

A herri-herri oğlan,
Papağı dəri oğlan.
Qızların süpürgəsi,
Toyuğun tarı oğlan.

Qapılarında cüt qalaq,
Qlava gəldi qonaq.
Hələ o katdaya bax,
Nə bişirir – qayğanaq.

Başında vala, yarım,
Dünyanı tala, yarım.
Cüt yanağı qırmızı,
Gözləri ala yarım.

Qaşların mil uzunu,
Saçın sünbül uzunu.
Necəsən, bir söz deyim,
Yanasan il uzunu.

Başındakı püşüdü,
Püşü kirman işidi.
Yar üstə yar almaq da,
Qurumsaqlıq işidi.

Sarı çitin enindən,
Tikmək gəlmir əlindən.
Anan səni çox öyür,
Alsın tiksin əlindən.

---

[1] Eşnək – Ermənistanda rayon adıdır.

Arpa əkdim ləyəndə,
Sünbül boynun əyəndə.
On iki qurban dedim,
Əlim əlinə dəyəndə.

Arpa əkdim davıra,
Kimsəm yoxdu savıra.
Müsəlman qəhət oldu,
Öpüş verdim gavıra.

Qaraçuxan qaytanı,
Yoldan çıx, yolun tanı.
Sənə qız verərlərmi?
Orta məhlə Vartanı.

Qapıları soğanlıq,
Sular gəlir bulan(n)ıq.
Padarda[1] bir çit çıxır,
Ondan alır tumanlıq.

Qapılarında quyu var,
Abı-kövsər suyu var.
Olmuşam yar dəlisi,
Görən desin xuyu[2] var.

Şalon gəldi yan verdi,
Gəncəni nişan verdi.
Azərbaycan yesiri,
Qanqal yedi, can verdi.

Qayabaşı[3] kənd oldu,
Gedən orda bənd oldu.
Yar yolu gözləməkdən,
Gözlərimə qan doldu.

Qayabaşıda təndir,
Odun gətir, gəl yandır.
Ovlanmamış kəkliyəm,
Al qoynuna dolandır.

Qayabaşında qaya,
Aldandım, düşdüm tora.
Məni tora salanı,
İmansız getsin gora.

Qarasaqqız olaydım,
Çölməklərə dolaydım.
Dul kişiyə gedəndə,
Saqqalını yolaydım.

İstəkana tök çayı,
Elə içməzlər, ayı.
Tök zirə qoy soyusun,
Ondan içkinən barı.

Qarapapaq qaldırma,
Gədə, məni yandırma.
Qaçana paltar yoxdur,
Sən məni inandırma.

---

[1] Padar – Qəbilə adı. Bir çox rayonlarda Padar adlı kəndlər var.

[2] Xuyu – d. Xasiyyət

[3] Qayabaşı – Ermənistanda kənd adı.

Quldərviş[1] bizim kənddir,
Kürd satan mundar ətdir.
Başına bir fəs qoyub,
Deyirsən muxurətdir.

Arxalığın ikidi,
Biri güllü çitidi.
Birin saxla, birin gey,
Biri babam mülküdü.

Əlində xiyar indi,
Xiyardan qıyar indi.
Çərşəb altdan göz eylər,
Hərifdi duyar indi.

İydələr çiçəklədi,
Yel vurdu göyçəklədi.
Qapıda toy çalınır,
Getməyim gerçəkləndi.

Qəni bir dəyə tikib,
Ağzini çaya tikib.
Aşı yox, əppəyi yox,
Bilmirik nəyə tikib.

Çəkməni çəkdir, oğlan,
Boyun göyçəkdir, oğlan.
Qədəm basdığn yerlər.
Güldür, çiçəkdir, oğlan.

Əmimoğlu olasan,
Mənə yaylıq alasan.
İndi ki, yaylıq almırsan,
Qadam, balam alasan.

Eləmi sancı var,
Ürəyimdə sancı var.
Fələk belə zad yazıb,
Sən əkinci, mən çuvar.

Sarı qovun dilimi,
İtirdim bülbülümü.
Gəl divar daldasına,
Deyim ərzi-dilimi.

Arxalığın üçdümü?
Baftası gümüşdümü?
Niyə məndən küsübsən,
Xahişin öpüşdümü?

Arxalığın ikiqat,
Birin saxla, birin at.
Sən ki, məndən küsübsən,
İnnən belə yalqız yat.

Qaranquş havadadı,
Əl yetməz yuvadadı.
Bir əlim yar qoynunda.
Bir əlim duvadadaı.

---

[1] Quldərviş - Ermənistanda kənd adı.

Oğlan adın Yamandı,
Qamandı, qəhrəmandı.
Gəlişinə can qurban,
Gedişin nə yamandı.

Qızıl üzük laxladı,
Verdim anam saxladı.
Əziz gün, əziz gecə,
Yar bizi qonaqladı.

Bağımızda yol da var,
Gül dibində kol da var.
Bir gecəlik qonaqsan,
On gecəlik yer də var.

Sanavarım söküldü,
Suyum yerə töküldü.
Sizin bağın gülləri,
Bizim bağa töküldü.

Oğlan, adın Qurbandı,
Gün dağlara dırmandı.
Verdiyim qızıl üzük
Barmağında kirmandı.

Aftaxa burma-burma,
İçində sarı xurma.
Kağız yazım yolluyım,
Üç gündən artıq durma.

Göyərçin çığ-cığ eylər,
Həyətdə palçıq eylər.
Neylərəm elə yarı,
Gündə bir acıx eylər.

Yarım gedib üç günə,
Vədə verib beş günə.
Beş gün də ona qurban,
Qoy gəlsin on beş günə.

Sandıq üstə gəzərəm,
Sandığı gül bəzərəm.
Ağır elin qızıyam,
Qəriblikdə gəzərəm.

Sandıq üstə üzüm var,
Üzüm, səndə gözüm var.
Bir həyətdə üç qardaş,
Kiçiyində gözüm var.

Mərcimək gülə-gülə,
Ölçərəm silə-silə.
Yar qapıdan girəndə,
Qalxaram gülə-gülə.

Oğlan, adın Məhəmməd,
Ağzı gül, qoynu cənnət.
Sevdin, ala bilmədin,
Niyə çıxdın müxənnət.

Əmim oğlu Neminə,
Şal yaraşır belinə,
Əmisi qızı qurban,
Qələm tutan əlinə.

Göydən xəlbir asılıb,
İçinə gül basılıb.
Yaxşı qızın kəbini,
Pis oğlana kəsilib.

Kəkliyim, get ot gətir,
Yardan bir umud gətir.
Əgər yarım gəlməsə,
Cilovundan tut gətir.

Arpa-buğda başıyam,
Sandıqlar qumaşıyam.
Yarım xəbər alsanız,
Komandir yoldaşıyam.

Bulaq başı bıtırıq,
Yarım gəlsin oturaq.
Bir o desin, bir də mən,
Bu sevdadan qurtulaq.

Dağda qarpız xunudu,
Getdim yar yuxuludu.
Girdim yarın qoynuna,
Bənövşə qoxuludu.

Bulaq başı paxla yar,
Al kəmərim, saxla sən.
Kisə tikdim yolladım,
Sovqat üçün saxla, yar.

Ağbaba yolu fərman,
Torpağı cana dərman.
Yardan bir məktub aldım
Yarı dərd, yarı dərman.

Bu dərənin uzunu,
Oğlan, qaytar quzunu.
Get dayına çoban ol,
Bəlkə verə qızını.

Katalım ola-ola,
Məc tutan qayçım ola.
Yanıldim qayın dedim,
Təngə gəl yarım ola.

Bu gələn haralıdı,
Ağ otaq maraladı.
Üç aydı yarım gedib,
Kəndimiz xarabadı.

Ağ çuxa, qara çuxa,
Çuxanın qolu yuxa.
Üç gündü yarım gedib,
Az qala canım çıxa.

Simavar od salmışam,
İskana qənd salmışam.
Yar məni atıb gedib,
Yaylaqda tək qalmışam.

Bulaq başı çiçəkləndi,
Gün vurdu göyçəkləndi.
Başdandı tay yuxası,
Ayrılıq gerçəkləndi.

Burdan bir atdı keçdi,
Sürdü dörd nallı keçdi.
Qurban olum, ay qızdar
Yarım nə dedi keçdi?

Buralar xozan (kin) olmaz,
Sən deyən gözəl olmaz.
Alırsa dul alginan,
Qızdarnan bazar olmaz.

Corabın ağına bax,
Dəstələ bağına bax.
Yar yadına düşəndə,
Ələyəz dağına bax.

Ələyəz ələmlidi,
Dörd yanı qələmlidi.
Ələyəzdən qız alan
Ürəyi vərəmlidi.

Bazarda ətlas,
İynələr batmaz.
Nişanlı qızdar,
Gecələr yatmaz.

Çıxdım tirəy üstünə,
Baxdım yarın qəsdinə.
Əlində qızıl alma,
Vurdu sinəm üstünə.

O tay bu tay üzümdü,
Hanıx düzüm-düzümdü.
Heç kəs qızın verməsə,
Əmim qızı bizimdı.

Əmim oğlu elinə,
Şal yaraşır belinə.
Əmin qızı qurbanı
Qələm tutan əlinə.

Əmim oğlu bir dənə,
Kəkil töküb gərdənə.
Əmisi qızı qurban,
O boya, o gərdənə.

Əmim oğlu bir idi,
Yaylığı çox kir idi.
Qazan asdım yumağa
Axan sular qurudu.

Əmim oğlu olasan,
Mənə bir şal alasan.
Hörəm tökəm dalıma,
Görəndə şad olasan.

Oğlan adın Yaqubdu,
Gün dağlara doğubdu.
Verdiyin qızıl üzük,
Barmağımı boğubdu.

Oğlan adın Musadı,
Duman dağı bürüdü.
Səndən mənə yar olmaz,
Cavan canım çürüdü.

Bu dərə lil dərə,
Lilli müxəyli dərə.
Açarın yar aparmış,
Qalmış qıfıllı dərə.

Otaq-otağa baxır,
Altından bulaq axır.
Çəkməliyə can qurban,
Çarıqlıya kim baxır?

Otaq-otağa baxır,
Altından bulaq axır.
Mənim bu şeytan yarım,
Dönüb qırağa baxar.

Mərhamər otlar qoyun,
Zəhrimar otlar qoyun.
Çobanı xəstə salıb,
Zəhrimar atlar qoyun.

Çobanam qoynunuza,
Babalım boynunuza.
Ya məni evləndirin,
Ya alın qoynunuza.

Oğlan adın Məhəmməd
Ağzı gül, qoynu cənnət
Sən ki məni almadın
Müxənnətsən müxənnət

Oğlan adın bəydi, gəl
Dərdin məni əydi, gəl
Bir cüt nar bəsdəmişəm
Kafir əli dəydi, gəl.

Qızıl iynənin sapı,
Sizə yol, bizə qapı.
Məni yardan ayıran
Dilənsin qapı-qapı.

Bu gün günüdü bazar,
Əl vurma dərdim azar.
Yarı yardan ayıran
Bir gündə yolun azar.

Dəyirman üstü çiçək,
Oraq gəti gül biçək.
Sən kəkil qoy, mən birçək
Görək hansımız göyçək?

Dəyirman üstü yarpız,
Yar gəlir ora yalquz.
İstədim qəlbim açam,
Gəldi qardaşı vaxtsız.

Dəyirmanı oydular,
Oydular od qoydular.
Təzəcə sevmişdik,
Təzə qanun qoydular

Sevdim əzəldən səni,
Seçdim gözəldən səni.
Baxdım bivəfa çıxdın,
Tez qoydum əldən səni.

A yallı-yallı bəndi,
Yallı bürüdü kəndi.
Pul verim satın alım,
Yarım oturan kəndi.

Yarı yolladım özüm,
Allah, mana bir dözüm.
Yolda yolçusu qurban
Evə gələndə özüm.

Çəkmənin bağı yaşıl,
Qoy bağlasın əmoğlum.
Məni yada verirlər,
Qoy ağlasın əmoğlum.

## A ŞAQQILLAR KƏMƏRİN[1]

Gəl gedək beləsinə,
A şaqqıllar, a şaqqıllar kəmərin;
Çiyələm dərəsinə,
Varmı yardan, varmı yardan xəbərin?
Çiyələm evdə yoxsa

---

[1] Bu nanay 1960-cı illərdə toplanmış D-12 dəftərində qısa olaraq verilmişdir. Tam mətni Tacir Səmiminin kitabından əlavə etmişik. – T.İ.

A şaqqıllar, a şaqqıllar kəmərin;
Od vuraq məhləsinə,
Varmı yardan, varmı yardan xəbərin?
Gəl gedək çıraq ilən,
A şaqqıllar, a şaqqıllar kəmərin;
Ot biçək oraq ilən,
Varmı yardan, varmı yardan xəbərin?
Çiyələm evdə yoxsa
A şaqqıllar, a şaqqıllar kəmərin;
Axtaraq soraq ilən,
Varmı yardan, varmı yardan xəbərin?
Gəl gedək kənar ilən,
A şaqqıllar, a şaqqıldar kəmərin;
Gül, qönçə, dinar ilən,
Varmı yardan, varmı yardan xəbərin?
Çiyələm evdə yoxsa
A şaqqıllar, a şaqqıllar kəmərin;
Axtaraq fanar ilən,
Varmı yardan, varmı yardan xəbərin? (2).

**QƏLİN OXŞATMASI:**

Gəlin xoş gəldin, xoş gəldin.

**Baldız Pəri:**

Ay da ildızın pəri,
Xiyar, xırtızın pəri.
Gəl alım xan qardaşa,
Olum baldızın, Pəri.

(Ay da ulduzun pəri,
Xiyar, qarpızın pəri.
Gəl alım xan qardaşa
Olum baldızın, Pəri.)

Oğlan görmədən evlənib, gəlib evə çıxanda kifirliyi meydana çıxar, bacısı deyir:

Fayton döyül karutdu,
Gözləri şabalıtdu.
Gəlin döyül mərnamutdu?
İndi gəli Səttar oğlan,
Görsə bağrı çattar oğlan.

Gəlin dövlətli imiş deyir:

Övmüz öyvüzə yaxın,
Öymüzə gəlib axun,
Gəlin malıma baxun,
Neynim gəli Səttar oğlan,
Cəhənnəmə çattar oğlan.

Bacı:

Ayağı sığmır başmağa,
Dodağı sığmır yaşmağa,
Cəhd edib dalaşmağa,
İndi gəli Səttar oğlan,
Gül bağrı çattar oğlan.

Gəlin:

Atamın adı Hidayət,
Qardaşım küll-vilayət.
Anam Birxanım arvad,
Neynim gəli Səttar oğlan
Cəhənnəmə çattar oğlan.

Şma qarı (bütün elin Şiribacısı ilə Əzizə Cəfərzadənin müsahibəsindən (1960-63-ci illər):

Urus buralı olub yerləşəndə bizim ailə Ağüzümdə yaşayırdı, oralı qazisi Zülfüqar ağa idi. Mənim o il qardaşım Kazım anadan olub, ondan sonra mənim 2 bacım olub, hərəsi 3 yaşında ölüb, (15 yaşında da bir qardaşım ölübmüş, adı İrzaqulu) mən o 2 bacımdan sonra 1840-ci ildə anadan olmuşam.

Həmişə gözüm o taydadı, gedirdim xırman yerinə baxırdım otda, deyirəm öleydim Ağüzümdə, tayfamnan, millətin içində. dumbulçalın üstünə mal üfrəyi salın

Allah qismət edəydi
Ağüzümü görüydim
Ağüzümdə öleydim.

İrəvan yollarında,
Bənd olum kollarında.
Bir cüt bazbənd olaydım
Yarımın qollarında.

Yaymanı səribsən xırmana, düzə,
Göydə yedirərsən ördəyə, qaza,
Bu cür bəzənibsən dur gedək bizə
Anam sana qurban, ay sarıköynək.

**Əzizə**: – Qazun var?

**Şma qarı**: – Vallah bir-iki toyuğum var idi, o da qırıldı, qazım zadım yoxdur.

Yar da öz yarına beləmi baxar?
Bərk sıxıbsan ağ əllərdən qan axar.
Xurşud bəyim yada düşüb ağlaram,
Qoca elim yada düşüb ağlaram.

Qızıldaş kəndindən biz keçib gedərdik, sünni şiə yola getmiyib ayrılıblar, bir o yanda qaldı sünni, bir bu yanda. İndi mən qızıldaş kəndin hamısını Şmasıyam.

***

Hüseynova Kəlbə Səkinə Meşədi Abbas qızı, Oxçuoğlu kəndi Amasya rayonu Ermənistan SSR: "Gələn urusun böyügünün adı Lorus imiş. Dədəm evi, mənim millətim, tayfam Xilalı idi."

**Amasiya dialektindən sözlük və deyimlər**

Ağac dorğa – Ağac doğramaq.
Alacan, cavab yazacan – Məktubu aldın cavab yaz.
Allahsız yerdə otu, böyüksü yerdə otuma.
Avtaxa – aftafa (uzun lüləyi və qulpu olan su qabı)
Başıbəddi – evli
Bayda – Badya (içinə süd sağmaq, yaxud maye tökmək üçün misdən, saxsıdan düzəldilmuş qab.)
Böcük – milçək
Boylum – bu yol, bu dəfə
Çay tavağı –- nəlbəki
Çəçil – şıratdan maya töküb qayrılan pendirə deyilir
Çəki, qıdan kasını – çərtmə
Çini – boşqab
Dam – ev
Dən-dən və əmən –kömənci-əməküməci

Dərin çini - dərin boşqab

Deyif - deyib

Doğrama – Doğramac yemək (göyərti, xiyar və ayranla hazırlanır)

Dolça – kruşka emalirovannıy

Don, ətəkləmə – qabağı açıq, büzməli tuman

Dönəm – dəfə

Dorğa – doğramaq

Epyi – xeyili

Eşik – bayır

Fırın – daş soba

Fırın – peç

Gəbər – öl

Ged anarı – uzaqlaş

Gedif – gedib

Göyün (yerin) enin var?

Haraba – araba

Hatar – xəbər

Heyratı – kəlağayı

İskan-tabax – stəkan-nəlbəki

İsti – əvəlikli xəmir xörəyi

Kartop – kartof

Kikrə – əl dəyirmanı

Kilim – palaz (ağ və qəhveyi taxtamicə palaz)

Kiridiyi yox idi – Susmurd hey danışırdı.

Kiriyif – susub.

Lor – şıratın çeçildən sonra suyunda qayrılan pendir

Mərtək – pərdi (evin üstünə atılan ağac)

Müharibədən sonra bacım eləcə otururdu (yəni ərə getməmişdi).

Nadinc – narahat və dəcəl
Örtüy – döşlüy, önlük
Otu bir qısmat çörəh ye – Otur bir tikə çörək ye.
Oxley – oxlov
Pazı – çuğundur
Pencər – göyərti
Potur – aborka
Qazan – su qızdırılana deyilir.
Qəməlti – bıçaq
Qoca – böyük
Qurna – kran
Quzuyu qatdım
Rəfələ qayrın, lavaş çəkin – lavaş bişirin
Rəfətə – lavai yapılan yastıq
Şalqam – qırmızı turp
Sərniş – Sərnic (misdən, saxsıdan və s.-dən düzəldilmiş ağzıgen bir və ya iki dəstəli qab)
Şor – ayranın qaynanmışından düzələn şör
Sorucaqan – zəli
Su qabları – kuzə, cürdək, sənək
Tata – bibi
Tava – qazan (xörək bişən qazanlara – tava deyilir)
Toyuq bozbaşı qarıxıram – Toyuq şorbası bişirirəm
Tuman – çaxçur (altdan geyilən şalvar)
Ufaq – kiçik (nazik);
Xalası dırmıqedir – Xalası dırmığa gedir.
Xamır qatıram – yoğururam
Xışda – əzişdir.
Xışlayacıq – döyüb əzmək, şilküt etmək
Yayla – yaylaq

Yengə – qardaş arvadı
Yuxa çini – dayaz boşqab
Zeşt – Evin üstünə vurulan tənəkə (şiferi əvəz edir)

Bütün səsləri tam və qalın deyərlər, mənə fonetika üzrə qismən Naxçıvan – İrəvan ləhcələrini xatırladır.

**Kənd adları:** Ağüzüm, Oxçuoğlu, Boğazkəsən (gürcü kəndi), Qannıca, Güllübulaq, Ağbaba, Qızıldaş.

**Tayfalar:** Söyləməzlər, başmaqçılar, xılalı

## Xörəklər

Aş - quru əvəliklə düyüdən
Qımı - qatıqla bişir
Yarma, pazı, ayranaşı, küftə, dolma, xaşıl, xəngəl.

## Süd və süd məhsulları

İnəyi sağırıq, südünü maşına veririk, üzü bir tərərfə çıxır, şıratı bir tərəfə, üzünü götürüb qaymaq çalırıq, üzünü götürüb qaynadırıq, üstünə un tökürük quymaq çalırıq.

## DƏFTƏR – 13: Aşiqanə bayatılar

Mən aşıq  kimsəsizə,
Rəhm elə kimsəsizə.
Nə göydə mələk bənzər,
Nə yerdə kimsə sizə.

Əzizim bir damara,
Neştər vur bir damara.
Məni ki, zülfün vurub,
Vurdurma bir də mara.

Aşığam o baxanı,
El xanı, oba xanı.
Öz baxanım sağ olsun,
Neynirəm o baxanı.

Könlüm bir tam arzılar,
Yeməyə tam arzılar.
Dur sallan sərv boylum,
Qoy baxsın tamarzılar.

Aşığam alam məndən,
Bağ səndə, alma məndən.
Dərmanın sənin olsun,
Tək dərdin alma məndən.

Əzizim üz yerdən üz,
Sonalar üz  yerdən üz.
Kipriklər kölgə salmış,
Yarılmış yüz yerdən üz.

Aşığam yara mən də,
Sızıldar yara məndə
Ölü olsam dirilləm,
Ləbindən, yar, əməndə.

Mən aşığam sarı qız,
Sarı köynək, sarı qız.
Sinən tabutum olsun,
Saçın ilə sarı, qız!

Əzizim üz qanadı,
Tərlanın öz qanadı.
Meh əsdi, zülf dağıldı,
Tel dəydi, üz qanadı.

Mən aşıq suçu hanı?
Suyun tək suçu hanı?
Mən ləbin teşnəsiyəm,
Götürsə su cahanı.

Gəlişin gülü güldən,
Xəbər ver gülü güldən.
Cahan gülə qarışmış,
Seçmirəm gülü güldən.

Mən aşıq gülsə dağlar,
Gül peykan, gül sadağalar.
Səndən ayrı gözlərim,
İnan, gülsə də, ağlar.

Əzizim gül məkanda,
Kül əkdim gül məkanda.
Səni görüb güləvəm,
Mən handa, gülmək handa?

Araz, Araz, xan Araz,
Min dağdan axan Araz.
Yarın əlindən getsin,
Sən də mən tək yan Araz.

Araz qoşanda bilər,
Kür qovuşanda bilər.
Yar-yarının qədrini,
Ayrı düşəndə bilər.

Araz qoşanda bilər,
Kür qovuşanda bilər.
Yar-yarının qədrini,
Ayrı düşəndə bilər.



# CİB DƏFTƏRLƏRİNDƏN BAYATILAR VƏ BAŞQA ŞEİR NÜMUNƏLƏRİ

**Cib dəftəri: P40-16**

Mən aşıq, ay ustakar,
Haqq özünə ustakar.
Ərişdə bir tükan gördüm,
Şagird laldı, usta kar.

Bir öy tikdim dəyirmi,
Pencərəsi igirmi.
Hara qoyub gedirsən,
Bu öy sənin dögülmi?

**Cib dəftəri: P97-05**

Evim dalı xarman, yar,
Gəl dərdimə dərman, yar.
Barmağıma üzüyü
Taxmısan ərmağan, yar.

Yarım gəlir meşədən,
Toplayıb dörd guşədən.
Dodaqları gilənar,
Ətiri bənövşədən.

Dağıtdı ay, dağıtdı,
Duman gəldi dağ itdi.
Biz də bir oymaq idik,
Fələk vurdu dağıtdı.

**Cib dəftəri: P58-91**

Mən aşığam Nərgizlər,
Top-top bitib nərgizlər.
Əsrimiş maya gördüm
Qolduğunda nər gizlər.

Dağların qarı düşüb,
Gecənin yarı düşüb.
Qınamayın o qızı
Yadına yarı düşüb.

**Cib dəftəri: P108-01**

Boğçamızda üzüm var,
Gözəllərdə gözüm var.
Qulaq ver, ay gözəlim,
Sənə bir cüt sözüm var.

Gülməyən üz gülsünmü,
Saqi bəzmə gəlsinmi.
İnsaf elə, ay gözəl,
Səni sevən ölsünmü?

Ana başda tac imiş,
Hər dərdə əlac imiş.
Uşaq qoca olsa da,
Anaya möhtac imiş.

**Cib dəftəri: P108-02**

Arxalığın bir üzdü,
Bir astardı, bir üzdü.
Gəl oturaq üz-üzə,
Görən desin bir üzdü.

Yeznələrim seyiddi,
Əyninə nə geyibdi?
Evdə başım ağrısı,
Çöldə qurban deyibdi.

Aşıq su deyər ağlar,
Sümbül su deyər ağlar.
Dəryada bir gül bitmiş,
O da su deyər ağlar.

Səni  görüm ölməyəsən,
Yatan gün görməyəsən.
Cənnətə gedəndə də
Cəhənnəm görməyəsən.

Aşıq yadına bağlar,
Pərsa yadına bağlar.
Genə qoca bülbülün
Düşüb yadına bağlar.

Şirvan səndən gələrəm,
Geyik kimi mələrəm.
Bir ot allam ağzıma,
Dağı-daşı dələrəm.

Ay doğdu girdələndi,
Doğduqca girdələndi.
Oduva yandı canım,
Külüvə girdələndi.

Xəncərim qannısına,
Düz bata qannısına.
Canım canı dərdindən
Yalvarır qannısına.

Avaxıla gur yağır,
Qəleybuğurta çır yağır.
Qəşət, Bico, Ləngəbiz –
Oralara zır yağır.

Araxçını püstə qoy,
Kəkilüvün üstə qoy.
Əgəm başun ağrısa,
Gət sinəmin üstə qoy.

Maral yerin şam oldu.
Otlaq yeri şam oldu.
Yollaruva baxmaqdan
Gün gəldi axşam oldu.

Fit dağıdı dağımız,
Meyvəlidi bağımız.
Eniş-yoxuş çıxmaqdan
Əyildi ayağımız.

Şirvanın almasına,
Valehəm almasına.
Yaqut-zümrüd gözəldi,
Aşiqəm almasına.

Mən aşıq meşələrdə,
Gül yığdım meşələrdə.
İtirdim nazlı yarı
Gəzirəm guşələrdə. (ƏC)

Şirvanın yaymasına,
Bişir ver yayma sənə.
Gəlin köylü köyrəydi,
Diqqət et, dəyəmə ona.

Salyanın bucağında,
Od yanar ocağında.
Vəfalı yarım olsa
Yataram (ölərəm) qucağında.
(ƏC)

Əzizinəm gözəl din,
Gözəl məzhəb, gözəl din.
Ya lal ol yerində dur,
Ya dinirsən gözəl din.

Bu bağda ilan olmaz,
İlanı görən olmaz.
Qəriblikdə ölənin
Dərdini bilən olmaz. (ƏC)

Şirvandan keçər oldum,
Suyundan içər oldum.
Mən səndən qopunmazdım,
Ayrıldım naçar oldum. (ƏC)

Gedərəm oturmaram,
Təhnə söz götürmərəm.
Yüz il ayrılıq çəksəm
Səndən əl götürmərəm. (ƏC)

Şirvandan qaçaq oldum,
Yüz illik naçar oldum.
Sevdim yara qovuşdum,
Pis gözə bıçaq oldum. (ƏC)

Ərzurumun dağıdır,
Dörd bir yanı yağıdır.
Qız sənin qoynun içi
Əsil cənnət bağıdır. (ƏC)

Qapıdan huru gəlir,
Gözümün nuru gəlir.
Bu arxı kim arıyıb
Su belə duru gəlir. (ƏC)

Ay qız gözün qadası,
Göllərimin sonası.
Bir de kimi sevirsən
Ananın gül balası. (ƏC)

Göydə ulduzlar gedər,
Gah əyilər gah gedər.
Qorxma ürəksiz oğlan,
Üstüncən Allah gedər.

Gör nə əcəb şordu bu,
Ürəyini vurdu bu.
Dur gedək, ay Əzizə,
Bizi tamam yordu bu.

Evimizə ozan gəlib,
Pərkarımı pozan gəlib.
Gündüz olanı gecə
Oğluma yazan gəlib.

**Cib dəftəri: P108-03**

Əlincəm, ay Əlincə,
Gülləri qönçə, qönçə.
Yığıb qoynundan güllər,
Gözlərəm yar gəlincə. (ƏC)

Eləmi həsən[1] dağlar,
Yel vurub əsən dağlar.
Şan-şan olmuş qəlbimin,
Səbrimi kəsən dağlar. (ƏC)

Əlincəm, ay Əlincə.
Qızları güldən incə.
Əhdi-peyman etmişik,
Gözlə məni gəlincə. (ƏC)

Eləmi həsən dağlar,
Səbrimi kəsən dağlar.
Yarıma neyləmişəm
De bu mən, bu sən dağlar.
(ƏC)

Eləmi dağ üstünə,
Dağ çöküb dağ üstünə.
Fələyə neyləmişəm,
Dağ çəkir dağ üstünə. (ƏC)

Eləmi dağ döşünə,
Gün düşüb dağ döşünə.
Ana baladan ayrı,
Düşübdü dağ döşünə. (ƏC)

---

[1] Həsən - ə. Gözəl, göyçək.

Dağlar uzağdı, neynim?
Yarım irağdı, neynim?
Yarımın məhəbbəti
Mənə düzağdı neynim? (ƏC)

Get gəz Yəməni gör,
İraqı, Yəməni gör.
Günüylə yola gəlməm,
Ya onu ya məni gör. (ƏC)

Bu mənəm, bu sən dağlar,
Yolumu kəsən dağlar.
Həsrətəm bir busənə
Qəlbimi busən dağlar.
(Hər yeri süsən dağlar) (ƏC)

Dağların lalasına,
Gün düşüb talasına.
Anam həsrət qalıbdı
İstəkli balasına. (ƏC)
Dağları aşdım gəldim,
Yolumu tapdım gəldim.
Gözün aydın, ay ana,
Yara qovuşdum gəldim. (ƏC)

Aşıq oralı ollam,
Göylü qaralı ollam.
Sağ yerində yer elə
Mən də oralı ollam. (Sona)

**Cib dəftəri: P109-02**

Araxçınım zərxara,
Rast olmasın zunxara[1].
(Cib dolu albuxara.)
Qiyamət o gün olar,
Qismət ola gül xara. (ƏC)

Damuza damcı damır,
Damuza qurban olum.
Birüzün xəri üçün
Hamuza qurban olum.

Əzizim qar-qamışa,
Qar yağdı qar-qamışa.
Yüz min alqış neyləsin,
Bir fələk qarğımışa.

Arxçının biçmişəm,
Biçib gülə bükmüşəm.
Cəm gözəllər içində
Təkcə səni seçmişəm.

[1] Zunxar – f. Qaniçən, zalım, qəddar.

Arxçının dar-darı,
Gəl başımın sərdarı.
Evimizə gəlmədin,
Qonşumuz gəl barı.

Araxçının firəngi,
Yuma, gedər irəngi,
Hara qoyub gedirsən
Mənim kimi zirəngi?

Araxçının yan qoyub,
Yan qoyub, bu yan qoyub,
Bu yoldan keçən gözəl
Ürəyimə qan qoyub.

Arxaçının məndədi,
Yumuşam, çəməndədi.
Dünya gözələ dönsə
Mənim gözüm səndədir.

Araxçının zərxara,
Yerriyi var al xara.
Qiyamət o gün qopar
Qismət olar yar xara.

Aftafanı götdü yar,
Gör ha yana getdi yar?
Oba tünnük, boy alçaq
Aralıxda itdi yar.

Açıq haralı dağlar,
Peykan yaralı dağlar.
Çağırram hayar, bala!
Kəsib aranı dağlar.

Qoyun mələyən olar,
Duza gələyən olar.
Kimin balası yoxdur
O da mələyən olar. (ƏC)

Başuva mən dolanım,
Mən dönüm, mən dolanım.
Sən ol sərvim ağacım
Kölgəndə mən dolanım. (ƏC)

Əzizim alma qala,
Boşqaba alma qala.
Mən səni gizli sevdim
Kim saldı qalmaqala.

Əziziyəm keşkə sən,
Körpü üstən keş gə sən[1].
Gəldin köylum bulandı
Gəlməyəydin keşkə sən.

Əziziyəm qoy qala,
Odun gəti çox qala.
Sözün demə özgəyə
Ürəyində qoy qala.

---

[1] Keş gə sən – d. keç gəl sən.

Ay köpəy oğlu Şərif!
Yoxdur sənə bir hərif.
Hövücü siçan qarası,
Düyüsü ondan zərif.

**Cib dəftəri: P-109-03**

**Badam Məşədi Oruc qızı (Tağılı):**

Ay hələ-hələ Şirnalı,
Saqqalı şələ Şirnalı.
Badam bir oğlan doğub
Sən ona dədə Şirnalı.

**Şirnalının dilindən:**

Mən hələ-hələ deyiləm,
Saqqalı şələ deyiləm.
Badam bir oğlan doğub
Mən ona dədə döyüləm.

Cıcığ[1] balamı görəsən sən,
Dağlarda qalıb öləsən sən.
Bir dəstə yemlik alıb
Badamın üstə gələsən sən.

***

Köynəyi dar istərəm,
Düşməni xar istərəm.
Mal-dövləti neynirəm
Ürəyyimcə yar ist ərəm.
(ƏC, 19.04.1985, Mərdəkan)

Qız səni var istərəm,
Qoynunda bar istərəm.
Vətəni toy-düyünlü,
Yağını zar istərəm. (ƏC)

---

[1] Udulu Şəkəralının ləğəbi

Şirvana yaşım düşdü,
Şeş atdım, beşim düşdü.
Baş əsdi, bel bülküldü
Qocaldım dişim düşdü. (ƏC)

Şirvana yolum düşdü,
Oxatdım qolum düşdü.
Qürbətdə rəml atırdım
Yazıma ölüm düşdü. (ƏC)

Yar sənə gözüm düşdü,
Aləmə sözüç düşdü.
Qovuşdu sevgililər
Bir mənə dözüm düşdü. (ƏC)

Qız, duvağın al gərək,
Şirin dilin bal görək.
Sən tək gözəl üzündə
Qoşa-qoşa xal gərək. (ƏC)
(02.04.1985, Mərdəkan)

**Cib dəftəri: P110-19**

Ay hilları, hilları,
Bir arvad aldım qarı.
Oğlu, qızı cəhənnəm
Özü yaza çıxsın barı.

Qurud aşı,
Yeməyə qurud aşı.
Həqqin kəlamı olsa,
Göyərdər quru daşı!

Evləri düzümünən,
Düzülüb düzümünən.
Hamı minnətə gəlib
Dur gedək biziminən. (Ümmülbəni)

**Cib dəftəri: P111-01**

Dağların döşünə bax,
Qar yağıb başına bax.
Mən sevdim özgə apardı,
Fələyin işnə bax.

Qarnın qara qazandır,
Dilim ərzə yazandır.
Fələyə bel bağlama,
Fələk pərgar pozandır.

Mən aşıqəm belə gəl,
Belə sallan belə gəl.
Oğul ölmək ev yıxar,
Qardaş ölmək əyər bel.

Mən aşiq o güneylər,
Gün doğmuş o güneylər.
Sevən sebınun görsə,
Bayramın o gün eylər.

Sel axar,mələr gələr,
Dağ-daşı dələr gələr.
Bir igid kasıb olsa,
Başına nələr gələr.

Kababı köz öldürür,
Sürməni göz öldürür.
İgidi qılınc kəsməz,
Tənəli söz öldürür.

Qərənfilsən butasan,
Saldın yanar oda dən.
Mən o güldən dəyiləm,
İyliyəsən atasan.

Qızılgülün özündən,
Öpüm ala gözündən.
O yarı mən çox sevirəm,
Ayırmaram özümdən.

Əzizim gözəl alma,
Yeməyə gözəl alma.
Çirkin al əsil olsun,
Bədəsil gözəl alma.

Əziziyım hələ var,
Bülbül bağda hələ var.
Əlim səndən üzüldü,
Gönlüm səndə hələ var.

Əziyəm maralım yar,
Ceyranım malım yar.
Necə rəva görürsən
Gül təki saralım, yar.

Başdan mənəm, başdan mən.
Yemərəm hər aşdan mən.
Nə atam var, nə anam
Yaranmışam daşdan mən.

Gözlərin qarasından,
Öpəydim qarasından.
Məni yardan ayıran
Ayrılsın balasından.

Meynələrində qara,
Düşdüm qurduğum tora.
Səni məndən eyləyən,
Tələsik getsin göra.

Şah dağı qardan doymaz,
Bağçalar bağdan doymaz.
Mənim ovçu gözlərim
Baxdıqca yardan doymaz.

Qursağın yanı ənsiz,
Gəlmir qəraraım sənsiz.
Boynunda şahmar yatsın,
Necə yatırsan mənsiz?

**Cib dəftəri: P111-02**

Əzizim sinəsinə,
Çim yaz gəl sinə-sinə.
Nə ləbim ləbə dəydi,
Nə sinəm sinəsinə. (B-1251)

Əzizim səndən iraq,
Düşmüşəm səndən iraq.
Qoy dərdin mənə gəlsin
Tək olsun səndən iraq.

Əzizim narın ələ,
Ələrsən narın ələ.
Yüz ələkdən ələndim,
Düşdüm bir narın ələ. (B-1251)

Əzizim yaram nədi,
Qəm ilə aram nədi.
Bu dərdə sən salmısan,
Çəkməsəm çaram nədi.

Eləmi Hindi zülfün,
Gərdənə mindi zülfün.
Dəstələ qoy qoynuma,
Qan elər inid zülfün.
(B-1251)

Aşığam Güləndərdi,
Gül əkdim gülən dərdiş
Candan əziz saxlaram,
Canandan gələn dərdi.
(B-1251)

Mən aşıqam yar a yar,
Doğra bağrım yar a yar.
İlqar qənimin olsun
Belə baxar yara yar? (B-1251)

Aşığam bir əmini,
Ya yaqut ya yəməni.
Yarəb, öldürlərmi,
Ləbindən  bir əməni.

Aşığam yüz ildi,
Zülfün üzdən üzüldü.
Üç gündür yarım gəlməz,
Elə billəm yüz ildi.

Aşıqam Salmasa da,
Yol gedər Səlmasa da.
Pünhan ağla gözlərim
Aləmə salma səda.

Qarşuda qarğa bağa,
Yağıbdı qar qabağa.
Nə bülbül bağdan olur,
Nə gəlir qarğa bağa.

Araz, araz xan Araz,
Sultan Araz, xan Araz.
Yarım qalıb o üzdə,
Gəl eləmə qan Araz.
(A-9/5410)

Mən aşıq az binədən,
Dərdimi yaz binədən.
Tərlana xəbər olsun
Uçubdur qaz binədən.

Mən aşıq gözümüz var,
Kababa közümüz var.
Biz də gözəl görmüşük
Bizm də gözümüz var. (A-81)

Yoverin Ayı gəli,
Qocalmış dayı gəlir.
Qız tək örtmüş başına
Ağ kalağayı gəlir.

Mən aşıqam üz üşür,
Sona göldə üzüşür.
Məkəslərin tərpətmə
Zülfün titrər, üzüşür. (A-81)

Əlində var çomağı,
Qarşılayaq qonağı.
Başlayaq onunla biz,
Oynayıb oxumağı.

Əzizim üz qanadı,
Sonalar üz qanadı.
Bad əsdi zülf dağıldı,
Tel dəydi – üz qanadı. (A-81)

Zülfün siyəh yüz üzül,
Ömrün olsun yüz-yüz il.
Aşıq səndən üzülməz,
Sən aşıqdan yüz üzül.
(B-1251. 80b)

Mən aşıq üz yerdən üz,
Sonalar üz, yerdə üz.
Müjgan sayəsi düşmüş,
Dağılmış yüz yerdən üz.
(A-81)

Aşıqam yara mən də,
Sızıldar yara məndə.
Ölü olsam dirilləm
Ləbimdən yar əməndə. (A-81)

Aşıq Qaraman çəkər,
Xalın qara man çəkər.
Yarın soyuq üzündən,
Dağda qar aman çəkər.

Aşıqam alma məndən,
Bağ məndən, alma məndən.
Dərmanın sənin olsun,
Tək dərdin alma məndən.
(B-1251)

Aşıqam gecə məndə,
Dərdin də gecə məndə.
Zülfün dək ağlar Aşıq
Ləbindən gecə əməndə. (A-81)

**Cib dəftəri: P111-03**

Qarabağın qızları,
Qap-qaradı gözləri.
Gen dünyaya car oldu,
Vətənpərvər sözləri. (ƏC)

Əslim Qarabağdandı,
Yolum uca dağdandı.
Çörəyimiz təndirdən,
Suyumuz bulağdandı. (ƏC)

Odum var, qabarım var,
Od üstə qabarım varş
Ağ şişdən, göy əsbədən
Hamsından xəbərim var.

**Cib dəftəri: P111-04**

Bu dərənin alıçu[1],
Qınalı parmaq ucu.
Evlənməyən qızların
Qabul olmaz orucu.

Ay doğdu girdə-girdə,
Üzün görəydim bir də.
Həsrət bitə olaydıq
İkimiz bir qəbirdə.

Sazda sarı tel olmaz,
Aşıqda uyğu olmaz.
Yar deyib qaçır məni,
İgitdə qorqu olmaz.

Umudum, ay umudum,
Su dibində qurudum.
Umudum sənə idi,
Sən də kəsdin umudum.

---

[1] Alıç – t. Yemişan.

Şirvana paşa gəldi,
Gör nə tamaşa gəldi.
Yar yolun gözləməkdən,
Ömrüm başa gəldi.

Şirvanda quzu gördüm,
Tükün qırmızı gördüm.
Açdım evin qapısın,
Sevdiyim qızı gördüm. (ƏC)

Şirvanın şirin narı,
Yeməyə şirin narı.
Var dövlət sizin olsun,
Göndərin bizim yarı. (ƏC)

Şirvandan kənaram mən,
Od tutub yanaram mən.
Bircə işarəöt bəsdi,
Arifəm qanaram mən. (ƏC)

Bu yol ha yana gedər,
Aşar ha yana gedər.
Saxla atın başını,
Qaçar İrana gedər.

Qapıdan huri gəlir,
Gözümün nuru gəlir.
Bu arxı kim arıdıb
Su belə duru gəlir.

Aşiqəm yar alana,
Bayqu tək  yaralanaş
Qorxuram şəbnəm düşə,
Gül üzün yaralana.

Ay aşiq yara qandı,
Var sözüm yara qan, di (de).
Şux qəmzən, şər gözlərin,
Bağrımı yaraqandı.

**Cib dəftəri: P111-07**

Mən aşıqam yanarsuz,
Ya hevasuz, ya narsuz.
Ahım dağlara düşdü,
Qaçun, ellər, yanarsuz.
(B-301/2139)

Mən aşıqam yara nəm,
Bayaqdanam yaranəm.
Qorxuram şəbnəm düşə,
Gül üzünü yara nəm.
(B-301/2139)

Quşumu atdım Qutana,
Gelir utana-utana,
Yengicə yaşmaq tutana
Qaldım yarvara-yalvara.

**Cib dəftəri: P111-09**

Ay qara oğlan,
Çıx damda tovlan.
Qoy qızlar görsün,
Dərdindən ölsün!

Köynəyi qırmızı,
Ətəynə tökdüm duzu.
Kül başuva anası,
Dərviş apardı qızı.

Bulağın başı qara,
Dibinin daşı qara.
O yara qurban olun
Gözü göy, qaşı qara.

Qar yağdı ipək-ipək,
Oğlan var ipək kimi.
Qızlar daldan baxır
Yal içmiş köpək kimi.

Damnan dama gəzəllər,
Damda qurut əzəllər.
Hansı yerdə toy olsa,
Koru, şili bəzəllər.

O tayda quş yatıbdı,
Qoç buynuzun çatıbdı.
Hayıf qoc əməyinə,
Quru yerdə yatıbdı.

Çəkməliyə kim qurban,
Çarıqlığa kim baxar.
Ay hirri-hirri qızlar,
Biz sizi alarıxmı,
Yaxası kirli qızdar.
Ay hirri-hirri oğlan,
Yaxası kirri oğlan.
Biz sizə gələrikmi,
Saqqalı kirri oğlan.

**Cib dəftəri: P111-12**

Şuşa da bir qaladır,
Torpağı Kərbəladı.
Ölüm Allah işidir,
Ayrılıq bir bəladır.

Bu Qala daşdı qala,
Torpağı daşdı qala.
Qrxuram düşəm öləm,
Yar gözü yaşdı qala.

**Cib dəftəri: P111-13**

Əziziyəm yenə gül,
Yenə çiçək, yenə gül.
Dəryacan qəmin olsa,
Düşmən görsən yenə gül. (ƏC)

Gomuş bağa girdi gəl,
Budağı sındırdı gəl.
Qoyma, gomuş yiyəsi,
Uşaqları qırdı gəl.

Ördək göldə üzüşür,
Çalxalanır üzüşür.
Vəfasıza yar əli,
Tezkən əldən üzüşür. (ƏC)

Su tökürəm başıma,
Ordan axır leşimə,
Təmiz olursansa ol,
(Olmursan) – mən gedirəm işimə.

Əziziyəm dəhnədi,
Arxın başı dəhnədi.
Əsli bədo olana
Qamçı nədi, dəh nədi?

Yarı gəlir meşədən,
Çırağı çıxıb köşədən.
Yar mənə köynək alıb,
Yaxası bənövşədən.

Arxalığım çimi zər,
Çimi bafta, çimi zər.
Əl mənim təkə sənin,
Görək əlin kim üzər.

## Cib dəftəri: P111-17

Ceyranı ovlamaram,
Aldadıb tovlamaram.
Ovçuyam – mərd ovçuyam,
Yaralı qovlamaram.

Ay çöhrə nigarım,
Gülçöhrə nigarım,
Sənsiz dura bilməm,
Ay körpə nigarım.

Əzizim daladsına,
Dal bitib daldasına.
Namərd aslan olursa,
Sığınma daldasına.

Dəryada bir gül bitib,
O da su deyib ağlar.
Güllərim gül qonçası,
Noğul-nabat xonçası.

Bir daldı, iki giraz[1],
Biri al biri bəyaz.
Əsmərdən arzum aldım,
Sarmandım ona bir az.

Fit dağıdı dağımız,
Şamamadı tağımız.
Eniş-yoxuş çıxmağa
Qalmadı ayağımız.

## Cib dəftəri: P117

Yandım bu dərd əlindən,
Dərman bu dərd əlindən.
Mən ölmədim qurtaram,
Aman bu dərd əlindən.

Mən aşığam o duzax,
O cənnətdi, o duzax.
Səməndər fikirli aşiq
Olmaz səndən az uzax.

## Cib dəftəri: P157-04

Gülüm gəl getmə bizdən,
Qar yağar olar dizdən.
Qar yağar, girə bağlar,
Səni eiləyər bizdən.

Çalalrı qaz aldı,
Ördək aldı, qaz aldı.
Birdə üzünü görsəm
Bəlkə dərdim azaldı.

---

[1] Giraz – d. Gilas.

Araz üstü çəm olmaz,
Burdan duman kəm olmaz.
Nə çox çəkdi ayrılıq,
Bundan betər qəm olmaz.

Aşıq ozanın mənim,
Qaynar qazanım mənin.
Əzəldə belə yazıb,
Yazı yazanım mənim.
(Zabitə)

Qarabağdan gəlirəm,
Sovqatım yox, zəliləm.
Bir balış ver, bir döşək,
Əcəl gəlib ölürəm. (Zabitə)

Pəncərəinin milin çək,
Milin qaldı, milin çək,
Könülsüz qız verənin,
Ağzın ayır, dilin çək.

Sağrı başmaq mərdana,
Xub yaraşır mərdana.
Namərd oğul bircə gün,
Yuz yaşasın mərd ana.
(Böyükxanım)

Ay burdan yürüyənlər,
Gül üzün bürüyənlər.
Sizə qurban kəsilsin
Yar deyib çürüyənlər.

Sağrı başmaq mərd olu,
Geyməyən namərd olu.
Mərd ana namərd doğsa,
Ölənəcən dərd olu...
(Böyükxanım)

Səni saldım yadıma,
Xudam çatsın dadıma.
Sən mənə yar olmadın,
Sözlər çıxdı adıma.
(Böyükxanım)

Dağlara hünü gəldi,
Hününün mini gəldi,
Canıma od töküldü,
Üstümə günü gəldi.
(Böyükxanım)

Vağzala bax, vağzala,
Ocağvuzda buz qala.
Gəlmişdik gəlin görək,
Döyülmüşdük az qala.
(Badam, Udulu)

Balama quzu qurban,
Qoç qurban, quzu qurban.
Quzudan qurban olmaz,
Nənəsi özü qurban.

Balama quzu qurban,
Qoç qurban, quzu qurban.
Bir də üzünü görsəm,
Kəsərəm quzu qurban.

Dərdüvü mən çəkərəm,
Səninlə mən çəkərəm.
Dərdin qoy dərdim üstə,
Hamsını mən çəkərəm.

Mən aşıq xan ədalı,
Kölgədə xana dalı.
Bir oğul itirmişəm,
Xan elli, xan ədalı.

Tapmadan, itirmədən,
Hər mürğə yetirmədən.
Eşitdim rəqib ölmüş,
Qurtuldum it hürmədən.

Bulağın başı pıtrağ,
Yaxına gəl oturağ.
Birin sən de, birin mən,
Bəlkə günü batırağ.

Tamburum dildi mənim,
Dilim bülbüldü mənim.
Yarımdan ayrılalı,
Hər günüm ildi mənim.

Qazanda yağ əritdim,
Kölgədə gül qurutdum.
Nə müşgül sevda imiş,
Ev-eşiyi unutdum.

Araqçının həşimi,
Hara qoyum başımı.
Bir əlimə keçəsən
Mən bilərəm işimi.

Yağan bulud ötməzmi?
Yerə yağış tökməzmi?
Sən orda yan, mən burda,
Bu ayrılıq yetməzmi?

Bayatı dedim çaşdım,
Qürbət qapısın aşdım.
Üzün görə bilmədim,
Qəlbimdə halallaşdım.

Ağlaram yaşım gedər,
Dursam yoldaşım gedər.
Keçmərəm nazlı yardan
Bisəm ki, başım gedər.

Obası köçdü bu gün,
Körpünü aşdı bu gün.
Salam-kalamlı yarım
Salamsız keşdi bu gün.

Gəmi gəlib durdumu?
Xan çadırın qurdumu?
Küləklər, ay küləklər,
Yar halımı sordumu?

Evləri gədikdədi,
Yaşıl pərdə yükdədi.
Mənim sevdiyim gözəl
Bu görünən dikdədi.

Evləri qarşımızda,
Sevdası başımızda.
Nə zalım eşq oldu,
Bu cavan yaşımızda.

Gedirəm "dur" deyən yox,
Kabab oldum yeyən yox.
Ayrılıq köynəyini
Məndən özgə geyən yox.

Göydə ulduz pərşan,
Yaylıqdı yardan nişan.
Neynəyir dünya malın,
Həsrətinə qovuşan.

Ulu yolun incisi,
Yaman bitər yoncası.
Allah bizə vermədi
Bir könül əyləncəsi.

Qərib dağın odunu,
Qıran bilər dadını.
Qızı doğan anası
Gülsüm qoyar adını.

Şaftalı ağaşları,
Tamam çiçək başları.
Yaxtı-yandırdı məni
Yarın hilal qaşları.

Bağa girib ağlaram.
Güldən dəstə bağlaram.
Birisi  ağam üçün,
Birin yara yollaram.

Atım arabdı mənim,
Eşqim sərabdı mənim.
Bu iş belə gedərsə,
Halım xarabdı mənim.

Aşıqları əfzəli,
Haradaydı əzəli?
Harda olsa sevərlər,
Sənin kimi gözəli.

Kababı közdə gördüm,
Sürməni gözdə gördüm.
Şükür olsun Tarıya,
Səni bu küzdə gördüm.

Limonu əkdim daşa,
Bitmədi qaldı qışa.
Qız mən səni alardım,
Əsgərlik gəldi başa.

Şirin nar dənə-dənə,
Gəl görüm dönə-dönə.
Gül oldu qoxlamadım,
Fələk ayırdı genə.

O tayda ana ağlar,
Baxar bu yana ağlar.
Qorxuram bu nalədən,
Od tutub yana dağlar.

Dəryalar uddu məni,
Naqqalar uddu məni.
Bir pakın, bir napakın
Qarğışı (naləsi) tutdu məni.

Dərya, səndən kim keçdi?
Kim qərq oldu, kim keçdi?
Fələk gəl sübut eylə
Hansı günüm xoş keçdi.

Dəryada fənərəm mən,
Od tutub yanaram mən.
Qaş altdan göz eyləmə,
Arifəm, qanaram mən.

Əzizinəm üz də var,
Astar da var, üz də var.
Öpməli ayaq gördüm,
Tüpürməli üz də var.

Armud ağacı haça,
Əlimdə güllü xalça.
İgid oğlan istərəm
Məni götürə qaça.

Aydan arı, ay bala!
Sudan duru, ay bala!
Mən yarıya bilmədim
Sənsə yarı, ay bala!

Qalalar, ay qalalar,
Qaladan yol salalar.
Ana balasın verməz,
Bəlkə zornan alalar.

Əzizim umar indi,
Gözləri xumar indi.
Gözüm gözüvə baxar
Aşnalıq umar indi.

Sandıq üstü manərə,
Gedirəm Gül-Cəfərə.
Mənim yarım uşaqdı,
Göndərirlər səfərə.

Ay qaşları yay gəlin,
Olmaz sənə tay, gəlin!
Bu gün sənin  topyundu,
Nazik yuxa yay, gəlin!

Aşıq qara bağlaram,
Sular təki çağlaram.
Nə qədər ki, ömrüm var,
Ana deyib ağlaram.

Gəlin gedək yasına,
Sınıq könül pasına.
Yığılın qurban olaq,
Anaların xasına.

Sirrimi qanan olmaz,
Oduma yanan olmaz.
Cümlə aləm yığışa,
Heç biri anam olmaz.

Qar yağır pirəm-pirəm,
Ürəyim tutub vərəm.
Mənə öz anam gərək,
Qeyrini istəmirəm.

Bu paltarın dəsinə,
Qızıldan düyməsinə.
Yığılın qurban olaq,
Bu paltar yiyəsinə.

Qar yağır pillə-pillə,
Qəlbimə dəydi güllə.
Qalx məzardan, ay ana,
Dindir bir şirin dillə.

Anam hayanım idi,
Qolum, qanadım idi,
Ayağıma daş dəysə,
Qurban olanım idi.

Ana, hay verənim yox,
Şirin pay verənim yox.
Sən dünyadan köçəli,
Qapımdan girənim yox.

Gözüm dolub ağlaram,
Zülüm olub ağlaram.
Könlümə toxunmayın,
Anam ölüb ağlaram.

Göllərə qaz düşübdü,
Bəlkə də yaz düşübdü.
Belə qayğıkeş anan,
Dünyada az düşübdü.

Göydə sönük ulduzam,
Bulaqlarda yarpızam.
Siz Allah ovutmayın,
Anası ölmüş qızam.

Şirvandan təhərim var,
Boğazda qəhərim var.
Dur bir qolboyun olaq,
Sonuncu səfərim var.

Gavurlarda din olmaz,
Müsəlmanda kin olmaz.
Din Məhəmməd dinidi,
Bundan gözəl din olmaz.

Ay getdi batan yerə,
Mələklər yatan yerə.
Canımı nişan qoydum,
Yar oxun atan yerə.

Ay dönübdü hilala,
Haram düşməz halala.
Namərdin qapısında
Nə gül bitsin, nə lala.

Ay çıxdı düzə düşdü,
Qıvrım tel üzə düşdü.
Fələk bir iş işlədi,
Ayrılıq bizə düşdü.

Ay dolanır batmağa,
Yuxum gəlmir yatmağa.
Əllərim öyrənibdi,
Şux məmə oynatmağa.

Ay gedib batar indi,
Nazlı yar yatar indi.
Leylinin bazarında
Məcnun can satar indi.

Bir ay doğdu kənarsız,
Genə gülləm mən arsız.
Mənim ahü naləmdən,
Qaçın, ellər, yanarsız.

Araz gəlir daşınnan,
Suyu qalxır başınnan.
Əzəli dum-duruydu,
Bulandı göz yaşıynan.

Araz deyiləm daşam,
Kür deyiləm qaynaşam.
Apar sərraf yanına,
Gör nə qiymətli daşam.

Araz başdan azaldı,
Üstün ördək, qaz aldı,
Olan-olmaz huşumu,
Gedən sərvinaz aldı.

**Cib dəftəri: P157-07**

Əzizim qara məni,
Salıb yollara məni.
Gözümə yarmı dəydi?
Ya basıb qara məni?

Yar güldü şəst elədi,
Könlüm şikəst elədi.
Mən ona bel bağladım,
O mənə qəsd elədi.

Barama qurdu üstə,
Dayandı, durdu üstə.
Ataya oğul gərək
Öy tikə yurddu üstə.

Ey var saralan bulud,
Rəngi qaralan bulud.
Dolanırsan yağmağa,
Yağma, aralan, bulud.

Boz at enir enişdən,
Sinəbəndi gümüşdən.
Kişi mənə versənə,
Tərkindəki yemişdən.

Boz at enir enişdən,
Sinəbəndi gümüşdən.
Bizı də qismət olsun
Heybədəki yemişdən.

Kim görüb yarın dərin?
Gedin güllərin dərin.
Baş vurudm qəm gölünə
Boy verdim dərun-dərin.

Ay gedər batar indi,
Bülbüllər yatar indi.
Leninin bazarında
Məcnun can satar indi.

Qapıdan biri gəldi,
Yeridi, biri gəldi.
Bu suyu (Bulağı) kim arıtdı,
Dalı nə duru gəldi.

***

Aşıq Sənəm deyişirmiş, yas yeri – üçü düşüb getməli olub. Yerinə onu əvəz etməyə bacısını çağırıb:

Bacım durmasın, gəlsin,
Telin burmasın, gəlsin.
Dəstəmaz alıbsa da,
Namaz qılmasın, gəlsin.

Tambur çaldım sinədə,
Evim qaldı binədə.
On il də tambur çalsam
Könlüm doymaz yenə də.

Gül dərdim oymaq-oymaq,
Olmaz eşqindən doymaq,
Dur gəti süfrəyə qoy,
Bir payla balnan qaymaq.

Yarım gəlir meşədən,
Çarığı çıxıb köşədən.
Yar mənə köynək alıb,
Yaxası bənövşədən.

Su gələr axar-axar,
Yar gümüş kəmər taxar,
Çəkməliyə kim qurban?
Marıqlıya kim baxar?

Oğlan adın Bəysəfa,
Ağzın gül, qoynun şəfa,
Sən ki, məni sevmədin,
Bivəfasan, bivəfa.

Eləmi adı qardaş,
Ağzımın dadı qardaş.
Yüz min igid yığıla,
Tutmaram yadı qardaş.

Gül dərdim oymaq olmaz.
Eşqindən doymaq olmaz.
Sən tək gombul kişiyə,
Balnan qaymaq olmaz.

Payın qazanda olsun,
Saxla, qazanda olsun.
Dərdün canımdan getməz
Yüz min sazanda olsun.

Boğçamızda üzüm var,
Giləsində gözüm var.
Qulaq as, ay gözəlim,
Sənə bircə sözüm var.

Ana başda tac imiş,
Hər dərdə əlac imiş.
Evlad qoca olsa da,
Anaya möhtac imiş.

Mən aşıq şeşpəri var,
Şeşpərin şeş pəri var.
Bir deyil, iki deyil,
Məndə qəm leşkəri var.

**Cib dəftəri: P157-08**

Əzizim sarı gəlin,
Evin hasarı gəlin.
Gül camalına qurban,
Balamın yarı gəlin.

Sarı gəlin sarıdı,
Göylərin nübarıdı.
Gəlinə qurban olum,
Qardaşımın yarıdı.

Sarı gəlin qızıldı,
Qızıl başa düzüldü.
Eşqimə tutuşmuşam,
Nə az, nə çox yüz ildi.

Sarı-earı sandıqlar,
İçi dolu fındıqlar.
Gələn il sarı gəlin
Oğul doğar qundaqlar.

Çağır gəlsin aşıqlar,
Süfrə dolu qaşıqlar.
Qızıldan gəlinim var
Hər kəs görsə aşıqlar.

Cərrah, professor Nurəddin Razyev şair, professor Bəxtiyar Vahabzadəyə:

Aşıq kim-kimə neynər?
Şeir həkimə neynər?
Sən sünnü ol, mən şiə
Görək kim kimə neynər?

* * *

Babanın
Zikri aləmə xoşdu.
O övliyadan başdı,
Baba hey... Baba hey.

Aşıq yolu çaş gedər,
Gözlərində yaş gedər.
Yoxsul yayı gözləyir
Göydən yerə daş gələr.

## Cib dəftəri: P157-11

Bu dağda qaya saldı,
Gün ona saya saldı.
Yarı xəlbətdə gördüm
Söz dedim haya saldı.

Bu dağda maralım var,
Ox dəymiş yaralım var.
Nə gecələr yuxum var,
Nə gündüz qaralım var.

Bu dağda yol salardım,
Karvanı bol salardım.
Bilseydim ki, gedirsən,
Boynuna qol salaydım.

Bu dağlar qoşa dağlar,
Verib baş-başa dağlar.
Yarım səndə gəzibdi
Yüz belə yaşa dağlar.

Bu dağlar yastı dağlar,
Üstün qar basdı dağlar.
Üç ay toylu-bayramlı,
Doqquz as yasdı dağlar.

Bu dağlar məzələnsin,
Göy geysin təzələnsin.
Nə gözüm səni görsün,
Nə dərdim təzələnsin.

Bu dağlardan dağ düşüb,
Qələm çəkdim qaş düşüb.
İntizaram, qoy gedim
Yadıma qardaş düşüb.

Bu dağı aşmaq olmaz,
Topuqsuz başmaq olmaz.
Başa gələn gələcək
Qəzadan qaşmaq olmaz.

Bu bağda mənəm sənsiz,
Gülün üzmənəm sənsiz.
Dağda ahu mələsə
Bil ki, o mənəm sənsiz.

Dağ başını qar alıb,
Bağçaları bar alıb.
Yetənə can vermərəm
Bir canım var yar alıb.

Dağ başın çən alarmı,
Alsa kökə salarmı.
Bir məzlumun qisası
Bir namərddə qalarmı?

Dağ başı qar məkanı,
Bağçalar bar məkanı.
Əyilsin uca dağlar,
Görünsün yar məkanı.

Dağ başına sis gəldi,
Ocaq yandı his gəldi.
Mənim bu qara baxtım,
Əzəl gündən pis gəldi.

Dağda qaralar məni,
Gözlə, xar alar məni.
Dağlardan aşıb gəlsəm
Ovçu yaralar məni.

Qar yağar dolu bağlar,
Yağlar yolu bağlar.
Yar yadıma düşəndə
Gözlərim dolub ağlar.

Gün çıxdı, gündür, fələk,
Ağlatma, güldür, fələk!
Ya məni yara yetir,
Ya da ki, öldür, fələk.

Aşıq aralı gəldi,
Başı qaralı gəldi.
Sizin təzə dərdüzə
Köhnə yaralı gəldi.

Mən bir qara bağıran,
Bağrı yağır-yağıran.
Qulağın bəri olsun
Mənəm səni çağıran.

Əzizim bər-dəyəni,
Gəl gəzək dər dəyəni.
Tapmadım bircə kəsi
Düzəldə dərd əyəni.

Əzizim ağ da yandı,
Şamama tağda yandı.
Arxamı dağa söykədim
Alığdı dağ da yandı.

Əzizim ayə gəlləm,
Sürmə çək gözə gəlləm.
Yüz il qazamat çəksəm,
Çıxcağı sizə gəlləm.

Ay günü, günün qara,
Sən düşəsən odlara.
Bu evə gələn gündən,
Eylədin günüm qara.

Kəklik ola bilisən,
Daşa qona bilisən,
Anan səndən nigaran,
Gör bir gələ bilisən?

## Cib dəftəri: P157-14

Yuvada laçın ağlar,
Görəsən neçin ağlar?
Sən yadıma düşəndə,
Başımda saçım ağlar!

Apardı Bayat məni,
Bir zülfü sayat məni,
Aparırsan sən apar,
Aparmasın yad məni.

Gedirdim yolağınnan,
Gül biçdim orağınnan.
İtirmişəm balamı
Gəzirəm sorağınnan.
(Güldəstə nənə)

Təbriz üstü Marağa,
Zülfün gəlməz darağa,
Axtarıram yarımı,
Düşdüm soraq-sorağa.

Qardaş kiçmiş kimidi,
Cibə düşmüş kimidi,
Qardaşı ölən bacı,
Gözdən düşmüş kimidi.

Əzizim ağa qardaş,
Gün doğub bağa qardaş.
Sən duman ol, mən də çən,
Çəkilək dağa qardaş.

Əzizim adı qardaş,
Ağzımın dadı qardaş,
Sən ki, əlimdən getdin
Tutmaram yadı qardaş.

Qızıl gül vağam oldu,
Dərmədim vağam oldu.
Fələk bir iş işlədi,
Nökərim ağam oldu.
(Güldəstə nənə)

Mən açıq səngəri qur,
Dağlarda səngəri qur.
Sənə gələn qadanı
Mən alım, sən gəri dur.

Eləmi mərd atası,
Mərd vurub, mərd atası.
Heç oğul mərd olarmı?
Olmasa mərd atası.

Eləmi qar qamışa,
Qar yağar qar-qamışa.
Yüz min təbib neyləsin
Bir fələk qarğımışa?

***

Kərkükdə də bizim kimi bayatı çəkirlər, amma adı Xoyratdır:

Bağçalarda gül bitər,
Dalında bülbül ötər.
Darıxma nazlı yarım,
Bu ayrılıq tez bitər.

## CİB DƏFTƏRİ – P-153-05: ŞIRVAN-BOYAT BAYATILARI

Nə qulam, nə ağayam,
Həqiqət dustağıyam.
Şirvanıma qurbanlıq
Bir ovuc torpağıyam.

Ulu yoldu Şirvanım,
Şəkər, baldı Şirvanım.
Babam  ordan çıxanda
Boyad qaldı Şirvanım.

Sığmaz şe’rə, dastana,
Söz yaraşıq Şirvana.
Şamaxı göz bəbəyi,
Şirvan candır ona.

Neçə yollar talandı,
Yanar oda qalandı.
Zalıça baş əymədi
Pislik yağıya qaldı.

Yaxşı fəhm et Şirvana,
Bəd gözlə baxma ona.
Şamaxı mərkəz olub
Ellik Azərbaycana.

Nanəcib boya yetməz,
Tikanda lalə bitməz.
Şirvana kəc baxanın
Ömrü çox uzaq getməz.

Qəlbdən yoxsul olmaram,
Yabıya çul olmaram.
Şirvanda can verərəm,
Yadlara qul olmaram.

Meh dəyər, gül üşüməz,
Güldə bülbül üşüməz.
Boyad yada düşəndə
Necə könül üşüməz?

Al könlüm, ya sarı,
Cınıb könlüm asarı.
Üz çevirib ah çəkdim
Elim  Boyada sarı.

Fəsil dönər, qar düşər,
Könlümə dağlar düşər.
Şirvana kəc baxanın
Anası ağlar düşər.

Canımın  azarı var,
Behi var, bazarı var.
Qədim Boyad elində,
Babamın məzarı var.

Şəkərin şirin dadı,
Bal dadı, şirin dadı.
Şirvan elə şirindi,
Boyadım Şirvandadı.

Oxy, bülbülüm gəlsin,
Açılıb gülüm gəlsin.
Füzuli Boyaddadır,
Çağırır elmin gəlsin.

El dərdi xiymə-xiymə,
Elin dibinə dəymə.
Pirsaatdan keçəndə
Başın yoxsa baş əymə.

Olsa da zülüm mənim,
Heç solmaz gülüm mənim.
Heç kimə baş əymərəm,
Boyaddır elim mənim.

Gələn nə səsdir mənə,
Yad yer qəfəsdir mənə.
Yuxuda Boyad görsəm,
Yuxusu bəsdir mənə.

Şirvan ulu yoldadı,
Şirvan sözü bal dadı.
Bu ad mənə əzizdir,
Boyadım Şirvandadı.

Bab yurdumdu Boyad,
Doğmadır mənə bu ad.
Babalar ruhu gəzir,
Budur ən doğru isbat.

## ZABİTƏ CƏFƏRZADƏDƏN ƏLAVƏ TOPLANMIŞ BAYATILAR[1]

Qarabağdan gəlirəm,
Sovqatım yox, zəliləm.
Bir döşək ver, bir yastıq
Əcəl gəlib ölürəm.

Talışın tat öyündə,
Məskən sal, yat öyündə.
Fələk bir oy eyləyib
Qalmışıq mat öyündə.

Dəryadan balıq tutdum,
Sərdim günə qurutdum.
Təzədən dərdə düşdüm,
Köhnə dərdi unutdum.

Aşıq Əli eşqinə,
Əli, Vəli eşqinə,
Hərə bir kəlmə desin
On iki imam eşqinə.

Şalın qara boyandı,
Ucu yerə dayandı.
Sənin nalə-ahından
Göydə fələk oyandı.

Mən aşiq kimsəsi var,
Kimi var, kimsəsi var.
Hərə bir kəlmə desin
Desinlər kimsəsi var.

Qarabağ vətənimiz,
Durmeyir yatanımız.
Əl-ələ tutub getdi
Dili söz tutanımız.

Mələ qoyunum mələ,
Səni vermərəm ələ.
Qırğı bir basqın verib,
Tərlanım düşüb ələ.

Bir çəngə qağdanam,
Külək dəyib dağdanam.
Bostançıdan xəbər al,
Görüm hansı tağdanam.

Aşıq haradan gəlir,
Qurğu qaradan gəlir.
Oturmuşduq şad-xürrəm,
Bu sel haradan gəlir.

---

[1] Bayatıları nəvəsi Aygül Cəfərzadə toplamışdır.

Yağış yağıb ellərə,
Yaş düşübdü göllərə.
Burda bir şəhid ölüb,
Soraq düşüb ellərə.

Dağda dolu durubdu,
Dolu boynun burubdu.
Mən doludan qorxuram,
Dolu məni vurubdu.

Axmaqdan ay axmaqdan,
Sular doymaz axmaqdan.
Gözlərimə qan qoyuldu
Yollarına baxmaqdan.

Əziziyəm qız qala,
Tikdiribən qız qala.
Namərd oğullar ölə,
Vətən üçün qız qala.

Aşıq haranı dağlar,
Peykam yaramı dağlar.
Çağırıram haray bala,
Kəsib aranı dağlar.

Ələk kimi ələnəm,
Dərdə qəmə bələnəm.
Bircə balam eşqinə
Qapı-qapı dilənəm.

Şirvanda xan yeridi,
Gülüstan can yeridi.
Sağıma güllə dəydi,
Soluma qan yeridi.

Bu paltar xasa paltar,
Dönübdür nəsə paltar.
Ölüb paltar yiyəsi,
Batıbdır yasa paltar.

O tayda mal məl追di,
Bu tayda mal mələdi.
Atın yiyəsiz qaldı,
Başımda şal mələdi.

Qoyun mələgən olar,
Buza gələgən olar.
Yetimə bel bağlama,
Yetim ölərgən olar.

O tayda mal mələdi,
Bu tayda mal mələdi.
Dilin düşman başına,
Nə yaman mal mələdi.

Mələ qoyunum mələ,
Səni verməsəm ələ.
Mən mələdim gəlmədi,
Sən mələ, bəlkəm gələ.

Aşıq iş idi düşdüm,
Qəmə tuş idi düşdüm,
Ya yazımda var idi,
Axır iş idi düşdüm.

Dağlarda geyik mənəm,
Buynuzu böyük mənəm.
Bir belə dərd mənim var,
Nə yaxşı döyükmənəm.

Çalalarda qu varmı,
Qu qanadın yuyarmı,
On iki imam eşqinə
Bircə qaşıq su varmı.

Çalaları qaz alıb,
Ördək alıb, qaz alıb.
Mən elə bilirdim ki,
Sənin dərdin azalıb.

Bağları xəzəl aldı,
Ot yandı , xəzəl aldı.
Bir yanım qərib ölkə,
Bir yanım əcəl aldı.

Göydə gedən quşa bax,
Ayağında daşa bax.
Aləmə yağış yağsa,
Mənə yağan daşa bax.

Əzizinəm gül əllər,
Gül biləklər, gül əllər.
Dəryaca ağlın olsa,
Yoxsul olsan gülələr.

Aşıq neymə gərəksən?
Şalın neymə gərəksən?
Sağlığımda gəlmədin
İndi neymə gərəksən?

Aşıq məzara məni,
Saldın azara məni.
Aç belindən qurşağı,
Salla məzara məni.

Aşıq sarıdan gələ,
Xalın sarıdan gələ.
Fələk bir ov eylədi,
Bizim sarıdan gələ

Aşıq almayıb ağlar,
Başa çalmayıb ağlar.
Gözlərin dəryasından
Kəmin almeyib ağlar.

Çıxaram dala mən də,
Baxaram yola mən də.
Gözətdəsəm, gəlməsən,
Çəkərəm nala mən də.

Yıxıldın yanın üstə,
Quş gəldi qanın üstə.
Əlləşdim qurtarmadım,
Bir şirin canın üstə.

Həsən üçün ağlaram,
Hüseyn üçün ağlaram.
Ölüm Allah işidi,
Qəzyə üçün ağlaram.

Aşıq dolağ altına,
Salın dolağ altına.
Çadırını gendə qur,
Bizdə dolağ altına.

Buxarıya buz qala,
Kösövləri düz qala.
Əlini ver əlimə,
Yıxılmışdım az qala.

Dağlarda hünü var,
Milçək var, hünü var.
Ana ilə balanın
Bir gərəkli günü var.

Dəvələr qatar gedər,
Osarın atar gedər.
İgidlərdə qaydadı
Yarını atar gedər.

Dərya səndən kim keçdi,
Kim boy verdi, kim keçdi?
Əzrayıl sənə çökəndə
Xəyalundan kim keçdi?

Bu taya yaxşı taya,
Kölgəsi güşdü çaya.
Zəhmət çəkdim ev tikdim,
Zəhmətim getdi zaya.

Ayın qədiri olmaz,
Günün qədiri olmaz.
Qardaşsız bacıların
Heç vaxt qədiri olmaz.

Yaxamnan iynə düşdü,
Sapı kola ilişdi.
Qardaşım gələnəcən
Tabutum yola düşdü.

Aşıq ellərdə də var,
Sona göllərdə də var.
Şəhid bala öldürmək
Bizim ellərdə də var.

Aşıq su deyib ağlar,
Sünbül su deyib ağlar.
Dəryada bir gül bitib
O da su deyib ağlar.

Aşıq qara çalmanı,
Salun qara çalmanı.
Əli qızı Zeynəbdən
Alın qara çalmanı.

Aşıq üzgünə dəyər,
Xalın üzgünə dəyər.
Fələyin qaydasıdı
Gələr üzgünə dəyər.

Dağların sarı günü,
Ağ günü, sarı günü.
Doğulan gündən bəri
Görmədim tarı günü.

Biçinçi xara bağlar,
Dərz bağlar, xara bağlar.
Gəlsin anan ağlasın
Özgələr xarab ağlar.

Aşıq, fələk eylədi,
Yükün fələk eylədi.
Girdi güllü bağmıza
Ələk-vələk eylədi.

Dağlar pencərli dağlar,
Güllü yoncalı dağlar.
Şəhid balası ölən
Məgər dincəli dağlar?

Aşıq üzümdən gedər,
Yaşım üzümdən gedər.
Səni bu halda gördüm
Ağlım özümdən gedər.

Əkərdim arpa səni,
At gələ qırpa səni.
Bilseydim vəfan budur
Çəkərdim sərfə səni.

Gəl gedək daş bulağa,
Suyu meyxoş bulağa.
İki bacı , bir qardaş
Tökək qan yaş bulağa.

Ağacım aldı bunun,
Meyvəsi kaldı bunun.
Hərə bir kəlmə desin,
Anası laldı bunun.

Məni görən ağlasın,
Zülfün hörən ağlasın.
Əvvəl görən səhv görüb,
İndi görən ağlasın.

Bu xəbər nə xəbərdi?
Əlim qabar-qabardı.
Xəbəri bizə verən
Allahdan bixəbərdi.

Mən aşıq qış öyünnən,
Yayı qəmiş öyünnən.
İlan yuvadan çıxmaz
Sən çıxdın qış öyünnən.

Aşıq el barabarı,
Ceyran çöl barabarı.
Burda bir igid ölüb
Tamam el barabarı.

Əzrayıl ağzun yekə,
Dayandun bizim kökə.
Dəymiş qoydun, kal dərdün,
Dadandın bizim köçə.

Mən aşığam sal yana,
Dara zülfün sal yana.
Necəsən bir ah çəkim
Kür quruya, sal yana.

Mən aşığam çal quzu,
Çal qoyundu, çal quzu
Duman gəldi itirdim
Duman getdi çal quzu.

Qardaş mənim gülümdü,
Gülümdü, bülbülümdü.
Ölsə bacılar ölsün,
Qardaş ölmək zülümdü.

Mən aşığam, ay Mədəd,
Ülkər mədəd, ay mədəd.
Dan ulduzu baş verdi
Ayrılıqdı, ay mədəd.

Gedirdim qırağından,
Gül biçdim orağından.
İtirdim tərlanımı,
Gəzirəm sorağınnan.

Qoyunun qara bağrı,
Ağ bağrı, qara bağrı.
Çəkdi-çəkdi apardı,
Səni bir yaman ağrı.

Bu ay bayram ayıdı,
Bacı-qardaş payıdı.
Qardaşdı bayram eylər,
Qardaşsızın vayıdı.

Aşıq nə çarə gərək?
İşə nə çarə gərək?
İş ki, Allahdan ola
Ona nə çarə gərək?

Bağça-bağ iysi gəlir,
Heyva-nar iysi gəlir.
Həyətin eyvanundan,
Cəhənnəm iysi gəlir.

Sarını bürünsənə,
Ətəklərin bürsənə.
Müşkül işim düşübdü,
Bir gəlib görüksənə.

Mən aşiq bu dağnan gəl,
Dolanıb budağnan gəl.
Sənə yaxşı deməzlər
Mən ölsəm bu dağnan gəl.

Dağlar başı ola qar,
Yağmamışdı belə qar.
Aləmə yağış yağsa,
Bizə yağan daşa bax.

Umudum, ay umudum,
Su dibində qum udum.
Umud sənə gəlirdi,
Sən də kəsdin umudum.

Mən aşıq Qarabağı,
Gəncəni, Qarabağı.
İtirdim Tərlanımı
Qoynunda Qarabağı.

Mən aşıq səmək[1] olmaz,
Səməgi yemək olmaz.
Sənin haqq hesabını,
Hər yerdə demək olmaz.

Mən aşıq tükan hanı
Tükanı tikən hanı
Mən səndən xəbər alsam
Bəs səni tikən hanı.

Bağa girmişi can var,
Gülün dərmişi can var.
Yatıb yuxuda görsən,
Gündüz görmüşü can var.

Öycügəzün[2] bəzərəm,
Dörd bir yanın gəzərəm.
Gəlib səni görməsəm
Öyündən də bezərəm.

Dəryada sicim gördüm,
Sicimin ucun gördüm.
Fələk bir dərd eylədi,
Fələkin gücün gördüm.

Aşıq-ozanun sənin,
Qaynar qazanun sənin.
Bəlkə belə yazıbmış
Yazı yazanun sənin.

Bağçaya bar verməruk,
Heyvaya nar verməruk.
Bizi öldürsələr də
Özgəyə yar verməruk.

---

[1] Səmək - ə. Balıq.

[2] Öycügəzün – d. Evini

Arxaluğu qola sal,
Qoldan götür qola sal.
Əziz qonağun gəlib,
Dur qonağı yola sal.

Mən bir para bağıram,
Yerə qoyma fağıram.
Qulağun məndə olsun,
Mənəm səni çağıran.

Nazbalış baş altdadı,
Ala göz qaş altdadı.
Durub gələ bilmərəm
Qollarım daş altdadı.

Araz aşdı deyirlər,
Kür qovuşdu deyirlər.
Dərmanun masa üstə,
Həkim qaşdı deyirlər.

Mən aşıq çinarmı ola,
Çinar minarmı ola.
Bir ağacda bir budağ,
O da sınarmı ola.

Bülübülüm xar olubdu,
Gülüm xəndan olubdu.
Hər gün oxuyan bülbül,
Bu sabah lala olubdu.

Bu tayda xarmanım var,
O tayda tərlanım var.
Aç yorovun üstünü,
Ovcumda dərmanım var.

Mıştağıyam mıştağı,
Kamıl gördü kıştağı.
Baxsın-baxsın qayıtsın,
Kimin varsa iştahı.

## ŞÜKUFƏ ZÜLFÜQAROVADAN ƏLAVƏ TOPLANMIŞ AĞILAR

Bu yola gedən gəlməz,[1]
Bilmərəm nədən gəlməz.
Hər yola gedən gəlsə,
Ölümə gedən gəlməz.

Mən aşıqam qalasız,
Şəhər olmaz qalasız.
Mən ki, getməli ollam
Siz sağlıqla qalasız.

Dərdlilər yaralılar,
Başı şal qaralılar.
Dərdlilər dərdin desin,
Ağlasın yaralılar.

Göydə buludum səni,
Sərim qurudum səni.
Ölüb qəbirə getsəm,
Bəlkə unutum sizi.

Qardaşlarım qoşa gəl,
Qarlı dağlar aşa gəl.
Görsəz bacınız ölüb,
Ağlaşa-ağlaşa gəl.

A çillə, çillə, çillə,
Qar gəlir pillə-pillə.
Ay qağa, mənə alginən,
Bazardan qaqqa, billə.

Bu gələn yaz oleydi,
Damağı saz oleydi.
Çıxıb gedeydi çillə,
Qar-girvə az oleydi.

Saqqal mənim canımdır,
Qoyma çıxsın canım.
Zülfün mənim ömrümdüe,
Qoy uzansın ömrümü.

Aşığam Qarabağdan,
Gəncədən, Qarabağdan.
Tehran cənnətə dönsə,
Dönmərəm Qarabağdan

Aşıqam Qarabağı,
Gəncəni, Qarabağı.
İtirdim tülək tərlanı,
Gəzirəm Qarabağı.

---

[1] Bu beş ağını Gözəl Cəfərzadə toplayıb.

## ZƏRXANİM CƏFƏRZADƏDƏN ƏLAVƏ TOPLANMİŞ BAYATI VƏ AĞILAR

Ağlaram quzu kimi,[1]
Qoyunda quzu kimi.
Özmü deyib ağlaram
Yazığın qızı kimi.

Mən aşıq quzu kimi,
Qoyun da quzu kimi.
Səni deyib ağlaram
Yazığın qızı kimi.

Ağlaram el gələndə,
Dağlara sel gələndə,
Özmü deyib ağlaram,
Gözümə tor gələndə.

Dağlar mənə bal göndər,
Baxça göndər, bağ göndər,
Ya dərdimə şərik ol,
Ya dərmanın var göndər.

Dağlar dağımdı mənim,
Dağ qonağımdı mənim.
Dindirmə qan ağlaram,
Yaman çağımdı mənim.

Ərdəbil xana düşdü,
Xana soltana düşdü,
Məni başa çəkmədi,
Hamısı qana düşdü.

Ərdəbil qucağında,
Ot yanır ocağında,
Canım necə can verir,
Yadların qucağında.

Gedirəm elinizdən,
Nə gələr əlinizdən,
Olub yaşılbaş sona,
Uçaram gölünüzdən.

Göydə gedən quşa bax,
Qanadında daşa bax,
Aləm ölü ayrılsa,
Diri ayrılmışa bax.

Göydə gedən sonalar,[2]
Bir birini qovalar,
Qoy mənə qurban olsun,
Haqqı olan analar.

---

[1] 9 ağı-bayatını Turan İbrahimov toplayıb.

[2] 18 ağını Məlahət Zülfüqarova toplayıb.

Dağısatanın dağı var,
Ora getmə yağı var.
Mənə dəymə fələk,
Məndə qardaş dağı var.

Dəvələr qatar gedər,
Ovsarın atar gedər.
Vəfasızda qaydadır,
Əzizin atar gedər.

Mən aşiq ata yeri,
Görmə sən xəta yeri.
Min dərdə yayan olsa,
Verməz bir ata yeri.

Mən aşiq atasızlar,
Qan ağlar atasızlar.
Övladın pis günündə
Yenə də ata sızlar.

Mən aşıq babamı var,
Püstəsi badamı var.
Gəl qapımı aç ata,
Desinlər adamı var.

Mən aşıq yara dərman,
Yar olar yara dərman.
Elə yara vurmusan,
Götürmür yara dərman.

Mən bu yola bələdəm,
Getməmişəm bələdəm.
Şadlıqla işimiz yox,
Qəm yoluna bələdəm.

Ağlayan başdan ağlar,
Kiprikdən qaşdan ağlar.
Dərdi olan analar,
Durar obaşdan ağlar.

Bulağın başı sənsən,
Gözümün yaşı sənsən.
Yuz min qohumum olsa,
Hamsının başı sənsən.

Bağda üzüm ağacı,
Uzüm-düzüm ağacı.
Baltaçı girib bağa,
Kəsib bizim ağacı.

Dağlar dağımdır məni,
Qəm oylağımdı mənim.
Dindimə qan ağlaram,
Yaman çağımdır mənim.

Kərbəla dağ olaydı,
Hər yanı bağ olaydı.
Zeynəb qardaş deyəndə,
Əbülfəz sağ olaydı.

Zeynəbəm yaralıyam,
Başı şal qaralıyam.
Ölüb yeddi qardaşım,
Ürəkdən yaralıyam.

Mən aşiq binə qaldı,
Binə gör kimə qaldı.
Mənim sizi görməyim,
Qiyamət günə qaldı.

Dərmanı acı anam,
Başımın tacı anam.
İndi yerdə yatanda,
Tapmadı bacı anam.

Mən aşıqəm gül bağda,
Bülbül bağda gül bağda.
Bağa girmərm sənsiz,
Xəzan olsa gül bağda.

Qardaşlarım qoşa gəl,
Qarlı dağlar aşa gəl.
Eşitdiz bacın ölüb,
Ağlaşa-ağlaşa gəl.



## ERMƏNİSTAN BÖLGƏSİNDƏN BAYATILAR

Ağa, məni vurursun,
Qoy qolların qurusun.
Mən haraya gedərsəm,
Yenə məni bulursun.

Kəndimin bayır başı,
Yıxılmış dağı-daşı.
Ağamdan ayrılalı,
Axır gözümün yaşı.

Vağavertdən qalxda gəl!
Sular ilə ax da gəl.
Mən Allahdan qorxmuram,
Sən Allahdan qorx da gəl!

Hey dərələr, dərələr,
Nələr bilirəm, nələr.
Sənə dinləndir beni,
Qoynundakı məmələr.

Vağavertdən köç etdim,
Fındıq qırdım, iç etdim.
El oğlundan ötəri
Gənc ömrümü çürütdüm.

Arpa çayından keşdim,
Əyildim sudan işdim.
Gedin, deyin anama,
Urusa yesir düşdüm.

Aşıq göz görə səni,
Kabab, köz görə səni.
İstəməm öz gözümdən
Qeyri göz görə səni.

Yox aşıq Hindi zülfün,
Gərdənə mini zülfün.
Dəstələ qoy qoynuna,
Qan eylər indi zülfün.[1]

Öz yaylağımdı mənim,
Dağlar dağımdı mənim.
Yazdır ferma sağalmır,
Kefli çağımdı mənim.

Əzizim səndən İraq,
Düşmüşəm səndən iraq.
Qoy dərdin mənə gəlsin
Tək olsun səndən iraq.

---

[1] Bu növ B-1251 şifrəli bayatılar Əlyazmalar İnstitutundakı müvafiq əlyazmalardan toplanmışdır.

Mən aşiqəm tək yara,
Canım aldı tək yara.
Boynum kündədə olsun,
Əlim yetsin tək yara.

Əzizim su dayandı,
Susənbər duda yandı.
Eşq oduna su səpdim,
Od tutdu su da yandı.

Əzizim yar içəridən,
Sök bağrım yar içəridən.
Getdi gözüm qarası,
Çıxmadı yar içəridən.

Əzizim tüstü məndən,
Od səndən, tüstü məndən.
Dilim, səni yanasan,
Nə dedim, küsdü məndən?

Əzizim lələ məni,
Sına sən belə məni.
Dilin neştərə dönüb,
Qorxuram dələ məni.

Yox aşıq sənəm, sənəm,
Xoş gəldin Sənəm, Sənəm.
Dedim: ləbin kim əmsin?
Dedi ki, sən əm, sən əm!

## OĞUZ RAYONU ZƏRDAB KƏNDİNDƏN BAYATILAR[1]

Can ana, canım ana,
Yastığım, yanım ana.
Baş qoyum dizin üstə
Tapşırım canım ana.

Eləmi ana yeri,
Zülfünü sana yeri.
Yüz min təbib yığılsa
Heç verməz ana yeri.

Apar bazara məni,
Vermə nəzərə məni.
Çıxart çarıq, corabın
Salla məzara məni.

Mən ölürəm çiçəkdən,
Nur tökülür birçəkdən.
Yad ağlar, yaman ağlar
Anam ağlar gərçəkdən.

Yaralandım yanımdan,
Quşlar doydu qanımdan.
Fələk bir dərdə saldı
Bezar oldum canımdan.

Qardaşım gəl, qalam gəl,
Ərşə çıxdı, naələm, gəl.
Qərib eldə, qərib ölkədə
Mənə qardaş olan, gəl.

Qardaş gəl gərəyimsən.
Güzgümsən, darağımsan.
Qəriblikdə can verdim,
Sən gəlsən gərəyimsən.

Yaralıyam, qoçam mən,
Yaram qoymur qaçam mən.
Tapmadım qaya kölgəsi
Yaralarım açam mən.

Dağda dolu durubdu,
Dolu boynun bururbdu.
Mən doludan qorxuram,
Dolu məni vurubdu.

Eləmi alma yükü,
Yüklənib alma yükü.
Bu bir ağır şələdir
Boynuna alma yükü.

---

[1] Oğuz rayonu Zərdab kəndindən toplayıb Əzizə Cəfərzadəyə göndərən  Eldar Mürsəl oğlu Kərimovdur.

Eləmi arxa haray,
Su gəlir arxa haray.
Baxaram dal-qabağa
Çağırram arxa haray.

Dəryada fanar yandı,
Fənar nə kənar yandı.
Canıma bir od düşdü
Damarba damar yandım.

Mənə fələk elədi,
Fələk kələk elədi.
Açdı güllü bağımı,
Ələk-vələk elədi.

Quşum uçdu tüləkdən,
Qolum düşdü biləkdən.
Mən fələyə neylədim,
Fələk vurdu ürəkdən.

Kəklik qaşa dağıldı,
Döndü daşa dağıldı.
Ovçu elə vurdu ki,
Qanı daşa dağıldı.

Bostançıyam, cuvaram[1],
Suyum yoxdur suvaram.
Yetişmişin dərdilər,
Kalına mən cumaram.

Əlimi tas yandırdı,
Gülüm peyvəst yandırdı.
Məni fələk yandırıb,
Sən də əbəs yandırdın.

Quşumu uçurtdular,
Dəryadan keçirtdilər.
Yenicə yandırmışdım,
Vurdular, keçirtdilər.

Dam üstə sarı taya,
Yel vurdu, tökdü çaya.
Zəhmət çəkdim, ev tikdim,
Axırı getdi zaya.

Qardaş, burdan dur yeri,
Ətək belə vur yeri.
Yüz min təbib yığılsa,
Qardaşın var öz yeri.

Ağac da lal olarmı?
Meyvəsi kal olarmı?
Qardaşı ölsə, bacının
Heç dili lal olarmı ?

Məni qardaş ağlasın,
Qursun bardaş ağlasın.
Anam çıxsın dağ başına,
Desin dağ-daş ağlasın.

---

[1] Cuvar – Suvarma suyunu bölüşdürən adam.

Eləmi özüm, neylim,
Bu dərdə dözüm, neylim.
Fələyə çox yalvardım,
Baxmadı sözə, neylim?

Elə özüm ağlaram,
Dərdə dözüm ağlaram.
Girərəm yalqız damlara,
Təkcə özüm ağlaram.

Gülərəm gülən olsa,
Dərdimi bilən olsa.
Ağlayardım doyunca,
Göz yaşım silən olsa.

Gələrəm gələn olsa,
Yolunu deyən olsa.
Yardan bacı yaxşıdir,
Qədrini bilən olsa.

Əziziyəm oyan gül,
O yan bağça, o yan gül.
Balalar fəğan eylər.
Nə yatmısan oyan, gül.

Göydə gedən quşa bax,
Caynağı gümüşə bax.
Xalqa gələn yazı gör,
Mənə gələn qışa bax.

Qaradır qaşın ördək,
Yaşıldır başın ördək.
Bir zaman cüt gəzərdin,
Hanı yoldaşın ördək.

Dağda boran oldumu?
Əsdi boran oldumu?
Burdan bir oğlan keçdi,
Onu görən oldumu?

Qardaş, atın nalıyam,
Üstdə ipək xalıyam.
Qardaş, mənə can demə
Mən özgələr malıyam.

Qardaş, qardaş beş qardaş,
Xəncəri gümüş, qardaş.
Bacın qərib eldədi,
Çilov göndər, düş qardaş.

Mələ, qoyunum mələ,
Quzusun verməz ələ.
Mən mələdim gəlmədi.
Sən mələ bəlkə gələ.

Qalalar ha qalalar,
Qalaya yol salalar.
Ana balasın verməz,
Bəlkə zora salalar.

Eləmi başdaşına,
Baş qoyum, başdaşına.
Nər qardaşı ölənin,
Düşməzmi daş başına?!

Kəklik idim vurdular,
Qol-qanadım qırdılar.
Mən buralı deyildim,
Mənə duzaq qurdular.

Kəkliyin izi qanlı,
Topuğu, dizi qanlı.
Ölərəm məhlənizdə,
Tutaram sizi qanlı.

Mən öldüm ağlamaqdan,
Bağa su bağlamaqdan.
Bağda yarpaq qalmadı,
Yarama bağlamaqdan.

Dağlardan endim ancaq,
Başımda sarı sancaq.
Nə gəlin oldum, nə qız,
Odlara yandım ancaq.

Dağlar dağladı məni,
Görən ağladı məni.
Heç kəs ağlamaz idi,
Kəbin bağladı məni.

Bir at mindim başı yox,
Bir çay keçdim daşı yox.
Burda bir qərib ölüb,
Yanında qardaşı yox.

Ayın arısı qaldı,
Günün sarısı qaldı.
Mən dediyim oğlanın,
Yatdı sarısı qaldı.

Əmim oğlu bir idi,
Əl yaylığı kir idi.
Qazan asdım yumağa,
Axar sular qurudu.

Mən dedim sən olasan,
Sinəmə sar olasan.
Mənə yar qəhət deyil,
Mən dedim sən olasan.

Əmimoğlu, al məni.
Heykalına[1] sal məni.
Heykalından çıxarsam,
Heykalın tutsun məni.

Yarnım qara qazandı,
Könlüm ərzə yazandı.
Fələyin qaydasıdı,
Fələy pərgar pozandı.

---

[1] Heykal – d. Kəbin.

Bu yollar işləməsin,
Bəzirgah qışlamasın.
Məndən qeyri yar alsan,
Allah bağışlamasın.

Apar məni bəndə vur,
Belimdən kəməndə vur.
Səksən səkkiz yaram var,
Əsirgəmə sən də vur.

Dağları gəzdim gəldim,
Daşını düzdüm gəldim.
Baxdım bivəfa gördüm,
Əlimi üzdüm gəldim.

Eləmi vətən quşu,
Çöllərdə yatan quşu.
Arvadı tez qocaldır,
Axşamdan yatan kişi.

Gəlirdim qıraq ilə,
Gül biçdim oraq ilə.
İtirmişəm yarımı,
Gəzirəm soraq ilə.

Ağ donun ağlı qalsın,
Boxçada bağlı qalsın.
Məndən başqa yar sevsən,
Yarın adaxlı qalsın.

Yağaram yağış kimi,
Əsərəm qamış kimi.
Elə yadıma düşdün,
Təzəcə yemiş kimi.

Yağaram yağış kimi,
Bitərəm qamış kimi.
Sən yadıma düşürsən,
Bir nüybar yemiş kimi.

Arxalığın şaldı, yar,
Dərdin məni aldı, yar.
İkimizin sir sözü,
Qiyamata qaldı, yar.

Gedin o dosta deyin,
Yalvarın asta deyin.
Yar məni xəbər alsa,
Döşəkdə xəstə deyin.

Qızıl iynənin sapı,
Sizin yol, bizim qapı.
Səni məndən eyləyən,
Dilənsin qapı-qapı.

Arxalıq tikən ölsün,
Qəddinə bükən ölsün.
Mən sənə göz dikmişdim,
Sənə göz dikən ölsün.

Yarı yolladım özüm,
Dalında qaldı gözüm.
Yolda yoldaşı qurban,
Evə gələndə özüm.

O yola yol salaydım,
Karvana kol salaydım.
Bilsəydim ayrılıqdı,
Boynuna qol salaydım.

Tut ağacı vuruldu,
Dibində ay duruldu.
Hamının yarı gəldi,
Mənim boynum buruldu.

Kəkliyin dimdiyi qan,
Dili qan, dimdiyi qan.
Dindirmə naqafili,
Dindikcə dindiyi qan.
(Bacıxanım Ağalar qızı,
Laçın)

Eləmi demə barı,
Dem[1] əkdim demə barı.
Mənim miskin günümü,
Heç yanda demə barı.

Bənövşədən bəndi yar,
İlqar verdi, döndü yar.
Dönəcəkdi, qoy dönsün,
Elə bildim öldü yar.

Dağda duman yeri var,
Qaşda kaman yeri var.
Burda bir cavan ölüb,
Allahaman yeri var.

***

Bağımda bağmanım var,
Yanımda loğmanım var.
Aç ürəyvün başına,
Əlimdə dərmanım var.
(Bəyim İbrahimova,
Göyçay, müəllim, 1976)

---

[1] Dem – d. dəmyə əkin.

## BORÇALI BAYATILARI

Əzizim gələr oldum,
Sarvana gələr oldum.
Suyunda şərbət tapdım,
Sevincdən gülər oldum.

Əzizim gül xalı var,
Gül üzdə gül xalı var.
Bilsin bu yerdən keçən,
Borçalı mahalı var.

Əzizim yağlıcada,
Sürülər yağlıcada.
Ye qoyun pendirini,
Ağzın qoy gəlsin dada.

Əzizim sal dağları,
Ləlvərin sal dağları.
Başında qar örpəyi,
Bir cənnətdi bağları.

Əzizinəm çəkərəm,
Yüz il nazın çəkərəm.
Babəkin izi qalıb,
O məğrur Babəkərəm.

Əzizim sökülüb dan,
Gün çıxıb sökülüb dan.
Neyləyim yar sevmişəm,
Bizim bu Muğanlıdan.

Əzizinəm arxına,
Düşmə fələk çarxına.
Neçə bayatı qoşub
Şairlər Gorarxına.

Əzizim Qoçuluda,
Qonaq qal Qoçuluda.
Eyni gözdə görərlər,
Ağanı da, qulu da.

Əzizinəm dəmirdən,
Qapı qoy daş-dəmirdən.
Gülüm adım demərəm,
İmirdənəm, İmirdən.

Əzizim Sadaxlıya,
Qonaq gəl Sadaxlıya.
Dağda buz bulaqlara
Çəməni göy xalıya.

Əzizim ipəkçidən,
İpək al ipəkçidən.
Gülüm, ozanın gələr
Gözəl Kəpənəkçidən.

Əzizim "yasdı qara",
Yaman düşdüm odlara.
Eşqindən buta aldım,
Yetirin məni yara.

Əzizinəm aşiqəm,
Borçalıya aşiqəm.
Şulaverdə oluram,
Üzməz məni acı qəm.

Əzizinəm gül ləbli,
Gül açılar, gül ləbli.
Qara qul məskən salıb,
Qalıb adı Ərəbli.

Əzizinəm Daştəpə,
Yaşıl bağlı Daştəpə.
Mən yarımdan ayrıldım,
Göz yaşı səpə-səpə.

Əzizinəm sula ver,
Al dəsmalı sula ver.
Bir yurd saldım, sevgilim,
Ünvanımdı Şulaver.

Əzizinəm dolan gəz,
Borçalını dolan gəz.
Ozanlar diyarını
Gəzən yorulmaq bilməz.

Əzizinəm hər anda,
Çal ozanım hər yanda.
Göyçə Məmməd evində
Qalasan Qaçağanda.

Əzizinəm Qullarda,
İç şərabı Qullarda.
Belə gözəl nemətin
Dadı söylənir harda.

Səhər günəş çıxdı gəl,
İldırımlar çaxdı gəl.
Kimsəyə baxmaz idim
Kimsə mənə baxdı gəl.

Çayda sular duruldu,
Qərib boynum vuruldu.
Ağlamazdım, ağladım,
Bəxt ağacım qırıldı.

Göz yaşlarım sel oldu,
Ürəyim tel-tel oldu.
Namərdə bel bağladım
Mənə gülən el oldu.

Əzizim qan ağlaram,
Qan sızlar, qan ağlaram.
Bir sağalmaz yaram var,
Hey gedər qan, ağlaram.

Əzizim gülüm olsun,
Gül açsın gülüm olsun.
Heç nə gərəyim deyil,
Bir şirin dilin olsun.

Əzizim gecə olar,
Gün gedər, gecə olar.
Qara bəxtli insana
Gündüz də gecə olar.

Əzizim tər yasəmən,
Çöldə bitər yasəmən.
Ayrılığın oduna,
Həm sən, yandın, həm də mən.

Əzizinəm varım var,
Dövlətim var, varım var.
Dünya vecimə deyil,
Etibarlı yarım var.

Ay doğdu nərə dəydi,
Göydə Ülkərə dəydi.
Dilin qurusun aşiq
Nə dedin yara dəydi.

Eləmi bağ çəpəri,
Bağ pəri, bağ çəpəri.
Çəpər bağ dolanmaqdan,
Dolaşır bağ çəpəri.

Əzizim Gəncə daşı,
Kür daşı, Gəncə daşı.
Qonşun bədxasyət olsa,
Yığ evin Gəncə daşı.

Əzizim qəm gölündə,
Üzürəm qəm gölündə.
Saralıram, soluram,
Mən qürbətlik elində.

Əzizinəm ağladım,
Sənə könül bağladım.
Ey bivəfa sevgilim,
Məni yaman dağladın.

Şirvanın şirin narı,
Turş narı, şirin narı.
Sovqatın sənin olsun,
Göndərsən şirin yarı.

Araza gəmi gəldi,
Kür keçdi, gəmi gəldi.
Ağlasan, a gözlərim,
Ayrılığın dəmi gəldi.

Gəncə yolu buyumuş,
Arxı tamam qurumuş.
Vədə verdim gəlmədin,
Etibarın bu imiş.

Eləmi gözdür məni,
Gözlərin gözdür məni.
Məndə var göz ağrısı,
Səndə var göz dərməni.

Əzizim qara dağlar,
Kəklini dara dağlar.
Sona yar itirmişəm
Bir onu ara, dağlar.

Dağlar marala qaldı,
Otu sarala qaldı.
Soyuq bulaq, göy çəmən,
O da marala qaldı.

Dağlarda geyik mənəm,
Buynuzu böyük mənəm.
Beylə dərd ki məndə var,
Yaxşı ki, döyükmənəm.

Maral durduğu yerdə,
Boynun burduğu yerdə.
Düşmanın qolu sınsın,
Səni vurduğu yerdə.

Marala bax, marala,
Düzdə gəzə qarala.
Səndən mənə yar olmaz,
Az qəlbimi yarala.

Dağda maral durubdu,
Maral boynun burubdu.
Iki ovu bir oxnan
Hansı ovçu vurubdu.

Dağlarda maral könlüm,
Heç tutmaz qaral könlüm.
Tağ ölmüş bostan kimi,
İndi qal, saral könlüm.

Eləmi qana dağlar,
Ox titrər, qanad ağlar.
İtirmiş maralını,
Batıbdı qana dağlar.

## XINDIRSTAN BAYATILARI[1]

Əzizinəm güləm mən,
Bülbül sənsən, güləm mən.
Səndən əlim üzüldü,
Çox çətin ki, güləm mən.

Əzizinəm darıyam,
Buğda deyil darıyam.
Hamı yardan yarısa,
Mən çətin ki, yarıyam.

Əzizinəm arı var,
Şanılarda arı var.
Xoş o kəsin halına,
Bir vəfalı yarı var.

Əzizinəm gulə-gulə,
Ağlaram gilə-gilə.
O günü gülərəm ki,
Yar bizə eləçi gələ.

Əzizinəm dəstə-dəstə,
Gül yığdım dəstə-dəstə.
Çox çəkdim yar cəfasın,
Axırda olsum xəstə.

Əzizinəm gendə dür,
Yaxın gəlmə gendə dur.
Səndə vəfasızlıq var,
Məndə isə bol qürur.

Qışda dağlar qar olar,
Yolda günəş saralar.
Üzürəm qəm gölündə,
Sağalarmı yaralar.

Əzizinəm  dövr eylər,
Ay keçər il dövr eylər.
Mənə vurulan yara,
Ömür böyu qövr eylər.

Əzizinəm dərd əlindən,
Qaçaram dərd əlindən.
Hər şeyə qadir olan,
Qaçarmı öz eşqindən.

---

[1] Söyləyiçi:  Zərqələm. Məmmədova Ağdam rayonu, Xındırısatan, Paşabəyli kəndi. Bayatılar Əliyev Oruc tərəfindən toplanıb Əzizə Cəfərzadəyə göndərilib.

## ZAL QIZI GÜLNAZ NƏNƏNİN BAYATILARI VƏ QOŞMASI

Boz at boynun burulaydı,
Yəhərin tərs vurulaydı.
İgid İskəndərin hanı,
Sənin belin qırılaydı.

Eləmi mən ağlayım,
Lələmə mən ağlayım.
Gecəni sən ağladın,
Sabahı mən ağlayım.

Güllə kimi uç oğul,
Bərkdən boşdan keç oğul.
Köhləndən köhlən törər,
Qoç igiddən qoç oğul.

Eləmi toy yerində,
Toy olar toy yerində.
Qoy yasım yasa dönsün,
Toyum var, toy yerində.

Evimizdə gənə var,
Yatmaq olmaz, gənə var.
Bu laçın yuvasıdır,
Qurtarmayıb genə var.

Eləmi çatıb gələr,
Qaşların çatıb gələr.
Kərəm qaçaq düşsə də,
Haraya çatıb, gələr.

Eləmi atım haray,
Elim, elatım haray.
Yar gəldi, yoldaş gəldi,
Gəlmədi atım, haray.

Eləmi ahu tutdu,
Düzləri ahu tutdu.
Balamı ox tutmazdı,
Durnanın ahı tutdu.

Eləmi qatarından,
İgidin qatarından.
Qatardan üzən bala,
Üzüldü qatarından.

Söyünüm elə getdi,
Qoşuldu yelə getdi.,
Atanın iyid oğlu,
Dağ oldu elə getdi.

Eləmi yerdə qala,
Yerdə daş, yerdə qala.
Ölərəm, bu qisası
Qoymaram yerdə qala.

Eləmi dağa yağar,
Çən-çiskin dağa yağar.
Payız oldu, qış oldu,
Qar bizim dağa yağar.

Eləmi qan düşəndə,
Qan ağla qan düşəndə.
Gül bitməz, bülbül ötməz
Bir yerə qan düşəndə.

Eləmi dağı getdi,
Sinədə dağı getdi.
Kərəm İranda qaldı,
Arxamın dağı getdi.

## Qoşma

Sən gəzərdin o Rüstəmin elində,
Can bəslərdin köhlənlərin belində,
Niyə öldün bir gədanın əlində,
Atıb-vuran kamandarım ölübdür,
Əldən gedib, ümidvarım ölübdür.

## ZABİTDƏN BAYATILAR

Apardı Yasəməni,
Dər də gör yasəməni.
Zabit der: qəlb yerinə
Qapıda yasə məni.

İtləri dişdər məni,
Gəl qutar dişdən məni.
Səndə var üz yarası,
Məndə var diş dərməni.

Qarşıda Ağarmasın,
Rəqiblər ağarmasın.
Zabit der: tək mən ölüm
Dost zülfü ağarmasın.

Qarşımızda bir sinə,
Biri qaşdı, bir sinə.
Zabit der: səg[1] rəqibim,
Məni qoysun bir sinə.

Qarşıda yaman bəla,
Dil vermə yaman bəla.
Zabit der: gördüm dəngsin[2],
Yamana, yaman bəla.

Mən getdim Dağıstana,
Sən də gəl Dağıstana.
Ağlasana, gözlərim,
Qəmimi dağıtsana.

Yol düşdü belə dağa,
Çəmənə, belə, dağa.
Zabit der: bilən varmı,
Kim dözər belə dağa?

Qarşıda sarı gördüm,
Tərlanı, sarı gördüm.
Zabit, yarın meyl edər
Rəqibə sarı gördüm.

---

1 Səg – f. İt.

2 Dəng - Bərabər, tay.

## GÜLNİGAR RƏHİMLİNİN (RƏHİMOVA) BAYATILARI

Əzizinəm solma gəl,
Bir gül təki solma gəl.
Gözünə yaş yaraşmır,
Bulud kimi dolma gəl.

Əzizim düzüm-düzüm,
Baxçada vardır üzüm.
Bir gün səni görməsəm,
Heç gülməz, gülər üzüm.

Əzizinəm bəxtinə,
Ağ gün doğsun bəxtinə.
Bədbəxt o gün bədbəxtdir,
Gün doğmayır bəxtinə.

Alma, armud var yemiş,
Gəl baxçadan dər yemiş.
Ayrılıq haçan oldu,
Biz əlvida deməmiş.

Axan sular da axdı,
Gözün gözümə baxdı.
Əhdə bivəfa çıxdın,
Gözümdə şimşək çaxdı.

Gözəl idin gözümdə.
Min nəğməydin sözümdə.
Harda qaldı o günlər,
Axtarıram özüm də.

Qarlı dağda izim var,
Gülüm, sənə sözüm var.
Bu yerdən bax yar gedib,
Hər izində gözüm var.

Alma aldım kal düşdü,
Ürəyimə xal düşdü.
Mənim cavan taleyim,
Ayrılıqla öpüşdü.

Günüm aya dönübdür,
Ayım ilə dönübdür.
Yandırdığın eşq odu
Ürəyimdə sönübdür.

Qağlı sinəm dağlıdı,
Könlüm sənə bağlıdı.
Həsrət çəkən ürəyim
Bilməm niyə dağlıdı.

Əzizim boynu bükük,
Qalmışam boynu bükük.
Nərgizlər ağlar qalıb,
Bənövşə boynu bükük .

Əzizim gecə gedər,
Ay gələr, gecə gedər.
Min yaram var sinəmdə,
Bilmirəm necə gedər.

Əzizim qara qaşdım.
Gül üzdüm, qara qaşdım.
Dərdin, qəmin əlindən
Yolumu da mən çaşdım.

Əzizim qəsdi gülüm.
Hicranın bəsdi gülüm.
Toyumuzdan xəbər ver,
Ayrılıq bəsdi, gülüm.

Əzizim buta mənə,
Verdilər buta mənə.
Eşqindən bir od aldım,
Olubdur xata mənə.

Əzizim çaya gedər,
Axar sel çaya gedər.
Çox da boran qar olsa,
Qabağı yaya gedər.

Əzizim ətir saçdı,
Gül açdı ətir saçdı.
Bu qəmli ürəyimə
Eşqin min ətir saçdı.

Əzizim mil-mil oldu,
Getdiyin düz bil oldu.
Vədə verdin gəlmədin,
Ağlar bu könül oldu.

Əzizim xəstə könül,
Nar istər xəstə könül.
Gözü qapıda qalar,
Qulağı səsdə könül.

Əzizim səhər mənə,
Gün düşər bu çəmənə.
Xoşbəxtliyin yerinə
Verdilər zəhər mənə.

Əzizinəm həmdəmsiz,
Gül olmasın həmdəmsiz.
Bülbüllər kor olanda,
Gül dayanarmı qəmsiz.

Samavarım həlimdi,
Ürəyimi al indi.
Bir küsən, bir barışmaz,
Yana-yana qal indi.

Qara bax, ağına bax,
Gəl mənə, yaxına bax.
Xoşbəxtliyin gölündə.
Üzəcəyəm bəs nə vaxt?

Əziziyəm şəkərin,
Şirin dilin, şəkərin.
Olma acıdil gülüm,
Gülün olar nökərin.

Əzizinəm sözünə.
Heyran qaldım gözünə.
Hicranın beli sınsın,
Mən həsrətəm üzünə.

Əzizim qara baxdım,
Gülmədi qara bəxtim.
Qan ağladı, göl oldu,
Xəstə biçarə bəxtim.

Əzizinəm incə gül.
İncə danış, incə gül.
Dəymə gülün xətrinə.
Bil inciyər qönçə gül.

Əzizinəm elinə.
Qoy qar yağsın elinə.
Qürbət belimi bükdü.
Mən qurbanam elimə.

Yaman işə girişdin,
Pillə-pillə sürüşdün.
Müdir idin, ay canım,
Qaroulluğa düşdün.

Əzizim qarlı təpə,
Boranlı, qarlı təpə.
Səndən o gün ayrıldım,
Göz yaşı səpə-səpə.

Əzizim sözüm sənə,
Düşübdür gözüm sənə.
Lalə, nərgiz yaraşır,
Yaxın gəl, düzüm sənə.

Əzizim gülün olsun,
Hə deyən dilin olsun.
O gün nə vaxt olacaq,
Gülnigar qulun olsun.

Əzizim narın-narın,
Varmı əhdin, ilqarın.
Sevib dönük çıxsan sən,
Qoy qırılsın qolların.

Əzizim şəfa mənə,
Verdilər şəfa mənə.
Səninçün ömür sürdüm,
Demə bivəfa mənə.

Əzizim qəmli mənəm,
Dərd qərib, qəmli mənəm.
On beş yerdən yaralı,
Gözləri nəmli mənəm.

Əzizim gülüm soldu,
Gül əkdim,gülüm soldu.
Mən sənə bel bağladım,
Qürbətdə gülüm soldu.

Əzizim varın olsa,
Dövlətin, varın olsa.
Bu dünya bir cənnətdi,
Vəfalı yarın olsa.

Vətən qurbanın olum,
Torpağında qul olum.
Baxça-bağı neynirəm,
Çöllərində kol olum.

Əzizim adı şirin,
Vətənin dadı şirin.
Qürbətin şərbətindən,
Vətəndə cadı şirin.

Əzizinəm mələrəm,
Quzu kimi mələrəm.
Canarar döyüşünə,
Aslan olub gələrəm.

Əzizinəm qürbətdə,
Gül tək soldum qürbətdə.
Torpağının qədrini,
İndi bildim qürbətdə.

Armudumu yemişəm,
Sənə adım demişəm.
Dedim sev həmişəlik,
Atmaq olmasın peşən.

Alma aldım kal oldu,
Eşqim sənə lal oldu.
Atıb getdin sən məni,
Göz yaşlarım göl oldu.

Əzizim səhər açdı,
Gül açdı, səhər açdı.
Səni sevdim, sevgilim,
Eşqin gül ətri saçdı.

Əzizim bəxti qara,
Olmuşam, bəxti qara.
Kaş ki, doğulmayaydım,
Mən belə bəxti qara.

Əzizim telə bəndəm,
Çəmənə gülə bəndəm.
Yarım yaman zalımdı,
Bir şirin dilə bəndəm.

Əzizim asta gedər,
Yol gələr, asta gedər.
Müxənnət evin uçsun,
Ayrılıq yasla gedər.

Əzizim sənin qulun,
Gülnigar sənin qulun.
Sevib məni atdın yar,
Bağlandı sevda yolun.

Əzizim hasar oldu,
Dörd divar hasar oldu.
Atıb getdin məni sən.
Gözlərim qanla doldu.

Əzizim uçuruma,
Yol getdin uçuruma.
Batdın niyə çıxmadın,
Sən düşdün uçuruma.

Əzizim ulduz çıxar,
Ay batar, ulduz çıxar.
Çıxmadın sən bəxtimə,
Gecələr ulduz çıxar.

Əzizim bıçaq kimi,
İtidir bıçaq kimi.
Söz var ondan kəsərli,
Doğrayır bıçaq kimi.

Əzizinəm söz demə,
Hər yetənə söz demə.
Dözülməz ayrılığa,
Sən birtəhər döz demə.

Əzizim dindir məni,
Saz ilə dindir məni.
Dəymə qərib qəlbimə.
Göz ilə dindir məni.

Əzizim şirin gərək.
Dil ola şirin gərək.
Şirin dil olan yerdə,
Yeyilər quru çörək.

Əzizinəm çəməndə,
Güllər bitər çəməndə.
Niyə xoşbəxt olmayır.
Bu dünyada çox bəndə.

Əzizinəm üz ola,
Xoşxasiyyət üz ola.
Bəxtini onnan bağla,
Təki ilqar düz ola.

Əzizinəm haraylar,
Gülün səni haraylar.
Bəxti qara insana
Qismət olmaz saraylar.

Əzizinəm hə sənə,
Oğlan adın desənə.
Nə vaxt elçin gələcək,
Onda verrəm hə sənə.

Əzizim qəmə batma,
Fikirə qəmə batma.
Ay qız sən ər taparsan,
Ata, ananı atma.

Əzizinəm mil-milə,
Toxunubdur mil-milə.
Bir gün küsülü qaldıq,
Günüm döndü, bir ilə.

Əzizinəm açaram,
Sənə könül açaram.
Çox da desən sevmirəm.
Bir yol alıb qaçaram.

Mirvarim düzüm-düzüm.
Vardır sənə yar sözüm.
Gedər oldun gəlmədin,
Bəs buna necə dözüm.

Şəkərin al naxışı,
Tərgit belə baxışı.
Oğlan qızı atma gəl,
Tutar qızın qarğışı.

Əzizinəm təlinə,
Nəğmə gəldi dilimə.
Namərd evin yıxılsın,
Düşdüm namərd əlinə.

Əzizim gecə çıxar,
Ay, ulduz gecə çıxar.
Namərdə bel bağlayan,
Odlara yanıb yaxar.

Əzizinəm qəm mənim,
Duman mənim, qəm mənim.
Bəxtimə buta gəlib,
Fikir mənim, qəm mənim.

Yolum düşübdü solda,
Gözüm qalıbdı yolda.
Hicranına dözmürəm,
Şərbəti olsa bal da.

Əzizinəm ağırdı,
Qürbətlik çox ağırdı.
Gözlərimə qan gəlib,
Sanki qara bağırdı.

Çiçəyim gülüm sənsən,
Yaqutumləlim sənsən.
Sənsiz günum olmasın,
Gülüm sağ əlim sənsən.

Açar güllərim soldu,
Gözlərim qanla doldu.
Atıb getdin sən məni,
Bumu hədiyyən oldu.

Nərgizləri üzərəm,
Sağ, soluma düzərəm.
Yarım müxənnət olsa,
Qara bağlar gəzərəm.

Əzizinəm gül nişan,
Üzük nişan, gül nişan.
Həsrətinə dözmürəm,
Qoyma məni pərişan.

Əzizinəm söz olar,
Ürək coşar, söz olar.
Şirin dilə qurbanam,
Acı dil bir köz olar.

Əzizinəm sına sən,
Dostu axtar, sına sən.
Qanana ürək qurban,
Qanmazı at yana sən.

Əzizinəm mərd gərək,
Dostun ola mərd gərək.
Namərdə bel bağlayan,
Darda tapmaz duz-çörək.

Əzizinəm qalma gəl,
Dərdi üzə salma gəl.
Gülüm, gedib gələrəm,
Saç gözünü yolma gəl.

Qatar gələr yel gedər,
Yağış gələr, sel gedər.
Məhəbbətsiz ömür tək
Qış gələndə, gül gedər.

Əzizinəm saxtadır,
Saxta ömür saxtadır.
Məhəbbətsiz keçən gün,
Ayaz vurmuş şaxtadır.

Əzizim qatar gedər,
Ellərə çatar gedər.
Ömür gözləyə bilməz,
Sanki bir qatar gedər.

Əzizinəm qurararam,
Yollarında durararam.
Xətrimə dəysən gülüm,
Küsüb boyun burararam.

Əzizinəm çəkdin sən,
Gözə sürmə çəkdin sən.
Eşqimin səbətində,
Necə ağır yükdün sən.

Əzizinəm qaldım mən,
Boynuna qol saldım mən.
Niyə məni incitdin,
Gülüm səni aldım mən.

Əzizinəm incəsən,
Qızılgülsən qönçəsən.
Qoxlamağa heyifsən,
İncidən də incəsən.

Əzizinəm göy bulud,
Qara bulud, göy bulud.
Sevdim səni, ey gözəl,
Dərd, qəmini sən unut.

Əzizinəm naşıya,
Könül vermə naşıya.
Əgər qəlbin yüklənsə,
Naşı bilməz daşıya.

Əzizinəm gül ağlar,
Gül solar, bülbül ağlar.
Eşqə nəğmə oxuyar,
Çöldə həzin bulaqlar.

Əzizinəm sən də gül,
Çəmən güldü, sən də gül.
Hicranın həsrətinə,
Yanar dağ da ey könül.

Əzizinəm nələr var,
Bu dünyada nələr var.
Çox da qürbət böyükdür,
Addımı da olar dar.

Əzizinəm söz olar,
Könül qıran söz olar.
Qürbət eldə olanın,
Ürəyi köz-köz olar.

Gecə zülmət qaradı,
Göydə ay da paradı.
Gülüm dəymə qəlbimə,
Gül ürəyim yaradı.

Göydə ulduz tən oldu,
Qəlbim duman, çən oldu.
Yazıya pozu yoxdur,
Qürbət el vətən oldu.

Ulduzun ağına bax,
Soluna, sağına bax.
Məni görmək istəsən,
Qızılgül bağına bax.

Gecə zülmət qaradı,
Ayım para-paradı.
Fələk min dərdə salıb,
Ürəyimdə yaradır.

Əzizinəm yel açar,
Bu qapını yel açar.
Gölməsən dərdə düşüb,
Olaram xəstə, naçar.

Əzizim qədrin bilməz,
Bayquş gül qədrin bilməz.
Gözündən qan tökülsə,
Soruşmaz, dərdin bilməz.

Əzizinəm sarı tel,
Sənə qurban sarı tel.
Gözləməkdən yoruldum,
Gəl sən səslə, yarı, tel.

Əzizinəm qalanmaz,
Buz üstə od qalanmaz.
Sındırma bir ürəyi,
Sındı bir də calanmaz.

Əzizim asta gedər,
Yol gələr, asta gedər.
Gözələ ərə gedən,
Sağ gələrsə, xəstə gedər.

Əzizim yazda gələr,
Qış gedər, yazda gələr.
Gözələ bel bağlama,
Qış gedər, yazda gələr.

Əzizim yazda açar,
Qızılgül yazda açar.
Etibarsız gözəllər,
Boş şeydən küsüb qaçar.

Ay boyu bəstə gülüm,
Düşmüşəm xəstə gülüm.
Unutmusan yarını,
Qalmışam səsdə gülüm.

Əzizim səsdə olar.
Göz, qulaq səsdə olar.
Həkim gəlib çıxınca,
Burda sağ xəstə olar.

Əzizim telefonçu,
Yaxşı bax telefonçu.
Abonoment burdadı,
Demə yox, telefonçu.

Əzizim vardı varım,
Dövlətdən vardı varım.
Sən atıb gedən gündən,
Qırılıbdı qollarım.

Stol üstə konfetim,
Sənsən mənim konfetim.
Mən səni unutmaram,
Sən yetimsən, mən yetim.

Əzizim gey-göz ağla,
Ürəyi köz-köz ağla.
Ayrılıın qədrini,
İndi bilib, döz ağla.

Əzizim səhər şehi,
Gül üstə, səhər şehi.
Vəfasız niyə tökdün,
Üstümə zəhər şehi.

Əzizim narın-narın,
Ağlaram narın-narın.
Əhdinə dönük çıxdın,
Yox oldu sevgi varın.

Əzizinəm barıynan,
Heyvasıynan, darıynan.
Qəbirə birgə getsin,
Sevgili öz yarıynan.

Əzizinəm bar gətir,
Heyva gətir, nar gətir.
Başqa var istəmirəm,
Eşq adlı bir var gətir.

Əzizinəm hər kəndə,
Uçar könlüm, hər kəndə.
İstəkli yarım qaldı,
Ay ellər Balakəndə.

Əzizinəm dağ-dərə,
Sənə qurban dağ-dərə.
Balakənnən ayrıldım,
Dərdimə ət, yar, çarə.

Eu yolların tozu var,
Fındığı var, qozu var.
Gülüm, çaşma yolunu,
Neçə bağı, düzü var.

Əzizinəm barıynan,
Bağ sevinər, barıynan.
Balakən dağlarında,
Gül də gəzər yarıynan.

Əzizinəm gül solar,
Bülbül ağlar, gül solar.
Hicran qapı döyməsin
Eşqin yanıb kül olar.

Əzizim bakı küləyi,
Əsdi bakı küləyi.
Fəryadıma çatmadı,
Sevgilimin köməyi.

Əzizinəm qovuşdu,
Bülbül gülə qovuşdu.
Baharın bir günündə,
Segililər qovuşdu.

Əzizim gəlib bahar,
Ellərə gəlib bahar.
Niyə gəlib çıxmadın,
Harda qalmısan ey yar.

Əzizim yaşıl düzə,
Xalı sal yaşıl düzə.
Sürmə, bəsmə yar aşmır,
Doğrusu qara gözə.

Əzizinəm lalədən,
Könül evim lalədən.
Addımını atma sən,
Lalə küsər lalədən.

Əzizim, ilqarını,
Aç mənə qollarını.
Təbiət də baharda,
Gözləyir öz yarını.

Əzizinəm gəlini,
Öpüb bahar əlini.
Həsrətlə gözləyirəm,
Bahar adlı gəlini.

Əzizinəm ağ olar,
Könlüm min varaq olar.
Oxuyub, örtüb, keçmə.
Ürəyim dağ-dağ olar.

Əzizinəm qaşdadır,
Gülüm ağıl başdadır.
Gözüm sizin evdəki,
Bir qaragöz qaşdadır.

Əzizinəm tər çiçək,
Üzdüm səni tər çiçək.
Gözlərim yollardadır,
Nə vaxt elçin gələcək.

Əzizinəm baharda,
Gül açılar, baharda.
Bir gəlin tək bəzənər,
Çöl, çəmənlər baharda.

Əzizim fata qoyar,
Gəlinlər fata qoyar.
Ağaclar da bəzənib.
Baharda fata qoyar.

Əzizinəm sinəmdən,
Bir ah çəkdim, sinəmdən.
Neylim bir ev tikmişəm,
Himi qüssədən, qəmdən.

Əzizinəm ahına,
Qurban olum ahına.
Üzmə məni sevgilim,
Gəl görüşək yaxına.

Əzizinəm yaş tökdüm,
Çox ağladım, yaş tökdüm.
Nə qız oldum, nə gəlin.
Cavan belimi bükdüm.

## TAMAŞAÇI YEGANƏ HEYDƏROVANIN BAYATILI MƏKTUBU

Hörmətli Əzizə Cəfərzadə,

Sizə nənəmin bayatılarından bir neçəsini yazmışam. Hər halda əminəm ki, sizə lazım olar. "Xalq inciləri " verilişindəki çıxışlarınıza görə sizə minnətdarlığımı bildirirəm.

Böyük məhəbbətlə dinləyici: Heydərova Yeganə.

Əzizim əkə dərdim,
Yüklənib lökə dərdim.
Nər çəkməz, maya çəkməz
Fil gərək çəkə dərdim.

Dağlarda lalə yalnız,
Gül bitər lalə yalqız.
Qorxuram qərib öləm
Məzarım qala yalqız.

Əzizinəm neynən alım?
Əlifin beynən alım.
Küsdürdüm yola saldım
Könlünü neynən alım?

Əlimdə qələmim var,
Qızıldan qələmim var.
Əzrayıl, alma canım
Səfərdən gələnim var.

Əzizinəm Gəncə var,
Şəki, Şirvan, Gəncə var.
Məhəbbətim bir yana,
Dostluğum ölüncə var.

Əzizim düzüm mənim,
Sən iki gözüm mənim.
Nə qədər sən getmisən,
Gülməyir üzüm mənim.

Əzizinəm kəklindən,
Başındakı kəklindən.
Əgər səni görməsəm,
İyin allam şəklindən.

Maşın gəlir Firəngdən,
Gəl dost olaq ürəkdən.
Baxıb səni görməsəm,
İyin allam küləkdən.

## ƏZİZƏ CƏFƏRZADƏNİN ÖZ BAYATILARI

Qarabağın düzləri,
Top bitər nərgizləri.
Toy günü, bayram günü
Əlvan geyər qızları.

Qarabağda üzüm var,
Qara gözdə gözüm var.
Getmə, dayan, ay gözəl,
Sənə bircə sözüm var.

Qarabagın özündə,
Ceyran otlar düzündə.
Vətən məhəbbəti var
Oğulunda, qızında.

Qarabağ bağdı, neynim
Dörd yanı dağdı neynim.
Yad eldə dərd çəkənlər,
Sinəmə dağdı, neynim?

Qarabağın başını,
Kimsə bilməz yaşını.
Yad əllərə verməən
Torpağını, daşını.

Qarabağın bağları,
Gül qoxar bulaqları.
Nurlu cənnətə bənzər
Yam-yaşıl yaylaqları.

Bu dağların sünbülü,
Açılıb qonça gülü.
Yarı məndən incidib
Kəsilsin belə dili.

Siz mənim ayım qaşlar,
Kamanım, yayım qaşlar.
Yolunuzda can verim
Eləyin vayım, qaşlar!

Bu dağdan karvan gedər,
Qabaqda sarvan gedər.
Ayrılma el-obadan,
Dalınca Şirvan gedər.

Gülüm çin-çin oleydı,
Bibim elçim oleydı.
Bu gecə toy görmüşəm,
Kaş yuxum çin oleydı.

Maral göldə üzmərəm,
Telimə gül düzmərəm.
Qızıl alma atmasan
Mən bu toyda süzmərəm.

Ağır-ağır var dərdim,
Gül axtardım, xar dərdim.
Cəfa çəkdim yolunda
Duyammadı yar dərdim.

Arazın sonasıyam,
Ört üstüm, donasıyam.
O tayda duran qızın
Mən bədbəxt anasıyam!

Xan Arazın qacıyam,
Ocaqların sacıyam.
Yol verin toya gedim
Gözü yaşlı bacıyam.
19-23.12.1981

Dərya, səndən keçmərəm,
Suyun şordu-içmərəm.
Bivəfa gözəl üçün
Əsil yardan keçmərəm.
24.12.1981

Bazardan al müqəşşər,
Gəl duraq qabaq-qənşər.
Söz desən dil-dil ötər,
Baldız deyil, şərdi, şər.

Həyətimiz söyüddü,
Gün keçdi axşam ötdü.
Marıltısı kəsilmir
Qaynana deyil – itdi.

Bu yolun ağına mən,
Qurbanam dağına mən.
Gəlmişəm, qız atası
Sözüvün sağına mən.

Bu yerə üzüm gəlməz,
İstərəm üzüm gəlməz.
Sinəmə sözüm sığmır,
Deməyə üzüm gəlməz.

Ağlaram özüm, neynim?
Tutulub gözüm, neynim?
Bir namərd əlindəyəm,
Qutarıb sözüm, neynim?

Bağçadadı kilim, yar,
Üstündəki gülüm yar.
Kipriklə işarə ver,
Oğrun-oğrun gəlim, yar.
26-27.12.1981

Bu yolnan atlı çapar,
Xəbər gərirər çapar.
Dərdin dilim yandırar,
Həm dağlayar, həm çapar.

Çayda gəmim olaydı,
Çəmdə zəmim olaydı.
Nə sənə tuş gəleydim,
Nə bu qəmim olaydı.

Görünən o tay dağlar,
Ağırdı o tay, dağlar!
Bu yanda hicran mələr,
Necədi o tay, dağlar?
02.01.1982

Bu dağdan köçüm allam,
Vətəndən gücüm allam.
Yüz yerdən yaralansam,
Yağıdan öcüm allam.
03.01.1982

Bu yal el ha sarıdı,
Yaram el ha sarıdı.
Vətən çağıran gündə
Oğul el hasarıdı.

Bala, bala, can bala,
Boynuna qurban, bala!
Gəl çıx qənşər təpəyə,
Bir görsün anan, bala!

Əlimdə kaman ağlar,
Eləyər aman, ağlar.
Getmə, gözüm qarası!
Dalınca anan ağlar.

Dağlara qar düşəndə,
Bağlara bar düşəndə.
Dünya gözümdən düşər,
Yadıma yar düşəndə.

Yaylığın ağı məndən,
Əl çəkməz yağı məndən.
Ay zalım, insaf elə,
Gəl götür dağı məndən!

Eləmi dərdi məndə,
Üzün tut dərdi məndə.
El-obam yesir olub,
Hamsının dərdi məndə.

Dağlar lala günüdü,
Süsəni, sünbülüdü.
Oğul düşmən çəpəri,
Qız atanın gülüdü.

Eləmi bu sabaha,
Göz tikdim bu sabaha.
Dünyanın işinə bax!
Can ucuz, busə baha.

Ər babalar alqışı,
Yaz elədik ha qışı.
İp boğaza keçəndə
Yerin tapar haqq işi.
06.01.1982

Bulağ üstə bu sənəm,
O Süsənbər, bu Sənəm.
Gözlər eşqin bulağı,
Dodaq qaynar, busə nəm.

Yaylığın ağına bax,
Köynəyin bağına bax.
Köynəyimnən neyşün var?
Sinəmin dağına bax!

Muğan düzümdü mənim,
İki gözümdü mənim.
Yağıya yesir gedən
Bədbəxt qızımdı mənim
08.01.1982

Gecə çıxan aydımı?
Gözəllərə taydımı?
Ay qız, bir xəbər elə
Toyumuz bu aydımı?

Mən aşiq gələn aya,
O göydən gələn aya.
Qardaşım səfərdədi,
Toy qaldı gələn aya.

Mən aşiqəm ilqara,
Heç olmasın il qara.
Yüz il qürbətdə qalsan,
Dönük çıxma ilqara.
10.01.1982

Dağların qarına bax,
Gözümün tarına bax.
Dərdimdən oxuyuram,
Deyirlər: arına bax!

Fərim gəl, fərmanım gəl,
Həkimim, loğmanım gəl!
Yolunda can verirəm,
Tapılmaz dərmanım, gəl!

Qara qayadan uşdum,
Sağ idim, sayrı düşdüm.
Açmadım qönça kimi,
Qora vaxtda müzüşdüm.
13.01.1982

Eləmi dərdi məndə,
Dərdin de dərdi məndə.
Tək yarım xoşbəxt olsun,
Qoy qalsın dərdi məndə.

Kim açdı yarın dərin?
Gedim dərim güllərin.
Baş vurdum qəm gölünə,
Boy verdim dərin-dərin.

Eləmi bu dağ məndən,
Gül səndən, budaq məndən.
Köçüb qəbrə gedərəm,
Heç getməz bu dağ məndən.
05-09.01.1984

Qarşıdakı odu zağ,
O qarğadı, odu zağ.
Azarını mən çəkim
Qoy olsun səndən uzaq.

Eləmi ad oldun, gəl,
Ağzımda dad oldun, gəl.
Günün qürbətdə keçdi,
Evinə yad oldun, gəl!
11.01.1984

Dağlara qar düşdü, gəl.
Güllərə qar düşdü, gəl.
Qərib-qurbət ellərdə
Yadına yar düşdü, gəl!
27.10.1984

Qara gölə gölmü deyər?
Qara yera çölmü deyər?
Günü keçmiş qocalara
Əsl gəlin "öl"-mü deyər

Könül tutub düzən yeri,
Ay dolanıb gəzən yeri,
Qəm eləmə dəli könül
Namərd gördün - bəzən, yeri!
20.03.1985

**Məmməd qardaşıma**:
Bu dağın başı haça,
Üstündə maral qaça.
O günə qurban ollam,
Qapımı qardaş aça.

**Əhməd qardaşıma:**
Qardaş qızıl almadı,
O, könlümü almadı.
Bir ay vədə vermişdi,
Beşcə gün də qalmadı.

Atam balası qardaş,
Gözüm qarası qardaş.
Ay dizimin taqəti,
Dərdim çarası qardaş!
18.12.1985

Ay qardaş, gözüm qardaş!
Şirincə sözüm qardaş!
Sən gəldiyin yollara
Qurbanam özüm, qardaş!

Ellər hayımdır mənim,
Axar çayımdı mənim.
Tanklar altda didilən,
Cavan dayımdı mənim.
05.03.1990

Ay ata, gülüm ata,
Etdilər zülüm, ata!
Bədənim qan içində,
Çılpaq qaldı asfaltda.
11.03.1990

Qardaş, qardaş, ay qardaş!
Qoç Nəbiyə tay qardaş.
Yağı vurdu sinəmdən,
Nöş vermədin hay, qardaş?
11.03.1990

Demə, bu yer haradı?
Üstü qandı, yaradı.
Evlər üstə yellənən,
Bayraqlarım qaradı.
08.03.1990

Qarabağın elləri,
Xari-bülbül gülləri.
Sənə xor baxan gözə,
Batıraydım milləri.
Mərdəkan, 19.01.1990

Dərddən ağrıyıq başım,
Dayanmayır göz yaşım.
Necə fəryad etməyim?
Ölüb qoşa qardaşım.

Bulağı çaya bənzər,
Gözəli aya bənzər.
Kipriyi ox kimidir,
Qaşları yaya bəzər.

Əzizəm lala dərdim,
Gül əkdim lala dərdim.
Dil açar fəryad elər,
Annatsam lala dərdim.

Ağ dəvə düzdə qaldı,
Yükü Təbrizdə qaldı.
Oğlanı dərd apardı,
Dərmanı qızda qaldı.

Qarabağın elləri,
Açıb qızıl gülləri.
Sənə xor baxan gözə
Batıraydım milləri.
Mərdəkan, 19.01.1990

Dərddən ağrıyıq başım,
Dayanmayır göz yaşım.
Mən necə ağlamayım,
Ölüb qoşa qardaşım.

Eləmi vətən sarı,
Geyməyə kətan sarı.
Mən qəriblikdə ölsəm,
Çevirin vətən sarı.

Kəfənim kətən-ağlar,
Bülbül tək ötən ağlar.
İgid qürbətdə ölsə,
Vaysınır Vətən ağlar.

Ağacın başına bax,
Dibinin daşına bax.
Qərib dərdin bilməkçün,
Gözünün yaşına bax.

Qəribəm  bu vətəndə,
Gözüm yoldan ötəndə.
Qəriblik əsər eylər,
Baş yastığa yetəndə.

Sərim var, səmərim var,
Zülfüm var, kəmərim var.
Mənə qürbətdən demə,
Qürbətdən xəbərim var.

## Şəhidlərə

Ağlama, ağlaram mən,
Yaranı bağlaram mən.
Sənə qıyan namrədin
Ürəyin dağlaram mən.

Ay bala, ağlamışam,
Qaralar bağlamışam.
Sənə qıyan yağının
Çiyərin dağlamışam.

Ağlaram bulud kimi,
Bir itkin umud kimi.
Yağı ilgəyi keçdi,
Boynuma xamut kimi.

Mən sənə ağı dedim,
Dolandım bağı dedim.
Qızıl gülləyə gəlsin,
O qansız yağı dedim.
04.04.1990

Telim daranı neynim?
Geydim qaranı neynim?
Sinəm köz-köz olubdu,
Beylə yaranı neynim?
5.04.1990

Gəl, gəl, nə gətirsən, gəl,
Gəl, gəl, nə götürsən gəl.
Ol saqi əlimdən,
Zindanə götürsən, gəl.
12.04.1990

Dəhrin nə bəla bəhri,
Bəhrin nə bəla şəhri.
Yandım əməlimdən mən
Eşqin nə bəla qəhri.
12.04.1990

Eləmi nara məni,
Yandırdı nara məni.
Fələyin üzü yansın,
Geydirdi qara məni.
12.04.1990

Haray, ay haray Vətən!
Dayan, ay yoldan ötən!
Elin dadına çatdı,
Bax bu qəbirdə yatan.

Dayan, a yoldan ötən!
Məni çağırdı Vətən.
Elin dadına çatdı,
Həmin məzarda yatan.

Ya Rəb, bu qandı,
Ki Bakı boyandı?
Düşdük nə bəlaya?
(Rəhm eylə Xudaya)
Zülm ərşə dayandı.

***

**Niyazi Nəcəfova:**

Şirvanın gözü,
Ən şirin sözüş
Düzlərin düzü,
Bizim Niyazı.

Elin oğludur,
Sözü doğrudur,
Xalqa bağlıdır
Bizim Niyazı.

İgid, qəhrəman,
Ən gözəl insan,
Yaşa hər zaman
Bizim Niyazı. (ƏC)

***

## Araz bayatıları

Araz üstü çəm olmaz,
Burdan duman kəm olmaz.
Nə çox çəkdi ayrılıq,
Bundan betər qəm olmaz.
21.01.1986

Arazam keç üstümdən,
Karvan sal köç üstümdən.
Od vurub hicran mənə,
Kor oldum öz tüstümdən.

Araz deyib ağlaram,
Sellər kimi çağlaram.
Səni tapan günəcən,
Başa qara bağlaram.
27.01.1986

Arazam, lil gələrəm,
Əlimdə gül gələrəm.
O taydan məlul baxma,
Quzu olam, mələrəm.

Mən deyim sana dərdim,
Qarala hana dərdim,
Yad çəkməz, yaxın çəkməz,
Bir çəkər ana dərdim.

Arazın suyu qandı,
Doludu quyu, qandı.
Yarım xınamı yaxıb,
Yoxsa ki muyu qandı?
3.04.1990

Demirəm "üzül çörək"!
Süfrəyə düzül, çörək!
Ermənidən dost olmaz
Verəsən yüz il çörək.
4.04.1990

Umudumsan umudum,
Düzənlərdə quludum.
Arazdan su istədim,
Vermədilər bir udum.
13.01.1990

Araza axan ağlar,
Üzüyün taxan ağlar.
O taydan bəri taya
Yar deyib baxan ağlar.
21.05.1994

***

Anam, xanımdı mənim,
Adım-sanımdı mənim,
El bilsin, aləm bilsin,
Şirin canımdı mənim.

Ana, məni al elə,
Başındakı şal elə.
Döşlərindən əmdiyim
Südünü halal elə.

"Ana" demə, çağlaram,
Ciyərimi dağlaram.
Bircə gün ayrı düşsəm,
Ana deyib ağlaram.

Bağçadadı kilim yar,
Üstündəki gülüm yar,
Əmanətim səndədi,
İzin versən gəlim yar.

Dağları aşdım gəldim,
Sel kimi coşdum gəldim.
Gözün aydın, ay ellər!
Yara qovuşdum gəldim.

Urusu qalsın nalan,
Yurduma saldı talan.
Yaman dərdlərə düşsün
Bizi bu günə salan.

Bu dağdan gələ mehlər,
Dost-dosta kərəm eylər.
Yar yolunda can qurban
Eləsə – Kərəm eylər.

Bu çaydan keçən mənəm,
Suyunu içən mənəm.
Namərd qonşu əlindən,
Yurdundan köçən mənəm.

Eləmi yandı canım,
Qəmə boyandı canım.
Fələkdən gələn zülmə,
Dərdə dayandı canım.

25.11.1987

Eləmi qarı dağlar,
Əritməz qarı dağlar.
Məni bu gündə görsə,
Dinsiz qarı da ağlar.
(İmansızlar da ağlar.)

Qarabağın üzümü,
Çoban qaytar quzumu.
Haxçıxa yar-yar dedin
Gözdən saldın qızımı.

15.12.1989

Dərdim aşıb başımdan,
Kipriyimdən qaşımdan.
Yorğan-döşək çürüyüb
Gözlərimin yaşından.

Bu yoldan Padar gedər,
Dəvəsi qatar gedər.
Yar-yardan ayrılanda,
Dərd-qəmə batar gedər.

Ağla, a qəmli torpaq,
Dərdli, vərəmli torpaq.
Qoynuna balam gəlir,
Əzizlə, saxla, torpaq.

Bu yoldan gəlin, bala!
Qoy görsün elun, bala!
Tanklar altda didildin,
Olmadın gəlin, baba!
02.02.1990

Hardasan, ay can alan?
Ölkəmə saldın talan.
Yaman dərdlərə düşsün,
Bizi bu günə salan.
03.02.1990

Haradasan, ay can alan?
Ölkəmə saldın talan.
Yaman dərdlərə düşsün,
Bizi bu günə salan.
03.03.1990

Görünən odu Bakı,
Heç sevməz yadı Bakı.
Vətənçün çarpışanın
(Yağıynan vuruşanın)
Ölümdən nədi baki[1]?

Haray, harayım mənim,
Ulduzum, ayım mənim.
Tanklar altda uçuldu
Evim, sarayım mənim.
4.02.1990

Ellər hayımdı mənim,
Axar çayımdı, mənim.
Tanklar altda dilləndi,
Cavan dayımdı mənim.

Demə bu yer haradadı,
Üstü qapdı, yaradı.
Evlər üstə yellənən
Bayraqlarım qaradı.
05.03.1991

Əsməgül tək əsmərəm,
İstəklimdən küsmərəm.
Sən məni atsan, getsən
Meylim səndən kəsmərəm.

İnci-mərcan düzmərəm,
Dəryalarda üzmərəm.
Sən məndən əl üzsən də,
Mən səndən əl üzmərəm.

---

[1] Baki – Qorxusu.

Düzdə ovlandım getdim,
Dilə tovlandım getdim.
Mən bu yurddan köçməzdim,
Evdən qovlandım, getdim.

Qaşları qara, neynim?
Əl yetməz yara, neynim?
Ürəyim dərdə düşüb,
Tappılmır çara, neynim?
30.01.1992

Bağlarda çinaram mən,
Tüstüsüz yanaram mən.
Qüssədən tək evlərdə,
Günləri sanaram mən.
08.05.1991

İlan çaldı əlimdən,
Bəlalıyam dilimdən.
Fələk bir iş işlədi,
Ayrı düşdüm elimdən.
30.04.1992

Sən mənim xan ürəyim,
Dərdlər yıxan  ürəyim.
Sağlamlıq dünyasına
Həsrət baxan ürəyim.
27.01.1992

Bu dərdi çəkən ağlar,
Göz yaşı tökən ağlar.
Elçün şəhid olanı,
Kəfənə bükən ağlar.
30.04.1992

**Cib dəftəri: P-135-02**

Gülüm gəl getmə bizdən,
Qar yağar olar dizdən.
Qar yağar, girmə[1] bağlar,
Səni eyləyər bizdən.

O taydan gələn kimdi?
Fağıra gülən kimdi?
Siz Allah bircə deyin,
Bu yurdda ölən kimdi?

Sadağı tər, oxu tər,
Sadaq saxlar oxu tər.
Atanda yaxşı bəllə,
Çəm tünlükdür ox itər.
21.05.1994

Ay gedən, bir bəri bax,
Döşünə by gülü tax!
Şimşək ol, dağlarda çax,
Məni bir yandırıb yax.
14.03.1997

---

[1] Girmə - Kolluq, kol-kosluq.

Qarşımızda ay açar,
Lalə-nərgiz gül açar.
Millət girdaba düşüb,
Haqdan ona bir açar.

Şirvanın a yaz gülü,
Açıbdı bəyaz gülü.
Gözün çıxsın, a bağban,
Vurubdur ayaz gülü.

Yağış gələr, inşallah,
Yer göyərər, inşallah.
Bu arxa bir su gəlib
Bir də gələr, inşallah!

Əzizim göz gözüvə,
Dikmişəm göz gözüvə.
Axtardım, heç tapmadım,
Oxşadam göz gözüvə.

**Cib dəftəri: P-109-04**

Bağçada barı gördüm,
Heyvanı, narı gördüm.
Bu gecə şum[1] yuxumda,
Rəngüvü sarı gördüm.

Xəzərəm yaralıyam,
Talehi qaralıyam.
Hərə bir səmtə çəkir,
Beş yerdən yaralıyam.

Bu dağın başına bax,
Dibinin daşına bax.
Neynirsən dərd-sərimi,
Gözümün yaşınna bax.

Qoru, oğul, sol-sağı,
Həm düzü, həm də dağı.
Yığılsa da min bir yağı,
Vermə əldən Qarabağı.

Görünür uca  dağlar,
Zirvəsi haça dağlar.
Titrər yetim dodağı,
Hey söylər "a cad[2]", ağlar.

Əzizim ana yeri,
Qəlbdədir ana yeri.
Yüzmin təbib də gəlsə
Heç verməz ana yeri.

---

[1] Şum - ə. Uğursuz, nəhs.

[2] Cad – Darı unundan bişirilən  çörək.

Havaları sərindi,
Dərələri dərindi.
Bu gələn göyçək gəlin,
Hansı bəxtəvərindi.

**Cib dəftəri: P-157-14**

Fələk, qurdun yasımı,
Qəlbim qəm dəryasımı?
Tanrı mənə qıymazdı
Sən yazdığı yazımı.

# ŞƏHİDLƏRİMİZƏ

## ŞƏHİDLƏRİMİZ ÜÇÜN SÖYLƏNƏN AĞILAR

Mən şair deyiləm, amma o qara gəlmiş qara yanvar şəhidlərini oxşamaya bilmədim. Bunların bəzisi "Səhər" qəzetində çap olunanda qəzetin redaktoru Məzahir Süleymanzadə yazmışdı ki, əziz oxucular, siz Əzizə Cəfərzadənin romanlarını oxumuşdunuz, ağı dediyini bilmirdiniz. Allah bizə onu da göstərdi.

Bu yerdə xanım ağlar,
Cismimdə canım ağlar.
İtirdim igidlərim,
Damarda qanım ağlar.

Haray, a yoldan ötən,
Başımda qara kətən.
Yağının caynağında
Çırpınır ana vətən.

Ellər hayımdı mənim,
Axar çayımdı mənim.
Tanklar altda didilən,
Cavan dayımdı mənim.

Bu dərdi çəkən ağlar,
Qanlı yaş tökən ağlar.
Vətən üçün öləni
Kəfənə bükən ağlar.

Buludum, ay buludum,
Yuyum, sərim, qurudum.
Vətən üçün can verdim,
Su tapmadım bir udum.

Qarşımızda ay açar,
Lalə, nərgiz gül açar.
Millət girdaba düşüb,
Haqdan ona bir açar.

Bu dağlar xasa dağlar,
Gül-çiçək basa dağlar.
Quruyub lalələri,
Batıbdı yasa dağlar.

Bu bağı görən gəlsin,
Gülünü dərən gəlsin.
Mən bir dərdə düşmüşəm,
Dərmanın verən gəlsin.

(ƏC, 11.03.1995)

Eləmi aralı gəz,
Xarmanda xaralı gəz,
Yağı vuran zərbədən
Sinəsi yaralı gəz!

Yaz keçdi, yay oldu, gəl!
Xoş sözüm vay oldu, gəl!
Sən istəkli qardaşdın,
Bacına toy oldu, gəl!

Dağların qarına bax,
Havanın tarına bax!
Oxuram dərd əlindən,
Deyirlər arına bax!

Umudum, ay umudum,
Dənizlərdə qumudum.
Ölüb torpağa getsəm,
Sanma sizi unudum.

Aman çək, ağla, torpaq!
Yaramı bağla, torpaq.
Qoynuna balam gəlir,
Əzizlə, saxla, torpaq!

Dağların daşına bax!
Üzüyün qaşına bax!
Ha deyim: ağlamıram.
Gözümün yaşına bax!

26.07.1994

Demə bu yer haradı,
Üstü qandı, yaradı.
Evlər üstə yellənən,
Bayraqlarım qaradı.

Gəl gedək Dağçəmənə,
Gün düşdü dağ-çəmənə.
Dərdin zərrəcən olsa,
Görünür dağca mənə. (ƏC)

Vətən çağırdı coşdum,
Xilas etməyə qoşdum.
Quban verdim canımı,
Torpağına qovuşdum.

Su gəldi bənddən getdi,
Ceyran çəməndən getdi.
Allahım, sən rəhm elə,
Millətim əldən getdi.

O taydan gələn kimdi?
Gülləri dərən kimdi?
Siz Allah bircə deyin,
Bu yurdda ölən kimdi?

Qəlbim qubar yedi, gəl!
Arzun, sözün nədi, gəl!
Körpən bu gün dil açıb
"Ata-ata" dedi, gəl!

(ƏC, 01.04.1990)

Şəhidə ağı dedim,
Sinəmdə dağı dedim,
Dünən dost bildiyimə
Bu günsə yağı dedim.

Ağlama, ağlaram mən,
Qaralar bağlaram, mən.
Sənə qıyan namərdin
Ciyərin dağlaram mən.

Haray, harayım mənim,
Ulduzum, ayım mənim.
Tanklar altda uçuldu,
Evim, sarayım mənim.

**QURBAN OLUM**

Əzizə Cəfərərzadənin 19 yanvar 1990-cı ildə yazdığı şeir:

Atam oğul, balam oğul,
Qeyrətinə qurban olum.
Vətən üçün qurban getdin,
Hümmətinə qurban olum.

Hamıya can-can söyləyən,
Düşmanın bağrın teyləyən,
Yağıda da rəhm eyləyən
Fitrətinə qurban olumş

Sən elimin pənahısan,
Anaların duasısan,
Millətimin sabahısan
Qüdrətinə qurban olum.

Gözlərimin işığısan,
Gözəllik aşığısan,
Vətənin yaraşığısan,
Surətinə qurban olum.

Koroğlunun nərə səsi,
Nəsiminin son nəfəsi,
Füzulinin mərd nəəvəsi
Şöhrərinə qurban olum.

Əzizəyəm anan mənəm,
Odlarına yayan mənəm.
Hər dərdini qanan  mənəm
İzzətinə qurban olum.

Bu yazını Mərdəkandə 19.01.1990-da yazmışam. O gecə

ki, Analar gəlin “uşaqlar piketə gedir, gəl qoyma, bizə qulaq asmırlar” dedilər. Qabaqlarına çıxdım “Boş əllə getməyin” dedim. “Biz qurbanıq” dedilər. “hansı azadlıq qurbansız olub?” getdilər.

## BAŞINI UCA TUT, VƏTƏN![1]

Mənim xalqım haqq işi uğrunda bütünlüklə ayağa qalxıb. Bu xalq içərisində bircə nəfər də laqeyd adam yoxdur. O saysız qurbanlar verib bu gün; dilində "Vətən", "Vətən torpağı", dilində "Ana", "Ana VƏTƏN".

1988-ci ilin 18 iyun günü Meydanda çıxış edirdim. "Vətən nədir?” sualına cavab verəndə dedim: Vətən adi bir torpaqdır. Ərzin bir parçasıdır. Əgər sən onu cənnətə döndərə bilmirsənsə, kəndlər, şəhərlər, bağlar salıb üzərində nəsil yetirmirsənsə və başlıcası, sən bu torpaq uğrunda ölə bilirsəmsə, o yer, o torpaq sənin, əcdadının və gələcək nəslinin vətənidir.

Azərbaycan! Bu gün evladların sübut etdi ki, onlar sənin uğrunda canlarından keçməyi bacarırlar. Qanlı şənbə — tarixin yeni səhifəsi... Şəhid evladlarını ağuşuna al, Azərbaycan! O cavanlar, o uşaqlıq həddini təzəcə keçmiş oğullarım buna layiqdir. Onların qızıl qanının hər damlası Vətəni gülzara çevirən qızıl güllər açacaq. Onların günahsız axan qanlarının hər damlası şair evladlarının qələmində "Oyan, yatma, unutma" deyən sətirlərə, misralara çevriləcək.

Sənə verilən başsağlıqlarının hamısını qəbul edə bilmərik. Ana Vətən, bir əlilə qətl, bir əlilə başsağlığı imzala-

---

[1] "Səhər" qəzeti №6 (16), 3 fevral 1990-cı il, səh.1

yanların vicdanı olsaydı, Dağlıq Qarabağa soxulmuş silahlı saqqallıları da bu yolla susdura bilərdi! Amma etmədi. Dünyadakı erməni milyarderlərinin pul kisəsinə satılmışlar daha heç kəsi aldada bilməzlər. Rus anası da qatil oğul anası olmaq istəmədiyini bildirir. Qoy səsim bütün dünyanın insanlarına çatsın. Çatmasa da, sən məni eşidirsən:

Arazam keç üstümdən,
Çək karvan, keç üstümdən.
Əlimnən dərd əkmişəm
Dəryaz al, biç üstümdən, hey...

Burla xatun analar, Nigar analar, Həcər analar, sinəmizə daş bağlayın. Siz dünyaya mərd oğul gətirmisiz — mərd anası ağlamaz. Mərd anasının göz yaşlarını yağı görməsin gərək. Bu torpaq dünyaya çox belə igidlər gətirib və gətirəcək də. Sonu sovulmaq da olan millət dərd çəksin, sənə həsəd aparsın. Ana! Başın sağ olsun!

İgid oğullar! Sizi bir an belə xatirimizdən çıxarmayacaqsınız. O düşdüyünüz yerdəki qan damlaları birər qığılcım olub gələcək nəsillərin azadlıq yolunda tonqal, məşəl yandıracaq.

Qəbriniz nurla dolsun. Ana torpaq pərqu olsun sizə. Sizə də, məzarınıza da qurban olum.

## ŞƏHİDLƏRİN CÜMƏ AXŞAMI[1]

*Əzizə Cəfərzadənin əsərlərini oxumusunuz, çıxışlarını dinləmisiniz, öz vəsaiti hesabına məktəb tikdirdiyini, abidə ucaltdığını, bulaq çəkdirdiyini eşitmisiniz. Bəs ağı dediyini necə, görmüsünüzmü? Allah bu günü də bizə göstərdi...*

*Srağagün, cümə axşamı nənələrimiz, analarımız, bacılarımız qırmızı qərənfillərə bürünən şəhid məzarlarının üzərinə sərilmb ağı deyirdilər:*

*Eləmi al çax, yağı,*
*Silahın al çax, yağı.*
*Namərdə meydan verdin,*
*Namərddən alçax yağı...*

*Qollarını məzar boyu açan, ağ saçlarını yolub tökən bir ana özü də yanırdı, cüməaxşamına gələnləri də yandırırdı. Görkəmindən tanıya bilməzdim, səsindən tanıdım: Əzizə Cəfərzadə idi. Diktafonun düymәsini basıb dediyi ağıları lentə köçürdüm. Onlardan bir qismini "Səhər"in oxucularına təqdim edirəm.*

*Məzahir Süleymanzadə.*

Bulandı göz yuvası,
Ağızdı söz yuvası.
Hər kim yuva dağıdır,
Dağılsın öz yuvası.

Taxtın qurmağa gəldim,
Halın sormağa gəldim.
Yaraların hardadır?
Məlhəm olmaqa gəldim.

---

[1] "Səhər" qəzeti №6 (16), 3 fevral 1990-cı il, səh. 3

Ağlarıq ağlar kimi,
Dərdimmz dağlar kimi.
Xəzan olduz töküldüz
Viranə bağlar kimi.

Gəl gedək Daşbulağa,
Suyu meyxoş bulağa.
Sən dərdli, mən yaralı,
Tökək qan-yaş bulağa.

Ağacda xəzəl alğar,
Dibində gözəl ağlar.
Belə oğlu ölənlər,
Sərkərdən gəzər, ağlar.

Əziziyəm, ay qardaş,
Qaşın ucu yay qardaş.
Ölsə bacılar olsün
Heç deməsin, "vay, qardaş!"

Toxum səpili qaldı,
Bostan əgili qaldı.
Hara qoyub gedirsən?
Tifil tökülü qaldı.

Eləmi qalam, qardaş,
Dərdinə qalam, qardaş!
Top atıldı, bürc sındı,
Uçuldu qalam, qardaş!

Çiçəklər hala gəldi,
Arılar bala gəldi.
Nə günah eyləmişdim
Başıma bəla gəldi?!

Əzizim gülə-gülə,
Gül əkdim gülə-gülə.
Düşmən evimi yıxdı
Üzümə gülə-gülə.

Muğana gəl, yüz yol var.
Yüz karvan var, yüz yol var.
Yağı bildiyin elər
Sən Allaha yüz yalvar.

Qarabağın bağı var,
Bostanı var, bağı var.
Əl saxla, qarı düşmən,
Məndə oğul dağı var.

Ürəyimdə yara var,
Üstü xal-xal qara var.
Aç sinəmin üstünü
Gör yanmamış hara var?

Ürəkdə yara sızlar,
Hovlanar yara sızlar.
Yaralılar dərdəni
Nə bilsin yarasızlar?

Görünən qaraqaşdı.
Hörülən qarğı saşdı.
Pünhan ağla gözlərim,
Yağı görməsin, yaşdı.

Eləmi qazan ağlar,
Qaynayar qazan ağlar.
Bu dərdlərlə ölənin
Qəbirini qazan ağlar.

Dəyirmana pər dəydi,
Karvan köçdü, nər dəydi.
Ananın şax qamətin
Oğul öldü, dərd əydi.

Eləmi üzü qanlı,
Ayağı dizi qanlı.
Canı yanan, ölən biz
Tutdular bizi qanlı.



## HARAY[1] (Şəhidlərin ilinə)

Haray ellilər, haray,
Şana tellilər haray!
Dəhnəni sel apardı,
Əli bellilər, hayray!
( El deyib.)

Ay keçdi, il dolandı... Nə tez gəldi il oldu? Nə ağır gəldi başa çıxdı bu il?.. Təkcə mənim üçünmü? ...Haralarda danışmaq, haralarda ağı demək qismətim imiş sizin üçün? Türkiyənin, Orta Asiya respublikalarının, Kiprin, Malayziyanın, Sinqapurun, Moskvanın, Hindistanın xitabət kürsülərindən... Danışdıqca sizə atılan güllələrin səsini yenidən eşidirdim. Hər dəfə yenidən bağrımın başı yanırdı.

Eləmi bu dağ məndən,
Gül səndən, budağ məndən.
Ölüb torpağa getsəm
Heç getməz bu dağ məndən.

– deyirdim. Hər dəfə siz qanlı əllər, "yeriyən güllələr"lə yenidən güllələnirdiniz mənim üçün... Hər yerdə sizi şəhid adlandırdıq. O məşum sabahda, o ağır səhər günü, respublikam iflic olan da, radiomuz, televiziyamız susdurulanda, bircə qəzet, bircə jurnal, bircə məlumat vərəqəsi çap olunmayanda imdadımıza gələn "Səhər" qəzetində "Başını uca

---

1 Haray (Şəhidlərin ilinə) (16.01.1991) // Əzizə Cəfərzadənin Ev Arxivi, Fond 'P', Qovluq № 18, Sənəd № 7, vərəq – 13.

tut, Vətən" deyib yağımızı, göynərtimizi azaltmaq istədik. Sizi ilk dəfə şəhid adlandırdıq:

Vətən çağırdı coşdum,
Xilas etməyə qoşdum.
Qurban verdim canımı
Torpağına qovuşdum.

Kərbəla şəhidlərini, tarixin bütün mərhələlərində minbir faciəylə həlak olan, şəhidləri unutdurdunuz bizə. O gün hamı:

Qarabağ vətənimiz,
Oyandı yatanımız,
Əl-ələ verdi getdi
Dili söz tutanımız.

Gözlərimizdə göz yaşları durmurdu – elə indi də durmur. Ana ürəyimiz sizə laylay çalırdı – elə indi də çalır. Ana-nənə dilimiz siz ağı deyirdi – elə indi də deyir... Nakam, şəhid bal alarımıza, məktəbli şəhidlərimizə, gəlinlik duvağı örtmədən dünyaya gözü, qanla yumulan, xınası qan qızlarımıza hələ çox ağı deyib oxşayacayıq... Ömrümüz uzunu. Özümüzdən sonra torpağımız ağlayacaq sizə, evladarım! Bizdən sonrakılar sizin qəhrəmanlığınızı, heyrətamiz igidliyinizi, vətənə sədaqətinizi görəcək, oxuyacaq, biz anaları gəlinlərə nümunə göstərəcəklər ki, sizlər kimi oğul-qız doğub böyütmüşük. Sizin kimi Vətənsevənlər tərbiyə etmişik. Sizi gələcəyin gənclərinə nümunə göstərəcəklər... İgid kimi, vəfa, sədaqət, məhəbbət rəmzi kimi.

Misilsiz qəhərmanlaqımız Babək kimi, Koroğlu kimi, Nəbi kimi:

Bu dağdan köçüm allam,
Elimdən gücüm allam,
Yüz yerdən yaralansam,
Yağıdan öcüm allam!

– deyən cəngavərlərimiz kimi... Adlarınızı təzə doğulan körpələrə qoyacaqlar... Ülvilər, İlqarlar, Salatınlar, Fərizələr gələsək dünyaya.

Siz şəhid olan gündə bəri dilim yalnız ağı deyir. Başqa sözüm yoxdur, daha başqa şeir oxuya bilmirəm. Qaradan başqa rəng geyə bilmirəm... Dəfn gününüz gözlərimin önündən getmir. O gün o qüdrət və kədər meydanında bir bayatı, bir acıqlı ağı demişdim:

Arazam, keç üstümdən,
Çək karvan, köç üstümdən.
Bu dərdi mən əkmişəm,
Dəryaz al, biç üstümdən.

Bu dərd elin yüz əlli illik dərdinin nəticəsiydi. O möhtəşəm, o əzəmətli olduğu qədər də, ağır, hüznlü və qəzəbli xalq, millət matəmi neçə unudular?

Göydə buludum səni,
Sərim, qurudum səni.
Ölüb torpağa getsəm
Sanma unudum səni.

Dərdimin böyüklüyü bir də ondadır ki, matəm bitməyib, bu illə bitməyəcək də. Neçinmi? Axı sərhədlərimizdə hər gün yeni-yeni şəhidlər düşür torpağımız. Yeni-yeni Vətənsevər övladlarımızın qanıyla suvarılır Vətən torpəğı. Salatın gəlini təzəcə itirmişik. Bəs onların ili haçan çıxacaq? Yurdumuzla şəhid olan axırıncı əzizimizin ili çıxanda...

Balalarım! Sizə gələn mənə gələydi; düz qırx gün, bəlkə daha çox, evlərimizin, eyvanlarımızın, qapılarımızın, pəncərələrimizin, küçələrdə işıq dirəklərimizin üstündə qara matəm bayrağı dalğalandı. Yağı belə heyrətdən saxlaya bilmədi özünü: Bu qədər qara parça hardan tapılıb? "Anaların qara çadrasıdır, dul qalmış gəlinlərin qara kalağayısıdır demişlər.

Demə bu yer haradı?
Üstü qandı, yaradı,
Evlər üstə yellənən
Bayraqlarım qaradı!

Şəhidlərim! Uğrunda qurban getdiyiniz Bakımızda təzə yadigar adlar qoydunuz: Azadlıq meydanı, Şəhidlər xiyabanı... Qırmızı qərənfil... Əlimizə ala bilmirik daha... Şəhid qanının rəmzinə çevrilib bizim üçün... Kiprdə Azərbaycan balası, qaçqınları yerləşdirmə naziri Həsən Yumuq Kipr şəhidlərinin üç, qardaşlıq məzarından sizin torpağa qarışmaq üçün mənə torpaq verdi, bir də şəhidlik rəmzi al qərənfil... Hara səpim o torpağı? Axı şəhidlik davam edir... Hər gün qurban verilir... Bütün yurdumuza, yurdumuzun sərhədlərinə səpilməlidir o qardaşlıq, şəhidlik torpağı...

Yağının əlin tutan yox, topuna, minasına qadağa qoyan yox!.. Özümüzü qorumağımıza imkan verən yox!.. Bu acı, bu

ağrılı günlərimizdə bir təsəllimiz o oldu ki, uzun illər kölgəsi ağır qurşun kimi varlığımızı əzən, sizi ziyarətə gələndə gözümüzü deşən heykəl xiyabanınızın qonşuluğundan götürüldü...

Nakam şəhidlərimiz! Bacılarınız bu il sizsiz keçəcək Novruz bayramında sizə səmənilər, xonçalar gətirəcəklər:

Xan Arazın qacıyam,
Ocaqların sacıyam.
Yol verin xonçalara,
Gözü yaşlı bacıyam...

– deyəcəklər.

Analar oğullarla yan-yana yatan şəhid qızların məzarına göz yaşlarından göyərmiş çiçəklər qoyacaqlar:

Şirvan düzümdü mənim,
Muğan gözümdü mənim.
Al qanına bulaşan
İgid qızımdı mənim.

Arxasınca bala qoyub gedən, bir üzü qız, bir üzü gəlin ömür yoldaşıdan, oğul-uşaqdan VƏTƏNİ, VƏTƏN məhəbbətini üstün tutan şəhidlərimiz! Sizə eşq olsun! Adətən "rahat yat, səni..." deyə bilmirik, bilirik ki, ruhunuz da rahat deyil. Çünki mübarizə bitməyib, çünki yurdumuza göz dikən yağı susmayıb; gündən-günə canavarlaşır. Dişlərini daha qəzəblə qıcayır bizə. Bir şeydən əmin olun ki, qanınız axan bu torpağın bircə qarışını da yağıya verməyəcəyik! Sizin kimi son nəfəsimizə qədər çarpışacağıq millətimizin, vətənimizin səadəti üçün. Eşq olsun sizə! Bizə, evladları-

mıza, nəsillərimizə örnək qoydunuz. Vətən torpağı pərqu olsun sizə. Bir daha qurbanınız olum!

Bu dərdi çəkən ağlar,
Qanlı yaş tökən ağlar,
Vətən üçün öləni
Kəfənə bükən ağlar.

Yad qapım çaldı, oğul!
Ağlımı aldı, oğul!
Ürəyimin telində
Qəm sazı çaldı, oğul!

Yurd-yuvamın bağı var,
Bostanı var,tağı var,
Əl saxla, qarı düşmən!
Məndə oğul dağı var.

Yaylığın ağı məndən,
Əl çəkməz yağı məndən.
İlahi, sən rəhm elə,
Götür bu dağı məndən!

Araz üstü çəm olmaz.
Burdan duman kəm olmaz
Oğul-qız güllələndi,
Bundan acı qəm olmaz

Bu çaydan keçən mənəm,
Suyunu içən mənəm,
Namərd qonşu əlindən
Didərgin düşən mənəm.

Eləmi necə sayım,
Dərdim çox, necə sayım?
Oğulsuz günlərimi
Ömrümə necə sayım?

Bulandı göz yuvası,
Ağızdı söz yuvası,
Hər kim yuva dağıdır –
Dağılsın öz yuvası.

Eləmi canım gedər,
Dərd gələr, canım gedər.
Ürəkdən yaralandım
Gözümdən qanım gedər.

Uzaqda dağlar gördüm,
Meyvəli bağlar kördüm,
Şəhid xiyabanında
Ananı ağlar gördüm.

Əlimdə kaman ağlar,
Eləyər aman, ağlar.
Getmə, gözüm giləsi,
Dalıncan anan ağlar.

Görünən Qaraqaşdı,
Hörülüb qarğı saşdı.
Gizlin ağla, gözlərim,
Görməsin yağı, yaşdı.

Muğana gəl, yüz yol var.
Yüz yolcu var, yüz yol var.
Yağı bildiyn elər,
Sən Allaha Yüz yalvar.

Umudum, ay umudum,
Düzənlərdə qumudum.
Vətən üçün can verdim
Su tapmadım bir udum.

Ay qardaş, gözüm qardaş!
Ağzımda sözüm qardaş.
Sən düşdüyün torpağa
Qurbanam özüm, qardaş!

Bakı, 9 yanvar, 1991

## HARAY[1]

İnsanlar, insanlar! Yer üzü qızıl qana boyanıb. Torpaqlarımızı parça-parça kafir yağı çaynağına keçir. Qeyrət vətənimizi tərk edib. Vətəni, Ana torpağı qorumalı oğullar arvad kölkəsində gizlənib. Sizin ağsaqqal atanızı, ağbirçək ananızı, namusu əllərdə qalan qız-gəlininizi kim qoruyacaq, kim? Üstümüzə, "Babəklərə bax!.. Koroğlulara bax!.. Xətailərə bax!.." deyib gülən kafir yağıya kim cavab verəcək, kim? İgidlik meydanından qaçıb yad ölkələrdə, zağalarda, dəyələrdə gizlənən, Vətəni başlı-başına buraxanlar! Sonra bu torpağa nə üzlə dönəcəksiniz? Nə üzlə?! Yağı tapdağına çevrilib murdarlanan torpağın çörəyini, suyunu necə içəçəksiniz, neçə? Qadın yanında, övlad yanında hansı igidliyinizdən dəm vuracaqsınız?

İnsanlar, insanlar! Ayılın! Üzüdönük olmağa, qorxaq olmağa qoymayın əzizlərinizi!

---

1 "Həftə" qəzeti 26.02.1999, səh.3

Qorxaq arvadı, qorxaq anası, qorxaq övladı adlanmaqdan böyük şərəfsizlik, rüsvayçılıq yoxdur. Doğurdanmı, bütün bu millət bir (tək-tək nəzərə alınmasa) qorxaq kütlədən ibarətdir?

Şəhid qanı müqəddəs kəlamdan da ucadır. "Get, ya igid üzüağ qayıt, ya yüksək, şəhid mərtəbəsini qazan!" — deyən TÜRK ANASINA eşq olsun.

"Vətən anaların ayaqları altındadır" deyən rəsuli-xudanın kamındakı müqəddəs torpağa gedəndə ananın odlu göz yaşları sizi gritməsin, övladlar! Axı siz məhz o ANA ayaqları altındakı torpağı (üstündəki anayla birlikdə) qorumağa gedirsiniz.

Öpün sizə sığal verən əllərdən, öpün sizə süd verən döşlərdən, gedin! Ana duası xeyriniz olsun!

## BAYATILAR

Əzizim qanlı dağlar,
Göy geyib qanlı dağlar.
El ağlar, aləm ağlar
Gəlib qanlı da ağlar.

Yuvada laçın ağlar,
Görən bəs neçin ağlar?
Atam yada düşəndə,
Başımda saçım ağlar!

Əzizim, bada getdi,
Yel vurdu, bada getdi.
Namərd bir tələ qurdu,
Ömürlər bada getdi.

Bala dağı,
Göy dağı, bala dağı.
Of, düşmən, balan ölsün.
Yamandır bala dağı.

Mən aşıq, bağlamaqla,
Qan durmaz bağlamaqla.
Elin dağı böyükdü,
Sağalmaz ağlamaqla.

Eləmi, anam qaldı,
Dərdimə yanan qaldı.
Nə dünyadan kam aldım,
Nə də nişanam qaldı.

## FƏRYAD[1]

Eşit fəryadımı, İlahi! Özün yaratdığın millətimin fəryadına yet! Nahaq qanların töküldüyü bəs deyilmi? Bizim, nəslimizin, millətimizin körpələrini nələr gözləyir? Bizi daha hansı imtahanlara çəkəcəksən, İlahi?!

Mənə elə gəlir ki, erməni quldurlarının tülkü cildinə girmişlərini dindirəndə Qazaxıstandan, Rusiyanın müxtəlif yerlərindən gələn maraqlılara boşalmış kəndlərimizi, yandırılan evlərimizi, viran qoyulmuş yurd-yuvamızı göstərəndə, yüksək tribunalardan həqiqəti kar qulaqlara çatdırmağa, kor gözlərə göstərməyə çalışanda siz də özünüzün içinizdə, daxilinizdə Böyük Yaradana məhz bu sualları verdiniz, evladlarım! İsmətim, Tofiqim, Vaqifim, Vəlim, Fəxrəddinim, Alım, Arifim Vətən çağıranda bəllənən igidlərim! Vətənimin seçmə oğulları! Bu suallar sizi çox narahat edirdi. Etməsəydi, "Vətən, vətən" bağırıb, gərək olanda dürtülməyə deşik axtaranlar kimi o yerdə, o qan tökülən, qada gəzən yerlərə niyə gedirdiniz? Vətən məhəbbətindən başqa nəydi günahınız? Hələ ululardan ulu babamız böyük Türk hökmdarımız Mete Oğuzxan atını da, sevimli xanımını da tələb edən düşmənə, millətinə sülh gətirmək üçün "yox" deməyib – vermiş, amma TORPAĞA gələndə demişdi: "Torpaq millətimindir. Millətin bütövlüyü və millətin səadəti torpaq sevgisinə bağlıdır. Ən kiçik parçası belə düşmənə verilməz". Qılıncıyla, canıyla qorumuşdu vətən torpaqlarını, milləti üçün, millətinin gələcəyi üçün: Bizim üçün, bizim bugünkü

---

[1] Fəryad (22.11.1991) // Əzizə Cəfərzadənin Ev Arxivi, Fond 'P', Qovluq № 9, Sənəd № 24, vərəq – 3.

Vətən məhəbbətimizi yüksəltmək üçün. Bu müqəddəs əməl uğrunda qurban gedən övladlarım, sizə eşq olsun!

Ya sizin günahınız nəydi, Qazaxıstanlı, Rusiyalı müşahidəçilər? Axı sizi bu yerlərə sülh və əmin-amanlıq amalıyla gəlmişdiniz. Şirin canınızdan keçdiyiniz sülh üçün, əmin-amanlıq üçün. Azəri-türk balalarının yetim, didərgin, sərkərdən qalmaması üçün. Sülhün eşsiz qurbanları, sizə də eşq olsun!

Əminəm ki, müqəddəs torpaqlarımıza tökülmüş, pak, müqəddəs qanınız yerdə qalmayacaq! Türkün igid oğulları var olsun, türk anası var olsun və müqəddəs torpaqlarımızı qoruyan oğullar yetirdiyiniz üçün ona səcdə vacibdir. Qanınız yerdə qalmayacaq dedim, çünki ulularımızdan bizə üç müqəddəs miras qalıb: Dilimiz, Dinimiz, Vətənimiz. Bu üç müqəddəsimiz bu gün təhlükə altındadır. Nə qədər ki, bu təhlükə sovuşmayıb, babaların da, sizin də ruhunuz sükunət tapmayacaqdır. Duaçı olun başı üzərində qara buludlar sıxlaşan Vətən, Vətən övladlarına! Sizin də, sizin doğma ANALARIN da qarşısında baş əyirəm. Qara Yanvar günlərindən bəri dilinə ağıdan başqa şeir gəlməyən ananızam, bu gün də sizi deyib ağlamaq düşdü payıma:

Haray, a yoldan ötən,
Əynimdə qara kətən.
Yağının caynağında
Çırpınar Ana-Vətən.

Aman çək, ağla torpaq,
Yaramı bağla, torpaq!
Qoynuna balam gəlir
Əzizlə, saxla torpaq!

Sən ey, Böyük Allahım,
Əlimdə yox silahım,
Parçalanır vətənim
Nədir suçum, günahım?

Eləmi xanım ağlar,
Cismində canım ağlar.
İtirdim igidlərim,
Damarda qanım ağlar!

“Ağladıqca kişi qeyrətsiz olur” deyib böyük Sabirimiz. Bizə bu gün bağrımıza daş bağlayıb ayağa qalxmaq, əl-ələ verib, çiyin-çiyinə qanlı, binamus düşmənə lazımi, artıqlamasıyla cavab vermək lazımdır. Xalqımızın ikinci böyük oğlu Şəhriyar deyib: “Ayağa qalx, Azərbaycan”. Bundan başqa əlacımız çatmaz yoxdur. Geri çəkildikcə, sülhə can atdıqca düşmən hayasızlaşır, quduzlaşır. Bıçaq sümüyə dayanıb dözdüyümüz daha! Qanınız yerdə qalmasın, əzizlərim. Məzarınız nurla dolsun.

22.11.1991

## ƏZİZƏ CƏFƏRZADƏYƏ HƏSR EDİLMİŞ BAYATILAR

**Səadət Buta:**

### ƏZİZƏ

Milyon qəlb isindirər
Odun, közün Əzizə,
Əzizlərin əzizi,
İki gözüm, Əzizə.

Könlüm düşüb sorağa,
Yol dönməsin uzağa.
Bir qonaq gəl bu dağa,
Qurban özüm, Əzizə.

Min hikmətdir xoş səsin,
Al bahardı nəfəsin.
Qonşusudur hər kəsin,
Ustad sözün, Əzizə.

Burla Xatun övladı,
Qəlbin atəşgah odu.
O, Nigar, Həcər adı,
Sənə yazım, Əzizə.

Könlüm düşüb sorağa,
Yol dönməsin uzağa.
Bir qonaq gəl bu dağa,
Qurban özüm, Əzizə.

**Xalq artisti, opera müğənnisi Lütfiyar İmanov:**

Əzizim tut ağacı,
Çırpmağa vur ağacı.
Keyf-əhvalın necədi?
Əziz Əzizə bacı?

Əzizimiz Əzizə,
Gəlməyəsəb bəd gözə.
İstəyirəm çox yaşa,
Romanlar düzə-düzə.

Şamaxı sazlı diyar,
Söhbətli-sözlü diyar.
Seyyid-Sabir oğullu,
Əzizə qızlı diyar.

**Suraya xanım, Füzuli rayonu:**

Mən aşıq oyan, qala!
Hər yanı biyan qala!
Əzizə (Əzizin) qonaq gəlib
Nazına dayan, qala !

**Qardaşı Əhməd Cəfərzadənin ad gününə yazdığı bayatılar**

(29 dekabr 1994-cü ildə nəvələri sıra ilə ad günündə oxuyublar.)

**Xəyal Cəfərzadə**:

Şöhrət tapır sadələr,
Əməyə amadələr.
Səni təbrik eyləyir,
Cəmi Cəfərzadələr.

Şirvanın düzü fərman,
Torpağı gözə dərmanş
Hər il bu vaxt bizə gəl,
Kəsərik quzu qurban.

**Vüsal Cəfərzadə:**

Ağ üpümü üz belə,
Talvar üstə düz belə,
73 il nə şeydir?
Yaşa hələ yüz belə.

Ağ üzümü üz gətir,
Saçbağına düz gətir,
Hər yol bizə gələndə
Çoxluca saqqız gətir.

**Aygül Cəfərzadə:**

Artıq olsun çörəyin,
Yetsin arzu-diləyin!
Bir arzumuz budur ki,
Ağrımasın ürəyin.

Gedərik, oturmarıq,
Tənə söz götürmərik,
Təzə roman yazmasan,
Səndən əl götürmərik.

**Aytən Cəfərzadə:**

Bu gün deyib-gülək biz,
Çox şeyləri bilək biz,
O gün olsun, ay bibi,
100 yaşına gələk biz.

Əhdə vəfa edəsən,
Zəvvarları güdəsən.
Babamızla birlikdə
Bəlkə Haca gedəsən?

Əzizə Cəfərzadənin 75 illik yubileyində Əhməd Cəfərzadənin nəvələri sıra ilə ad günündə oxuyublar:

İşin düz eylər bibi,
Düzdən düz eylər bibi.
Yetmiş beşlə, iyirmi beş,
Cəmi 100 eylər bibi.

Kişmişi tökdüm aşa,
Qurudu döndü daşa.
Hamı arzu eyləyir,
Bibi üzcə il yaşa.

Ağrın-acın olmasın,
Rəngin-rufun solmasın.
Elə sağlam yaşa ki,
Dərman gərək olmasın.

Aşıq yüz il başacan.
Xalın düzül başacan.
Bibi, arzum budur,
Yaşa yüz il başacan.

Əziz bibi, can bibi,
Gözəl mehriban bibi.
Yüz yaşa, gümrah yaşa
Yaşa firavan bibi.

Başını dik tut, bibi,
Günün nəbzin tut bibi.
Həkimlərin, aptekin,
Ünvanın unut, bibi.

**Nəvələrin Aytən və Aygül Cəfərzadələr**
29 dekabr 1996-cı il

**Oğlu Turan İbrahimovun Əzizə Cəfərzadənin 75 illiyinə yazdığı bayatılar:**

Ay mənim Əzizə nənəm!
Əzizdən əziz nənəm.
Hər gün nazın çəkərəm,
Özüm də əzizlənəm!

"Xoş gördük, səyyah" nənə!
Gəzirsən "Eldən-elə".
"Yad et məni" sən yenə,
"Vətənə qayıt" nənə!

Nənə, mənə bir danış!
İran-İrakdan danış!
Hələ yorulmamışam,
Hələ bir az da danış!

Danış mənə, ay nənə!
Danış mənə sən yenə!
Çoxlu nağıl, bayatı,
Öyrət mənə, ay nənə!

Ay mənim gözəl nənəm!
Gözəldən gözəl mənəm!
"Gözəllər gözəliyəm",
Elə deyil, ay nənə!

Mən sənin gözəl balan,
Gözəldən gözəl balan.
Aydan olsa da anan,
Olmuşam gözəl xalan!

**Öpürəm nəvən Nəsrin.**

Əzizim, Əzizə nənə!
Sən gəzdin "Eldən-elə",
Yazdığın romanların,
Çox gəzir əldən-ələ!

Nənə, nənə, ay nənə!
Danış mənə, ay nənə.
Necə xoruz, siçanı
Apardın dərsə, nənə!

Nənə, nənə, ay nənə!
Danış mənə, ay nənə.
Necə canavarla sən,
"Söhbət etdin" dərədə.

Nənə, nənə, ay nənə!
Danış mənə, ay nənə.
Hələ yorulmamışam,
Yuxum gəlməyir hələ!

Danış sən "Hun dağı"ndan,
Lap uşaqlıq çağından!
Əlyarbəyov evində,
"Tutduğun" orucundan!

Danış sürdüyün atdan,
Cövlan etdiyin dağdan,
İrana Firuzədən,
Keçib getdiyin çağdan!

**Öpürəm nəvən Aydan.**

**Şövkət Hicran adlı bir oxucunun məktub və bayatilari**

Əzzinəm bayatı var,
Elimdə bayatı var.
Əzizənin qəlbində
Bayatı həyatı var.

Mən aşıq gözün gözəl,
Gözün, həm sözün gözəl.
Bayatından doğulmuş
Dilində sözün gözəl.

**Şövkət Hicran**, 27 avqust 1997-ci il.

Əzizimiz Əzizə xanım!

İndi televizorda (2 iyun 1999-cu il, AzTV) Sizin çıxışınızı dinləyib ürəkdən ağladım. Elə bil, uzun illərdən bəri dolmuş ürəyimi boşalatmaq üçün qəmxar sözü istəyirdim, eşitdim. Sağ olun! Bir anda mənə elə gəldi ki, yetimlənmiş Azərbaycanın qayğılı Anası yoxdan var oldu. Düzü, biz – xalq, Siz – Əzizə Ananı çoxdan qayğıkeşımız görürük. Lakin, bu gün Vətənimizin belə sözlərə ehtiyacı var. Siz bizim dərdlərimizi, şəhidlərimizi ən doğma Ana kimi, əsil el qızı kimi oxşadız. Allah Sizə can sağlığı versin! Sizin qədər el sözünü öz cövhərində yaşada bilən kim olar görəsən? Allah bu Vətənpərvərliyi, elsevərliyi Sizə bəxş edən Anaya qəni-qəni rəhmət eləsin! Allah çox təvazökar böyük alim Məm-

məd qardaşınıza qəni-qəni rəhmət eləsin! (Heç yadımdan-çıxmaz... el adəti ilə "Şah Hüseyn" getməyiniz).

Tanrı Siz üçlüyün – bir bacı, iki qardaşın alına Ana bətnindən millət üçün həqiqi alimlik haqqı yazmışdır. Təvazökarlıq içində sonsuz bəxtəvərlik!.. Nadir nəsil-nəcabət!

Əzizə xanım, bayatı deyən səsinizi ömür boyu unutmaram! Nə gözəl, nə doğma səsimiz var! Analar bir daha sizdən doğa biləydi! Allah sizi millətin və milli ədəbiyyatımız üstündən əski eləməsin! Sizə ehtiyacımız var!

Sizə həsr etdiyim bayatıları ürək hədiyyəsi kimi bəxş edirəm!

Söz var ürək asıdır,
Söz var qəlb yanasıdır.
Əzizə Cəfərzadə
Bayatı anasıdır!

Bu diyarda adı var,
Sənin kimi qadın var.
Nə bəxtəvər Anasan,
Bir Vətən övladın var!

Zirvələr yaz bilməyir,
Qayğıdan naz bilməyir.
Əzizə bu tarixi
Dağlardan az bilməyir.

Əziziyəm şişəsi,
Sınmasın qəlb şişəsi.
Əzizənin bir mizi,
Vətənin bir guşəsi.

Mən aşiq yazım üstə,
Gül bitər yazım üstə.
Əzizənin xoş səsi,
Tarımda, sazım üstə.

Əziziyəm daş gördüm,
Daşda otdan yaş gördüm.
Əzizənin gözündə
Şəhidlərçün yaş gördüm.

Qılıncım yağı deyir,
Sinəmin dağı deyir.
Mafələr çiyinlərdə,
Əzizə ağı deyir.

Əzizəsən kitabsan,
Tanrı verən kitabsan.
Bu ahıl yaşında da
Yorulmayan xitabsan.

Dağlar başı qar olar,
Ətəyində nar olar.
Vətənə əsil aşiq,
Əzizə tək yar olar.

Əzizə el Anası,
Daim elə yanası.
Dilində el canı var,
Eldən deyir xanası.

Əziziyəm telləri,
Tez ağartdın telləri.
Əzizənin otağı –
Azərbaycan elləri.

Əzizə – söz qalası,
El qədər, söz qalası.
Əzizə tək el sevsin,
Hər bir adəm balası.

Bu dünya meyxanədır,
Ümmanı peymanədir.
Sözün şərq dəryasında
Əzizə dürdanədır!

Əzizə, duman olar,
El sözsüz duman olar.
Çox alim bilmədiyi
Tək səndə, güman olar!

Sizi çox sevən Şövkət - Hicran İmami və ailəsi
2 iyun 1999-cu il.

Millət Anası Əzizə xanım Cəfərzadənin qardaşının hüzründə dediyim bayatılar:

Yol üstə dağlar gələr,
Yolları bağlar gələr,
Qardaş dağlı bacılar
Dərdini ağlar gələr.

Əzizə ellər gəzər,
Ellərdən güllər sezər.
Üç igid itiribdir,
Deyibən dillər gəzər.

Mən aşiq, ulu dağlar,
Bağlama yolu dağlar.
O qədər dərd demişəm,
Dərdimin qulu dağlar.

Əzizə yad edəndi,
Yurdumu şad edəndi.
Dərya gözləri daşıb,
Bu gün fəryad edəndi.

Qaranquş gedən vaxtı,
Qəm məni güdən vaxtı.
Qardaşsiz oturmuşam,
Ellər toy  edən vaxtdı.

Duman dağa çən verər,
Bir nağıllı zənn verər.
Ana quş dili bilib,
Göyərçinə dən verər[1].

Burada bir qadın var,
Saf adında adın var.
Vətənə bir ana ki...
Nə doğma, nə yadı var!

Əzizədə qəm gördüm,
Qardaş vaylı dəm gördüm.
Son on ilin içində
Xoş halını kəm gördüm.

Bu dağ dağı deyərmiş,
Hər sübh çağı dəyərmiş,
Bayatı anasının
Dili ağı dəyərmiş.

Mən aşiq,  təzəndi,
Bu dərd də təzədəndi.
Quşlar eyvana gəlir,
Səpdiyim təzə dəndi.

Meydana gələr,
Mərdlər meydana gələr.
Əzizədə qəm görüb,
Quşlar eyvanə gələr.
Laylay,  qardaşım layla...

**Şövkət Hicran, Sentiyabr 2000-ci il.**

---

[1] Əzizə Cəfərzadə uzun illər eyvanından Bakının göyərçin, qumrularına dən tökərdi. Burada ona işarədir.

# DƏFTƏR – 2: TAPMACA, YANILTMAC, DÜZGÜ, OYUN NƏĞMƏLƏRİ

(Qazıməmməd (indi Hacıqabul), Əlibayramlı (indi Şirvan şəhəri), Bakı və Şamaxı rayonlarından).

## TAPMACALAR

**A.**
Altı taxta,
Üstü taxta,
Şahqulu bəy
Otaxda. **(qurbağa)**

Altı bulaq içərəm,
Üstü zəmi biçərəm. **(qoyun)**

Alçaq damnan,
Qar yağar. **(ələk)**

Atovun sallananı,
Anova gərək olur. **(cib)**

Anan çövürər,
Atan təpər. **(başmaq)**

**B.**
Bir balaca mət daşı,
Yandırır dağı-daşı. **(istiot)**

**H.**
Helindədi, helində,
Qənəddəri belində.
Gecə-gündüz yol gedir,
Yerindədi, yerində. (**dəyirman**)
(Meşəd Soltan xanım, Şamaxı)

Hamını bəzər, özü lüt gəzər (**iynə**).

**İ.**
İki qayanın arasından səs gəlir.

**K.**
Körpü altda
Dörd güyüm. **(inək əmcəyi)**.

**M.**
Mən aşığam başı üç,
Qoyduğu börk, başı üç.
Səkkiz daban, qırx dırnaq,
Gözü altı, başı üç. (**hörümçək**, B-1714 v. 6)

Mən alım o namaza,
Dəstəmaz al o namaza.
Fərzin qıl, əda elə,
Sünnət gərək o namaza. (**namaz**, B-1714 v. 6)

**U.**
Uzun qızım uzanar,
Özünə paltar qazanar. (**oxlov**)

**Y.**
Yol üstə sarı yaylıq. **(at sidiyi).**

## YANILTMACLAR

**A.**
A qıl quyruq qırqovul, gəl bu kola gir qılquyruq qırqovul.

Anamın ağ mıncığı, göy mıncığı.

Ay qumu toxmaqlama,
Qum səni toxmaqlasa,
Sən qumu toxmaqlama.

**D.**
Dəyirmana girdi köpək,
Dəyirmançı vurdu kötək,
Kəpəy yedi köpdü köpək,
Kötəy yedi köpdü köpək?

**E.**
Eşşək tərəkəmələnmə

**G.**
Getdim gördüm bir dərədə iki kar kor kürkü yırtıq kirpi yatır. Dişi kar-kor kürkü yırtıq kirpi, erkək kar-kor kürkü yırtıq kirpinin kürkünü yamamaqdansa, erkək kar-kor kürkü yırtıq kirpi dişi kar-kor kürkü yırtıq kirpinin kürkünü yameyır.

**K.**

Kəklik, kəpənək, kölgəliyə gəlin gedək.

**Q.**

Qonşudan bizə beş basma tas aş gəldi. Pişik vurdu çaladı. Vaxsey o beş basma tas aş, şaxsey o beş basma tas aş.

Qırx küp, qırxının da qulpu qırıq küp.

**M.**

Mollanı əmmaməlməlimi, əmmaməlməməlimi?

**O.**

O tayda var idi beş-beş boz ala, boz qaşqa boz tüklü, bez yüklü porsuğ.

**T.**

Təndirə girdim,
Sildim, süpürdüm,
Silkindim çıxdım.

Tək cüt dükcə,
Cüt-cüt dükcə,
Üç cüt dükcə.

## DÜZGÜLƏR

### A.

A teşti-teşti teşti, vurdum Gilanı keşdi,
Iki xoruz əlləşşdi, biri qana bulaşdı,
Qan getdi çaya düşdü; çaydan göyərçin uşdu.
Göyərçin alabaxta, qanadı taxta-taxta.
Hər kim ona toxunsa, an qussun laxta-laxta.
Qan dedi: başım üstə; yeddi kəmər qaşım üstə.
Qəmər getdi oduna; qarğı batdı buduna,
Qarğı döyül qamışdı; beş barmağım gümüşdü.
Gümüşü verdim tata; tat mənə darı verdi,
Darını verdim quşa; quş mənə qənət verdi.
Qənətdəndim uçmağa; Haq qapısın açmağa
Qapıçı qapı toxur, içində bülbül oxur,
Məndən kiçik qardaşım, Allah kəlamın oxur.

***

Ay qız, ay qız ağlama,
Qoltuğunda bağlama.

***

Ay qız sən haralısan,
Dərdlisən, yaralısan,
Sən Quba maralısan.

***

Ala başuva,
Kül başuva,
Qonşuları yığ başuva,
Get dərədə mındar ol,
Gəl canıma qurban ol.
*(Qızlar savaşanda deyər)*

***

And olsun əlimə,
Gün doğsun belimə.
Birin vurram Vəliyə,
Gedər dəyər dərəyə.

***

Attı çapar, ay dayı,
Ürəyim qopar, ay dayı.
Burdan gəlib-keçəndə,
Ürəyim gedər, ay dayı.

***

Attı gedər, ay dayı,
Tap-tup edər, ay dayı.
Burdan gəlib-keçəndə,
Ürəyim gedər, ay dayı.

***

Acmısan apar p..u ye,
Toxsan tovuq p..u ye.

***

At, göbəyim, at,
İçində nabat.
Gəlsin gomurnat,
Versin ağ manat.
*(Dolğun xanım oynayana deyərlər.)*

***

Ay qara-qura, qara-qura,
Qaldı qırağda dura-dura.
Gözdədi qızlar gəlmədi,
Qaldı başına vura-vura.

***

Arvadlar içində arvadım itdi,
Bir əli xəmirli, bir əli bitdi.
Gəzdim, gəldim, gördüm qapı kilitdi,
Lənət pis arvadın zatına gəlsin.

**B.**

Bəkinin yolları salma-saçaqdı,
Bir əmim oğlu var, məndən qaçaqdı.

Bədo mindim dövran sürdüm,
Könül arzun nədə qaldı?
Eşşək mindim, təzək dərdim,
Könül arzun nədə qaldı?

Başı mollanın, döşü mollanın
Yerdə qaldı leşi, onunla da var işi mollanın.

Baş barmaq,
Başala barmaq,
Uzun hacı,
Gül turacı,
Balaca bacı. *(barmaqların adı)*

Balağa, Gülağa, Mədinə,
Boyağa çayda çiməndə,
Saqqız versən şıqqıldadır, Boyağa,
Dovğa versən hortduldadır, Boyağa,
Soyuğ olanda zıqqıldayır, Boyağa.

**X.**

Xiy-xiy xiyanda,
Üzüyüm itib bu yanda.
Üzüyün suyun içərlər,
Xalaxaladan keçərlər.
Xalxala mənim olsun,
Kətan köynəyim olsun.
Kotançı getdi gəlmədi,
Yaylığın götdü gəlmədi.
Yaylığımın ucu qara,
Peykamı göndərdim yara.
Xanbalanı öldürdü,
Düşmanımı güldürdü.

**İ.**

İynə-iynə, ucu düymə.
Şam ağacı, şatır keçi.
Qovağacı, qotur keçi,
Ağ quşum-araxçınım,
Göy quşum-göyərçinim,
Əzmə tikan, Əmirqulu!
Vur nağara, çıx qırağa!

İki xoruz, bir fərə;
Fatmanı verdük ərə.
Allah yağış yağeydi,
Fatma inək sağeydi.
Fatma buğa, mən buğa,
Gəlin gedək pambuğa.
Pambıq budaq olubdu,
Qoyun dabağ olubdu.

**K.**

Keçəl keçəl, tazı keçəl,
Hər gecə pərvazı keçəl.
Keçəl qonar kol başına,
Sağsağana göz eylər,
Hər bir işi söz eylər.
Lilli-lilli sular içər,
Arpa yeyər, buğda biçər.

Keçəl keçəl baniyə,
Mindi quleybaniyə,
Getdi həkimxaniyə.
Həkimxana bağlıdı,
Keçəlin başı yağlıdı.
Zırıldama, ay keçəl,
İndicə ərim gələr,
Keçəlüvə dərman elər.

**Q.**

Qabaqda gedən arvana,
Anasın çəkim şalmana.
Dalda gedən ağ qurşaq,
Anasına

*(yemlik yığmağa gedən uşaqlar oxuyur ki, heç kəs qabağa qaçmasın, hamı bir cərgədə getsin).*

Qonşumuz Əsbət xala,
Bir oğlu var: Əlbala.
Qoltuğunda bağlama,
Dur göbəyin yırğala.

Qırmızı tuman vızvızı,
Yandım, ay eşşək qızı.

***

Quş ovuca qonmuşdu:

Bu tutdu,
Bu kəsdi,
Bu bişirdi,
Bu aşırdı,
Buna qalmadı,
Acıq elədi,
Qondu bura,
Si.di bura,
Töküldü bura
*(uşağa barmaq saydıranda deyilir)*.

**M.**

Motal, motal,
Tərsə motal,
Yağ atar
Qaymaq tutar.

Mən döyüləm əmimdi,
Köpək oğlu Səlimdi.
*(gizlicə yoldaşa vurub oyunda deyərlər).*

Məmmədaga, girdi bağa,
Bir quş tutdu – oda qurbağa.
Qoydu çanağa,
Verdi qonağa.

Qonaq yemədi,
Qaldı sabaha,
Özü yedi.
*(yoldaşıcırna cırnadandanda, onun adına qoşurlar)*

**N.**

Nehrəm ol-ol-ol
Yağım bol-bol-bol.
Yağı bəylər aşıycan,
Ayranı göz yaşıycan.
Öyümə onaq gəlibdi,
Aşım yavan qalıbdı.
Əlim pıçaq kəsibdi,
Dəstə pıçaq kəsibdi.
Yağ gətirün yağlıyaq,
Dəsmal gətirün bağlıyaq.
Dəsmal dəvə boynunda,
Dəvə Şirvan yolunda.
Şirvan yolu gül bağlar,
Dəstə-dəstə gül bağlar.
O gülün birin üzeydim,
Saşbağıma düzeydim.
Saçbağım gülə batıb,
Qardaşım üstə yatıb.
Qardaş hophopun  olsun,
Qardaş gü topun olsun.
*(nehrə çalxarkən oxunur).*

**O.**

Oturmuşdum səkidə,
Şor gəldi nəlbəkidə.
Karvançı xəbər verdi,
Yarım qalıb Bəkidə
Allah salamat eylə,
Allah salamat eylə.

**S.**

Südlüpilov yağı yox,
Qılınc bağlar bağı yox.

**Ş.**

Şayı-şayı, Şamama,
Şayı gedir hamama.
Şayı hara gedirsən?
Qarabağa gedirəm.
Qarabağda neyün var?
Uçuq-uçuq öyüm var.

Şamaxı çörəyi ənnidi,
Buğdası da dənnidi.
Zəlzələ döyül nənnidi.
Yırğala qaadoyalım,
Sirkələ qaadoyalım,
Cırğala qaadoyalım.

**U.**

Urfulla –
Gir qəmişə xortulla.
Xoruzum, xoruzum xor dənəsi,
Nöş yemirsən nar dənəsi.
Adam doğar adam balası
Adam doğmaz it balası.

**V.**

Vızvızı, ay vızvızı,
Qənəddəri qırmızı.
Kül başuva, a Fatma,
Oğlan apardı qızı *( qız qaçırılanda deyərlər. )*

**Y.**

Yağış gəlir yağa-yağa,
Dolu düşür bizim bağa.
Əmim oğlu Soltan ağa,
Gəlin gedək oynamağa.
Oynamağın vaxtı döyül,
Qızıl gülün taxtı döyül.

Yağdı yağışdar,
Bannadı quşdar,
Arpa yeməkdən
Saraldı quşdar.

# ƏFSUNLAR

**A.**

Anam Mədinə,
Bacım Səkinə,
Qardaşım Abbas,
İt məni qapmaz (*it gələndə deyərlər*).

Ay qız alan öyün abadan olsun,
Üstü dəmdə, yanı qaş daşdan olsun.
Düzülübdü qız evində qonçalar,
Oğlan evində toplaşıb qonaqlar,
Oğlan evində yığılıb xonçalar.

Qız anası hündür yükü alçaq elər;
Oğlan anası alçaq yükü hündür elər.
Ay qız anası, əli qoynunda,
Oğlan anası dəvə boynunda (*toyda oxunur*).

Ay dəvə-dəvə,
Saqqızı mənə,
Balovu götür
İt cəhənnəmə. (*dəvə görəndə deyərlər*)

Atıl-batıl,
Dağdan atıl,
Vedrə satıl,
Cadı-piti.
Olsun batil.
(*atil-batil tökərlər çərşənbə tonqalına atanda*).

**Ə.**

Əmün dəmün bu olsun,
Axır qəmün bu olsun. (*bir növ ovsundur, xəstəyə küpə qoyanda dedi Ağaxanım nənə, Tağılı kəndi*)

**H.**

Happan, huppan,
Yırıl-yırtıl,
Su iç, qurtul!

**K.**

Kərtənkələ,
Ərün gələ,
Başmaq ala,
Bir tayı sənin,
Bir tayı mənim. (*kərtənkələ görəndə*).

**Q.**

Qurbağa bacı,
Taqqa bacı.
Hardan gəlirsən?
Hamamdan.
Vedrön hanı ?
Aldılar.
Nöş aldılar? *(qurbağa görəndə)*

**L.**

Ley, ley, bizdə cücə yoxdu,
Mollagildə çoxdu. (*ley gələndə*).

**M.**

Məzmək, məzəndərək,
Yağın qazana əndərək,
Po...un bəylərə göndərək.
(*bəzgək quşun görəndə deyərlər*).

**S.**

Samansan sovrul çıx!
Qumsan qovrul çıx!
(*gözə çöp və s. düşəndə deyərlər*).

**T.**

Tabaq gəldi-dabaq qaç
(*mala dabaq düşəndə tabaq döyər və oxuyardılar*).

Tuman gəldi – tuno qaç! (*zökəm xəstəliyinə tutulanda başa tuman atıb yatır bunu deyirlər*).

Tapıl-tapıl axça verim,
Tapılmasan-mıxça verim.
(*yemlik axtaranda*)

Tüstü baba, o yana get, əppək baba bəri gəl.
(*çörək bişirəndə tüstü olanda*)

Təzə ay, səni xoş gördük, zigilin yerin boş gördük
(*əldə zigil olanda təzə ayı göstərib deyərdilər*)

**Y.**

Ya Həzrət Abbas,
İt məni qapmaz. (*it gələndə deyərlər*).

Yığılın babam ocağına,
Kömbə salım bucağına.
*(bir yerə çox adam dolanda)*

Yediyin yemiş olsun,
Dediyin demiş olsun,
Dayandığın qapının
Kandarı gümüş olsun.
*(İlaxır çərşənbədən sonra tez-tez oxunur bu)*

## OXŞAMALAR

### A.

Ay Allah bundan üç dənə ver.
Üç dənə vermə, beş dənə ver,
Göydə gedən quşlara ver,
Çaladakı gomuşdara ver,
Dərdindən ölmüşlərə ver,
Tamarzı qalmışlara ver.
*(Uşaq oynadanda)*

Ay bunu yaradan Tarı,
Kəkilin daradan Tarı.
*(Uşaq oynadanda)*

Allah, bundan üç dənə ver,
Üç dənə vermə, beş dənə ver.
Çaladakı gömuşlara ver,
Həsrətin çəkmişlərə ver.
*(Uşaq oynadanda)*

**B.**

Balama qurban,
Balamın balasına qurban,
Çarəmi Allah kəsib
Balamın anasına qurban.

**Ə.**

Əmim qurban, dayım qurban.

**G.**

Gələn ayyaqqabınıza qurban,
Söz deyən dilüzə qurban.
O görən gözüzə qurban.
Gəlmisüz özüzə qurban.
Söylədüz sözüzə qurban.

Gözünün giləsin yeyim,
Sındırım dənəsin yeyim.
Həftədə üçün yeyim,
Sındırım için yeyim.

**Q.**

Qızım qızıl parçası,
Yerə düşər parıldar.
Oğlan köpək balası (təzək parçası),
Qapıda durar mırıldar.

***

Qız qızıla dönübdü,
Xəbəri yox oğlanların,
Ağzına p... oğlanların.

Qızdı bu, nazdı bu,
Min tümənə azdı bu.
Min tümən gətir,
Bu qızı götür.
Verməræm a, verməræm.

***

Qızdı, qızıl parçası,
Yerə düşər parıldar.
Atası payıq buludu
Yağmasa da guruldar.
Əgər anana oxşasan –
Süd üzünün qaymağıdan.
Əgər bibinə oxşasan –
Ağ otağın pərgarısan.
Əgər əminə oxşasan –
Misri qılınc qalxanısan.
Əgər dayına oxşasan –
Qurulu qoşun sərdarısan.
Əgər xalana oxşasan –
Qaratikan qaymağısdan.

**S.**

Sarımsağım soğanım,
Yad qızından olanım.
Atova qurban olum,
Anon olsun qurbanım.
*(Əminə Hacı Şıxbala qızı).*

**T.**

Tarı bir adam yaradıb,
Balnan badam yaradıb
Atası zirdən-zibildən,
Balasın adam yaradıb.

## QARĞIŞ, BƏDDUA

Ay günü, günün qara,
Eləmisən günümü qara.
Canuva düşsün qara yara.
(Əminə Hacı Şıxbala qızı)

Səni görüm düz dadı bilməyəsən!

– Gözünü çörək tutsun!
– Boy, necə qıyırsan, Gülab nənə?

## AĞILAR

Dağların çiçəyi anam laylay,
Güllərin göyçəyi anam laylay.

Qabağı qaytarılmaz süriyə gedib otaran balam vay!

Varaqlayanda Quran yarpağı atam vay!

## VƏSFİ-HALLAR

Ay gördüm Allah,
Təbarəkallah.
Var bir niyyətim,
Nədi qismətim.

İlana bax, ilana,
Getdi girdi dalana,
Mənə süd verən ana,
Olsun sənə qaynana.
*(oğlan qıza deyər).*

## DEYİMLƏR

**A.**

Alnan abı, bəylərin babı,
Alnan yaşıl, xub yaraşır.

Adam var evdən gedər,
Adam var eldən gedər.

Ay dadaş, atma daş, mən yaralıyam.
Şəkinin, Şirvanın mən Maralıyam

**B.**

Bozdamac-əlim xəmir, qarnım ac.

Bu qurban tükü haqqı.

Bu zamananın qızları,
Kəbin kəsər özləri.

**C.**

Calağaydı ey, gecə gedib köülə yıxılacaq.

Cəhrə deyir: əyir məni,
Üstümə sal dəyirməni.
Kişi deyir: şalvar hanı?
Arvad deyir: boşa məni.

**Ç.**

Çörəyimiz qılçıqlandı,
Qapımız palçıqlandı.
Verin aparaq gəlnimizi,
Aparmeyun zəhləmizi.
*(oğlan adamı deyır).*

**D.**

Dəvə yolundan gedib – ləpiri,
Qaraca yurdan keçəsən gərək.

Dəvə heykaldı.

Dəvə yunu  uşağın üstünə tikirlər. Amma dəvə yunundan patava, corab toxumaq olmaz – deyirlər arvad alışar.

Dağda dana böyüdü
Sən də burda böyüginən
*(qovuq böyüdəndə)*

Dodu, dodu gördünmü,
Doduya salam verdinmi,
Dodu gedənnən bəri
Qırmızı gün gördünmü?
*(çox yağış yağanda oxunur)*

Digili qız, ay digili qız,
Biri kəhər, biri boz.
Mindim kəhər boynuna,
Sürdüm Şirvan yoluna.
Şirvan yolu min bazar,
İçində meymun gəzər.
Meymunun balaları,
Məni görcək ağladı,
Tumanına qığladı.

Dam, dam, dam balası,
Get köpəy oğlun balası.

Dararam dayım gəlir,
Nəlbəkidə payım gəlir. *(pay gələndə).*

Dərədivaz bir dəllal,
Bir zərraf bir dəllal
On beş şəhər, dörd dükan
Iki baqqal, bir dəllal. (B-1714, v. 6)

Dəyirmana dən doldu,
Ağlım ona bənd oldu,
Beş yüz beş min beş tayı
Bir mismara bənd oldu. (B-1714, v. 6)

Dəvələr qatar-qatar, a Şəhrəbanı,
Elçilər qapıda yatar a Şəhrəbanı,
Dərdünnən öldük naçaq a Şəhrəbanı
Vermirlər, götürüb qaçaq a Şəhrəbanı.

**E.**

Eyzən qara, yaraşır xara.

Evdə bir qarı gərək,
Nə istəsən yoxdu deyə,
Öydə bir gəlin gərək,
Onun sözün haqdı deyə.

**Ə.**

Əyşi-əyşi, ağ eşşəyin ağ şuma şit sışdı qaşdı.

Əzik-üzük gümüşdər,
Əyri buynuz gomuşdar –
Fağırcığaz mollanın.
Parıldıyan nehrə,
Cırıldayan cəhrə,
Odun qıran dəhrə –
Hamısı yetimin. *(haqsız bölgüdə deyirlər)*

Əncil ağacını yandırmaq günahdır.

Ələk verməz evinə,
Çörək verməz evinə.
*(bərk boğanaq-tozanaq olanda deyirlər).*

Əkdim noxud,
Bitdi söyüd,
Yarpağıdı
Şahpalıd.

Əlisi dəli,
Vəlisi dəli,
Qırılmışın
Hamısı dəli.
*(dalaşanda deyirlər).*

Əl çalmıyanın əli qurusun,
Suya gedəndə beli qurusun,
Danışanda dili qurusun.
*(toyda sərpayı deyir).*

Əcəb elədim,
Əlimin içindən gəlib,
Xəççə biçinnən gəlib,
Sayad bulaqdan gəlib,
Orcalı dağdan gəlib,
Xanalı odundan gəlib.
*(ağıl verir, inad edib deyirlər).*

Ətəkliyim piləkdi,
Çıxma çölə küləkdi.
Salam verdim almadı,
Qaşqabağın salladı.

Əliş mənim dayımdı,
Ağaca çıxan ayımdı,
Eşşək cüt os... da,
Əliş deyər payımdı.

Əsbət ölüb yasıdı,
İt po.u halvasıdı,
Əskilər surfasıdı,
Pişiklər mollasıdı.

Əmim qızı biçində,
Göbəyi tər içində.
Getdim tərin silməyə,
Qaldım tikan içində.

Əliqulu hay Əliqulu,
Cibində yoxdur pulu.

Əyşi mənə bir cəhrə al, bər-bər bəyirdim,
İldə kələf, ayda bir sap al əyirdim.
Əyşi, vallah, bəd nəzərə gəlmişəm,
Get naxıra, bir dana kəsdir gəti,
Mollaya ver, bir duva yazdır gəti.
Əyşi, vallah, bəd nəzərə gəlmişəm.
*(tənbəl arvad üçün).*

**F.**

Fətir-fətir, məni məzilə yetir

Fətulla örkəni bəri tulla.

## G.

Gərməşovu köp azarına qarşı inəyə vurular.

Gəlinə bax gəlinə,
Əlin vurub belinə,
Gəlinə söz demiyin,
Çıxar gedər elinə.

Gəlin çıxdı hasardan Allah,
Qutardıq intizardan Allah-Allah.
*(gəlini evdən çıxardanda)*

Gicbəsər, ay gicbəsər:
Yel vurar başı əsər.

Gəlin deyər:
Mən qaynanamı az istərəm,
Ikicə gözün boz istərəm,
Yavanlığın duz istərəm.

Qaynana deyər:
Mən gəlnimi çox istərəm,
İkicə gözün yox istərəm,
Əlində bir taxta qaşıq,
Qabağında po... istərəm.

## H.

Həsti qarı,
Hüstü qarı
Sənə qoyum
Tüstü qarı!

Həsən bəyin neyi var?
Çapır-çupur şeyi var,
Göy muncuqlu iti var.
Göyə çıxan atı var,
Öyündə bir lotu var,
Əlli batman g...tu var.

**X.**

Xəlilin qızı,
Donu qırmızı.
Ərə gedəndə
Yandırdı bizi.

Xızır (Xızr) – yaşıllıq rəmzi, su, həyat rəmzidir.

a) Həyat, əbədiyyət suyu içib yaşayır.

b) Xilaskardır – dəryada girdaba düşənlərə yardım edər, xilas edər. Doğan qadınlara yardım edər.

c) Şuxluq, bolluq rəmzidir.

**Q.**

Qarı gedirdi yeylağa,
Atıldı mindi daylağa.

Qasım-qasım, bardağa basım.

Qoduq-qoduq,
Çayda yuduq,
Ağarmadı,
Sabunladıq.

**M.**

Mən fitili zuyundan tanıyıram.

Mən gedirəm Tiflisə,
Qapı-baca, qalanı sizə.
Əgər məni sevirsən,
Bir kağız göndər bizə.

Musa-Musa,
Atası uzun,
Anası qısa.

Mən cəhənnəmdə, xanədələr behiştə gedib – avftaha daşı yığacaqsan.

**N.**

Nə aş yeyər, nə əppək,
Yaxşı oynar bu köpək.

**O.**

Oğul ölmək bel sındırar,
Gəlin çıxmaq öy dağıdar. (İrza kişi, Tava kəndi).

Oğul var bazara gedər,
Dəyirmandan xəbər verər,
Oğul var dəyirmana gedər,
Bazardan xəbər gətiriər.

O çitdən, bu çitdən neçiyə versən?
Bivəfa qızlara nisyə verirsən?

Nəlbəki, boşqab çini neynər mənə,
Yarım yar olsa günü neynər mənə. (Bakı).

**Ö.**

Ömürmalı – şor motalı.

Ölə-ölə – ölünün p..un böləəəə... *(cinlədəndə)*

**R.**

Ramazan qarnı qazan.

**S.**

Saxsağan-saxsağan oğlum (ya da başqası),
Gəlir yeri dəyiş *(nigaran vaxtda)*

Sara xala nazanda,
Aşı bişirər qazanda.
Özü yeyər nimçədə
Ərinə verər çömçədə.

Simavərim şək durub,
Üstündə milçək durub.
Qurban olum dayıma,
Şəkildə göyçək durub.

Səməni, saxla məni,
İldə göyərdərəm səni.

Səlləmə səlli,
Qırxdoqquz əlli.

Sandığım, ay sandığım,
Sandığa dayandığım.
Hayıf o əməgimnən,
Yad qızına yandığım.

**T.**

Turunc bulağa.

Tülkü tülkü tünbəki,
Quyruq üstə nəlbəki.
Ayı axmaq,
Donuz toxmaq,
Qurt qlovuş,
Çaqqal çavuş,
Bağa başmaq,
İlan qamçı,
Xoruz bançı.

Təndir çörəyi-öyümün dirəyi.

Tağı-Tağı,
Tuman bağı,
Göydə vurar
Mayallağı.

**U.**

Urfulla-gir qəmişə xortulla.

**Ü.**

Ümumən tək ağac müqəddəsdir.

**Y.**

Ya sən dəli,
Ya mən dəli,
Küsməginən
Qayıt bəri. *(biri küsəndə deyirlər)*
Yayma, yayma – məni yetir dayıma.

Yığılın babam ağacına,
Kəmbə salım buzağına. *(bir yerdə çox adam dolanda).*

## Cib dəftəri: P-105-1-224

Ac ayı oynamaz.

Adamın adı çıxıncan, canı çıxsın.

Allahın səbri bir çuval darıdan çoxdur.

At almamış axur tik.

Dadanmısan dolmaya, vura bir gün olmaya.

Nə quzu olub süddən doyduq, nə qoyun olub otdan.

## Cib dəftəri: P-097-02-059

**A.**

Ay dəvəçi, xuş gəbərin varmı?
Arvadın oğlan doğub.
Heç xəbərin varmı?

A bərəkalla səpək gəlin,

Başında gül pərək[1] gəlin.
Ortana yerpənək, gəlin!
Aaaa!.. Ooo! O həm pərədi, həm pərə. Həm çarəsi-çəmbərə.

**Ç.**

Çayın biri qaydadı,
İkisi cana faydadı,
Üçü xoşdu, dördü boşdu.
Çıxdı beşə, vur on beşə.
Çay nədi, say nədi?

**D.**

Dəvə-dəvə saqqızı mənə,
Balovu götür it cəhənnəmə.

Dayıqızı kərmədi yastaqlı,
Eşşək çulundan yorğanlı,
Ömründə çay görməyən,
Paltarın yağış yuya-gün quruda.

**E.**

Elə bil 40 eşşəyi sağına gələn xotkar qızıdı.

**Ə.**

Əədə, Ay Əlyabas eşşəyin altın atmamısan ?

---

[1] Pərək - Girdə yastı metaldan (əsasən qızıldan, gümüşdən) düzəldilmiş yastı, ortası deşik bütöv dəyirmi nazik lövhəciklərdən ibarət qadın bəzəyi.

Əcəb eləyirəm,
Əlimin içindən gəlir,
İçinin içindən gəlir.
Xətcə biçindən gəlir.
Ləkdə noxud əkmişəm,
Noxudun içindən gəlir.

**G.**

Gərməlikdə gərilmə,
Gəldiyin yol bəllidi.
Asmalıqda asılma,
Əsil kökün bəllidi.

Gəlin gəldi, haçan gəldi,
Dördataqlı siçan gəldi.
Gecə döşək mollası,
Gündüz sirr (im) açan gəldi.

Gəlin gəlin deyil düşdüyü ev gəlindi.

**H.**

Hayasızdan öz həyanı qoru.

**Q.**

Quda"Volqa" dan behli qudam,
Hampa qudam, varlı qudam.

**T.**

Taxtın bərəkallah, gəlin,
Baxtın bərəkallah, gəlin.

Ağ əllərə əlvan həna
Yaxdın, bərəkallah, gəlin.

Tikənə inək düşür, ütüləyənə at.

Tülküsən, ay tülküsən,
Geyinmisən kürkü sən.
Özgə evin aslanı
Öz evində tülküsən *(Vayıd qızı, Şamaxı)*
Tozanaq qopanda
Qonaq qoymaz evinə,
Ayran verməz evinə.

Uzun yöndəmsiz adama:

Ununduraz,
Dəvədəlləyi,
Tarıya tabağ aparan.

– deyiblər.

**Cib dəftəri: P-040-16-023**

Bişirdiyim xörəyi,
Gətirib verdim anama,
Anam yedi doymadı,
Qabı yerə qoymadı.

## Cib dəftəri: P-108-02-024

### A.

Ay Allah, məni öldürəndə elə vaxtda öldür; yerin qurusunda, suyun durusunda.

At olan günü – atdır,
Oğul olan günü – oğul.
Ağsulu, ağzı sulu,
Qarnı şişik,
Boğazı deşik.

***

Atdı, muratdı,
Qadasın aldığım arvaddı.

Adam adama yük deyil,
Can gövdəyə mülk deyil.

Ac qoyma, xırsız edərsən,
Çox söyləmə arsız edərsən.

Astarı üzündən bahadır.

Ac qurd da qonşusunu dalamaz.

Atına baxan, ardına baxmaz.

At sahibinə görə kişnər.

Ağıl qılıncsa, xasiyyət qılıncın qəbzəsidir. Qəbzəsiz qılınc

nəyə yarar.

Ac qarın qatıq, uyğu – yastıq istəməz.

Allahın itiyəm, ağzıma küt atıb.

At mıxın çıxardar, bir yerə dəyər, iki özünə.
Arvadlara cahad haramdır.

Ananın qarnındakı çağa sakit oturan kimi oturmusan evdə.

Atın yol üstə dayananına,
Arvadın ata evinə qaçanına,
Kişinin ad içəninə inanma.

Ağlayanın malı dülənə xeyir deyil.

Ay qıldlırım qaşın oğlu.

Az ye, az danış, az yat.

Ayın aydınlığında başlayıb, qaranlığında gətirib.

Ay bala, Kərəmin nağılıdı ki, bu. Dayı nə gəlin-qaynana?

Ağasəfin itgin canıyçın, qaynaqlarım[1] ovucuma batıb, gəlində töbə yanıma gəlmir, bular da ağlaşır. Biri deyib ovun, biri

[1] Qaynaq (caynaq) -d. Dırnaq.

deyib bardağleydi, ay arvad öldü.

Oğullar öylənəndə analar axırda xəbər tutuşur, atışıb tutulanda, alışıb-verişəndən sonra saqqalımıza soğan doğrayır, korun gözündən yaylığ asırlar.

**B.**

Bəzilərinə mərhəmət − pislik etməkdir.

Böyüyü say, kiçiyi sev.

Barlı ağac aşını aşağı tikər.

Bayrəməlisiz toy olmaz.

Bazarda soğan satan: Gəlin başuza döyənləyim, bal kimi soğandı. Məryamdan almışam bal kimidi.

Bir ağacın dibində min qoyun yatar.

Buğda dənlərə deyib:
İtərsüz, betərsüz,
Kol dibində bitərsüz,
Məndən sizə qarışmasa, it po..dan betərsüz.
Buğdam var demə − ambara girməmiş,
Oğlum var demə − yoxsulluğa düşməmiş.

Bir mıx – bir nal, bir nal – bir at qurtarar; bir at bir ər, bir ər – bir məmləkət qurtarar.

Bir dirhəm ət – min ayıb örtər.

Biri yedəkdə,

Biri minəkdə.

Biz merinos qoyun kimiyik, isti olanda yığışırıq, soyuq olanda dağılıq.

**C.**

Can cəfadan da usanat, səfadan da.

**Ç.**

Çax daşı,
Çaxmaq daşı,
Allahım versin yağışı.

**D.**

Dizdən yuxarı tuman,
İçində var öy yıxan.

Dörd şeyin kiçiyi yoxdur: xəstəlik, yanğın, düşmən, borc.

Dəvəynən çərçilk eləyirdi.

Dəvəmi alafın yayda yığıb, qışda karvana gedirdim.

Deyirəm azarramşam,
Deyərdim gey bezi, gəz düzü.

Dilini, belini, əlini qoru.

Dilənçiyə üz verəndə qohumluq iddəasında olar.

Dünya gör nə günə qalıb ki Çıqqıdı[1] Həsən şah olub.

Daş zənənin (arvadın) olan gününə.

Dərənin kənarında qalayladın qazanı,
Oğlan sənin üzündən tutmadım ramazanı.

**E.**

Eşq acın yox, toxun xörəyidir.

Eşşəyüvü əmib, qoduğuvu ac qoymuşam?

Elə yemişlərim vardı ki, hər biriynən bəy salamına gedərdin. Yığdım bir böyük əmbiz[2], getdim başıbatmış araba vermədi ki, aparım bazara çıxarım; qayıtdım bostana birin də tapmadım. Silib-süpürüb aparmışdılar.

***

Elə bil müharibə illərinin adamı deyil; yağış yuyub, günəş qurudub.

**Ə.**

Ən hasara etibar yoxdur.

Əlim xəmir, qarnım ac.

Əri döymüş arvadı,
İt də tutubdu bir yandan.

Ət hasara etibar yoxdur.

---

[1] Çıqqıdı (çıqqılı, cibbili) - xırda, balaca.

[2] Əmbiz - Piramida şəklində yığılmış məhsul topası.

Əttaqqahü lil qəlbi (alma ürək üçün);

"Əccəfərcülü lil mədəmi" (heyva mədə üçün); və "Rümnar manü lil kəbədi" (nar qara ciyər üçün).

Əsli Ərdəbildən Şahsevən qəbiləsindən olan Ağaxanım arvad Uduluda Tağılı kəndində yaşayırdı. Ondan eşitdiyim qeyri-adi üç deyim:

1. Qırılmamışdıduz, tatar çapmamışdı sizi. Nə olmuşdu?

2. Elə bil iti kirşəyə qoşublar.

3. Onu görüm o qədər yaşasın ki, toyuqlarla hinə girə bilsin!

***

– Əsil arvadı öldü, bədəsil[1] qaldı.

**F.**

Fitnə ki, var yatıbdır, Allah onu oyadana lənət eləsin.

**G.**

Gecə doğulanlar qaradır, gündüz doğulanlar ağ.

Gözünü yumub mürgüləyir.
Soruşurlar: – Nə edircən?
Cavab verir: – İçəri baxıram.

**H.**

Hiylə tazıda olmasa, dovşan samanlığa girə bilməz.

---

[1] Bədəsil [fars. bəd və ər. əsl] - Əsli pis, zatı pis, əsilsiz, nəcabətsiz.

Həm ulağ,
Həm sulağ.

– Hökümət eşşəkləri yığıb, küncdə-bucaqda qalan olub, sahib də onlardandı.

Hansı qayanın göy göyərçini, hansı daşın xınalı kəkliyisən?

Heyf olsun o gilə-gilə çörəyüzdən.

Hirslə qalxam – zərərlə ötərər.

Hansı Əslinin dərdi yandırıb səni, hansı Leylinin qəmi çöllərə salıb?

**X.**

Xörəyi yeyəndən sonra 40 tikə pendir çörək dürmək eləsən çox savabdı.

**İ.**

İməcilik – dürgə açma üçün arvad iməciyi.

İnan yoddısız (?) nədirsə – 70 odur.

– İlanlar İstisuya ziyarətə gəlirlər.
– Neynək, gəliblər, ziyarətlərin eləsinlər, çimib getsinlər.

İman Hüseynı su qəhəd olan kimi mənə də ər çörəyi qismət deyil

İt – quzu doğmaz.

İyirmisin doğluşam ləbləbi kişmişlə.
İnək elə xar oldu,
Eşşəyə çidar oldu?  (Hümmət, Tava k.)

**K.**

Keçəl baş,
Dəydi daş,
Axdı qan
Çıxdı can.

Kürəkən – gül əkən.

Körpə deyil, ay Allah, əzrayıldı nədi?
Gədə də daymır, nağayrım, sabah açıldı.

Keçəlin adını Zülfəli qoya,
Korun adını Eynulla,
Haqverməzin adını Haqverdi.

Kişi – seldi, arvad − göl.

**Q.**

Qondaron dik dabandı,
Yerə qoyma amandı.
Gətirir bazularım,
Götürür azılarım.

Qızıl pas tutmaz,
İgid yas tutmaz.

Qara yer,
Quru yer.

Qonaqdan saldıran yağıdan saldırar.

Qoy Yağubu yağı öldürsün.

Qayınana gəlin haqda deyib:
Gəlin-gəlin döyül "gecə yazandı!"
Geçəyazanın hökmü paççahın hökmündən də güclüdü.
Qız, kartof gülü olub gözə girmə, bənövşə ol, qoy səni axtarsınlar.

Qoyunu qurd yaralayanda yarasına dərman əvəzinə qaynar yağ tökür və deyirdilər: yarasını əmlədik.

Qoyun olmayan yerdə, keçi Əbdülkərimağadır (Elmira, Şuşa).

Qayınatan cənnət xələfi olsun,
Huri qızlarının yeri olsun.

Qapını kürd tapsın,
Yaxanı bit.

Qız gözəlliyi üzdə,
Oğlanın ki, sözdə.

Qırdı qurtardı sağları,
Yad eylədi ocaqları.

**M.**

Məhkəmə qazaya mülk olmaz.

Mərək yandı, yamanlıq siçana qaldı.

Məni aranda tutdan elədi, dağda qurutdan.

Mən yerimirəm ki, izim düşər. (Hümmət, Tava k.)

Mənim ölməyimi istəyirsənsə ciyin ölsün. Əvvəl ona ağla, oxşa, qaydasını öyrən, sonra mənə ağlarsan.

***

Məmdəlini qaşları,
Qırılıbdı qardaşları,
Qara geyib fərraşları.

***

Məmdəli yarər,
Hamıdan dilavər,
Leşkəri kafər.

**N.**

Nöqsan? Nədən artırıbsan? Qoysanam olsun, sındırma uşağın qol-qanadını. Onun üçün çöldəki üstügöy ot bitirən daşa da yalvarmışam.

**O.**

O Allah göndərən Quran haqqı.

Onda azar varsa mənə gəlsin, yalandan özünü faqqalığa vurub.

Onun səsindən göydə quşlar səs-səsə verdi; dəryada balıqlar titrədi.

**Ö.**

Ölənlərimizin urufu haqqı.

Öyülməyən ölü sonsuzdur.

Öydə kiçik qardaşa getmə.

**P.**

Pulu verəcəklər ərigə,
Gətirib tökəcəklər dəligə.
(Ağaxanım, Tağılı)

**R.**

Rəncəbərin arvadı başlayan vaxtı.

**S.**

Sayar məni sayaram onu – gözümün çırağı.
Saymaz məni, saymaram onu – gö …n qırağı.

Sahibsiz taxtanı yol alar,
Yol almasa sel alar.

Siçan görəndə özünü pələngə oxşadan pişik, aslan görəndə siçana döndü.

Sənin kötəlün[1] var ey, kötəlün, yadunnan çıxartma.

Sən görən  kolda dovşan qalmayıb.

**T.**

Təpəmə belə vuracağam, ölüm qurtarım sizin üzünüzdən.

Tənbələ "qapını ört" demişlər, "Yel əsər örtər" demiş.

Toyuq bilsəydi ki, yumurtasını bu qiymətə fors edərdi.

**Ü.**

Üzüm gəlmir üzə çıxam,
Kərəm sahibə kərəm yaraşar.

**V.**

Vəli bir-bir bizə gələrdi.

Vəziyyət beləykən belə.

– Vallah, bala, bir ağlaşmalıq dərdim var.

– Neynək, onda təki ölən olmasın, yığılın arxın başına deyin ağlayın.

Verən sənsən, alan sən,
Heç deməzsən yalan sən.
Gah bəzirgan bəzərsən,
Gah salarsan talan sən.
*(Mədinə Əlikişiyeva, İmişli r-nu, Xələfli k.)*

---

[1] Kötəl – Burada: yetimin. Ərə gələndə özü ilə gətirdiyi əvvəlki nikahdan olan üşaq mənasında.

**Y.**

Yediyi cad əppəyi.

Yayan ocağı qoyub, lampanı kibritlə yandıran gəlini qayınatası boşayıb.

Yeddi ayda bir qarış, bir ayda yeddi qarış.

Yatan günəş, doğan ayda ləkə var, onda yoxdur.

Yeyilər fətir,
Qalar xətir.

## Cib dəftəri: P-111-12

Bu zamana cənnətdi, zaman deyil.

Kişilər bizi Tarı qonağı apardılar.

Palazın biri 17-18 manat idi.

Üç batman buğdaya qapı-pencərəni qayırdı, üstəlik evimizi də suvadı.

Yağ uydurub məni. Evə kim gəlib, gəlməyib bilməmişəm.

## Cib dəftəri: P-111-17

**A.**

Ay Tarı, niyə dağılmıyayun, malakanın inəyi iki doğur, ekiz doğur, dişi doğur, mənki tək doğur, erkək doğur.

Ağacın qurdu özündən olmasa, meyvə dünyanı tutar.

Ata-ana tərbiyəsi görməyəni zaman tərbiyə edər.

Ağız yeyər, üz utanar.

– Ağcaqanadın hər biri bir Gilanşah boyda.

– A balam, bu nə şilandı[1]? (Böyük növbə görüb deyir:???)
– Dükandı.
Ağ açar, qırmızı saçar,
Gör nə fəğan eylər yaşıl.

Alma çox girən evə, həkim az girər.

At döşündə gedəsən.

At belində gedəsən.

Anasına bax qızını al,
Ərişinə bax bezini al.

Ay başı keçəl, dili lal.

– Ay arvad çayın dəm olmayıb ki!
– Ay kişi, səni-məni yaradana and olsun ki, 40 gündü dəmdədir.

---

[1] Şilan – d. Böyük qonaqlıq.

Ay mənim başım,
Qazanda qaney aşım.

Adam xeyir işə istixarə eləməz.

Azarlıya, dəliyə it də hürməzmiş…

– Atın yanına eşşək nədi?
– Aşığın yanındakı zurnaçı.

Ay süfrəsi qəzet, azanı fit[1] köpək qızları.

Alim öləndə aləm ölər.

Alim öləndə biz pərişan olluq.

Astadı – ustadı!

Arvadlar haqqında düşünəndə, ananı yadına sal, oğlum!

Ay qız anası əli qoynundadır,
Oğlan anası dəvə boynundadır.

Ağa oğula,
Oğul nökərə,
Nökər kənizə,

---

[1] 1925-ci illərdən sonra azan vermək qadağan olmuşdu. Böyük fabrik-zavodlarda isə işin başlanma, fasilə və işin bitməsi vaxtını bildirmək üçün uca səslə fit səsi verilirmiş. Fasilədə də hərə öz qəzetə büküb gətirdiyi naharı qəzet içində açıb yerərmiş. Buna işarədir.

Kəniz qula.
Qul getdi qayıtmadı.

Ağlaşma səsi eşitdim, unamadım[1].

Arpaya "co[2]" dedilər, buğdaya "gəndum[3]",
Darıya ad qoyanda mən çıxdım gəldim.

**B.**

Bu günün turşusunu sabahın şirininə vermə.

Bar verməyən ağacı kəsərlər.

Borc su dəyirman doldurmaz.

Boş yorğan hamısını çəkəcək altına.
Beş eşşəkli xoca kimi.

Biri yeyir yağlısın,
Biri şəkir gödən ağrısın.

Bişirmişik qayğanağı,
Üstünə qoymuşuq yağı.
Gərək bu gün tezdən durum,
Gəlib evin əziz qonağı.

– Biz duraq gedək bazara.

---

[1] Unamaq – d. İnanmaq, təsəvvür etmək, ağlına gətirmək.
[2] Co (جو ) – f. Arpa
[3] Gəndum (گندم) – f. Buğda.

– Çibüvüzdə alma qızara.
Bu iti vurdum sinsidi.
Bu it də itin cinsidi.

Büdrəməyən ayaq, çaşmayan dil olmaz.

Bir köpük girməyib kisəyə,
Çörəyi almışam nisəyə.
Arvad, gəl otur kürsiyə
Əllərimi qızdırım gedim.

Bir əlim harayçıdır, bir əlim bəlgəçi.
Boz yorğan hamısını çəkəcək altına.

Bu öy (ev) olmadı ki, Mırtı meyxanasına döndü.

**Ç.**

Çervon arığ olubdu,
Yotini çarığ olubdu.
*(Təbriz xanımlarından)*

Çatırı çarığ, sürmeyi bağ,
Göy çuxa yandırdı məni.

**D.**

Dünən gəlib Hacımız,
Əppəy saldı sacımız.

Dovğanı buladıqca oxu!

Düyürək – bir düyü beş olar.

Bişirərsən bir qaşıq aş olar.
Verərsən balaca uşağa,
Onun xətri xoş olar.

Darğaycan əri olanın,
Tarığcan gücü olar.

Dəvəni çatduq. Dəyirman suvatdı.

Dərvişlərin gülbangı:

– Dövri-zaman xeyir olsun, xeyirlər qələbə çalsın fəth olsun; şər yer üzündən götürülsün; ərənlər yardımçımız, ərənlər ərəni yolgöstərənimiz olsun.

***

Dələgeyin baxtına,
Dəmşalağın baxtına,
Dabanı çırığın baxtına.

Dam verirsən sərçəyə ver,
Qaranquş gəldi-gedərdi.

***

Dodaq büzmək,
Baş-göz eləmək
Baş açmaq,
Başa döymək,
Qaş-göz eləmək.

Dağar - üstü belə tarıxlı çuval.

Dönən gedib daşbaşa, nənön dinc qala bilmir.

## E.

Eşşək nədi, döşək nədi?

Eşşəyi ölüb, qoduğu ağlar qalıb.

Evdəki haqq-hesab bazardakına düz gəlməz.

Eşqə – aşıq və məşuq bir gözlə göründü.

***

Elmdə iki hərfi düstur tut:
1. Xaliq sənə baxır – nə iş görürsən – görür.
2. Tanrı təala sənin əməlinə möhtac deyildir.

## Ə.

Ətnən dırnağın arasına girən iylənər çıxar.

Ər atanı el atar,
Ər tutanı el tutar.

***

– Əyşi, mənə küçük demişdin, gətirmişəm ey...
– Sənə küçük demişdim, indi böyüyük köpək olmusan.

Əndəmində ərisin,
Kotanınsa qarısın.

Əyildim-düzəldim, Tarı bilmədi,
Əyirdim-toxudum, qarı bilmədi.

– Əyşi, bu him işarəti kimdən, haradan öyrənmisən?

**F.**

Fağırın axçası kimi pulu da az olar.

Faydasız sözə qulaq asan adamın başı, başağrısı verən adamın başından çox ağrayır.

**G.**

Gedənlərlə gedən, gələnlərlə gəlməyən.

Göy guruldadı, ildırım çaxdı,
Yaxşı oxlov kimi yağdı.

Gecə beçə yumurta verib, yem oğurluğuna (almağa) gedir, verimirlər; özünü döyür: "Arvad gəl eşşəkdən düşürt".

***

Gəlin deyir:

Qaynanam qaynar qazan, danqıladyır mən neniyim?
Baldızım-çucalduzum, dəm-dəm sancar mən neynəyim?
Qaynım gül yarpağı qapıda bitər mən neyniyim?

Qayınana deyir:

Evə ozan gəlibdi,
Qaynar qazan gəlibdi.
Gündüz olan işləri
Gecə yazan gəlibdi.

***

Gəlin gətiribdi şişi,
Qapıda asıbdı gülüşü.

Gəlmək iradəylə,
Getmək icazəylə.

Güclü günahkar olmaz.

Gedənlərlə gedən, gələnlərlə gəlməyən.

Gah sürur[1], gahı kədər,
Böylə gəlmiş, böylə gedər.

## H.

Hər şeydən qara baxtım,
Qarpız aldım ağ çıxdı.

Hirs gələr, göz qaralar,
Hirs gedər, üz qaralar.

Hər buluddan yağış yağmaz.

Hərzə sözün mərzə cavabı olar.

---

1 Sürur - ə. Sevinc, şadlıq.

## X.

Xəzri – ver nəzri,
Giləvar – səndə nə var.

Xıdır Nəbi, Xıdır İlyas,
Bəndəni bəndədən xilas.

Xalxın xalası, bibisi, babası, nənəsi... elə bil biz yer ayrılıb, yerdən çıxmışıq. Bizimkilər vaxtkən getdi, tələsdi torpaq altına, elə bildilər sonra yer olmaz.

## İ.

İt qaçıb, yuva qoyub.

İgidin belini qırar – yorğa at, pis arvad.

İt deyib: yiyəmin 7 oğlu olaydı; hərəsi bir parça ət verərdi, yeyərdim, doyardım.

Piçik deyib: yiyəmin 7 qızı olaydı. Yeddisi də kor olaydı. Onlar əllərindən qoyduğunu mən qapıb yeyəydim.

İlan vuran o qədər süd yığdı ki, axırda qatıq çalıb nehrə qoymalı oldu.

İki təam bir süfrədə haramdı.

İnsan öz dilinin altındadır. Danışdı – kimliyi meydana çıxar.

## K.

Kiprikləri uzundur yarın, xəyala sığmaz.
Bu əski bir məsəldir, mizraq çuvala sığmaz.

Köpək qızı – köpübdü,
Anası üzün öpübdü.

Köç geri dönəndə axsaq qabağa düşər.

Kişi fikirləşənəcən arvad burar çayı keçər.

Kürdü paşa qoydular,
Birinci babasını asdı.

Kül başuva a xondy,
Gör gülüvə nə (kim) qondu??

**Q.**

Qoyun quzusun basmaz.

Qohumnan ye-iç, alış-veriş eləmə.

Qazandığın qazana,
Artırdığın çırağa.

Qədəh kimi əldən ələ gəzdi.

Qadınsız ev, suyu soyulmuş dəyirmandı.

Qoyunun qığı da faydalıdı, ocaqda yaxşı yapır.

Qum gedər çayır qalar,
Sənə kor Tayır qalar.

Qınnan asıb, qındırğaynan kəsib.

**M.**

Mənə elə hislə baxdı ki, elə bil eşşəyini əmib, qoduğunu ac qoymuşam.

Molla tulum zurnasına bənzəyir,
Qarnı dolmasa, səsi çıxmaz.

**N.**

Nökər nədi,
Döşək nədi?

Nökər kimi işlə,
Bəy kimi dişlə.

Nə yemişəm ey, yeddi yuxa yemüşəm, doqquz çömçə şüllü.

Nehrəni bir eləməmisən – ağıllı adamsan.

Nə çarxda ipək var, nə tiyanda barama.

Nə gördün, göz kirəsi?

**O.**

Onun ağzının qıyı[1]-qıpı yoxdur.

On ölən anası olmaqdansa, bircə sağ anası ol.

---

[1] Qıy – d. Qaytan.

Ox ayyy... Mehivə qurban olum , at Tarı.

Onlar xayın,
Mən arxayın.

Bir ağacdan kürək də olar, bel sapı da.

Onun heç olmasa licimi var, bunun heç o da yoxdur. Ölməlidir, lənətullah.

Onı 40 gün cift içindı saxlayıblar, 12 qurban kəsiblər. *(Cifti tutub qurudur, basılan, əziz oğlan uşağı üçün isladıb altdan səriyib, üstən bələkləyirdilər.)*

**Ö.**

Özgə kələyiynən quyuya düşmə.

Özü bir tay başmaqdı, bir damcı boyu var; uşaqlar doğur ki, bir belə pəhlivan balası kimi.
Özü də qaldı əyriyə,
Başdan-başa səyriyə.

Ölənçün bir karvan ağlamaqdan, bir karvan zikir yaxşıdır.

Özünü elə çəkmişdi ki, elə bil sağına gələn beş eşşəyi var.

Ölənlərə xeyrat,
Dirilərə şöhrət.
Ölənlərə azanc,
Qılanlara qazanc.

Öyün dağılsın Tarı.

Öyü yıxılan, ay canım.

Özü bir tay  başmaqdı, bir damçı boyu var; uşaqlar doğurur ki, bir belə – pəhlivan balası kimi.

**P.**

Pərpilədim getdi.

Papğın keçi dərisindən,
Xıbırin yoxdu gərisindən.

Paltarı yuyub sərdim, ağ-appağ qağayı kimi oldu.

Pilləkan sizə uzun azar, şiş böyür, göy öskürək, zeyqünnəfəs[1] gətiriər.

Payız günüdə ört üstüvü – xəzələt olur, soyudar.

Paraxod gəldi fit verdi,
Konduktor billet verdi.

**S.**

Suyun durusunda,
Yerin qurusunda.

Səni görüm qaça-qaça gedəsən.

---

[1] Zeygünnəfəs - astmaş

***

Sərçə deyil – sərin verim,
Bildirçin deyil – birin verim.
Bir dəvədən, ay bala, sənə nə verim?

Saçımı süpügə elədim, əlimi kösöv.

***

– Sənin arvadı çörək verən döyü, odu ki, verməyən yemək halaldı. Hamısı yeyir yumurta və deyir: Əbutalib sənə qənim olsun, ey yumurta, mənə ziyan eləsən.

Söyüd: qəlbim dilim kimi dilim-dilm, saçlarım kimi saçaq-saçaq, günlərim taleyim kimi pərişan-pərişan...

**Ş.**

Şər kəsdiyi barmağın qanı çıxmaz.

Şofersən bas qazı,
Aşıqsan çal sazı.

**T.**

Toyda oynamaq bilməyən qab-qacaqla əlləşər.

Türklər nə gözəl demişlər:
Dünyanı ümid ilə yemişlər.

Taxta, talaşa
Yandım (ay Aşa!) alaşa.

Tohid[1] qarşısında hər şey birdir , bir görünür.

Tutulmamış oğruyam,
Xandan-bəydən doğruyam.

Təzə zəvvarın ruhuna salavar, ya rəhmət?

**U.**

Uşağın yoldaşı – cifti gəlməyəndə göbək kəsilən bağırsağa çarığ bağlayarlar.

Uzunduraz beynamaz,
Xeyrə, şərə yaramaz.

Üç şey qadına şərəfdir kişiyə yox:

1. Qorxaqlıq – ehtiyat üçün qadın qapı döyüldü "kimsən?" soruşa bilər, kimi qorxmadan aşmalıdır.
2. Xəsislik – qadın ev saxladığı malını qorumalıdır, kişi isə əliaçıq olmalıdır.
3. Dikbaşlıq (təkəbbürlülük). Ərinin şərəfini qorumaq üçün qadın ərindən başqa heç kəsə baş əyməz; kişi güzəştə gedə bilər.

**Ü.**

Üzə görə sillə vurarlar.

Üç xislət – Dəniz kimi əliaçıq – comərd, Günəş kimi şəfqətli, torpaq – Yer kimi səxavətli.

**V.**

Vay səni şor boğsun, ay qız!

---

[1] Tohid - ə. "Tövhid" sözündəndir; Allahın birliyinə inanma.

Varundu giriş,
Yoxundu sürüş.
Keçmişə xor baxan,
Gələcəyə kor baxar.
Aydan arı, sudan duru.

**Y.**

Yeddi ziqiymət hədiyyə, göyün yeddi qatının kərəmidir.

Yeddi oğlu var, hamısı da  sadğ oxu kimi.

Yeddi qorxaq oğul anası olunca, bir igid qız anası olmaq yaxşıdır.

Yeddi gün qabağı görməyən arvaddan, yeddi il irəlini görməyən kişidən ev olmaz.

Yediyimiz əlimizdədir, yemədiyimiz başımızın altında.

Yayda yağan qısa yağışa "çoban aldadan" deyərlər.

Ya Rəb o qızammı?
Çarığı düzəmmi?

Yaz günüdə üstüvə ağ ver  – yaz günəşi quru ağacı göyədir, insanın dərisini yandırır.

## Tərəkəmə deyimləri

Çörək apardım dəyişdim yaymeynan. Neynim, a başuva dönüm, tərəkəməyəm yeyə bilmirəm, öyrəmişəm.

Domba-domba qarakeçəyə gəldim.

Qoyun boğaz olanda gərək onu çiy yerdə (boş torpaq) yatırtmayasan, gəmlədə (peyinlənmiş) yerdə yatırdasan ki, balası fərli ol.

Tərəkəmə, ay tərəkəmə,
Sən gəlmə mənim mərəkəmə.
Adamdan adam törər
Eşşəkdən də tərəkəmə.

## Əzizə Cəfərzadənin deyimləri

**A.**

Anaya verilən söz Allaha verilən sözdür. Gərək yerinə yetirəsən.

Ağıl başqa, onu işlətmək qabiliyyəti isə bam-başqadır.

Ay balam, hər kimki ölür rəhmətlik deyirsiniz, axı sağlığında lənətsiz yad eləməzdiniz. Nə oldu "sağlığında kor fatı, öləndə badam gözlü?"

**B.**

Bina özül üzərində qurulur. Tarix millətin gələcəyinin üzülüdür. Onu dərindən bilmək lazımdır ki, gələcəyə gözəl aparsın.

Bir millətin böyüklüyü onun öz düşmənlərinə qarşı nifrətiylə ölçülər.

Bizə nə Qərb həyasızlığı, nə İslam cəhaləti lazımdır.

Bədgümqan adam heç kəsi yaxşı görməz, hamıdan bədgümanolar. Bədgümanlığı qəlbindən qov.

**D.**

Dünyada heç nə dəyişmir, dəyişən bizik.

**E.**

Elimizin-obamızın azadlığa çıxan günü olacaq. Bir böyük

Allah, bir siz arvad-uşağı gözü yadı, səhralarda sərgərdan qoymazsiz. Əl sizin, ətək Allahın. Üzməyin əlinizi Allahın dərgahından. Amma silahı əlinizdən qoymayın. Allahdan buyruq – ağzıma quyruqdan kar olmaz. Sizdən hərəkət – məndən bərəkət deyib o gözə görünməz. Hərəkət eləyin. Bir-birinizə dayaq olun. O xoşbəxt, o dinc, o azad günə çıxanda qəbrimin üstə gəlin, fatihəni, Allahın rəhmətini məndən əsirgəməyin.

**Ə.**

Ən böyük səadət − yenilməməkdir.

**F.**

Fərdə azadlıq vermək, düşməni silahlandırmaq deməkdir.

**G.**

Gecikən ədalət, ədalətsizlik gətirər.

**H.**

Həyat elə hərəkət deməkdir. Bilmirəm onlara niyə eyni ad qoymayıblar? Məncə hərəkət yoxsa həyat da yoxdur.

Hökmdar səhv edərsə, cəzanı xalq çəkər.

Heç bir şeyi olmayan, heç bir şey itirməz.

Hüquq qadınların çəkə bilməyəcəyi yükdür.

**İ.**

İnsanın böyük bir Allahı var – ümid.

İnsanın ana dilində təmiz yazması və danışması vətənsevərlik örnəklərindən biridir.

İnsan ömrü bir röya qədər qısadır. Sevgisiz keçən hər ana yazıq, çünki bu ömrün bəzəyi yalnız və yalnız eşqdir.

İlahi, mənə götürə biləcəyimdən artıq yük yükləmə! Sən hər şeyi bilən alim Allahsan. Ürəyim götürməyəni mənə yazdırtma ulu Tanrım.

İşıq göydən yerə hazır gəldiyi kimi – şüurla dil də bəşəriyyətə hazır verilib – ilkin yaranış sirridir.

İnsan cəmiyyətdə qayğıkeşdir:

1. Mərtəbəli evlərə çıxdı – torpaqdan ayrıldı.

2. Blok mənzillərə girdi – bir-birimizdən ayrıldı, təcrid olundu. Laqeyd oldu insan.

**K.**

Könlümüz bizə ağlımızdan yaxındır.

**Q.**

Qüvvət yalnız ağıl və düşüncənin köməyilə zəfər qazana bilər.

Qısqanclıq ruhun xəstəliyidir.

Qızıynan gəlini bilinməyən eldən, yazıynan yayı bilinməyən ildən nə olar?

**M.**

Mənə elə gəlir ki, Allah özü də göydən yaratdıqlarının dənliyinə, fırıldağına təəccüb və heyranlıqla baxır.

Mən izə bu müdriklik qaynağı ilə birlikdə Azərbaycan tarixini bayatılarımızdan öyrənmişəm – dünya ədəbiyyatı tarixində misli-bərabər, örnəyi olmayan bayatılarımızdan.

Mən haqqın, ədalətin, xalqımın quluyam.

Mərifət, mərhəmət ölkəmizi tərk etmişdir.
Mənim eşqim olmasa, səni gözəlliyin nəyə dəyər.

**N.**

Namuslu insan Allahın kamil əsəridir.

Nəyəm demə, nə olacağam de!

**Ö.**

Özünlə özgələr arasında tərəzi yarat. Özünə qıymadığını başqasına da qıyma.

Ömrünün qədrini bil. Allahla, xalqla rabitədə ol. Dünyagir və tamahkar olma.

Özünü yaxşı tanıyan adam, camaatın tərifi ilə lovğalanmaz.

**P.**

Pul danışan yerdə qanun susur.

Pul hökmran olan yerdə, qanun gücsüzdür.

## V.

Vücudun rahatlığı az yeməkdə, ruhun rahatlığı az günaha batmaqdadır.

Vurğun insan olmaq, sevilən heyvan olmaqdan min qat yaxşıdır.

## Y.

Yaman qızcığazdır; Allah onun gələcək qayınanasının fəryadına çatsın.

## SANAMALAR

**B.**

Biri barmaq,
İki barmaq,
Üçü barmaq,
Üçdən ata,
Dörddə yemə –
Beş barmaq.

Bir iki bizimki,
Üç-dörd qapını ört,
Beş-altı daş altı.
Yeddi-səkkiz qırxsəggiz,
Doqquz-on qızmızı don.

**Ə.**

Əkil-bəkil quş idi,
Divara qonmuş idi,
Getdim onu tutmağa,
O məni tutmuş idi,
Meydana salmış idi.
Meydanın ağacları,
Bar gətirib ucları,
Çəpər çəkdim, yol aşdım.
Qızılgülə dolaşdım,
Bir dəstə gül dərməmiş,
Nənəsi gəldi, mən qaşdım.

**F.**

Fatma xala,
Təndiri qala.
Aşı bişir,
Çömçəni yala.

Fatma mənim bacımdı,
Ələyimdi, saçımdı,
Getdim gördüm yatıbdı,
Ağzı gülə batıbdı.

Fəti-fəti,
Eşşək əti.
Fəti-fəti,
Motalı gəti,
Gətiməsön
Dədövün əti.

**Q.**

Qazanım qalaq cəng atır,
Qalar, qalar cəng atar.
Oğlan qıza yalvarar,
Qız oğlana bənd atar.

**T.**

Tülkü tovuq apardı,
Sabaha yovuq apardı,
Çıxdım çölə,
Girdim öyə,
Əlimi sovuq apardı.

**Y.**

Ya mundadı, ya munda, halvaçı məkanında, Allah deyir: var, munda. (*tapmaq üçün*).

## QARAVƏLLİLƏR

Qəvəli çala-çala getdim bağa,
Bağdakı qızlar ilə oynamağa.
Əl atdım böyük qızın məməsinə.
Tez yalvardım deməsin dədəsinə.
Kiçik qız ərz elədi nənəsinə,
Nənəsi bir daş atdı sinəsinə.
Sinəsin tuta-tuta Qazıya getdi,
Qazı onu dinləyib bizə dedi:
Atıma kişmiş tökün – kişnəməsin,
İtimə sümük tökün – sinsiməsin.
Altıma qəlib salın su keçməsin,
Üstümə çadır qurun gün düşməsin.
Qonaq eliyün halvaya,
Sonra baxım davaya.

***

Əlifdən beyəcən, yügürdüm evəcən. Evdə çörək olmadı, yügürdüm bazara. Bazarda çörək çox idi, cibimdə pulum yox idi.

***

Getdim bazara alım at. Atı aldım, dəstinə səvar oldum üstünə. Az getdim, uz getdim, iynə yarım yol getdim. At yatdı; dedim:

– At, Allaha bax, Tanrıya bax, dur gedək.

Dedi:

– Tanrı mənəm durmaram, kəs başımı getmərəm.

Kəsdim başını. Gönündən tikdim bir cüt çarıq, geydim ayaqlarıma. Az sonra çarıqlara yolda gördüyüm quyruqdan çəkdim; birininki az düşdü, birininki çox; savaşdılar, çıxdılar ayağımdan. Qaldım ayaqyalın. Getdim gördüm bir gəmi, gəminin qarşısında bir əmi. Dedim:

– Əmi məni göyzətçi götürərsənmi?

Dedi:

– Əcəb götürərəm.

Gecəni qaldım gəminin qırağında, gördüm gəmiyə bir donuz girib; orağı atdım donuza, donuz qaçdı – oraq biçdi; donuz qaçdı – oraq biçdi. Yığdım taxılı vurdum tayaya. Gecə üşüdüm. Tonqal qaldım. Tonqaldan tayaya çınqı düşdü, başladı yanmağa; sabahacan qızındım oduna. Səfər bir taya kül qalmışdı. Külü qurdaladım, içindən çıxdı kalam. Kalamı oxuyub, gördüm bu sözlərin hamısı yalan.

***

Saqqızım düşüb təndirə,
Qorxuram arvad öldürə,
Saqqızım oooo, saqqızım ooo...

***

Yatmışdım, bir vaxt gördüm yorğanımı qalxızırlar. Gözümü açıb gördüm nədi – qaşqaldağ. Deyir: dur da gedirik axı. Dedim: gedin heyif ki, tüfəngim yanımda yoxdu. (Cavad dədə, Tağılı k., Udulu)

***

Bir dəstə ördək uçurdu. Tüfəngimi götürüb atdım, dəydi. Ördək bir dönüb baxdı mənə, qanadını yelləyib getdi. (Cavad

dədə, Tağılı k., Udulu)

***

Mən belə darğa görməmişdim,
Darğanı yorğa görməmişdim.
Əl birçəyə qoymuşdum
D... da sırğa görməmişdim.

# DƏFTƏR – 3: RƏVAYƏT, İDİOMATİK İFADƏ, ATALAR SÖZÜ, ORİJİNAL MƏSƏL VƏ UNUDULMAQDA OLAN SÖZLƏR

## A.

Annağ(ın olsun)

Artırma (eyvanvari balkon, I mərtəbə ev)

Al da geysə yaraşır, şal da geysə yaraşır.

At ölüncə otdayar.

Ağzından süd iyi gəlir.

Ağzının sarısını udmeyıb.

Aya deyir: sən çıxma, mən çıxım;
Günə deyir: sən baxma, mən baxım.

Aşığın niyyəti toyadı, mollanınki vaya.

Aranda məst olduq,
Dağda qurubdan olduq. *(Gəlinbacı, Bakı)*

Anasına bax qızını al,
Qırağına bax bezini al *(Əminə Hacı Şıxbala qızı)*

Azacıq aşım,
Ağrımaz başım *(Ümmülbəni).*

Allah dərd verib,
Dərman da verib.

Adam var eldən gedər,
Adam var evdən gedər.

Allah insana bir ağız, iki qulaq verib ki, bir desin, iki eşitsin.

At minənin, qılınc qurşananındır.

**B.**

Başqasının sözünə yox, öz gözünə inan.

Bədo mindim,
Dövran sürdüm,
Könül arzun nədə qaldı?
Eşşək mindim,
Təzək dərdim,
Könül arzun nədə qaldı?

Bədəsil it yiyəsinə hürər.

Belə fürsət bir də ələ düşməz. Bəd nəzər yaman şeydi.
Başına hava gəlib. Bədnəzərə gəlib.

Buğda yeyib, cənnətdən çıxıb.

Bu xəmir hələ çox su aparacaq.

Başıma qaradı.

Biz də dedik, üç olsun...
Yaddaşlara köç olsun. (ƏC)

**Ç.**

Çəkmə, çəkə bilməzsən, bərkdi fələyin yayı.

**D.**

Dərd tək çəkilər, sevinc paylanmalıdır.

Doğan arvad Əzrahılnan bəhəs edər.

Dost kimi gəl (öyümə), düşman kimi ye.

Dost yolunda çovğun olar, qar olar.

**E.**

Elə bil iti kiriyə qoşub. *(Ağaxanım)*

Ev yıxanın evi olmaz.

Ev yar – ev yaxma.

Evdə bir qarı gərək,
Nə istəsön "yoxdu" diyə,
Evdə bir gəlin gərək,
Onun sözün "haxdı" diyə. *(Bayram)*

El bir olsa zərbi kərən sındırar.

## Ə.

Ər kol dibində ev eləsə, arvad da yanında yovşan kolunun dibində oturar.

Ək toxumun xasını,
Çəkmə ruzi yasını.

Ərəb nədi – corab nədi.

Ərəbin üzü, dəvənin dizi.
*(Şamaxı r-nu, sabiq Qaziməmməd r-nu, Tava və Tağılı kəndləri keçmişdə dəvəçidilər.)*

## F.

Fələyin üzü yansın.

Fələk qanıma susayıb.

## G.

Gəlin gəldi, haçan gəldi,
Dördayaqlı siçan gəldi.
Gecə döşək mollası,
Gündüz sirrim açan gəldi. *(Əminə Hacı Şıxbala qızı)*

Gedib verəcək ərigə
Gətirib tökəcək dəligə. *(Ağaxanım, Tağılı kəndi)*

Gül tikansız olmaz.

Gündüz əli çıraqlı gəzsən də tapmazsan (yerinə görə dostu, belə gözəli və s.)

Gözüm ondan (sənnən) su içmir.

Gözüm yolda qaldı.

**H.**

Hər vaxt bir aşığın dövranı olar.

Halal pendir-çörək, ayran-doğramac, şah plovundan ləzzətli olar.

**İ.**

İnək elə xar oldu,
Eşşəyə çidar oldu?

İlan əlindən qurbağa qutaran kimi.

İlanı özgə əliynən tutur.

İlanı görənə lənət,
Görüb öldürməyənə lənət.
Öldürüb basdırmayana lənət.

İlan dili çıxarmaq.

İşıqlı cücə yumurtasından bəllidir.

İşlər çox dolaba düşdü, çox dəyirman dolandı.
İgid odur yaman günə dayansın.

İynəni özünə batır, çuvalduzu başqasına.

İşləyən dəmir işıldar.

**K.**

Karı kor, koru gör,
Gülüşəni gör. *(Ağaxanım).*

Keçmə namərd körpüsündən qoy aparsın sel səni,
Yatma tülkü daldasında qoy yesin aslan səni.

**Q.**

Qunduz tüklü balam var.

Qənirsiz gözəl.

Qısqıvraq.

Qara yer,
Quru yer.

Qisas qiyamətə qalmaz.

Qısa günün qarı az olar.

Qul xətasız olmaz,
Ağa kərəmsiz.

Qanımı şində tutub; qıya baxdı, ötdü.

**M.**

Molla olmaq hasantdı, adam olmaq çətin.

Mollanın öyü onda yıxılar ki, iki yerə ehsana çağıralar.

Mollaya pilov de, yoxsa Marağa nə yoldu?!

Molla elə ölü oldu ki, yeddi ülüş halvanı yeyə bilmədi?

Mollanın çörəyi, ilanın ayağı görünməz.

Gəldik cahana Haqqı tapaq – molla qoymadı;
Verdik nə qədər çay-pilov, qarnı doymadı.

Mərd basdığını kəsməz.

**N.**

Nökər nədi, bekar nədi. *(Rza kişi)*

Nə diş bilsin, nə dodaq.

**O.**

Orucundan çox razıydım ki, bayramın da eləyəm?

**Ö.**

Özünə rəva görmədiyini başqasına da görmə.

**P.**

Pəlvan çıxıbdı göyə,
And içib əlif-beyə.
Qırmızı paltar geyə,
Ay dili, pəlvan dili. *(İlk təyyarəni görəndə qoşublar.)*

**S.**

Sammalı şeydir.(sambal – dəyəri olan.)

Sərv ayağı nəm gərək.
Sirrini samanlıda verən, axurda tapar.

Sual elm xəzinəsinin açarıdır.

**Ş.**

Şırnaq ayırmaq - sudan arxcıq, qol ayırmaq.

**T.**

Tarı bəxtəvəridi o.

Tumançaq evdə oturar, ac çölə qaçar.

Tələsməklə mənzil kəsilməz (qısalmaz).

**U.**

Uman yerdən küsəllər.

**Ü.**

Ürəkdən ürəyə yol var

**V.**

Vuran əlin var olsun.

Vaxtlı əksən zibil əksən dür bitər,
Vaxtsız əksən qızıl əksən igirmidən bir bitər.

## Y.

Yüz gün yaraq, bir gün gərək. *(Cavad kişi).*

Yardan ayrılan, candan ayrılar.

Yaxşı gündə düşman dönər dost olar,
Yetənə yetir, yetməyənə yuma atır.

Yetmişində zurnaçılıq öyrənən, görunda çalar.

Yollaruva baxmaqdan gözlərim qaranlıq gətirdi.

## Z.

Zahının qəbri 40 gün açıqdır.

## ADƏTLƏR, İNACLAR

İki taxta qaşığı üz-üzə, ağız-ağıza qoyub bağlaya-bağlaya adları çəkir və onların dil-ağzını bağlayır – "Mənim əlim olmasın Həzrəti Fatimənin əli olsun" – deyir.

**Uşağın bələyinə**: gözmuncuğu, babaqulu, sarılıq, pazəhr, şəvə, yağbal, mərcan, kəhrəba, əqiq taxıblar, uşağa göz dəyməsin deyə.

**Uşağın çiyninə, papağına tikirlər:** nədri pul[1], qızıl və ya gümüş pəncə, dağdağan ağacı parçası, ardıc ağacı parçası, nəzər duası, yağbal, kəhrəba.

Ardıc, dağdağan, heyva, ərçanı qoruyucu kimi bəzəyib uşağa, inəyə ya başqa heyvana tikirlər.

Hamilə, çətin doğan, az övladı olan qadınçün "Hekyal", "Mərcanə" duaları yazdırıb, bədəninə bu "heykalı" çalın-çarpaz bağlardılar.

Axçamüstü evdən ələk verməzdilər. Zərurət olsa, gələnin başından örpəyini götürüb – verərdilər.

Şənbə, çərşənbə hamama, naxoşa dəyməyə, hüzürə-ölü yerinə getməzdilər.

Çərşənbə günü od, şam, səməni verməz, evə süpürgə

---

[1] Nədri pul – qədim, nadir pul

çəkilməzdi.

Qızı təndirə çörək yapanda, hamamdan çıxanda, toy-nişanda oynayanda seçmə! Onu həyət-baca süpürəndə, paltar-palaz yuyanda, ev ağardanda, səki şirələyəndə seç!

Çağanın dırnağına qayçı vurmazlar; un çuvalına sürtərlər, tökülüb gedər.

Udumunda var, uşaq ağzında yara olanda tüpürür, yara sağalır.

Uşağın yoldaşı ciftə gəlməyəndə göbək kəsilən bağırsağı çarığa bağlayırlar.

Cifti evdə basdırırdılar ki, uşaq gələsinə (gələcəkdə – Red.) evdə sindal olsun.

Mıx, çörək, kömür, yumurta dəsmala bağlayır (ortasına) uclarını beşiyin künclərinə tarım bağlayır – yenidoğulmuş uşağa ayrıca ev qururlar; beşik həmzatdından[1], qəfil natəmizdən basılmasın. 40-ı çıxandan sonra yumurtanı qoca kişiyə verir, qalan əşyaları təmiz yerə atırlar.

[1] Həmzatdı – d. Doğandan sonra uşağı ölən qadın.

## Şərqdə müxtəlif qiymətli daşlar haqqında

**Yaqut** – Günəşdən təmsil təmsil odur ki, ürək, ciyər ağrılarından, sümük və bəndləri ağrıdan qoruyur. Sağ əldəki barmaqda üzükdə gəzdirmək tövsiyə edilir.

**Firuzəni** səhər erkən görən adamın bütün günü xoş keçər.

**Zümrüd** – sağlam edir. Doğum və göz ağrılarından qoruyur.

**Ametist** – korluğa qarşı qoruyur.

**Topaz** – sonsuzluğa qarşı müalicə edir.

**Zəbərcəd** – uzun ömrə səbəbdir.

Hindlilərə görə planetlərin hər birini təmsil edən daşların cəmindən 9 ədəd buket gəzdirən adam düşmənlə qarşılaşanda uğur qazanır. Ortada yaqut, dövrəsində brilyant, mavi sapfir, sarı daş (pişik gözü), mərcan, mirvari, ametist, topaz, zümrüd.

## Cib dəftəri: P-157-08

## ŞƏRQ ƏDƏBİYYATINDA RƏQƏMLƏRİN MƏNASI

1 – Allah
2 – Fəna-bəqa (bu dünya, o biri dünya)
3 – Nəbatat, cənadat, heyvanat
4 – Ab, atəş, xak, bad (Su, od, torpaq, hava-külək)
5 – Pəncətən ali əba
6 – Altı cəhət
7 – Yerin təbəqaləri
8 – Göyün təbəqləri
9 – Fələklər-əflak.

### İltəhvil süfrəsində yeddi "S"

Anam "İltəhvil sonçasına" yeddi löyün məhz doğöma dilimizdə adı olan şeylər qoyardı. Diqqət etsəniz onların hamısı həyatımızı təmin və davam etdirən nemətlərdir.

Məsələn, securityəməni, sümbül, su, süd, sucuq, səbzə pörtdəməsi, sarıkök və ya süzmə. Bunların hamısı yarandığımız torpaqdan yetişən, gedəcəyimiz torpağın məhsullarıdır.

# XALQ HEKAYƏLƏRİ

## BAXT HAQQINDA ÜÇ RƏVAYƏT

1. Deyirlər ki: günlərin birində fələk qələmini götürüb insanların baxtını yazmağa yollanır. Gəlib bir darvazadan həyətə baxır. Görür ki, həyətdə bir qız tum çırtlaya-çırtlaya oxuyub oynayır. Deyir:

– Küllüyün təpeycən olsa da, sənə elə bu baxtı yazdım. Ömrün boyu dərd-qəm, əzab-əziyyət bilməyəsən. Eləcə oxuyub-oynayasan. Kefində ol.

Başqa bir tərəfə yollandı. Görür bir həyətdə cavan bir qız sil-süpürlə, çörək yapmaq (təndirə), kürədə xörək bişirməklə məşğuldur. Həyət-bacadan gül iyi gəlir, Deyir:

– Sənə də bu baxtı yazdım. Ömrün boyu işdə-gücdə olasan. Odur ki, arvadlar iki cürdür: işləyən, oynaq.

***

2. Deyirlər ki: dünya gözəli bir qızı çirkin və qoca kişiyə ərə vermişdilər. Günlərin birində güzgüyə baxıb ah çəkir. – "Mən bu gözəllik və cavanlıqla, biz tay deyilik" – deyə düşünür. – "Çıxıb gedəcəyəm atam evinə" – deyib çadrasını örtüb evdən çıxır. Bir başqa qadına rast gəlir.

– Bacı, hara gedirsən?

– Atam evinə.

– Niyə?

– Tay deyilik.

– Ərinlə neçə ilə yaşamısan?

– 12 il.

– Adı nədi?

– Oturmaq könlüm yox idi, adını da soruşmamışam, bilmirəm.

3. Deyirlər ki: olduqca gözəl bir cavanın çox kifir arvadı

varmış. Bir gün arvad güzgüyə baxıb düşünür:

– O, gözəl, qəddi-qamətli, cavan adamdı. Mənsə çirkinəm. Boyda "piti bardağı", sir-sifətdə cəhənnəm cəbanisi. Belə də haqsızlıq olar? Mən çıxım gedim, o da özünə bab gözəl bir arvad alsın.

Belə də edir. Qapını qıfıllayıb, açarı qonşuya verir; çarşabını örtüb küçəyə çıxır. Hara gedəcəyini düşünməmişdi. Gedirdi. Birdən qabağına olduqca qəşəng, dünya gözəli bir gəlin çıxır. Qəddü-qamətli, incə belli, ilahidən sürməli gözləri, qızılgül yarpağı kimi zərif dodaqları, qara filfil xalları, yerdən xəzəlləri süpürən uzun, qulac hörükləri vardı bu gəlinin. Arvad heyran-heyran ona baxıb durdu. Gözəl soruşdu:

– Hara gedirsən, bacı?

– Vallah, düzü heç bilmirəm hara. Ayağım haraya getdi, ora…

– Niyə ki? Ərin, evin yoxdu?

– Var! Amma Allah haqqı mənim ərim elə gözəl, uca boylu, enli kürəklidi ki… Tək-tək cavan ona tay olar. Mən də ki… Özün görürsən. Allah məndən kəsdiyini də sənə calayıb. Ona sənin kimi bir can lazımdı… Mən yox…

Gəlin gülümsədi, dedi:

– Geri qayıt, bacı! Mən sənin talahınam. Ərinin gözünə sən, mən suratda görünürsən. Elə istəyir səni. Geri qayıt, evini dağıtma.

## MÜDRİK QAYINANA

Deyirlər bir dünyagörmüş arvadın üç oğlu varmış. Əri vəfat edibmiş. Vaxt gəlir, arvad bu oğlanların üçünü də ev eləyir – evləndirir. Üstündən bir ay keçmiş deyir:

– Gedim bir yoxlayım, görüm oğlanlarımın günü necə keçir?

Gəlir əvvəlcə böyük oğlunun yanına. Təklənib soruşur:

– Oğul, gəlinim necədi?

– Lap yaxşıdı, ana! Mehriban, işli-güclü; amma, ana, xörəyimiz, nə istəsəm, bişirir – hayıf ki, dadı olmur.

Arvad deyir:

– Fikir eləmə, oğul, düzələn işdi.

Oğul işə gedir. Gəlin qayınanasının ilk dəfə onlara gəlməsi münasibətilə plov hazırlığı görür. Qayınanasının yanında oturub kişmiş arıtdamağa başlayır. Arıtdıqcan əlini ağzına aparır. Qayınana onun dirsəyinə toxunub qoymur. İş qurtaranda gəlin sevincək deyir:

– Ay ana, nə çox qaldı. Mən həmişə bir sini götürürəm, bişənəcən bir ovuc qalır.

– Qızım, bax belə. Bəzi arvadlar xörəyi bişirdikcə tamına baxır… Hər dəfə qaşığa xörəyin yağı gedir; ya da indi sənin kimi…

Bir neçə gündən sonra oğlunu dükanında görüb soruşur:

– Nə təhərsiz, bala?

– Lap yaxşı, ana, imanın kamil olsun. Sən gəlib-gedəndən sonra xörəklərimiz dada gəlib. Əladı.

Ana burdan arxayın olub ortancıl oğlunun yanına gedir, soruşur:

– Günün necədi, gəlinnən?

– Yaxşıdı, ana! İşdi-güjdü; yar-yaraşıqlı, təmizkar, mehriban. Amma bir ayıbı var: belə yel buraxır çox… pis…

– Düzələr, oğul, fikir eləmə.

Ana evə gəlir. Gəlini yanlayıb, sirr kimi, məhrəmanə pıçıldayır:

– Gəlin, qızım, şahdan əmr çıxıb; kim bir gündə bir torba

“pısıltı” gətirsə, ona hədiyyə pul veriləcək. Hayıf ki, məndə belə hal yoxdur.

Gəlin utana-utana deyir:

– Ana, məndə var.

Arvad sevincək:

– Lap yaxşı. Böyük torba, lap yaxşısı çuval hazırla. Axşamacan özüvü qıs, yığ. Axşam hamısını birdən aparıb verək. Pulu alaq.

Gəlin bütün günü özünü toplayır, qısır. Axşam ha çalışırsa, bir şey çıxmır. Adətini tərk edir. Gəlib qayınanasına halını deyəndə arvad deyir:

– Çox yaxşı, elə mənim də istədiyim buydu.

Bir neçə gün sonra oğlu ilə görüşür:

– Bala, necəsiz?

– Çox sağ ol, ana! Hər şey yaxşıdı. Gül kimi dolanırıq.

– Lap yaxşı, xoşbəxt olun, bala!

Ana oradan üçüncü oğlunun yanına gedir.

– Bala, günün gəlinnən necə keçir?

Oğlu deyir:

– Ana, hər şey yaxşıdı. Gözəl, evdardı; biş-düşü, yır-yığışı, təmizkarlığı, mehribanlığı… Amma bir iş var: gəzəyəndi, bayırda bir səs eşitsə, qaçacaq – görüm nə oldu? Hər şeyə yetik olmaq istəyir.

Arvad fikrə gedir:

– Bu bir az çətin məsələdi… Amma görüm bəlkə bir şey eləyə bildim.

Ana oğlunun evinə qonaq gəlir. Gəlin xörək hazırlayır. Sacı ocağa çevirib yuxa bişirməyə hazırlaşır. Bu zaman ana deyir:

– Gəlin, bir əhdim var, gərək əməl eləyəsən.

– Baş üstə, ana! Buyur.

– Əhd eləmişəm ki, oğlumu evləndirəndən sonra evinə birinci dəfə gələndə gəlin lüt soyunub mənə sac əppəyi (yuxa) bişirsin.

Gəlin çox utanır. Xeyli xahiş-minnətdən sonra əlacı kəsilir. Soyunur; ocağın qırağında, dördayağın üstündə yuxaları yaymağa başlayır. Qayınana da qənşərində oturub o biri oxlovla gəlinin nazik yayıb sac üstünə saldığı yuxaları çevirməyə başlayır. Bir xeyli bişirirlər. Elə bu zaman küçədə hay-küy, hay-həşir səsi ucalır. Gəlin dik ayağa qalxır. Geyinməyə macal tapmır; cəld iki yuxa götürüb birini daldan, birini qabaqdan ayıb yerinə tutur, deyir:

– Ənsəm lavaş, önüm lavaş, mənsiz olmasın savaş.

Cəld özünü hay-küy yerinə atır. Qayınana oxlov əlində mat qalır. Sonra oğlu ilə görüşub deyir:

– Oğul, bacara bilmədim. Bağışla. Bu sənin talahındı.

## SƏBƏTƏ GİRƏN

Bir arvad varmış; şah tənbəliymiş. Qızını istəyirlər, elçi gəlir, "hə" verilir; nişan taxılır; "paltar kəsdi", sonra "qızyığdı" – "xinəyaxdı" olur.

Arvad cehizi qurtarmayıb; yorğan-döşək salıb sırımağı, üzləməyi sabah-sabaha salır, "çəşənbə günü elərəm, şənbə günü elərəm" deyə oturub "mırt vurur".

Bir gün oğlan adamı qapını kəsdirir ki, "verin adamımızı – gəlinimizi, aparaq".

Heç bir hazırlığı olmayan arvad qaçıb mətbəxdə, zənbilin içində gizlənir. Gələnlər görür ki, arvad hey deyir:

Şəmbə dedim – otdum[1],
Çərşəmbə dedim – otdum,
Toy qapıya gələndə,
Səbətə girdim – otdum.

## "ULAĞIN DAYISI"

Qonaq eşşəyini həyətdəki mıxa bağlayıb harasa getməli olur; qaş qaralan zamanmış. Ev sahibinə sarı səslənir:

– Qardaş, ulaqdan muğayat olun. Yoxsa Mazarat dayısı gəlib aparır.

"Vaxt çağı" canavarın adını çəkməzlər. Odur ki, qonaq onu "ulağın dayısı" adlandırır.

## TOYDA QALMAQAL

Bir dəfə toyda qalmaqal düşür. Qız tərəfi uzaqdan gələn oğlan adamına deyir:

– Palazımız hazır döyül, kəsməmişik… Anası Ayxanım…

– Ay balam, biz uzaqdan sizinən sözləşəndən sonra gəlmişik…

– Yox ki, yox. Çalğıçılar içindəki dəfçalandan dəfi alıb gəlinbacı Səkinə oxudu:

Ayxanımın hisdi damı,
Tökülsün əti, əndamı…
Kəsin sözü, köpəyuşağı
Verin qızı, köpəyuşağı.

---

[1] Otdum – d. vəzn xatirinə qısaldılmış, adətən dildə belə deyilən "oturdum" deməkdir.

## QAYINANA VƏ GƏLİNLƏR

Fağır, üzüyola bir arvadın aman-zaman, imanı-gümanı bircə oğlu varmış. Onu evləndirmək, nəvə görmək arzusundaymış. Amma sən saydığını say, gör fələk nə sayır.

Arvad oğlunu evləndirir. Gəlin asi çıxır. Arvadın gününü göy əskiyə düyür. Amma ana öz oğlunun səadətini qoruyub oğluna bir kəlmə də şikayət eləmir. Oğlan özü başa düşür; arvadı boşayır.

Ana bir müddət sonra yenə də oğlunu evləndirmək istəyir.

– Ay bala, təksən – balan olar. Mən də təkəm – gəlinim olar…

Çox söhbətdən sonra oğlan razılaşır. Ana onu yenidən evləndirir. Bu gəlin əvvəlkindən də bədəsil çıxır. Arvadı uşaq işinə, it işinə buyurur. Nökər, qulluqçu əvəzinə işlədir. Bir gün ona deyir:

– Ay ana, ayağa durmursan, qohum-qonşu bilmirsən, qapılar gəzmirsən. Oturmusan bir yerdə. Hər şeyi gətirib qoyuram qabağuva: dolmadı, küftədi, tava kababıdı – ətin döyürsən, bükəni bükürsən. Kürə qabağunda, bişirirsən. Gəlsənəm, sənin altına bir qədər 10-12 yumurta qoyum, çıxardasan.

Arvad qorxudan razılaşır. Gəlin gətirib yumurtaları düzür onun yumşaq, isti yerlərinə. Bir müddət sonra yumurtalar din vurur, cücələr çıxır. Arvad onları yerindəcə yemləyir, su verir. Cücələr ona elə öyrəşir ki, arvad bir iş üçün dursa, məsələn deyək ki, "əl qabına", "su başına"çıxmaq istəsə, cücələr cükküldəşə-cükküldəşə onun dalınca qaçır. Bir dəfə oğul bunu görüb səbəbini soruşur. Ana demək istəmir. Çox təkiddən sonra boynuna alır. Oğlan qəzəblənib arvadını evdən qovur – boşayır. Qalırlar ana-bala tək.

Yenə bir müddətdən sonra ana başlayır oğluna yalvarmağa:

– Ay oğul, gəl daşı tök ətəyindən.

– O iki bəla sənə bəs eləmədi, ana?

– Allah üçdən deyib. Hamı bir olmaz ki… Bu dəfə inşallah uğuruna yaxşısı çıxar.

– Təki sən deyən olsun.

Ana üçüncü dəfə oğlunu evləndirir. Toydan bir neçə gün sonra oğul ticarət üçün başqa məmləkətlərə gedir. O, gedəndən sonra gəlin arvadı ağ yuyur, qara sərir. Bir gün həyətlərinə meymunoynadanlar gəlir. Gəlin dəstənin başçısıyla sözbir eləyir:

– Bu üzü bürüşük, arıq arvad bir oynamaq oynayır, görsən, qəşş edərsən.

Pul alıb, arvadı meymunoynadan qaraçı dəstəsinə satır. Pulun qoyur cibinə.

Oğlan ticarətə getdiyi şəhərlərdən birində küçədə meymunoynadan qaraçı dəstəsinə rast olur. Əlbəttə boğazına kəndir salınmış, ortada qamçı zərbəsiylə oynayan qarını görən kimi anasını tanıyır. Qaraçı dəstəsinin başçısına bu hamının ələ salıb güldüyü qoca bədbəxt qarının onun anası olduğunu deyir. Onu hardan tanıdığını soruşur. Dəstə başçısı and-aman eləyir ki:

– Vallah, mən onu tanımamışam, oğurlamamışam. Filan şəhərdə bir gəlin satıb onu mənə – pulunan.

Oğlan güclü pul müqabilində anasını qaraçıdan alır. Qaraçı vermək istəmirdi ki, qazanc əlindən çıxar. Nəysə… Oğul anasını götürüb, ticarətini də atıb vətəninə dönür. Arvadını xub döyür. Elə əzişdirir ki, pişiyə Əbülqasim deyir. Sonra da evdən qovur. Deyir:

– Ana, gördün ki, mənim baxtımda əsil adam yoxdu. Bir daş altda, bir daş üstdə. Bir də mənə "evlən" deməyəsən ha!.. İnciyərəm səndən.

## ALTI DAŞ, ÜSTÜ AŞ, GENƏ OĞLUMUN EVİ.

Bir arvadın iki övladı varmış: bir oğlan, bir qız. Əri ölür. Dul qalır. Nəysə qızı ərə verir; oğlunu evləndirir. Gəlin gətirən kimi açar-qıfılı, od-ocağı, kəfkir-abgərdəni verir cavan ev sahibəsi təzə gəlinin ixtiyarına. Gəlin çox məkirliymiş. Çaydan bir yumru bülöv kimi qara qəmbər daş tapıb gətirir. Hər dəfə qonşu otaqda tək oturan qayınanasına xörək çəkəndə həmin daşı altına qoyur; üstünə "tütələmə" bir uşaqcan olan kimi xörək tökür. Hər dəfə də xörəyi arvadçın özü aparır. Arvad dolu evində, qazanclı oğul yanında yarıac, yarıtox dolanır. Bir gün fikirləşir ki, gedim qızımgilə. Heç olmasa, bir dəfə qarın dolusu xörək-çörək yeyərəm. Gəlir qızgilə. Xeyli oturur. Qız ona heç nə təklif eləmir. Ev, uşaq, baş qarışıq; fikirləşir ki, anam dövlətli, dolu evdən gəlib. Yəqin ac olmaz. Arvadın acından bağırsaqları qırılır. Çarəsiz durub çarşabını örtür. Öz evlərinə tərəf yol alır. Elə hey deyir:

– Altı daş, üstü aş. Genə oğlumun evi... Altı daş, üstü aş. Genə oğlumun evi.

Sən demə işdən qayıdan oğul anasıyla dabanbasma gəlirmiş. Arvadın da "zümzüməsini" eşidirmiş.

Onlar evə gəlir. Gəlin aş bişiribmiş. Qayınana daşı ocağın böyründə, qazanın yanında, əlinin altındaymış.

– Sakit oturun, bala, qoy əvvəl nənənin xörəyini çəkib aparım. Sonra gəlib sizə xörək verim. Axı nənə qocadı. Yol gəlib, yorulub.

Bu sözlərlə də göz-göz edir, daşı nimçəyə qoyub bir kəfkir düyünü tütələtmə səpir üstünə. Qarasını da qoyur. Danqa sümük... Elə qalxıb getmək istəyəndə əri boşqabı onun əlindən alır:

– Ver anama mən aparım, sən uşaqların payını çək.

Gəlin narazılıqla deyinir:

– Acından ölməzlər. Qoy məməyə özüm qulluq eləyim.

Oğlan:

– Sən çox qulluq eləmisən. Bu gün nobat mənimdi.

Boşqabı alıb anasının otağına keçir. Xörəyi qadının qarşısına qoyur. Özü də yanında oturur.

– Hə, ana, ye… baxım…

Arvad qısılır:

– Sən get, iş yorğunusan, sən ye… Mən qoca arvadam, yavaş yeyəcəyəm.

Oğul təkid edir:

– Yox, ana! Mənim gözümün qabağında ye, baxım…

Arvad əlacsız qaşığı boşqaba bir vurur. İki vuranda daşa dəyir.

Oğul üçün hər şey aydın olur. Öz otağına keçir. Arvadını saçlayır:

– Qurban olasan uşaqlara. Səni öldürmürəm. Qovmuram. Bu gündən sonra sən mənim istəkli arvadım deyilsən. Uşaqlarımın qulluqçususan. Anama qalanda, bundan sonra onun payını özüm çəkib, özüm aparacam.

## SƏN YAŞDA ADAMIN QOLTUĞU ALTINDA BALIQ BİŞƏR

Lap o avam keçmişlərdə bir qız varmış. Bir gün hava soyuq olanda evin içində büzüşüb gəzirmiş. Atası Hacı soruşur:

– Nə var, aaaz, nə büzüşmüsən?

Qız cavab verir:

– Soyuqdu, ata!

Kişi gülə-gülə zarafatla qızına deyir:

– Aaaz, a bala, sən yaşda adamın qoltuğu altında balıq bişər. Nə soyuqdu-soyuqdu salmısan?

Bir qədər sonra ata görür ki, qız bir qolunu tərpətmədən gəzir. Hər işi o biri əlilə görür. Soruşur:

– Qızım, qoluna nə olub?

– Bir parça ənzəli balığı qoymuşam bişə, ata!

Kişi və evdəkilər bir-birinə qoşulub qəh-qəh çəkir. Sən demə ömründə atasından yalan eşitməyən qız onun zarafatını doğru qəbul edib. Gedib bir parça quru balıq kəsib əskiyə büküb, qoltuğu altına qoyub. Təndirdə bişən kimi, balığın bişməyini gözləyir.

## BİŞƏNDƏ BAAAX BU BOYDA UZANIR

Bir arvad varmış. Ərinin hər sözünü Allah hökmü kimi qəbul edən xam, sadəlövh arvadmış. Bir gün əri evə bir kisə düyü gətirir. Hambal kisəni qoyub gedəndən sonra arvadına deyir:

– Əməlli arıt, çox yaxşı düyüdü, – barmağının bir buğumunu göstərib əlavə edir, – bişəndə baaax bu boyda uzanır.

Arvad düyünü sılıfdan, çəltikdən və başqa daş-torpaqdan təmizləyir.

Bir gün evə qonaq gəlir. Arvad dinabı qaynadıb düyünü qazana tökür. Yanında oturub gözləyir. Arabir kəfkirlə bir-ikisini götürüb baxır. Ərinin göstərdiyi qədər uzanmadığını görüb yenə qaynadır. Bir vaxt onda xəbər tutur ki, düyü hamısı həlimə çevrilib.

## SƏNİ YANASAN, TOYUQ APARAN

Mənim toyuğum ağ idi,
Dərisi dolu yağ idi
Dünən bu vaxt sağ idi.

Nəqərat:
Səni yanasan, toyuq aparan
Odlanasan, toyuq aparan.
Necə ki, mən yanıram (2)
Elə yanasan, toyuq aparan.
Belə yanasan, toyuq aparan.

***

Mənim toyuğum çil-çil idi
Qanadları dil-dil idi,
Toyuq deyildi, bülbül idi.
Nəqərat:

***

Mənim toyuğum banlar idi,
Gəlib-gedəni yanlar idi
İnsan kimi dil anlar idi.
Nəqərat:
Mənim toyuğum havada,
İndi qızarır tavada.
Nəqərat:

Bu oxunan gecə Abdullanın toyunda Əminə xalanın toyuqlarını oğurladılar.

## UCUBUNUQ (ÖVC İBN UNQ)

Anamdan eşitmişəm: Allah dünyada çox uca boylu bir adam yaradıbmış. Adı "Ucıbınığ"mış Çılpaq gəzərmiş. Ayıb yerini örtməkçün ona altar, heç olmasa, bir fitə tikmək istəyiblər. Məmləkətin, dünyanın bütün parçalarını yığıblar, paltar yox ey… bircə fitə gücnən çıxıb. Qərəz, Ucıbınığ bundan çox fərəhlənib, lovğalanıb. Dənizə girərmiş, dərya topuğundanmış. Əyilib bir balıq tutar, dikəlib əlindəki balığı göyə qaldırar, Günəşdə bişirib yeyərmiş. Özünün belə uca boylu olmağından çox lovğalanarmış. Allahın bu lovğalığa acığı tutur. Ucıbınığ yenə dəryaya girir, əl atır suya, əlinə bir balığın beli keçir. Dartır… dartır… Həmişə balıq bişirdiyi Günəşəcən qaldırır. Amma, balığın nə başı görünür, nə quyruğu. Ucıbınığ qorxur, balığı atıb qaçır. Dəryadan çıxır… Baaax, Allah lovğaya deyir ki, səndən də uzun məxluqat yaratmışam. Boyu sənə mən vermişəm. Özün əldə eləməmisən ki, lovğalanasan da… Elə o vaxtdan "dərya topuğundandı" məsəli də qalıb. Lovğalıq da həmişə pislənib. Lovğa olma ha…

Nuh Nəbi xilas gəmisini düzəldəndə meşədən nəhəng ağacları məhz o Ucubınığ çıxarıb gətirirmiş.

## CIQQIDI HƏSƏN PADŞAH OLUB

Şəkidə Həsən adında bir bivec, avara, karsız adam varmış. Ləqəbi də Cıqqıdıymış.Bir gün dövlət quşu uçururlar. Gəlir qonur Cıqqıdı Həsənin başına. Cıqqıdı Həsən olur padşah. Xəbəri eşidən ağıllı bir dədə deyir:

– Tfu sənə, Fələk. Gör dünya nə günə qalıb ki, Cıqqıdı Həsən padşah olub. Yaşa bundan sonra görüm necə yaşayırsan.

## ADINI ÇƏKMƏ, GƏTİR BAS BELİMƏ

### I variant

Şəki xanlarından biri, deyəsən Hüseyn xan Müştaq (həm də şair imiş) bir gün seyrə çıxır. Dağları gəzir. Bir dəfə bunu bərk yağış tutur. Bir köçəri alaçığına rast olur. Girir içəri. Bərk titrədirmiş. Alaçıq sahibi olan yorğan-döşəyinin yaxşısından xan üçün yer salır. Xan girir yorğana, üşütmə əl çəkmir. Titrətmə davam edir. Evdə nə yarar şey varsa, xanın üstünə salıb onu basdırırlar. Titrətmə xanın yaxasını buraxmır. Xan deyir:

– Ayə, evdə day bax gör nə varsa, sal üstümə.

Ev yiyəsi qorxa-qorxa deyir:

– Xan, başuva dönüm, day bir yarar şey yoxdu. Bircə eşşək navarı (palanı) qalıb…

Xan əsə-əsə deyir:

Adə, adını çəkmə, gətir bas belimə.

(Hər iki hadisəni mənə Şəkili Şakir kişi danışıb.)

### II variant

Nuxalı Əhmədxan İlisuya xan yaylağına gedir, üşüyür. Alaçıqda keçədən-zaddan nə varsa üstünə tökürlər.

– Ayə, aha nə var?

– Həmədan eşşəyinin palanı.

– Adını çəkməyin, gətirin basın belimə.

## AY QOZ AĞACI

Bir arvadın əri qoz ağacından yıxılıb ölür. Arvad ağlamağa başlayır: “Ay qoz ağacı, ay qoz ağacı; çıxım başuva siçim; düşüm dibüvə s…m; ənli yarpağuva s…m; yumru qozuva s…m; ərim səndən yıxıldı öldü, heyy…

Quran oxumaqda olan Molla arvadın ədəbsiz oxşamasından təngə gəlib deyir:

– Bacı, ağacı rüsvay eləmə; axıllı oxşa…

Arvad ağlaya-ağlaya sözə başlayır:

– Ay Molla Miyanduz, s..i çuvalduz, d….ı qarpuz, bəs mən nə deyim oxşayım?

Molla cəld Quran oxumasını kəsib həyəcanla deyir:

– Bacı, bacı! Məni biabır eləmə. Əvvəl dediklərüvü de.

## OYNAŞ

İki bacı varmış. Bunlardan biri fırıldaqçı, əxlaqsız, o birisi fağırmış. Birinci bacının oynaşı da varmış. Bir gün fağır ona deyir ki:

– Mən də oynaş tutmaq istəyirəm.

– Bacarmazsan. Əlindən gəlməz.

– Niyə?

– Fağırın birisən. Kələk bilməzsən.

– Bacararam.

– Onda gəl sən ərin evdə olmayanda bir qab xəşil çal ye. Əgər ərin evə qayıdanda bunu bilməsə, onda deməli, bacararsan. Mən sənə taparam.

Fağır bacı əri işə gedəndən sonra xəşil çalır, yeyir. Qab-qazanı da yaxşıca yuyub təmizləyir. Səliqə ilə yerinə qoyur. Ər işdən gəlir. Birdən deyir:

– Arvad, deyəsən xəşil çalmısan axı?

Arvad təəccüblənir. Soruşur ki:

– Nədən bildin?

Ər deyir:

– Budey, xəşil çaldığın oxlovu yumamısan, qoymusan ocağın üst ləməciyinə.

Faqqı bacı bundan sonra fağıra deyir:

– Gördün, bacı? Bu sənnik iş deyil.

Fağır bacı təkid edir: "Yox ki, yox".

Axırda bir adam tapıb onu evinə dəvət edir… Elə təzəcə yeyib-içmişdilər ki, qapı döyülür. Ər nədənsə tez qayıdıbmış. Arvad qorxur. Başlayır özünü döyüb haray salmağa. Faqqı bacının qulağı burdaymış. Haray-həşiri eşidib cəld bacısıgilə gəlir. Yeznəsinə deyir:

– Qardaş, sən keç bizə. Mən görüm bu axmaq nə iş tutub ki, qarayçılıq salıb.

Kişi gedir baldızıgilə. Faqqı bacı qapını açdırıb bacısının oynaşını ötürür küçəyə. Evdəki çox qiymətli bir güldanı yerə vurub sındırır. Yemək-içmək süfrəsini sərbrah edib, gülə-gülə evinə gəlir. Yeznəsinə deyir:

– Qardaş, sənin o axmaq arvadın o qiymətli çini güldanınızı salıb əlindən. Güldan çilik-çilik olub. Sənin qorxundan həşir salıb, özün döyüb.

Kişi deyir:

– Sınan qab sınar da… Mən onu öldürməyəcəkdim ki!

Faqqı deyir:

– Get bunu onun özünə de da… Elə mən də bayaqdan deyirəm. Gücnən ovundurmuşam.

## ŞAH ABBAS VƏ ARVADI

Şah Abbasın arvadı hamiləymiş. Həkimlər, mamaçalar, cariyələr, kənizlər onu əhatə edib, əzizləyirmiş. "Ayağını yerə qoyma, canımız çıxar"mış.

Bir gün şah ovdan qayıdanda görür ki, köç qışlağa yollanır. Hamı getdi. Hamilə bir arvad dəvəsini xıxırtdı, düşdü. Dəvəyə arxasını dayayıb dayaq elədi. Doğdu, dişilə uşağın göbəyini kəsdi. Üst köynəyinin birini çıxardıb uşağı bükdü. Durub dəvəsinə mindi, uşaq qucağında olduğu halda köçün dalıycan yollandı. Şah evinə qayıtdıqca düşünürdü: Yaxşı, arvad arvaddı, doğmaq da ki, doğmaq. Day bu evdə bizimkinə eylə qayğı neyçündü? Əgər doğmaq bu qədər asansa… Şah evə gəlcək həkimləri, mamaçaları, dayələri, əbəciləri, cariyə və kənizləri dağıtdı. Heç kəs lazım deyil yolda, gördüyümü görmüşəm.

Əhvalatı danışdı. Vəssalam. Şahın arvadı aqil xanım idi. Səhər şahın istəkli "Gül bağı"na endi. Bağbanı çağırıb tapşırdı ki, bu gündən mən deyənəcən, bağçadakı güllərə su vermə, otun-ələfin təmizləmə, dibini boşaltma. Bir sözlə, bağçaya baxma, heç bir qayğı göstərmə. Bağçaban ağladı ki:

– Xanım, şah məni öldürər.

Xanım dedi:

– Yox, səndən soruşsalar, de ki, mən əmr eləmişəm.

Bağban çarəsiz qalıb əmrə boyun əydi. Bir gün şah sevimli "Gül bağı"na çıxdı. Nə görsə yaxşıdı? Güllükləri alaq otları basıb. Gül kolları soluxub quruhaqurudadı. Şah qəzəbləndi. Bağbanı və cəlladı çağırtdırdı. Bağban şahın ayaqlarına yıxıldı. Aman istədi.

– Amandasan, de görüm.

Bağban şahın öz arvadının dediyi kimi məsələni şaha açdı. Şahın tələbilə hamilə qadın meydana gəldi. Sorğuya cavab

olaraq dedi:

– Şahim, bu güllərin dağlarda, çəmənlərdə bitənlərdən nəyi artıqdı? Onları da Allahın yağışı sulayır. Alaq eləyəni, dibin boşaldanı, ayrı qayğı göstərəni də yoxdur.

Şah anladı. Anladı ki, dağlarda bitən vəhşi otlar kimi, köçəri arvad da elə böyüyüb. Başqa qayğı görməyib. Onun arvadı isə evdə – dibçəkdə bitən çiçək kimidir. Qayğı olmasa, məhv olar.

Şah əmrini dəyişdi. Bağbanı azad etdi. Arvadını isə yenidən həkimlər, cariyələr əhatə etdi.

## CULFA

Bir işgüzar, baməzə culfa vardı. Parça toxuyardı. Bir gün bir qərib qonaq gəlir bunlara. Arvad evdə yoxmuş. Qərib qonaq görür ki, culfa (toxucu) oturub bir kətilin üstündə. Ayağının altına palçıq tökülüb, tapdalayır. Kürəyinə nehrə bağlanıb, çalxalayır. Sağ və sol qoluna birər ip bağlanıb. Hər iki əlilə qarşısındakı hanada parçasını toxuyur. Qonağın heyrətlə baxdığını görən culfa deyir:

– Qardaş, arvad dəyirmandadı. Mən toxuyuram. Ayağımın altındakı palçıq təndirçündi. Arvad qoyub ki, onsuz da ayağın bekara hərəkətdədi. Palçığı gərəyincən həll eləyim. Əllərim gedib-gəldikcən bədənim də hərəkətdədi. Arvad nehrəni kürəyimə bağlayıb ki, çalxansın. Bu sağ qolumdakı ip uşağın yügrügünə bağlıdı. Onsuz da əlim hərəkətdədi – yügrügü yelləyirəm ki, uşaq rahat yatsın – ağlamasın. Sol qolumdakı ip oyuğa bağlıdı. Arvad buğda yuyub evin damına sərib. Əllərim onsuz da hərəkətdədi, ip dartındıqcan sərçələr oyuğun tərpənməyindən ürküb dağılışır; buğdaya ziyan vurmur.

Qonaq sakitcə dinləyir. Culfa sözünə davam edir:

– Hə… Qonaq qardaş, yol gəlmisən, ac olarsan, indi arvad

dəyirmandakı unu çəkib gətirər, yuxa salar, nehrə də gələr, təzə ayranlı yağ… isti yuxa yeyərsən?

− Hə.

− Şellən, qonağım, şellən. Daha yaxşısı budur ki, arvad bu palçıqdan təndir qurar. Acıtmalı təndir çörəyi, motal pendiri, ayranlı yağ… Yeyərsən yorğunun çıxar…

− Hə.

− Şellən, qonağım, şellən. Deyirəm bəlkəm gec oldu. Arvad dəyirmandan gələr, onacan nehrə də çalxanıb yağ üzə gələr. Arvad bir qazan təzə undan xəşil çalar, üstünə ayranı axan yağ, yaxşı bəkməzimiz də var, sininin ortasına töküb lombuldadarsan. İncuğun elə bil əlnən silinib gedər. Necədi səninçün?

− Niyə ki…

− Şellən, qonağım, şellən.

## ŞANAPİPİK (HOP-HOP)

Anamın quşlar, təbiətlə bağlı bir neçə hekayəti yadımda qalıb. Deyərdi ki, bir gəlin varmış, çox utancaq, həyalı. Bir gün teştdə başını yuyub darayırmış. Birdən həyət qapısından girən qayınatasının hənirini, öskürək səsini eşidir. Əlindəki darağı başına sancıb üzünü göylərə tutur:

− Allahım, məni xəcalətdən qurtar. − deyən kimi gəlin dönüb şanapipik quş olur. Başındakı daraq açılıb-yumulan kəkilə – pipiyə çevrilir. Gəlin – quş – şanapipik həyətlərdə yaşar. Axı evi, balaları burdadı.

## İSAQ-MUSAQ QUŞU

Deyirlər ki, bir kişinin iki balaca oğlu varmış. Birinin adı İsa, o birisininki Musa. Bir-birini çox sevər, ayrılmazmışlar.

Allahdan olur, fələyin üzü qara olsun, bu uşaqların anası cavan ölür. Kişi gedib bir ayrı arvad alır. Analıq çox əzazilmiş. Uşaqları olmazın işə göndərər, döyər, söyərmiş. Bir gün naxır kəndə gəlir. Bunların danası gəlmir. "Hardasa örüşdə qalıb" deyirlər. Qaş qaralan macal analıq oğlanları meşəyə göndərir ki, gedib dananı tapsınlar. Uşaqlar meşəyə gedir. Talaları axtarırlar. Dananı tapmırlar. Əlbəttə, analığın qorxusundan evə dönə bilmirlər. Meşəyə qaranlıq çöksə də, qardaşlar dananı axtarmaqda davam edir, həm qorxudan, həm də bir-birini itirməməkçün səslənirlər:

– İsa!..

– Musa!..

– Tapdın?

– Yox…

Uşaqlar quşa dönür analığın qorxusundan. İndi də meşəyə qaranlıq çökəndə "İsaq-Musaq" quşlarının səsini eşidirsən. Bu, bir-birini səsləyən o qardaşların harayıdı:

– İsa!..

– Musa!..

– Tapdın?

– Yox.

## SALXIM SAÇAQLI SÖYÜD

Bir zalım analıq da varmış, kişi evdə olmayanda anasız qıza göz verirmiş, işıq vermirmiş. Döyürmüş, heçdən, heççə yerə

danlayırmış. Əl-ayağın dağlayırmış. Qızın günü göy əskiyə düyülüymüş. Bir gün qız təndirə çörək yapanda, necə olursa, biri küt gedir. Arvad cumur qıza. Qız qorxur ki, zalım analıq indi onu təndirə basacaq. Durub qaçır. Üz tutur çaya tərəf. İstəyir ki, özünü gicova-zada atıb boğulsun; bu zalımın əlindən qurtarsın. Elə arxa çatır ki, o taya – çaya tərəf keçsin, görür analıq onu haqlayır. Onda qız incə qollarını göylərə qaldırır:

− Allahım, Allahım, qurtar məni bu fasığın əlindən. – deyən kimi qız bir ağaca çevrilir. Qolları budaq, qaçmaqdan dağılmış saçları salxım-salxım fidan yarpaqlara çevrilir. Gəlib ona çatanda qız artıq ağac idi, amma hələ ürəyi döyünürdü… O vaxtdan bəri arxların kənarında salxım söyüdlər bitir, incə budaqları, yarpaqları salxım-salxım suya sallanır. Elə bil qızın dərdini Yusif peyğəmbərə danışılan yuxu kimi sulara danışır. Ona salxım söyüd, amma çox yerdə "ağlayan söyüd" də deyirlər.

## QİSMƏT

Qız istənəndə, ya oğul evləndirəndə talehin 5 barmağı olar: ikisini valideynin gözlərinə qoyur – pisini görmürsən. İkisini qulaqlarına qoyur – yamanını eşitmirsən. Birini də ağzına, dodaqlarının üstünə basır, "yox" deyə bilmirsən. Qismətsə, belədi.

## XALÇAÇILARIN İKİ ƏMƏK MAHNISI

Xalqımızda, millətimizdə hər bir sənətin "sənət mahnısı" olub. Balıqçılar tor çəkəndə, qoyunçu çoban sürüsün toplayanda, nənə cəhrədə ip əyirəndə… Qərəz. Xalça toxuyanların da 2 əmək mahnısını eşitmişəm. Səhər hananı başlayanda deyərmiş:

İşim-işim iş olsun,
İşim uçsun, quş olsun,
Mələklər bacım olsun,
Pərilər iməcim olsun.

Gözəl arzudu. Axşam həvə, kirgit hananı yığışdırıb yatmağa gedəndə deyərmiş:

Şeytana nəhlət (lənət)
İşimə bərəkət.
Bir qarı gəlsin
Ərişini yesin,
Arğacı qalsın.
Bu da gözəl arzudu.

## BAŞ TUTMAYAN GƏLİN GÖRMƏSİ

Bir dəstə qadın gəlin görməyə gediblər. Baş tutmayıb. İçlərindən biri deyib:

Vağzala bax, vağzala,
Ocağvuzda köz qala.
Gəlmişdik gəlin görək
Döyülmüşdük az qala.

## KEÇƏR BU GÜNLƏR, BACI.

İki bacı varmış. Biri dövlətli, biri kasıb. Bir gün dövlətli bacı görür ki, kasıb bacı uzaqdan onlara gəlir. Bişirdiyi yağlı kömbəni cəld ocaqdan götürüb altına qoyur, gizlədir. Kömbənin istisi,

buxarı onu qovursa da, tərpənib eləmir. Kasıb bacı gəlib əyləşir. Arifmiş. Başa düşür ki, bacısının nazik ətini buxar yandırır. Deyir:

Açılıb güllər, bacı,
Ötür bülbüllər, bacı!
Yanuvu kömbə yandırır,
Keçər bu günlər, bacı.

## SƏKİNƏ GƏLİR QIZIYNAN

Kənddə Məhərrəmlik günlərində arvadlar mərsiyə bilməz, öz anladıqları şəkildə imamları oxşar, ahəngə uyğun olaraq "Hüseyn" əvəzinə də "Hüsey" deyərdilər:

Başçı: Hüsey, Hüsey
Xor: Şa Hüsey, va Hüsey
Başçı: Qoyun gəlir quzuynan
Xor: Va Hüsey
Başçı: Ayağının tozuynan
Xor: Şa Hüsey.
Başçı: Səkinə gəlir qızıynan
Xor: Şa Hüsey, Va Hüsey

Səkinə İmam Hüseynin qızıydı, hələ ərə getməyibmiş.

## YANIQ XÖRƏK

Bir kişinin arvadı ölür. Kişi yenidən, talesiz bir dul qadınla evlənir. Amma söz-söhbətində ölən arvadı tərifləx, "elə gözəl, dadlı xörəklər bişirərdi ki!" deyərdi. Yazıq ikinci arvad hey çalışar, müxtəlif dadlı, ədviyyatlı xörəklər bişirir; təmiz, səliqəli.

Amma kişi hər dəfə xörəkləri yeyəndən sonra deyir:

– Çox sağ ol, yaman deyil. Amma o rəhmətliyin bişirdiyi xörəklərə çatmaz. Dadı damağımdan getməyib.

Bir dəfə arvad xörək bişirəndə, necə olursa ətin altı azacıq yanır. Arvad qazanı dəyişmir:

– Əh… Cəhənnəmə ki!.. – deyir – onsuz da bəyənməyəcək. Qoy bu dəfə yanıq iyi versin.

Kişi işdən qayıdır. Arvad xörəyi çəkib onun qarşısına qoyur. Kişinin nə deyəcəyini, onu danlayacağını gözləyir. Kişi bir söz demədən xörəyi böyük iştahla yeyir, deyir:

– Oxayyy!.. Hə, arvad, indi əsl o mərhumənin xörəyini bişirmisən, o dadda, o ləzzətdə…

Sən demə, ölən arvad hər dəfə əti unudub yandırarmış və kişi də bilmədən bu dada, bu yanıq iyinə öyrəşibmiş.

## BALDIRIM VAY

Bir arvad evində oğlu ilə yanaşı yatıbmış. Gündüzün ağır əməyindən yorulan oğul ağır yatırmış. Qoca qarı isə sayaq.Yata bilmirmiş. Bir gecə duyur ki, evə oğru girib, "yır-yığış" eləyir. Oğlunu oyatmaqçün zarımağa başlayır:

– Uf… yanma ürəyim, yanma ürəyim.

Oğru görür arvad oğlanı oyadacaq; arvadın başı üstündə piyalada albuxara isladılıbmış; tez birini götürüb arvadın ağzına dürtür. Arvad səsini azacıq ucaldır.

– Oxxay… Ağzun şirin olsun, ağzım şirin oldu. Ağzun şirin olsun, ağzım şirin oldu.

Oğru hirslənir. Arvadın çənəsinə bir dürtmə ilişdirir. Albuxara dişsiz ağızdan sıçrayıb düşür. Arvad bir az da səsini ucaldır:

– Vaayy… İslatdım, aldı qaçdı. İslatdım, aldı qaçdı…

Oğru qəzəblənib arvadın buduna bir təpik ilişdirir. Arvad qışqırır:

– Vayyy… Baldırım vay! Baldırım vay! Səhərə çıxım, qırmızı tuman aldırım vay! İçində bir oğlan doğum. Adın qoyum əəədəəə Əbdürəhman.

Oğul Əbdürəhman oyanır:

– Noolub ana, neyindi?

– Əəədə… Evi apardılar ki… Dursanam!

Pəhləvan cüssəli Əbdürəhman qalxanacan oğru şeyləri atıb götürülür.

## ÜÇ BACI – SƏNƏ DEMƏDİM

Üç bacı üç tacir qardaşa ərə getmiş, qayınxatınıydılar. Bir dəfə ticarətdən qayıdan ərlər hərəsi öz arvadına bir qiymətli hədiyyə gətirir: sırğa, üzük, boğazaltı (boyunbağı, sinəbənd). Bacılar bir-birindən xəbərsiz bəzənir, yeni hədiyyəni taxır və həyətə çıxıb o biri bacılara göstərmək istəyir. Böyük bacı sinəsini irəli verib silkələnir ortancı bacıya tərəf:

– Sənə demədim kömür qoy? – sinəbənd cingildəyir.

Ortancı bacı əlini qulağına atıb soruşur:

– Aaaz, haçan dedin eşitmədim, qoymadım?

Sırğalar tərpənir, piyalə sırğaların piyaləsi bir-birinə toxunanda cingildəyir.

Kiçik bacı "sülh yaratmaq" məqsədilə üzüklü əlini onlara qarşı yellədir.

– Bəsdi, bəsdi, siz Allah! Üçü də qəhqəh çəkib uğunarcasına gülür və heç biri hədiyyəsiz qalmayan bacılar – eltilər bir-birinə sarılır.

## BİR QARAVƏLLİ

Nənəm deyərdi ki, Məlcək və Qaravəlli kəndləri onun cehiziymiş. Son zamanlaracan (1937-40-cı illərəcən) o kəndlərdən bizə pay gələrdi. Motalla pendir, qoyun qarınında yağ (sarı yağ – duzlu kərə), kisələrlə un və s. Nənəm bu kəndlərdən Qaravəlli haqqında xeyli lətifə danışardı. Özü də lətifə deməz, "sizə Qaravəlli danışacam" deyərdi. Bunlar çox açıq-saçıq, "duzlu" olduğundan biz colma-cocuğu dinləməyə qoymazdılar. Biz də, xüsusilə mən kitabı götürüb oxumaq bəhanəsilə altdan-altdan qulaqlarımı şəkləyib dinlərdim. Yadımda qalan bir neçəsini danışmazdan əvvəl deyim ki, neyçünsə nənəm Qaravəllini lətifələr yığnağı "Hayam kəndi"ylə eyniləşdirirdi.

Bir kişi çayın o tayında qoyun otarırmış. Günorta namazı vaxtında evdən arvadını səsləyir:

– Ay arvad, heyyy, sən gəl bu üzülmüş (sürüyə), mən gedim o dağılmışa (evə); iki əyilim bir düzəlim bu Allah qəbul eləməmişə (yəni, namaz qılım).

## APARIM QUDAMA, QUDAMA!

Bir arvadın varı-yoxu, ümidi-pənahı Həsən adında bir oğlu varmış. Əri çoxdan karvanını o biri dünyaya çevirib, ömrünü bircə balasına bağışlayıbmış. Həsən öz həyətlərində bir əncir ağacı əkibmiş. Birinci nübar ilində ağac bircə dənə əncir gətirir. Arvad həmin əncri bir xonçaya qoyub üstünə əlvan örtük örtür, oğlunun nişanlısıgilə aparır. Qapıdan girəndə onu qarşılayan qudasına deyir:

– Həsən ağacı bir əncir gətirib; dedim: aparım qudama, qudama!

## TOYUĞUN DƏRDİ

Toyuq deyib:

– Dünyada məndən də bədbəxt varmı? Niyə? Oğlum ərimdi, qızım günüm…

## FIL HƏKIMI

Bir fırıldaqçının biri heç bir iş görmədən, havayıca, rahat yaşamaq istəyir. Padşahın yanına gəlib iş istəyir.

– Nə bacarırsan?

– Fil həkimiyəm, şahım.

Padşah buna məvacib təyin eləyib saraya buraxır. Vəzir soruşur:

– Şahım, bizim məmləkətdə fil yoxdu. Bunu neynirsən? Havayı…

Şah onun sözünü kəsib deyir:

– Vəzir, bəlkə bir gün düşdü, lazım oldu.

Doğrudan da bir neçə ildən sonra bu padşaha bir fil hədiyyə göndərir Hind padşahı. Fil üçün nəhəng tövlə hazırlayıb salırlar ora. Amma yeməyinə nə versinlər, bilmirlər. Hökmdar deyir:

– Balam, neçə ildir ki, sarayda fil həkimi saxlayıram. Aparın o baxsın, görsün fil niyə heç nə yemir, neçə gündü siz avaralar tapa bilmirsiz. Gedin həkimi …

Hamı sevincək fil həkiminin yanına cumur, onu gətirib salırlar fil olan dama. Bəli, gözləyirlər, gözləyirlər, gözləyirlər, həkimdən bir soraq çıxmır. Padşah baş vəzirə deyir:

– Vəzir, gedək, görək o həkim neynir? Fil acından ölər…

Gəlirlər. İçəri girib görürlər ki, fil həkimi tövlənin gah o başına, gah bu başına gedir. Əlini gözünün üstünə qoyub

diqqətlə filə baxır. Şah və vəzir təəccüblə bir-birinə baxır. Şah soruşur:

– Hə, həkim, iş nə yerdədi? Nə verdirək filə yesin? Yoxsa acından ölər axı…

Həkim deyir:

– Hökmüdarım, vallah, bayaqdan ha baxıram, bilmirəm ağzı ha yandadı, quyruğu ha yanda. Hər iki tərəfdən sallanan nədi?

## SƏNDƏ O BACARIQ?

Bir avara arvad vardı. Hər gün ər evdən gedəndən sonra bu qapı sənin, o qapı mənim… Burda qeybət, orda söhbət… İş-gücü də tökülüb qalırdı ər gələnə. Ər bir dəfə də olsun işdən dönəndə onu evdə görmürdü; narazıydı:

– Ay arvad, qonşularda nə girrənirsən? Qaxıl otur evində, işini gör.

– Buy, ay kişi, bəs bilmirsən?

– Nəyi?

– Mən qonşuda xalça toxuyan arvadlara rəng, buta, naxış öyrədirəm, "yelən", "xonça", ….. "göl" başa salıram.

– Sən Allah, bəsdi, ətimizi tökmə! Səndə o bacarıq?

O biri gün arvad ərini inandırıb gəzməyində davam etmək üçün göz qoydu. Pəncərədən baxırdı. Elə ki, gördü əri gəlib eyvana çıxdı; onun səsini eşidəcək. Üzünü hana qabağında oturub ilmə, kirgid, həvə vuranlara çevirdi, başladı:

– Baaax…

Alı al eləyün,
Üstündən yaşıl!
Mən gedirəm –
Ərim savaşır.

Kişi inandı ki, arvadı qonşulara kömək eləyir. Day bir söz demədi. Axı atalar deyib ki, "Qonşu haqqı, Tanrı haqqıdı", "Evi alma – yaxşı qonşu al", "Qonşu qonşu olsa, kor qızım ərə gedər", "Qonşunu bir inəkli istə ki, özün iki inəkli olasan"… Kişi özünə ürək verdi.

## QURANA GÜLLƏ ATILMAZ!

Mollaların təbliğatına görə "Qurana güllə batmaz". 1918-ci ildə ermənilər Şamaxıya divan tutanda bir sadəlövh Quran vərəqlərini bədəninə yapışdırıb çıxır küçəyə, bağırır:

– Hə… o köpəyoğlu erməni vursun görüm güllə mənə…

Atılan güllələr bədənini deşik-deşik eləyir. Anlamır ki, o mənəvi inam idi; bədəninə yapışdırdığı adi kağızdı. Sadəcə: Qurana güllə atılmaz!

## SƏNİN ATANIN TÖVLƏSİNDƏ

Gopçular oturub söhbət edir, bir-birinin qabağında lovğalanırdı. İkinci dedi:

– Atamın bir nizəsi vardı. Uzunluğu eləydi ki, göyə qalxızıb buludları tərpədərdi. Lazım olan yerə yağış göndərirdi. Birci gopçu dedi:

– Atamın bir tövləsi vardı, burdan İsfahanacan. Üç gün, üç gecə gethaget, axırına çata bilməzdin.

Birinci heyrətlə soruşdu:

– Atan o nizəni harda saxlayırdı?

İkinici gopçu:

– Sənin atanın tövləsində.

## ŞAH TƏNBƏLİ

– Şah tənbəli nəyə, kimə deyirlər?

– Deyirlər, bir gün şah el içində tənbəl kimi tanınanları yığır bir alaçığa. Elan edilir ki, şah tənbəlləri yandıracaq alaçıqda. Qorxusundan çoxu qaçıb gedir. İnanmayanlar qalır. Tüstü içəri dolanda burdan 2 nəfərdən başqa hamı qaçıb gedir. O iki nəfərin biri zarıyır:

– Kömək eləyin, yandıq… Kömək eləyin…

Axırıncı inləyir:

– Qardaş, de ki, yoldaşım da yanır.

Şah deyir:

– Bax, əsl tənbəl bu axırıncıdı. "Yandım" deməyə də ərinir.

O vaxtdan şah tənbəli sözü də meydana çıxır.

## ATASI İKİ ALARDI

Ana məktəbdən qayıdan uşağı döyür. Qayınana:

– Gəlin, nöş döyürsən bu ağbaxt olmuşu?

– Dörd alıb ey, dörd…

Qayınana əlini-əlinə çalır:

– Buy, ay bala, bunun atası iki alardı, mən heç döyməzdim.

## XEYİR QƏNŞƏRİNƏ ÇIXSIN

I qadın – Gecəniz xeyrə qalsın.

II qadın – Xeyir aparasan.

III qadın – Xeyrimizi nöş aparsın. De ki, xeyir qənşərinə çıxsın.

## AZARLI O BİRİ OTAQDADI

Xəstə ölüm halındaymış. Arvad qonşu otaqda əllərini ovuşdura-ovuşdura Allaha yalvarırdı:

− Allah, canı cannan dəyiş.

Birdən kimsə əqrəbadan əcayib şəkildə qapıda görünür. Arvad bunu Əzrayıl hesab edib deyir:

− Ay Əzrayıl qardaş, azarlı o biri otaqdadı.

## ZƏLZƏLƏ DÖYÜL, NƏNNİDİ

Şamaxıda 1902-ci il zəlzələsi fasiləsiz bir neçə gün xırda-xırda davam edirdi. Deyilənə görə Vayıd qızı bu mənzuməni onda qoşub:

Şamaxı çörəyi ənnidi,
Buğdası da dənnidi,
Zəlzələ döyül, nənnidi.
Yırğala qadoyalım,
Silkələ qadoyalım.

## AY AZAD

Seyid Əzim Şirvani şagirdi Azad bəy haqda:

Dad sənün əlündən, dad,
Ay Azad, fəryad, ay Azad.
Ustulu, akoşkanı sındırmısan,
Ev olub bərbad, ay Azad.

## ZƏHRIMAR AL GƏTI

– Əyşi, əyşi, bazara gedirsən, can (ət) al gəti.
Can olmasa, yarımcan (yumurta) al gəti.
Yarımcan olmasa, zəhrimar al gəti.
(Yəni, badımcan zəhrimar kimidir.)

## ÇIRTA-PIRTLILAR

Şamaxıda bir ailə çıtra-pırtlılar ləqəbiylə məşhurmuş. Niyə?

Şamaxılılar "mərc gəlmə" həvəskarıymışlar. Bir gün həmin ailənin kişisi bazarda dostlarıyla söhbət zamanı deyirlər ki, kim səhərdən axşamacan sözbaşı "çırta-pırt" desə, o, məs. filan qədər qazanır. Bu kişi "mərci götürür". Bazarda dost-aşna, tanış-biliş nə deyir, nə soruşursa, həmin mərc gələn adam əvvəlcə deyir: "çırta-pırt", özü də dayanmadan, fasiləsiz. Axşam evə dönür, şam yeməyinə. Yol uzunu hey həmin sözü deyirmiş. İçəri girir. Arvad nə soruşursa, kişi cavabında deyir:

– Dinmə, arvad, çırta-pırt; dəli olmamışam, çırta-pırt; mərc gəlmişəm, çırta-pırt və s.

Mərci qazanır. Amma bütün nəsil "çırta-pırtlılar" ləqəbi ilə tanınır.

## YADIMA YAĞLI SÖYÜŞ DÜŞDÜ

Qəfərlidən Mənsimə arvad Pirsaat çayını keçib gəlir Tağılıya. Yaz yurdundaydılar – 1,5 km məsafəsi ola-olmaya… piyada yoldu. Arvad gəlir nənəm Seyid Rübabə xanımı qonaq aparmağa. Nənəm getmək istəmir. Arvad deyir:

– Buy… Necə getməzsən, səndən ötəri bir heyvanı candan eləmişəm.

O vaxtkı qaydaynan əvvəl hazırlıq görüb sonra gəlibmiş nənəmi aparmağa. Nənə sözdən keçə bilmir, gedir. Axşam üstü gördük ki, nənəm tək gəlir. Təəccübləndiksə də, bir söz demədik. Obanın o başında itə-zada rast gələ bilərdi. Şəhərli arvadı nə əcəb elə qayğıkeş arvad tək buraxıb. Deyib:

– Ağa (onu belə adlandırardılar) çayı keçdin, kəndi görürsən?

– Hə.

– Mən tez qayıtmalıyam. Özün gedə bilərsən?

– Hə.

Səhərisi gün məsələ aydın oldu. Mənsimə arvad yenə bizə gəldi, dedi:

– Ağa, bilirsən səni neyşə tək buraxıb tez qayıtdım?

– Yox.

Mənsimə arvad gülə-gülə dedi:

– Üç günüydü Gülnobat arvadnan savaşırdıq. Elə çaya çatanda yadıma yağlı söyüş düşdü. Dedim tez qayıdım, ona deyim, yoxsa soora yadımdan çıxar. Bağışla.

Nənəm də, hamımız da gülüşdük. Onda oba arvadları bəzən günlərlə savaşardı. Nehrəsin  çalxayanda yadına bir söz düşdü, çıxıb qapıya bərkdən deyər, işinə qayıdardı. Hər iki tərəf növbəylə öz iş-gücünü görə-görə ürəyini boşaldardı…

## ÇƏYIRTKƏ GƏLİR

Kəndə çapar gəldi. Bar-bar bağırdı:

– Çəyirtkə, çəyirtkə gəlir.

Hamının üstünə su ələndi. Bu elə bir bəla idi ki… Bir il kəndlini ac-yalavac qoyacaq, taxılı, bostanı sünbülü tağın dibinəcən sümürəcəkdi. Bu yerlərdə elə buna görə də çəyirtkəyə "sümüryan" deyərlər. Heç bir çarələri olmazdı. Allaha yalvarıb "Murad quşu" göndərməsini təvəqqe edərdilər. "Murad quşu"nun çəyirtkə qırmaqdan ağ döşü al qan içində olardı.

Nənəm kənd camaatının halını gördü. Ömründə daş-kəsək görməyən, zərif, ağ ayaqlarından corablarını çıxardıb, çölə çıxdı. Həmişə, hətta kənddə belə başında olan qara atlas çarşabını mələfə kimi açdı, başının üstünə qaldırıb çəyirtkə dumanının gəldiyi səmtə irəlilədi. Dodaqları nəsə pıçıldaya-pıçıldaya başı üstündə qara ələm kimi dalğalanan çarşabını yelləməyə başladı. "Dumanın" istiqaməti harasa sola döndü. Hadisəni seyr edən insanların sinəsindən bir rahatlıq gətirən inilti qopdu.

Nənəm tez evə dönüb çadranı başına saldı; corablarını geyindi – naməhrəmə görünməməliydi.

## İKİ AĞDAN DÜR TÖRƏR

İki ağdan dür törər;
Bir ağla bir qaradan gül törər;
İki qaradan zır törər;
İki sarıdan cin törər.

## KOLXOZA AİD 2 BAYATI

1930-cu illərdə Uduluda deyəsən Badamın, ya Ümbülün yaratdıqlarındandır:

Ay aydınlıq süd kimi,
Kolxoz(çu) baxır it kimi,
Kolxozun əmək günün
Sədir yeyir qəd (qənd) kimi.

Əzizbəyov bəydi nədi?
Qarnı dümbəydi nədi?
Yeyir kolxozun malını
Qəsdi döyülməydi nədi?

## GƏTİRİB LOV XƏBƏRİ

Üç nəfər çöldə gecələməliydi. Biri keçə, biri palaz, biri dəri bürünmüşdü. Səhər dəri bürünən qayıtdı. "Bəs yoldaşların hanı?" sualına belə cavab verdi:

− Kim ki bürünmüşdü palaz – axşamdan oldu "xilas". Kim ki bürünmüşdü keçə – keçindi yarı gecə. Kim ki bürünmüşdü dəri – gətirib lov xəbəri.

## QƏBRİNİ QAZAN AĞLAR

Hətta ağı deyəndə də Azərbaycan türkünün anası dağları unutmayıb.

Bu dağda ozan ağlar,
Dərd-qəmin yazan ağlar.
Qürbətdə can verənin
Qəbrini qazan ağlar.

## BİRDİ, PİRDİ!

Üç elti olur. Birinin iki, o birinin bir, üçüncünün isə yeddi övladı olur. Yeddi uşağı olandan soruşurlar:

– Qayınxatuvun neçə uşağı var?

Odlu-odlu deyir:

– İki-iki; iki-iki!!!

– Bəs sənin?

Səsini alçaldır, azaldıcı ahənglə:

– Yeddünəcik. (yəni yeddi)

Bir də deyirlər:

– O biri eltüvün neçə uşağı  var:

– Birdi, pirdi!!!

Ana öz qızını tərifləri̇r:

– Ay xalası! Bilirsən nə qızdı? Ayın-günün parçası!

Qabı elə yalayır ki, yumaqdan artıq! Tumanının cırığını elə düyünləyir tikməkdən, yamamaqdan artıq!

## ƏTİ SUYA SALIBLAR

Amasiyada Oxçuoğlunun Güllübulaq kəndində yaşayan 97 yaşlı nənə nəvəsilə danışır:

Mən 70 il əvvəl sizə gələndə birinci dəfə gördüm ki, əti suya salıb bişirirlər. Bizdəysə ancaq qızartma, qovurma olurdu.

## QAYINANANIN ARZULARI

Qayınana deyib:

– Yaz günündə gəlnim otursun (yaz günü qaraldır), qızı qucağında. Payız günündə (ağardır) qızım otursun, oğlu qucağında. (Yəni, gəlin qaraldığı və qız doğduğu üçün oğlumun – ərinin gözündən düşsün. Payızda qızım ağardığı, gözəlləşdiyi və oğlan doğduğu üçün ərinin – kürəkənimin daha çox məhəbbətinə nail olsun.)

## QAYINATANIN KÖYNƏYİ

Qayınata:

– Ay gəlin, köynəyimi tikib qurtardın?

– Vallah, ay dədə, azca qalıb, çar ətəyi, çevirmə yaxası, lülü buruqları.

## "PAYTAXT"

Şamaxıda "paytaxt" (toyun 3-cü gün üzəçıxdı vaxtı) oxuyardılar:

Taxtın bərəkallah, gəlin!
Baxtın bərəkallah, gəlin!
Ağ əllərə əlvan həna
Yaxdın, bərəkallah, gəlin!

Ağ dəvə düzdə qaldı,
Yükü Təbrizdə qaldı.
Oğlanı dərd apardı,
Dərmanı qıza qaldı.

## NOVRUZ

Qışdan sonra qurbağanın ilk vaqqıltısını eşidəndə yerdən bir çimdik torpaq götürüb şalın, kalağayının ucuna bağlayırlar – taleyini bilməkçün. Yalnız Novruz bayramının axşamı aça bilərsən. İçindən ya qara, ya qırmızı bir tük çıxacaq. Mülayim xala danışırdı ki, götürmüşdüm, içindən yarısı qara, yarısı qırmızı tük çıxdı. Dedim: hə… bu qara, mənim keçən qara günlərimdi. Qırmızı indiki və inşallah gələcək günümçündü.

## XƏYALPİLOV, XƏYALPƏRVƏR QATIQSATAN

Anam Mirzə Fətəli küçəsinə baxan pəncərəmizdən təxminən belə bir hadisə görmüşdü. Qatıqsatanın cürdəkləri sınmış, əlindəki abgərdənlə peşiman-peşiman uzaqlaşan kişinin ardınca küçə uşaqları düşüb: "Əmi, yala; əmi, yala" deyə bağırışırlarmış. Elə canlı danışırdı ki!.. Qalan hadisəni özümü uydurmuşdu, eşitmişdimi, deyə bilmərəm. Deyirdi:

– Xəyalpərvər bir kasıb "ayaqçı"[1] başında üç dənə irili-xırdalı cürdək (saxsı bərni, üzü şirli olurdu) də qatıq satırdı. Əlində abgərdən, rəqsan yerişlə gedə-gedə arabir çığırırdı:

– Qatıııq alaaan, ay qatıq alaaan.

Ürəyindəsə düşünürdü: İnşallah axşamacan bu cürdəklərdəki qatığı sataram, işim avand olar, bir neçə ayaq da gedərəm. Sahibim razı qalar, mənə yaxşı hax verər. İki toyuq alıb verərəm arvada. Gündə 2 yumurtadan… bu elər aya 60 yumurta. Qoy uşaqlar 5-6-sını yesin… fağırların nə qarnı doyur, nə əyni bitir. Hə… Arvad qalanını toyuqlar qırt (kürt) düşən kimi yığar altına.

---

[1] Ayaqüstü tabaqda, nədəsə şey satan fağır. Malı baqqaldan alardı.

Hərəsindən 12 imam eşqinə 12 cücə çıxar. Olar coğa, çilləyə təzə fərələr də yumurtlayar. Aparıb sataram. Verrəm qoyuna. Aldığım qoyunlar da il uzunu 2 əm doğar. Heç bir il keçməmiş yüzü keçər. Qoyunun oldu yüz… gir içində üz… Hə… Dövlətlənərəm. Yaxşı ev-eşik sahibi ollam. Uşaqların gözü qonşulardan yığırlar.

Ev-eşik düzələndən sonra Zərgərbazarda, Bəzzazbazarda dükanlarım olar. Karvanlarım Hində, İrana, Bağdada gedib qayıdar. Dövlətim çoxalanda boynuma Həcc ziyarəti gələr. Çavuş Kəlbə Abbasla gedən Hacılara qoşulub gedərəm Məkkəyə. Ziyarət eləyib qayıdaram. Görüşümə gələnlər beləcə baş əyib deyər:

– Hacı, salaməleyküm.

Qatıqçı başını salam üçün əyəndə cürdəklərin üçü də düşüb çilik-çilik oldu. Qatıq aləmi buladı. "Hacı" əlindəki abgərdənlə baxa-baxa qaldı.

## ŞAH ABBAS İKİ KASIB KİŞİ

Şah Abbas cənnətməkan bir gün eyvandan aləmi seyr eləyirdi. Səhərdi. Gördü ki, bir fağır adam gəldi, əllərini bulağın qırağına dayayıb üzüqoylu, ağzını bulağın büllur suyuna dayadı. İçdi, xeyli içdi. Şah hərəm ağasını çağırıb əmr elədi:

– Get, o kişini bura gəti.

Kişi gəldi. Şah soruşdu:

– Əyşi, səhər-səhər nə yemişdün ki, eylə su qantardun? Az qala bulağı qurudacaqdın…

Kişi:

– Pendir-çörək yemişdim, qibleyi-aləm.

Şah Abbas kişiyə bir qədər pul verdirib yola salır. Kişinin

dövlətli, paxıl qonşusu bunu eşidir. O biri sabah sübhün gözü açılan kimi qaçır gəlir bulağa, əyilib sudan xortuldadır.

Padşah bunu da görüb yanına çağırtdırır:

– Kişi, səhər-səhər nə yemisən ki, eylə bulaq suyu içirsən?

Kişi fikirləşir ki, şaha bal layığdı, deyir:

– Bal-çörək yemişəm, qibleyi-aləm.

Şah onun tamahkar, paxıl olduğunu anlayır. Yambızına bir neçə zopağ vurdurub qovur.

## ÜZÜK FALI VƏ NƏNƏM

Ana nənəm Seyid Rübabə xanım Haşemi nəslinin Şirvan-Şamaxıda yerləşmiş ən qədim və ağır nəslinə mənsub idi. Onun himayəsində böyümüşəm. Dini ehkamların əksərini, milli adət və ayinləri ondan öyrənmişəm. Quranın çox surələrini əzbər bilər, hansı ayda hansı ayinləri icra etməyi, namazları ötürməzdi. Xeyli siğə bacıları vardı yaşıdı rəfiqələrindən. Yuxuları, qulaq və s. falları elə yozardı ki, az qala hamısı da düz gələr, çin çıxardı.

Nənəm ana tərəfdən Mustafa xan nəslinə mənsub Sultan Zeyvənisa bəyimin qızıydı. Əri – ana babam Kərbəlayi Əliheydərlə məhəbbət – evlənmə macəraları dastana sığmaz. Bəzilərindən romanlarımda istifadə etmişəm. Kişi adi (sonralar) papaqçı indiki Ağsu rayonunda Curuxlu kəndindən ortabab ailə olsa da, qonşu Ağalarbəyli kəndi bəylərindən general (sonradan) Tərlan bəy Əlyarbəyovla qohum – dayıoğlu-bibioğluydu. Hafizi Qurandı. Səkkiz qız, bir oğulları dünyaya gəlsə də, bircə Sultan Zeyvənisabəyim (Rübabə xanımın anası) adını qoyduqları anam sağ qalmışdı. Uşaq çox zəifmiş. Nənəm bir ilaxır çərşənbədə qulaq falına çıxır. Evləri bazara yovuqmuş. Görür bir tərəkəmə yerli dabbağa aşlamaqçün gön satır. Nənəm çıxanda eşidir ki,

dabbağ tərəkəməyə deyir:

– Bu dərinin qiyməti 14 şahıdı. Ver, Allah xeyir versin.

Nənəm dərhal həyətinə qayıdırkən düşünür: "Hə… Bu qızcığaz sağ qalacaq. Amma qiyməti ucuz – on dörd şahılıq olacaq." Doğrudan da anam sağ qalır. Nənəm uşağa anasının adını deməyə ürəyi gəlmir, "Böyükxanım" deyir və anamın adı elə də qalır. Yüksək savadlı, ərəb, fars, türk və rus dillərini bilsə də, poeziyaya aşiq Füzuli-Sabir, həmçinin də folklor xəzinəsi anam, mədəniyyətilə, gözəlliyinə (Şirvanın ən adlı gözəli), dövlətinə (cehizində hətta başmaqlarının üzündəki bəzək də qızıldanmış), doğar qarnına (7 övladı olmuşdu, sonacan 2 oğlu, 1 qızı qalmışdı) baxmayaraq, yazıq anam ər çörəyi yeyib, ər paltarı geymədi. Uşaqlarının nə doğuluşunu, nə dəfnini görmədi əri. Üstü günülü oldu:

Dağlara hünü gəldi,
Hününün mini gəldi,
Evim onda yıxıldı
Üstümə günü gəldi.

Evi daha əvvəl nişanlıykən ölən bacısı Güllübəyimin yerinə özündən 17-18 yaş böyük olan atamıza veriləndə yıxılmışdı. Onun dərdləri saymaqla qurtarmaz. Gəncliyi çox ağır keçib. Şükür ki, 1939-da atamız (kənddə ikinci arvadının yanında yaşayırdı) vəfat edəndən sonra 37 il yaşadı. Dul örpəyi və qalanqulanı (atamızdan, Torqsindən) ilə üç elmlər doktoru (Məmməd – dialektoloq, Əhməd – rus dili metodikası və mən) yetişdirdi. Ömrünün son onillikləri (özü demişkən, əvvəli gətirincə adamın, axırı gəlsin) yaxşı, fərəhli, firavan keçdi.

Şekspir deyir ki, gözəllikdən bəhs edəndə hər şeyi unudur,

uzadıram, dinləyicini yoruram. Vallah, mənsə anamdan danışanda dinləyicimi yora bilərəm. Halbuki, söhbət nənəm Rübabə xanımdan gedir.

Bir dəfə nənəm qız-gəlinlə ilaxır çərşənbələrin birində üzük falına baxırlarmış. Nənəmin o zaman hələ babamla dəli-macəralı məhəbbəti evlənməklə nəticələnməyibmiş. Babam ögey analı olduğundan nənəmin atası Mirağası ağa qızı vermirmiş ki, qızım ögey analı olub, ögey qayınanalı da olmasın. Nənəm üzüyünü mis qaba salanda "qismətim ondadımı?" deyə 7 ildən bəri onun ailəsini izləyən Əliheydəri düşünür. Üzüyünə belə bir həsbhal düşür:

Qoy mənə Kür desinlər,
Kürdən də kür desinlər
Əlini mənə versinlər
Şirvandan sür desinlər.

Nənəm düşünür: "Hə… Qismət olacağam. Amma Şirvandan – Şamaxıdan didərgin – ayrı düşəcəyəm." Belə də olur. 1902-ci ildə Şamaxını yerlə-yeksan edən zəlzələdə qırxı çıxmamış körpələri – anam Böyükxanımı da alıb Bakıya köçürlər. Mirzə Fətəli – Aşağı priyut küçələrinin kəsişdiyi yerdə Hacı Şıxbalanın mülkünün Mirzə Fətəliyə baxan bir hissəsini alırlar. Babam öz kiçik qardaşı Ağarzayla birlikdə Mirzə Fətəlidə, pəncərələriylə üzbəüz dükanı alıb halvalar bişirib ayaqçılar vasitəsilə şəhərin küçə-bazarlarında satdırmağa başlayırlar (ədavalı, küncüt və s. halva).

Üçüncü dəfə çox yaddaqalan tragikomik yozumlarından biri Azərbaycanın işğalından bir az sonra baş verir. Yenə üzük falına baxırlarmış. Babam Hafizi Quran Əliheydər kənarda oturub

Quran oxuyurmuş. Həsbhallar ləng gedir. Qız-gəlin elə bil söz tapmır. Nənəm üzünü ərinə tutub deyir:

– Əyşi, birin də sən de da.

Canı Quranda babam onun sözünü yerə salmır, yadına gələn ilk bayatını deyir:

Əziziyəm günə naz,
Bülbül eylər gülə naz.
Əzizim, bax bu dünyaya
Ağlayan çox, gülən az.

Nənəmin üzüyü çıxanda lap pərt olur:

– Əyşi, bu dəli Kəlbə Səfəralının bayatısı hardan ağlına gəldi?

– Nə bilim…

Bayatının tarixi varmış… Şamaxıda Kəlbə Səfəralı adlı bir tacir malını icarəyə götürdüyü Bakılı püşgah[1] Ələsgərin gecikməsindən nigaranmış. Baxtına bu bayatı çıxıbmış. Sonra xəbər çıxır ki, gəmi Xəzərdə tufana düşüb, mallar batıb. Lümlüt qalan, bir anda müflis olduğunun dəhşətindən Kəlbə Səfəralı dəli olur. (Lap "Yağışdan çıxdıq, yağmura düşdük"dəki kimi. Bəlkə müəllif eşidibmiş.) Düşür küçələrə. Ağzına gələni deyir. Adamların çoxunun yazığı gəlir, kişinin halına yanıb ağlayır, bəzi arsızlardan gülənlər də olur.

Bir neçə gündən sonra nənəm və anam məni Kimyə adlı bizdə yaşayan yiyəsiz (erməni yesiri) qızla birgə götürüb "Şirinqoşa" adlanan hamama gedirlər. Qarışıq zaman olduğundan boxçalara hamamçı deyil, hərənin öz adamı nəzarət edirmiş. Boxçanı Kimyəyə tapşırıb nənəmlə anam əvvəlcə məni

---

[1] Gəmi kapitanı

çimizdirib Kimyəyə vermək qəsdilə hamamın “xəznə olan otağına” girirlər. Kimyə tək qalır. Az sonra ona atlas çarşablı, əndamlı bir xanım yaxınlaşır:

– Xanımlaruvu gözləyirsən?

– Hə.

– Darıxırsan?

– Hə.

– Mən də darıxıram. Ala bu bir şahını, get günəbaxan tumu al gəti, çırtlayaq. Mən də adamlarımı gözləyirəm, darıxıram.

Qız gedib tum alıb qayıdanda görür ki, lələ köçüb, yurdu boş. Atlas çarşablı, əndamlı “xanım” hər şeyi aparıb. Qız ağlamağa başlayır.

Anam yuyundurduğu çağa ilə gələndə görür ki, boxçalar oğurlanıb. Kimyəni paltar dalınca evə göndərir. Az sonra Kimyə onlara paltar (köynək əvəzinə babamın alt ağ dizliyini və s.) çarşab gətirir. Birtəhər geyinib evə dönürlər. Əqrəbanın “nəyiniz gedib?” sualına nənəm cavab verəndə:

– Qətfə əvəzinə qələmkar süfrə…

– Ha… ha… ha…

– Qoltuqlarına qızıl beşliklər tikdiyim (gizlədib oğru görməsin, aparmasın!) abı məxmər arxalıq.

– Ha… ha…

– Vay, hayıf…

“Ağlayan çox, gülən az” yerini tapır. Qərəz.

Mən doktorluq müdafiə edəndən sonra yaxınlarıma bir qonaqlıq vermişdim. Orada qadın həkimi S.Məstanzadə (Seyidqızxanım nənəmin qohumlarındandı. Mənim oyunlar rəfiqəm, bir yaş böyükdü məndən.) söz aldı. Doğrusu qorxdum. Axı o mənə indi yaradıcılıq baxımından nə deyəcəkdi? Yadıma Odessalı göz həkimi Filatov düşdü. O bir rəssamın gözünü

müalicə edibmiş. Rəssam da təşəkkür əlaməti olaraq onunçün iri bir göz – tablo çəkir; gözün bəbəyində Filatovun şəklini yerləşdirir. Filatov baxır… Baxır… Gülür və deyir:

– Yaxşı ki, mən qadın həkimi deyiləm.

İndi düşünürdüm ki, axı bu Səidə xanım adlandırdığımız (Qızxanımı bəyənmirdi) ginekoloq nə deyəcək. Və bu çıxışın nənəmə də dəxli varmış. Səidə xanım çoxdan unutduğum uşaqlıq illərinin yuxusunu yada salıb dedi:

– Hamınız Əzizəni ağızdolusu tərifləyirsiniz. Mən ədəbiyyatçı deyiləm. Amma tərifinizə də təəccüb eləmirəm. O, bu şöhrətini uşaqlıqda peyğəmbərcə deyilmiş bir yozumda almışdı. Bunun nənəsi Seyyidə Rübabə xanımdan. Yadımdadı: bir gün mən onlardaydım. Həmişəki kimi Əzizəylə oynamağa gəlmişdim. O, öz nənəsinə həmin gecə gördüyü yuxusunu danışırdı:

– Nənə, – deyirdi, – yuxuda gördüm ki, əyilib bir bulaqdan ağzımla su içirəm. Əllərimə dayanmışam. Ağzımdan daman damcılar bulağın dümdüz səthində xırdaca-zərif dairələr yaradır.

Nənə dedi:

– Gözəl yuxudu, qızım. Cənab Fatimeyi-Zəhra eşqinə uğurlu olacaqsan. Sən elə bir adam olacaqsan ki, danışdığın sözlər aləmə yayılacaq – o ləpələr kimi…" İndi onun şöhrətini görəndə…

Gurultulu alqış səsləri şüşələri cingildətdi, Səidə xanımın sözünü kəsdi. Daha bir söz?

O anladı ki, əsl sözü deyib, davama ehtiyac yoxdur. Qədəhini mənə tərəf uzadıb nə isə dedi. Dodaqlarının tərpənişindən anladım ki, "Sağlığına" və ya "Şərəfinə" bənzər söz deyir.

## MOLLA REYHAN

Nənəm Rübabə xanımın rəfiqələrindən biri də Molla Reyhan adlı yaşlı bir qadındı. Əvvəllər mollalıq elərmiş. Hətta çox məşhur, sevilən qadın mollasıymış. Gəncliyində baş vermiş bir hadisə lətifəyə çevrilmişdi. Uşağı olur, zahıdır. Amma "yeri" varmış, gedib hüzürdə "ruzə" oxumalıymış. Zahı-zahı gedib məclis aparır. Məzəlilər onun haqqında belə bir "şer" qoşurlar:

Molla Reyhan doğdu gecə
Öydə qoydu balaca beçə.
Gedibdi lay-lay deməyə?
Yoxsa "Hüseyn vay" deməyə?

Əlbəttə, mən onu tanıyanda qocaydı. Mollalıq eləmirdi. Eləyə də bilməzdi. Mollalar təqib olunmurdu. Hətta bağça uşağı 4 yaşlı Əhməd qardaşıma belə "şerlər" əzbərlətdirmişdilər:

Mollaların hiyləsini anladıq.
Cinləri, şeytanları qırmancladıq.
Falçıların faltasını qırmışıq.
Cümlə kitab-dəftərini cırmışıq.

Day Molla Reyhan neynəyə bilərdi? Həm də sonralar öyrəndiyim kimi onun 2 alim-şair-maarifpərvər oğlu Emin Abid və Əlabbas Müznib "xalq düşməni" kimi tutulub məhv edilmiş; ev-eşiyi, nəyi vardısa, müsadirə olunmuşdu. Ona acıyan rəfiqələrindən biri həyətində balaca bir daxma vermişdi ona. Qoca qadın həyatını güləbətin əşya: daraqqabı, möhürqabı, kəmər qubbaları, məxmərdən uşaq papağı, pul kisəciyi, sürmədan qabı tikir. Qızların cehizi üçün canamaz və s.

güləbətinləyirdi. Nənəm, əlbəttə, mən bilmədən onun yadigar işlərindən cehizim üçün sifarişlər vermişdi. Özgə adı ilə. Çünki ruzusunu bu tikmələrlə qazanan, fağır da olsa, Molla Reyhan siğə bacısından pul almazdı. Bəzədiyi güləbətinli kəmər, qızımın uşaq papağı, başmaq üzlüyüm diqqətsizliyim ucundan dağılıb getdi. Amma anamın mənə verdiyi canamazda bir neçə əl işi yadigar qalıb Molla Reyhan nənənin. Allah rəhmət eləsin, yazıq arvad oğlanları qayıtmasa da, haqsız tutulduqlarını bilmədi. Siğə bacıları götürdü onu axirət evinə.

## LOĞMAN VƏ ŞAGİRDİ

Loğmanın bir çoxbilmiş, hər şeyə yetik olan şagirdi armış. Hər yerə burnun soxurmuş. Loğman onu qovur. Bir gün xərçəng xəstəliyinə tutulmuş bir nəfəri müalicə üçün hamamı boşaltdırıb "kisə daşının" üstünə uzandırır. Xəstənin qarnını açıb görür ki, xərçəng caynaqlarını kişinin bütün qarın nahiyəsinə soxub. İstəyir ki, maşa ilə xərçəngin belindən tutub izalə eləsin. Görür bu halda xəstənin qarnı da qopacaq, o, məhv olacaq. Birdən qulağına bir səs gəlir:

– Ustad, maşanı qızdır!

Sən demə şagird hamamın dam pəncərəsindən baxırmış. Loğman onu hədələyib qovur. Maşanı qızdırıb xərçəngin belinə basan kimi xərçəng sustalıb caynaqlarını açır və loğman onu qoparmadan usulluca götürüb atır. Xəstə xilas olur. Bundan sonra şagird bir daha ustadın gözünə görünmür. Bir gün şagirdin gözləri bərk ağrıyır. Ha çalışır, ustaddan öyrəndiyi dərmanları edir, çarə olmur. Anasına deyir:

– Ustad məndən incikdir. Sən get, dərdimi de; ağzından çıxan birinci sözü gəl mənə de. Dərman gözləmə.

Ana gəlir Loğmanın yanına, dərdini danışır. Loğman deyir:

– Ah… Əllərin dala bağlamalı…

Sonra əlavə edir:

– Hə, get de gözlərinə bal sürtsün keçər.

Ana gəlib oğluna "bal" məsələsini deyəndə şagird deyir:

– Yox, ana, bala milçək qonar, siçrətmə salar, gözlərim kor olar. Ustadın mənə acığı soyumayıb. Axı dedim ki, ilk sözünü yadında saxla.

Ana karıxmış cavab verir:

– Axı o dərman deyildi, a bala. Mən dərdini deyəndə dinlədi: "Ah… əllərini dala bağlamalı". Bunun nəyi dərmandı?

Şagird tələsik:

– Əsl dərman odu, ana, gəl əllərimi dala bağla. Əl gözün düşməniymiş. Min çirk…

## "ÜZRÜ GÜNAHINDAN BETƏR"

Şahla vəzir arasında bir mübahisə düşür: "Üzrü günahından betər" necə olar?

Şah:

– Üzr varsa, günahdan betər nədi? Ola bilməz.

Ağıllı vəzir düşünür. Bir neçə gün keçir. Söhbət unudulur.

Bir dəfə şah irəlidə, vəzir arxasınca pillələri qalxırmış. Vəzir əl uzadıb şahın yambızından bir yumşaq çimdik götürür. Şah soruşur:

– Bu nədi, vəzir, dəli olmusan?

Vəzir əl-əl üstə üzr istəyir:

– Bağışla, hökmüdarım, üzr istəyirəm, elə bildim xanımın - baş hərəmindi.

Padşah hayqırır:

– Cəllad!..

Cəllad hazır olur:

– Ay baltam qan istəyir…

Vəzir işi şuluq görüb cəld söhbəti şahın yadına salır:

– Hökmüdarım, qibleyi-aləm, bəs "üzrü günahından betər" məsəli yadınızdan çıxıb? Sizə əyani sübut eləmək istəyirdim: elə üzr ola bilər ki, günahdan betər olar.

Həmin söhbət şahın yadına düşür, gülür. Cəlladı geri qaytarır.

## "CUHUD AĞACI"

Ağsu dolayında bir yük maşını qəzaya uğrayır. Hamı qırılır, həlak olur (o zaman yük maşınlarının sürücüsü ot tayalarının üstündə sərnişin daşıyardı. Başqa nəqliyyat yox idi. Maşın dərəyə yuvarlananda bir yəhudi əlini bir ağaca atıb səlamət qalır. O vaxtdan Ağsulular həmin ağaca "Cuhud ağacı" deyiblər.

## PƏLTƏK QIZLAR

Azacıq pəltək bir qız qarıyıb qalıbmış evdə. Alan yoxmuş. Bir dəfə bu qıza qismət çıxır. Deyirlər:

– Aaaz, səni istəyən var.

Deyir:

– İnanmıyam.

Az sonra rəfiqəsi muştuluqlayır:

– Aaaz, atan verdi səni, sabah nişan gələcək.

– İnanmıyam.

Bir qədər sonra:

– Ay qız, sabah toyundu.

– İnanmıyam.
– Səni qapıdan çıxarıb aparırlar.
– İnanmıyam.
Bir-iki gün sonra rəfiqəsi gəlin görməsinə gəlir:
– Hə… İndi necəsən, inanırsan?
– Hə… indi baaca-baaca inanıyam.

***

Üç pəltək qız varmış. Çölə-bayıra buraxmırmış ana ki, bilinməsin. Şübhələnin birisi yoxlamaqçın onların damına çıxır. "Filan şeyi" uzadır bacadan aşağı, qulaq verir. Qızlar:
– Bamağa bax, bamağa.
– Bamağ olsa, dılnağı olar.
– Dolama çıxıb, dılnağı düşüb də…

## QAYINANA-GƏLİN SÖHBƏTLƏTİ

Qayınana:

Gəlin gəldi, haçan gəldi.
Dörd ayaqlı siçan gəldi.
Gecə döşək mollası,
Gündüz sirrim açan gəldi.

Sarımsağım, soğanım,
Yad qızından olanım.
Atova qurban olum,
Anon olsun qurbanım.

Gəlin küsüb gedir. Qaynı gedib qaytarır evə. Qayınana

qayıdan gəlini görüncə əlini belinə vurub deyir:

Bit sirkədən yuxarı,
Sirkə bitdən aşağı.
Özün getdün, özün gəldün,
Oldun itdən aşağı.

## HƏMŞƏRİ HAMBALININ UYDURMALARI

Qonşumuzda bir cənublu "Həmşəri hambalı" yaşayırdı, "Əziz əmi" deyirdik ona. Müasir anlayışca bu hambalın palanı yox idi. Yük maşınında qutulara doldurulmuş şüşələri dükənlərdən götürüb maşına qoyur, harasa təhvil verirdi. "Arvad fason" deyirdi qonşular. Çünki bütün ev işləri, bişmişlər, paltar-palaz yumaq, tikiş tikmək əlindən gəlirdi. Səliqəli, bər-bəzəkli ev saxlayırdı. Axşamlar küçədə, səkinin üstünü sulayıb süpürər, palaz, döşəkçə qoyar, samovarı qaynaya-qaynaya gətirib, buradaca dəmlər, qonşular irili-xırdalı, qarılı-qocalı başına yığılardı. Gəlinlər hərəsi evdən bir yeməli şey – qoğal, mürəbbə, quru meyvə gətirərdilər. Hamı həvəslə kişi saymadıqları bu adamın gecə yarısınacan uzanan şirin nağıllarına qulaq asardı. (təəssüf ki, o zaman həmin nağılları yazıya almaq nəsib olmayıb.) Nağıllar öz yerində. Amma özü haqqında cürbəcür "nağıllar" danışar, güldürərdi:

1. Gözəl oğlanıydım. Anam nəzir eləmişdi, başımı qırxdırmırdı. Hərdən qız paltarı geyib uzun hörüklərimi yanıma atıb gedəndə məhəllə oğlanları ardımca düşərdi. Bir dəfə Çadrovının ayağında Quba meydanında eləcə şəklimi də çəkdirmişdim. (indiki Azdramanın yeri – Ə.C.) Hə, bir gün ordan keçirdim, gördüm şəkilçinin qabağına xeyli adam yığılıb. Dedim: görüm

nə var? Baxam görəm, şəkilçi mənim qız paltarındakı şəklimi böyüdüb vurub şüşənin arxasına. Oğlanlar heyran-heyran baxır. Mən də baxıram. Birdən kimdisə başını mənə sarı çevirdi, çığırdı:

– Adə, yəqin bu oğlanın bacısıdu.

Götürüldüm. Mən qaçıram, bir dəstə də şəklə vurulmuş oğlan düşüb dalımcan. Gəldim indiki o Poluxin küçəsi var ha… Orda xan atamın aldığı evimiz vardı. Girdim içəri. Qapını kilidlədim. Xan atamın nökərləri soora piştov gücünə dağıdıb yığılanları. And içiblər ki, bizdə elə qız yoxdu, xanın oğlu zarafatcan (nəzir saçı kəsilən vaxt İrandan Kəlbə Böyükxanım bacının gətirdiyi "qıc-qıc val" parçadan beş metr bu çiynimdən salıb sağ böyrümdə bant vurmuşam, beş metr o biri çiynimdən salıb sol böyrümdə bant vurmuşam, nə bilsinlər…) Hə… çəkdirib şəklini. Bizim xanın oğludu.

Hamı xımır-xımır gülümsəyir. Gülsüm xanım xala (qonşu) yavaşca anama pıçıldayır:

– Allah ayıbını örtsün. Xan oğlu hardan oldu? Hambaldu hələ…

Əziz isə sözünə davam edir:

– Hə… Xan atam məni yaman əzizlərdi. Ərköyünləşdirmişdi. O Əlmirzənin sağ tərəfdən üçüncü dişi qızıldı ha… Bir vaxt yaman dəb düşmüşdü. Mən də istədim. Xan atam dedi ki, hamı qızıldan, mənim oğlum da qızıldan? Yox, həkimə əmr elədi, qabaq üst dişlərimin dördünə qaş saldırdı: almas, yaqut, zümrüd, zəbərcəd…

Hamı gülür. Kimsə:

– Əyə, Əziz, ağ eləmə. Qaşı dişə necə nəsb elərlər?

– Aaaa… Dişə nöşün? Əvvəl qaşları qızıl köynəyə nəsb eləyib soora dişimə keçirmişdi da…

Görmürsüz dişlərim necə xırdadı?

Ağzını ayırır. Doğrudan da inci-mirvari kimi xırda siçan dişləri görünür.

– Bəs nooldu o qaşlar? Niyə çıxartdun?

– Zəmanə çıxartdı. Zəmanə…

## QAYINANA VƏ ÜÇ GƏLİN

Qayınana çox əzazilmiş. Üç gəlini varmış. Bir gün harasa gedəndə toyuqların qarnın yoxlar, qənddanda qəndi sayarmış. Gəlinlər yarıac, yarıtox dolanırmış. Bir dəfə qayınana harasa gedəndə ələ keçirdikləri əti bişirirlər. Yeməyə hazırlaşanda darvaza döyülür. Qayınana gəlir. Gəlinlər cəld əti lavaşa büküb bellərinə bağlayırlar. Qayınana gəlir; evdən "iy çəkir". Başa düşür ki, gəlinlər nəsə bişiriblər. Hər yeri axtarır, heç nə tapa bilməyəndə anlayır ki, bişmiş gəlinlərin üstündədi. Deyir:

– Durun, mən çalım, siz oynayın.

Gəlinlər əlacsız qalıb oynamağa – rəqsə başlayırlar. Amma qorxurlar da ki, açılıb düşə. Oxumağa başlayırlar.

I gəlin – Bax bu da bir fənddi, bacı

II gəlin – Qatmacığaz bərkdi, bacı

III gəlin – Bilsə, qiyamətdi, bacı!

Qafiyələr belə oxunur: fətdi; bərtdi.

## CÖNGƏ OĞURLUĞU

Oğurluqda məşhur olan birisi bir kişinin cöngəsini oğurlayıb aparır, kəsir. Satanı satır, qalanını bişirir. Kişi oğrunun evinə gəlib soruşur:

– Cöngəni aparmamısan?

Cavab verir:

And içim, arpa biçim;
Boynunda bağı cöngənin,
Qazanda yağı cöngənin.

Kişi:
– And içmə, inandım.

## TÖHFƏ MÜŞƏRRƏF XANIM

Hər şey "knijka" ilə satılan dövrdə, Sovet vaxtı bir arvad mağazaya gəlib çit ölçdürür. Pulu çatmır.

– Qoy gedim evdən gətirim.

– Yaxşı, xala, adını de, yazım kağıza, qoyum sənin çitinin arasına. Pulu gətir, apar.

– Yaz: Yerdə ələk, Göydə mələk, Şəmsü-Qəmər, Sübhi-sadıq, Badi-sabah, Gülsabah, Töhfə Müşərrəf xanım.

Satıcı qələmi yerə qoyur:

– Xala, sənin adını yazmaqçün Moskvadan xüsusi adam göndərilə gərək. Mən bacarmadım.

Elə eləyin ki, bura bir də şorsatan gəlsin.

## QARIN DARTAN-YIRTAN QOCA

Gözəl, çox gənc (14-15 yaş) bir qızı qoca kişiyə ərə verirlər. Zifaf gecəsi qız otaqda tək qalır. Üşənir. Durub otaqları gəzir. Görür, otaqların birində çox qoca bir kişi oturub suda bişmiş qoyun qarnı dartışdırıb yeyir. Dişi yoxdu axı. Soruşur:

– Qarın dartan-yırtan qoca, sən də bu öydənsən?

Qoca kafıldaya-kafıldaya cavab verir:

− Qoca sənin gülündü, sən qocanın bülbülü. Qoca səni maç eləməsə, quc eləməsə, vur qocanın boynunu.

## OCAYA GEDƏN

Deyərdilər: “Qocaya gedən quyruq yeyər, cavana gedən yumruq”.

Qocaya gedən Səltənət dedi:

− Yooox… Qocaya gedən laxta-laxta qan udur.

## O MOTALDA DA PAYIM VAR

Çaya sel gəlmişdi. Bulanıq suyun üzündə bir neçə motal üzürdü. Bir acgöz xəsis hər əlilə bir motal, dişində də birini tutmuşdu. İki əlilə yalnız bircə motal tuta bilmiş kasıba tərəf gözü və qaşı ilə işarə edir ki, onda da payım var.

## AY KİŞİ, NEYNİRSƏN?

İki kişi rastlaşır.

1 – Hə… Necəsən, neynirsən?

2 – Belə də… 1 köpük (qəpik) borcumu verirəm; bir köpük borc verirəm; 1 köpük də suya axıdıram.

1 – Başa düşmədim…

2 – Bir: Atam məni böyüdüb – borcumu verir – onu saxlayıram.

İki – bir köpük oğluma borc verirəm; onu saxlayıram, mən qocalanda o da məni saxlayacaq… Bir köpük də qızıma sərf eləyirəm. Gedəcək ərə, özgə çırağı yandıracaq.

## YETİRMƏMİSƏN – ÖTÜRMÜSƏN

Bir gün bir padşah oturub vəziriylə söhbət edirmiş. Birdən vəzir ayaqyoluna gedib tez də qayıdır. Şah soruşur:

– Vəzir, bu necə olur ki, sən "əlqabı"ndan (yəni ayaq yolundan) belə tez çıxırsan? Mən az qala yarım saat otururam.

Vəzir deyir:

– Şah sağ olun, mə yetirib gedirəm. Ona görə.

Qərəz bir dəfə şahı "böyük iş" tutur. Qovrula-qovrula düşünür ki, "hələ yetişməyib". Axırda dözə bilməyib ayaqyoluna gedir. Çatmamış yoldaca, şalvarı bulayır. Bu da sənə elə-belə deyil ha… Şah şalvarıdı…

Şah qəzəblə eləcə geri dönür, ayaqlarından nəcis süzülə-süzülə taxtın üstünə oturur. Vəziri və eyni zamanda cəlladı çağırır.

Vəzir içəri girib vəziyyəti başa düşür. Bilir ki, əlac tapmasa, başı bədənindən üzüləcək. Tez şahin ayağına tərəf əyilib, şalvarın balağından süzülən nəcisdən bir barmaqla götürüb ağzına qoyur və deyir:

– Şahım, qurbanın olum; sən yetirməmisən – ötürmüsən.

Şahi gülmək tutur. Vəziri bağışlayır. O vaxtdan deyərlər filankəs "p…x" yeyib, yeyir və s. Bax, belə ha… ölüm qorxusunu nə bilmişdin?

## BACADÜZƏLDƏN

Olduqca ustad, məşhur bir bacadüzəldən var idi. Hara, hansı kəndə, kimin evinə aparsaydılar, bacanı elə təmir edərdi ki, bir damcı tüstü buraxmazdı. Hamı onun işindən razı olduğu kimi, o da yaxşı dolanacaq düzəldə bilmişdi özüyçün. Qocaldı,

zəiflədi, daha damlara çıxıb baca düzəldə bilmədi. Onu oğlu əvəz elədi. "Aldığın haqqa xəyanət eləmə" demişdi atası, o da çağırıldığı yerlərdə bacaları əla düzəldirdi. Elə gətirdi ki, heç kəsin bacası tüstü vermədi; oğul işsiz qaldı. Qoca ata soruşdu:

– Niyə işə getmirsən, oğul? Evin xərci…

Oğlan:

– Bilirəm, ata, amma daha tüstülənməyən baca qalmayıb eldə, oymaqda.

– Necə?

– Necəsi yoxdur ki, gedib sən deyən kimi dübbədüz düzəldib gəlirəm. Day tüstü vermir. İş də qurtarıb, ata.

Qoca soruşdu:

– Bəs sən iş qurtarmamaqçün çarə görmürsən?

– Nə çarə, ata?

– Tüstü verən bacanı düzəldəndə yandakını laxlatmırsan?

– Yooox…

– Odu ki, işin qurtarır da…Gərək onu düzəldəndə bu birini laxladıb baaalaca əyəsən ki, iş qurtarmaya.

## LOVĞALANMA

Bir yaxşı, usta dərzi vardı. Fəxr edərdi ki, heç bir müştərinin malından nəinki oğurlamır, hətta dişi harama dəyməsin deyə, paltarı tikdiyi sapı belə dişiylə qırmır. Qarşısına şam qoyub, sapın ucunu "itiləyib" iynənin "ulduzuna" keçirməkçün həmin şama tutur, malın ucu "ütülür", asanca iynəni saplayır. Bu zaman qeybdən onun qarşısına bir nimçə kül qoyulur:

– Lovğalanma. Bax gör müştərilərin nə qədər sapını yandırıb külə döndərmisən.

## BÖHTAN VƏ QİYBƏT NƏTİCƏSİ

Bir məhəllədə iki qadın yaşayarmış. Biri əxlaqsız, o biri ruhani oruc tutan, namaz qılan.

Bir gecə külək o birinci qqadının qapısını açıb-örtür, cırıldadır. Səhər ruhani arvad qonşular deyir:

– Bu gecə səhərəcən onun yanına hey biri gedib, biri gəlib. Çatmayıb gələn kişilərin qəbulundan.

Allah bu böhtan və qiybət üçün ruhani qadının bütün müqəddəsliyini, oruc-namazını o biri qadına verib.

## İKİ QONŞU

Bir şəhərdə iki qonşu yayşayırmış. Biri çox tanınmış ruhani, o biri sərxoş, avara, əyyaşmış. Bunlar ölür, dəfn olunurlar.

Bir gecə şəhər qazisi yuxuda görür ki, ruhani əyyaşın, əyyaş isə ruhaninin qəbrindədir. "Sübhanallah! Bu nə yuxudur" deyə düşünür. Amma dalbadal iki gecə yenə də eyni yuxunu görür. Səhər gedib qəbri açdırır və həqiqətən əyyaşın qəbrində ruhanini, ruhaninin qəbrində əyyaşın olduğunu görür. Diqqətlə yoxlayır və öyrənir ki, o ruhani zahirdə pak, müqəddəsmi. Gizlində ən pis əməllərlə məşğul olurmuş. O sərxoş isə son tikəsini belə ehtiyacı olanlarla bölüşürmüş Odur ki, Allah onların məqamını dəyişib və qazı əsl həqiqəti insanlara elan etməklə onları doğru yola çağırıb.

## AĞZİN ŞİRİN OLSUN

Gecə evə oğru girir. Qoca ana duyur; oğlunu oyatmaq istəyir. Amma qorxur ki, oğlu diksinır; oğru da yuxulu cavanı vurar.

Odur ki, zəif səslə zarıyır:

– Yanma ürəyim, vay, yanma, ürəyim.

Oğru görür ki, qarının baş tərəfindəə kasada gavalı qurusu istağa qoyulub; arvadın zarıltısı oğlunu oyatmasın deyə, əşyaları yığa-yığa bir istağ gavalı götürüb qarının ağzına dürtür. Arvad bir az ucadan zarıyır:

– Oxay! Ağzın şirin olsun. Ağzım şirin oldu. Ağzun şirin olsun; ağzım şirin oldu.

Oğru acıqlanıb qarının orduna bir dürtmə vurur. Gavalı dişsiz ağızdan çıxıb düşür. Arvad bir az da ucadan zarıyır:

– Baaay. İstatdım aldı qaçdı; istaatdım aldı qaçdı.

Oöru təngə gəlib arvada bir təpik ilişdirir. Arvad var səslə bağırır:

– Vaay... Baldırım bay; səhərə çıxım qırmızı tuman aldırın vay! İçində bir oğlan doğum; adın qoyum Əbdürəhman... Ədəəə Əbdürəhman.

Oğlu nəhayət ki, zorla ayılır:

– Nədi, ay ana?

– Ədə evi oğru apardı ki! Bu nə fil yuxusudu?

## ƏNUŞİRƏVANA, GÖZÜN AYDIN!

Ənuşirəvana dedilər:

– Filan düşmənin ölüb, gözün aydın.

– Məndən nə dedilər? Dedilər qalacaq?

– Yoox!

– Mən də öləcəyəmsə, daha nə gözaydınlığı?

## AY ARVAD, NƏ YEDİN?

Bişirə-bişirə beşin yedim.
Bişirdim, on beşin yedim.
Səyridim səkkizin yedim.
Doğradım, doqquzun yedim.

## AY MOLLA MÖHSÜN…

Molla Möhsün adında birisi minbərdə moizə edirmiş. Minbərin ayağında "vələdəlcümcün" bir şagirdi mərsiyə oxuyurmuş.

Üst qatda, arvadlara məxsus barıda bir qadın "açıq-avar" oturubmuş və taxtabəndin aralı taxtaları – döşəməsindən arvadın bəzi yerləri görünürmüş. Məscid camaatı ağlayır, başına döyür. Molla Möhsünün şagirdi başını yuxarı qaldıranda "əcəb mənzərə" görür və "mərsiyəsini" belə oxumağa davam edir:

Ay Molla Möhsün,
Ay əmmön ölsün,
Bir bax havaya,
O binəvaya,
Bir bax doyunca:
Ağzın açıbdı,
Rəngi qaçıbdı.
Altında xonça,
Üstündə yonca…
Bax bir doyunca…
Ay Molla Möhsün.

Məsciddə ayıq başlar da varmış. "Əmmə, binəva"ya baxmadan sözbir edib qalxır, nadürüstləri döyüb məsciddən qovurlar. Araqarışıqda çarşablı arvadlar içində "səbəbkarı" əlbəttə, tapa bilmirlər. Vəssalam.

## USTA, ƏLƏM HA…

Bir dərzi gətirilən parçalardan oğurlayırmış. Bir dəfə yuxuda görür ki, Rəsuli-Xuda qarşısında hesabat verir, barı üstündəki ələmdən oğurlanan parçalar asılıb. Hövlənak ayılıb şagirdlərinə tapşırır:

– Görsəz ki, pünhan kəsilən parçadan çırpışdırıram, tez xorla çığırın:

– Usta, ələm ha…

Belə də olur. Bir müddət şagirdlər əngəl görəndə səs-səsə verirlər:

– Usta, ələm ha…

Usta da parçalardan daş-başlamır. Bir dəfə çox gözəl bir parça gətirirlər. Usta özünü saxlaya bilmir. Parçadan özü üçün "əkəndə" şagirdlər çığırır:

– Usta! Ələm ha…

Usta cavab verir:

– Kəsin səsinizi, o ələmdə bu parçadan yox idi…

## AZAN-TAZANA

Bir arvadın aşnası varmış. Ərini başdan eləmək üçün bir gün deyir:

– Əyşi, deyirlər azan-tazan şəhərində it də bahadı, təzək də. Amma keçə ucuzdu. Get, bir az təzək apar, bir də it küçükləyib,

– Arvad, deyəsən xəşil çalmısan axı?

Kişini aldadıb it küçüyü, bir də təzək yükləyib yola salır. Özü hazırlıq görür.

Sən demə, arvadın aşnası çöldə yüklü kişiyə rast olur, ona yazığı gəlir; məsələni başa salır. Yükü atıb evə dönürlər. Kişi arvadın ərini bir keçəyə bürüyüb beldən sarıyır. Görməkçün iki deşik açır. Arvad aşnadan soruşur:

– Bu nədi?

– Qoy söykəyim divara, gedəndə aparacağam.

Arvad süfrə düzəldəndə kişi soruşur:

– Bəs ərin hanı?

Arvad gülə-gülə deyir:

İt baha, təzək baha,
Azan-tazana göndərdim.
Yaxşı qazana göndərdim.

Aşna da deyir:

İt-küçüyü atmışam,
Təzəyə hiylə qatmışam.
Qara keçədən gözlər baxır,
Yarı yoldan qaytarmışam.

Kişi keçədən çıxır. Arvadı "nə yemisən, turşupilo" əzişdirib qovurlar. Özləri oturub süfrə başında kefə baxırlar.

## ÇİYSƏN-BİŞMİŞ?

Bir arvadın da gizli məşuqu varmış. Xörəyin, çörəyin yaxşısını ona yedirib ərinə baxmırmış. Əri soruşanda:

– Arvad, gül kimi un almışam, bu nə kəpəkli çörəkdi? – deyirmiş:

– Bağdadda bacın puff eləyir, unun valası gedir.

Bir gün kişi dərdini dostuna danışır. Dostu deyir:

– Arvadının məşuqu var, yoxla.

Kişi bir gün uzaq səfər adıyla evdən çıxır, amma göz-göz eləyib tayanın üstündə evi müşahidə edə bilməkçün yer tutur. Görür ki, arvad qəssab çağırıb qoyun kəsdirdi. İçalat "cız-bız" bişirib tavada qoydu camaxatanın altına; aşı dəmləyib qoydu taxçaya, kəlləni də bişirib qoydu pəncərəyə. Məşuqu gələn kimi süfrə saldı. Elə əllərini yeməyə uzadanda, kişi tayanın üstündən düşüb həyətə səs saldı:

– Ay arvad, pis gözə rast oldum; dəvəm uçuldu, yük də batdı, dəvə də. Tez ol aç qapını, acından, yorğunluqdan öldüm.

Arvad cəld məşuqunu camaxatanda, yükün dalında gizlətdi. Kişi bunları görür. Arvad deyinə-deyinə qapını açır. Kişinin qabağına bir "qulaq" arpa çörəyi, çay qoyur. Kişi danışmağa başlayır:

– Arvad, başıma oyun gəlib. Elə dəvənin ovsarından tutub gedirdim ki,qabağıma bir zırpı ilan çıxdı, baaax, o yükün altındakı bağırsaq qovurması kimi (arvad məcbur olub cız-bız tavasını çıxartdı), yerdən bir daş götürdüm, baaax, pəncərədəki baş kimi (arvad kəllə-paçanı da gətirməyə məcbur oldu). Arvad, daşı çırpdım ilana partladı, dağıldı o taxçadakı aş kimi (arvad bunu da gətirdi).

Kişi sözünə davam etdi:

– Qurudum – mat qaldım o yükün dalındakı qardaş kimi.

Kişi durub yorğan-döşəyi tökdü. Məşuqu döyməkçün əl qaldıranda məşuq soruşdu:

– Kişi, çiysən-bişmiş?

– O nə sözdü?

– Çiy olsan, indi məni əzişdirərsən, qonum-qonşu səsə yığılar, biabır olarsan, "filankəsin arvadı filan…" Bişmiş olsan, məni ötürərsən, sakitcə gedərəm. Heç kəs də heç nə bilməz. Sonra arvadınla haqq-hesabı özün çəkərsən…

Kişi dedi:

– Çiydimsə də, bişirdin.

Məşuqu buraxdı. Tək qalanda arvadın yaxşıca "dərsini verib" göndərdi atası evinə.

## TOY MAHNILARINDAN

Qızım, qızım, qırmızı qızım,
Bulaqların yarpızı qızım,
Budu sənə nişan gəlib.
Ənnik gəlib, kirşan gəlib.
Almağa soltan gəlib,
Aparmağa xan gəlib.

Baxtın bərəkallah, gəlin!
Taxtın bərəkallah, gəlin.
Ağ əllərə əlvan həna
Yaxdın, bərəkallah, gəlin!

## BİR GÜN SƏN, BİR GÜN O…

Gəlin heç süpürgəyə əl vurub, həyət-bacanı süpürmürmüş. Ər-arvad, qayınatayla qayınana sözbir edib bir səhər süpürgəni bir-birindən alır, deyişirlərmiş:

– Yooox, mən süpürəcəm.

– Əyşi, bu kişi işi döyül, özüm süpürəcəm. Belə edirlər ki, bəlkə gəlin utana, gəlib süpürgəni onlardan ala.

– Mən süpürəcəm.

– Yooox, mən…

– Mən…

– Mən…

Gəlin eyvana çıxıb əli belində deyir:

– Əyşi, ay qarı, nöş deyişirsüz? Bir gün birivüz süpürün, bir gün o birivüz. Bir gün sən, bir gün o…

## DƏVƏ ÜRƏYİ

Bir kəndlinin bircə dəvəsi vardı. Qonşusunun da dəvəsini əmanətən götürüb, iki dəvə ilə karvana qoşulur. Qayıdanda dəvə sahibi görür ki, onun dəvəsi əldən düşüb:

– Kişi, qonşu haqqı sən mənim dəvəmin başına nə gətirmisən? Onu nə qədər yükləmisən?

– Vallah, qardaş, öz dəvəmə nə qədər yükləmişəmsə, səninkinə də o qədər yük vurmuşam.

– Pis baxmısan, navalasın…

– Vallah, öz dəvəmdən pis baxmışamsa, balam ölsün…

Qərəz, dəvə düşür ölür. Kəndin başbilənləri yığışıb dəvəni kəsir, soyur, içalatına diqqətlə fikir verib görürlər ki, dəvə hər cəhətdən sağlammış, ancaq bircə dəvənin ürəyində balaca ağ

ləkə var.

– Kişi, düzünü de, neynəmisən?

– Vallah, onu öz dəvəmdən ayırmamışam. Tək bircə dəfə toz burulğanında onları üz-üzə yatırdıb, özüm də aralarında gizlənmişəm, üçümüzün də başımızın üstünə yaş örtük atmışam. Bircə o olub ki, həmin vaxtda üzümü öz dəvəmə çevirmişəm. Qocalar:

– Hə… Dəvənin qəlbinə sahibsizliyi dəyib; ürəyinə xal düşüb. Dözməyib…

## FALA BAXDIRMIŞDIM

Oğul həyət evi alıb, anadan ayrı yaşamağa başlayıb. Anan bundan çox narazıdır. Oğlunun iki oğlu var və anan eşidir ki, evə təzəlikcə it alıb avçarka.

Ana telefon eleyib:

– Oğul, erkəkdi, dişi?

– Erkəkdi.

– Hə… O oldu qayınatan, bir dişi də al, olsun qayınanan.

Bir neçə gün sonra telefonla ana:

– Deyirlər, it almısan.

– Hə…

– Erkəkdi, dişi?

– Dedim axı… erkək.

– Hə, fala baxdırmışdım, sənin baxtına üç oğul çıxmışdı.

## GƏLİN BAŞI BATMIŞ…

Acıdərəyə qalxan səmtdə bir sərnişin avtobusu qəzaya uğrayır. Yanaşı oturan iki qadın elə qəza vaxtı da yanaşı düşür-

lər. Ufultu, inilti… Arvadlardan biri o birisinə yarımçıq kəsilmiş söhbətini:

– Hə… Onu deyirdim axı. Gəlin başı batmış…

Deyəsən gəlindən qeybət edən qayınanaydılar.

## SƏN GEDƏLİ ÇÖRƏK YEMƏMİŞƏM

Səfərdən, ticarətdən qayıdan ərinə nazlanır:

– Əyşi, vallah sən gedəni heç təndir salıb urvatlı çörək də bişirməmişəm. Elə ocağa yağlı kömbə salıb yemişəm, – deyir.

## BİRİ DƏ BU KÖNDƏLƏN YATAN…

Oğul anasından soruşur:

– Deyirlər xeyli ərə getmisən, elədi?

– Hardan xeyli oldu? Mən deyim, sən say: Əli, Vəli, Pirvəli, ikisi ondan irəli, Pambığatan, Qozsatan, irəhmətlik sənin atan, biri də bu köndələn yatan…

Hamısına da halal minallah şəryətnən, kəbinnən.

## ONU KİM ALAR?

Arvadlar əvəlik yığmağa gedirdilər. Dəvəçiyə söz atırlar:

– Əyşi, bu arvadı aparırıq ərə verək.

Dəvəçi yorğalanaraq gedərək, dedi:

– Əh, o iri boğazı armudun sapıycandı, onu kim alar?

## HALVAYA DUZ QATMAZLAR

Bir arvad varmış. İş-güc, biş-düş bilməzmiş. Nə bişirsə qonşuda rəfiqindən soruşarmış. Bir gün araları dəyir. İş bilməz də tərs kimi halva çalacaqmış. Halvaya duz qatılıb-qatılmadığını bilmirmiş. Qədim arvadların davası bir neçə gün çəkərdi. İş-güclərini görə-görə soyüşər, bir-birinə söz atardılar. Bu arvad bəhanə eləyir; heyvana çıxır, üzünü qonşuya tutmasın deyinən sayağı deyir:

– Halvaya duz qatan köpək qızları...

Qonşu arvadda arif adammış, keçmiş rəfiqəsinin vəziyyətini anlayır: " Aha.. Dostum halva çalacaq deyəsən. Gərək köməyinə gələm. Halva ruhularçın çalınan müqəddəs təamdır. Namədlik etmək olmaz".

Qonşunun söyüşünə qarşı bu da öz növbəsində eyvana çıxır; cavab qaytarır:

– Sözün var, söz danış. Halvaya duz qatmazlar.

## BİLİRƏM

Bir kişi arvadı öləndən sonra bir tərəkəmə qızına evlənir. Cavan gəlin də köçəri tayfadan olur. Şəhər büş-düsünü bilmir. Onunku elə umac-yarma-bulamacdı. Odu ki, kişi qonşu arvaddan xahiş edir ki şəhər xörəklərinin bişirmə qaydalarını cavan gəlunə öyrətsin. O da söz verir. Bir gün baharda yarpaq dolması bişirmək istəyən gəlin qonşu arvadın yanına gəlir. Qadın izahı başlayır:

– Həə ... Əti taxtanın üstündə yaxşıca döy.

Gəlin:

– Bilirəm.

– Duz, soğan, istiot ədviyyat kök qarışdırır.

– Bilirəm.

– Hər yarpağın ortasına bir xırda ət qoy, boxca sayağı bük.

– Bilirəm.

– Sonra onları qazanajiyıq.

– Bilirəm.

– Üstünə atsasu tök.

– Bilirəm.

Bu "bilirəm"lər qonşu arvadı cinlədir: "ay köpək qızı bilirsənsə, day yanıma niyə gəlmisən? Sənə bir yaxşı dərs verərəm, "bilirəm" sözü yadımdan çıxar" – deyə fikirləşir. Və son mərhələdə dolmaların üstünə boşqab qoymaq lazım olan yerdə, deyir:

– Hə, qazanı odun üstünə qoymamışdan əvvəl donma dolmaların üstündə bir parça təzək qoy.

– Bilirəm, – deyib gəlin durub gedir.

Axşam əri evə gələn gəlir. Süfrə açılır. Gəlin qazanın qapağını götürüb, təzə qaşıqla alıb süfrənin qırağına qoyur. Xörək çəkməyə başlayanda kişi nəsə bir iy duyub soruşur:

– O nədi?

– Təzək.

– Onu nöş qoymusan qazana?

– Xala dedi.

Kişi yorğun, ad süfrədən qalxır. Qonşuya gəlir, kədərli, indi halda soruşur:

– Bacı, axı mən səndən xahiş elədim, bu bədbəxti "öyrət" dedim. O nə təzəkdir demisən?

Qonşu qadın cavab verir:

– Yox, qardaş, ələ-zadə salmamışam. Neynim axı... Gəldi soruşdu. Mən də başa saldıqcan nə dedimsə, gedi "bilirəm".

Mən də cana gəldim, ona dərs olsun deyin dedim ki, üstünə bir parça təzək qoy dedi: "biliræm". İndi bağışla, incimə bilirəm işdən ac-yorğün gəlmisən. Göndərib onu da çağırtdırım. Bizim kişi içərdə süfrə başındadır, sən də keç içəri. İşi bilib xörəyimi bol eləmişəm. Keç-keç sən Allah. İncimə.

Onlar iki külfət bir yerdə şam edir. Gəlinə də o ki, var gülürlər.

## MƏN GƏLİNƏ NƏ DEDİM Kİ...

Bir qaynana əri ilə öz gəlinləri haqqında danışır:

− Nə üzümü qaşovlayırsan, kişi? Mən nə dedim o gəlin köpəkqızına? Atasını söymədim, anasını söymədin; yeddi arxa dönənini yamanlamadim! Gəlin əndamıyanmışa nə dedim? Öl demədim, it demədim, canın yansın demədm. Nə dedim gəlin əzizləri qırılmışa? Mən gəlinə qarğamadım: Yeddi qardaşı ölsün demədim; əmiləri, dayıları qabağına döşənsin demədim, bacılarının öyü dağılsın demədim; xalası-bibisi qaradan çıxmasın demədim.

− Bəsdi, ay arvad, ucarrama; bəsdi düzdün uc-ucuna!..

− Neynədim, nə dedim, əyşi, evləri xaraba qalsıb demədim; yurdunda bayquş ulasın demədim; sürüləri qırğına getsin demədim... Mən gəlin eşşək qızını döymədiyim, saçlamadım, həyət boyu o baş bu başa sürümədim.

## “SƏBİR DAŞI”

Bir qız ər evinə gedən vaxtı anası onun cibinə bir daş qoyub deyir:

− Bala, qaynananla, ərinin qohumları ilə hörmətli dolan, heç

kəsə cavab qaytarma. Baaax, bu "səbir daşı" dillənəndə sən də dillənərsən.

Gəlin ər evinə gəlir; bir neçə vaxt bir kəlmə də danışmır. Gəlin gözəldir, işli-güclüdü, amma elə fikirləşirlər ki, hayif laldı.

Gəlin hər dəfə danışmaq istəyəndə cibindən "səbir daşı"nı çıxarıb baxır, o dillənmir, gəlin də dözür.

Oğlan, ata-anası ilə nə qədər təəssüflənsələrdə bir yeni dilli gəlin almaq istəyirlər. Qız seçirlər – gəlin dillənmir, nişan, paltarkəsdi eləyirlər – gəlin yenə də "səbir daşı"na baxıb dillənmir. Toy olur gəlin dillənmir. Amma ürəyi qövr eliyir. Yeni gələn gələn gün ocaq başında oturub süd bişirir; amma uzaqdan at üstündə gələn təzə gəlini görüb, südü yadından çıxır. "Səbir daşı"nı cibindən çıxarıb pıçıldayır:

– Dözəl bilmirəm, "səbir daşı".

Görürük ki daş çatılamadı. O yanadan at üstündə gələn təzə gəlin görür ki, onun "günü bacı"sı ocaqdakı südü unudub, süd dasmaq üzrədi. Elə at üstündən deyir:

Lal gəlin, kar gəlin,
Südün daşdı qoymasana.

Gəlin "səbir daşı"nın çatlamasını gözləmir; dinlənir:

Yani yəhər qaşında,
Gözü ocaq başında.
Düşünmə qoymasana.

Eev adamları gəlinin səsini eşitçək sevinirlər:

– Aaaz, bəs bu neçə vaxtda nöş danışmırdın?

– "Səbir daşı" qoyulmuşdu, demişdi ki o danışmasa sən də

danışma.

Hamı sevinir:

– Buy öz gəlinciyəziyimiz elə yaxşıdır – deyib təzə gəlinin elə at üstündəcə geri qaytarırlar.

## KEÇƏL GÜLARƏ XALADAN BİR SƏRNİC AYRAN GƏTİR

Ana qızına deyir:

– Bala, satılı götür, get, keçəl Gülarə xaladan bir sərnic ayran gətir. Nehrəsi var:

Qız gəlir, qapıdan:

– Keçəl Gülarə xala, anam deyir bir sərnic ayran versin.

Arvad:

– Sənin o "şirin" dilivə içını bir çalaxam yağ da sallam.

***

Qıza elçı gələnlər baxardı; bir fincan su istərdilər. Əgər qız qapı ağzındakı başmaqları düzəltməsə, heç olmasa o yan-bu yan etmədən adlayıb, tapdayıb keçsə onu almazdılar.

Başlarına baxdırıb, dırnaq çaldırar[1], ağrısı götüzdürərdilər.

Qucaqlamaq bəhanəsilə qoltuğunu və s. iylərdilər; təmizkardımı, iy çox gəlmir ki, üstündən.

---

[1] Başdaşı bitləri təmizləmək

## LİBERTİLİ PİRKA

"Liberti" adlı ipək parça təzə çıxanda nazəndə xanımlar onun qara rəngindən çarşab tikib örtərmiş. Adına "Sürüşdüm-düşdüm" deyərmişlər. Yaşlı nəsl bəyənməzmiş. Hər şeyə bir söz qoşan şamaxlılar liberti haqqında da söz qoşubmuş:

Liberti, keçələri süpürdü,
Qoca gördü tüpürdü,
Cahıl gördü yügürdü.

Məmməd Cəfər oğlu da bir dəfə liberti çarşablı bir xanımı hamamdan çıxıb əsdirə-əsdirə getdiyini görür, ardınca düşür. Hazırcavab Şirvan xanımına sataşır:

İmanım hayandan gəlir?
Gümanım hardan gəlir?

Qadın Məmmədə tərəf dönüb üzünü açır deyir:

İmanuvu əri s...
İndi hamamdan gəlir.

Bu onun doğmaca bibisiymiş. Cavan cəld xəcalət içində geri dönüb qaçır. Sonra uzun müddət Ummeyla bibisinə görükmürmüş. "Arvad pəhləvandı, əlinə keçsəydi bərk əzişdirib dərsini verçəkdir" – deyirmiş.

## GÖNNƏN ZƏKAT

– Molla, göndən zəkat düşür?

– Bəs necə? Elə Quradda yazılıb ki, "Alə innəhü kaşifun" (De ki, onlar kəşf edəndir.).

– Mənası nədir, ay molla?

– Qalə - yəni qalın yerindən, innə - ənni yerindən, kaşifundakı – köşəsi də üstündə.

## İSLAMÇI VƏ XALQÇI İKİ QARDAŞ EYNİ CÜMƏLNİ DEYİR

I – Vələdi, o səngi-əhramüşşəklin təhtində vaqe olan həcəri-fuqani mənə iltifat et!

II – Ayə, o gurt-gulanmaz daşın yanındakı yastı daşı mənə ver!

## NƏ SƏNİN BABAN BİLİR, NƏ DƏ MƏNİM

– Ay molla, "İnnə hüvəl fəttahül əlim" nə deməkdir?

– İnnə - innədir, hüvə zəmirdir. Fəttahül-əlimi də nə sənin baban bilir, nə də mənim.

***

– Əlhəm qülvallahını oxu.

– Hansını? Əl qülhüvaleh var ley gəlib də oxuya?

***

Çörəyi al lala kimi, üzü qızıl xaşxaşdı. Gəlin bişirib, tökür ora. Mən də 28 il dul arvad oğul saxlalayım, böyüdüm, çörək qazansın, gəlin bişirsin mən tamarzı baxım, iyi burnuma vursun, ürəyim parçalansın?

***

– Ay ciyi, vallah, istəyirəm yeyəm?
– Bilirəm istiyirsən, istəməsən.

Dörd Sadığın yediyi fərməşil[1] olub, mən onu yeyə bilərəm. Pərzana[2] bişirmişəm.

Əyni lütdü,qarnı ac.

Bir qarnı ac, bir əli acdı.

Bir qarnı boşdu…

## ÇUSTÇU[3] VƏ BAQQAL

Baqqal hər gün çustçuya sataşıb, ona tərəf gavalı tumu atar. Tum baqqala dəydikcə torbaya yığır , bir gün torbanı gətirib baqqalın tərəzisinin bir gözünə, çərməçəni[4] o biri gözə qoyur. Tum ağrı gəlir. Çərməçə ilə bir dənə baqqalın gicgahına vurur, baqqal ölür. Şahidlər, şəgirdlər, hakim toplanır. Hakim çüstçüdən niyə öldürmüsən deyə soruşur?

---

[1] Fərçəşil – s. Vermişel.
[2] Pərzana – d. Xəstə üçün bişirilən xüsusi xörək pəhriz yeməyi (Şamaxı).
[3] Çustçu (çusttikən) - Dabansız, yüngül ayaqqabı – çust tikən usta.
[4] Çərməçə (çərməkə) - Gönü döyüb hamarlayan bürünc alət.

Çustçu də əhvalatı olduğu kimi danışır. Deyir ki, baqqal mənə gündə tum atırdı və mən əvəzini çıxdım. Hələ siz tumları qoyun bir tərəziyə görəcəksiniz ki, mənim vurduğum çərməçə onun atdığı tumlardan daha yüngüldü.

## DÜNYANIN NAZÜ NEMƏTİNDƏN GÖZÜ DUYAN BALA

Ləzgininin oğlu xəstələrir, yemək yemir. Ləzgi uşağı əzizləyir:

– Çır əzgil ola yeyər?

– A yux...

– İtburnu qaqa ola yeyədi?

– Yux!

– Yemşan ola yeyədi?

– A yux!

– Ux...x ... dünyanın nazü nemətindən gözü duyan[1] bala!

## QOYMA YER TƏRPƏNSİN

Qonşusu Badam, Məşədi Məhəmmədin cücəsini oğurlayıb, salıb yükün altına, qabağına nimdar salın oturub. Bir az keçənədn sonra zəlzələ olub. Tez evdən çıxıblar. Badam arvad yügürüb qonşusugilə gəlib:

– Ay Maşdı, başuva dönüm, qoyma yer tərpənsin, balalarım qırılar. Cücənməndədi, uşaqlar bilməyib, salıblar evə, indi gedib gətirib verərəm.

---

[1] Duyan – d. Doyan.

## NƏDƏN BİLDİN XƏSTƏYƏM?

Tək yaşayan, heç kimi olmayan qarı xəstələnir. Səhər həkim gəlir.

– Nədən bildin xəstəyəm?

– Oğlan uşağı gəlib çağırdı ki, anam xəstədir, gəl.

– Hansı oğlan?

Həkim divarda şəkili göstərib deyir:

–Bax bu.

– O çoxdan ölüb, oğlum idi.

## HƏRƏNİN ÖZ DƏRDİ ÖZÜNƏ BİR DƏVƏDİ

Bir qızın yaşı ötüb, ərə getməyib. Elə kimsə yenə deyibmiş ki, yenə elçi gələcəkmi. Nəsə gəlmir, neçə gündür. Qız yenə çıxır təpənin başına ki, görsün elçilər gəlir ya yox. Bir kişinin də dəvəsi itir. O da çıxır təpənin başına dəvəsini axtarmağa. Qıza rast gəlir və soruşur:

– Dəvəm itib görməmisən.

– Atam qızı, anan...

– Deyirəm burda dəvə keçməyib?

– Bəlkə sabah elçi gəldi.

– Dəvəm itib səni içini zarafat alıb. Ərə getməydən dəm verirsən.

– Hərəni öz dərdi özünə bir dəvədi.

## O DÜNYADA NƏ VAR?

Yuxuda əmimi görüb soruşdum:

– O dünyada nə var?

Dedi: – Kim bu dünyada nə iş sahibi olubsa orda da elə olacaq. Məni o gündən ki, dəfn eləmisiniz, toylarda sərpaylıq edəyirəm. İnid sən də, Şabala, itbazsan, o dünyada nə qədər qotur it var yığıb verəcəklər sənə.

## YƏHUDİYƏ VERİLMİŞ ƏMANƏT

Peyğəmbər zamanında bir müsəlman səfərə çıxanda yəhudiyə əmanət verir, qayıdanda yəhudi qaytarmır. Peyğəmbərə şikayətdən sonra, yəhudi inkar edir və iş dalınca şəhərə gedir.

Yolda üç qəribə hadisəyə şahid olur:

Birinci görür ki, bir itin qarnında balası hürür.

Sonra görür ki, bağdakı meyvələr gözəldir, amma hamısı çürükdür. Daha sonra görür ki, quş yerdə peyin dində- ləyəndən sonra ağacın başına çıxıb Quran oxuyur.

Bunlara onu böyük təşvişə salır. Yəhudi yenə Peyğəmbərin yanına qayıdır. Gördüklərini danışır. Peyğəmbər deyir ki, sən gələcəkdə müsəlmanlığı görmüsən:

Birincisi gələcəkdə böyük duran yerdə kiçik danışacaq. Sonra müsəlman ümməti zahirdə gözəl, batində çürük olacaq. Və sonda müsəlman ruhanisi yerdə bəd əməl edib və dualar edəcək.

İndi ya əmanəti yiyəsinə ver, ya da həmin ümmətdən biri də sən olacaqsan.

Yəhudu cavab verir ki, mən o ümmətdən olmaq istəmirəm, əmanəti veririəm.

## AMAN, ƏLAMAN

Azər Buzovnalıdan soruşublar: "Necəsən?"
Bədahətən belə cavab verib:

Tuğay[1] – Kərbəla, mən Hüseyni – zaman,
Buzovna əhlindən aman, əlaman.

## YA RƏB, MƏNƏ SƏN YETİRMƏ TÖVBƏ

Bakı şairləri Haşım bəy Saqib və Ağadadaş Münuri nərd oynayırlarmış. Müniri deyib:

– Azər Buzovnalı Camini yuxuda görüb arağı tərk edib. Sən də mənə uduzsan içkini tərk et.

Başlayıblar oynamağa. Müniri uda-uda, son əldə Haşım bəy Saqib:

Azər arağı edibdi tövbə,
Ya Rəb, mənə sən yetirmə tövbə.

– deyə bir qoşa şeş atıb və oyunu udub.

## İRİZ EŞŞƏYİNDİ

Bir əzazil qayınana varmış. Evdən çıxanda qənddanda qəndi, tabağda çörəyi, toyuqların qarnındakı yumurtanı da sayıb gedərmiş ki, gəlin yeməsin. Qapıdan çıxmamış evə təzə şirə çəkərmiş ki, gəlin taxçadakı çörək tabağına yovuq getsə,

---

[1] Tuğay Buzovnada məhələlə,yer adı. Azər Buzovnalının evi orada yerləşirmiş.

ayağının ləpiri – izi düşsün. Bir dəfə belə də edib, yasamı, toyamı, harasa gedir. Gəlinin acından ürəyi üzülür. “Ac qılınca çapar” deyiblər. Gəlin çarə düşünür. Axırda həyətdəki eşşəyi minir. Otaqdakı taxçaya tərəf sürür. Tabaqdan bir yarım para çörək götürüb yeyir. Qayınana getdiyi yerdən qayıdır. Təzə şirənin üstündə taxçaya tərəf gedən eşşək ləpiri görüb hikkəylə deyir:

– Hə… iriz eşşəyindi – fel gəlinin.

## QURBAN OLASIZ BU ARVADLARA

Acıdərədə körpü üstündə qaçaqlar içərisində qadınlar olan iki malakan furqonu saxlayırlar.

Qaçaqların başçısı malakandan soruşur:

– Kişi yoxdur?

– Yoxdur!

Başçısı qadınların birindən soruşur:

– Kimsən?

– Sona, Məşəd Nəcəfqulunun arvadı.

– Malağan, qurban olasız bu arvadlara, gedin.

## MİRZƏMMƏDİN EŞŞƏYİ DƏ İNDİ KƏLİK YEYİR

Mirzəmməd kişi eşşəyi ilə həyətinə gəlib, cuvalları eşşəyin üstündən endirib, arvadını çağır:

– Gəl ay arvad, iki çuval yemiş, pomidor gətirmişəm səniyçin. Gözündən gəlsin!

Demə kişi üzünü evə sarı döndərib arvadı çağırana kimi, eşşək çuvalda yemiş görüb onu yeməyə başlayıb.

Arvad:

– Bıy, kül başuva, Mirzəmmədin eşşəyi də indi kəlik yeyir ki, heç çuvalına beş manat da verən yoxdur.

## ATDIM DƏYDİ

Güllə atdım dəydi; ördək bir dönüb baxdı mənə, sonra qanadını yelləyib getdi.

## SORUŞUM Kİ, DƏRDİ DƏ AÇILSIN

– Arvad necədi?
– Bilmirəm.
– Necə, evdən gəlmirsən?
– Evdən gəlirəm.
– Bəs soruşmursan?
– Niyə soruşum ki, dərdi də açılsın?

## TƏSBEH

Bədr davası vaxtında Peyğəmbərin bir dişini vurub qırırlar.

Bu münasibətlə Yəmənli Üveys Qərəni özünün 32 dişini çəkib çıxardır. Bu şərəfə təsbehin hər hissəsi 33-dür – 1+32.

I hissə təsbeh – 33 əsas
II hissə təsmim – düzülmüş
III hissə təkbir – Allahın adı – Allah böyükdür.

## QIZILLI ZABİTƏNİN DƏRDİ

– Balışımı dəyişmişəm, baxtımı yox.

– Ərim bir ölmədi ki, mən ″Dul köynəkli, dul örpəkli″ deyib oxşasınar.

–Yaxşı gündə, doğanda, şəbbəxeyir eləyəndə, sünnətdə, toyda-nişanda keyfiniz kök olanda heç "yazıq Zabitə sənə ismət olmadı" demirsiniz; amma elə ki, dərdiniz oldu: "bəxtəvər Zabitən bu dərdlərdən xəbərin yoxdur" tez deyirsiniz.

## DƏDƏM DƏDÖVƏ EŞŞƏK DEMİŞDİ, NOLDI?

Çay üstündə yıxılmış bəndi bərpa etmək üçün iməclik üçün hər kənddən köməyə adam və eşşək istəyiblər. İndi oğlunu göndərib ki, bilsin kim olacaq nə oldu?

– Ayə Hüseyn, dədəm dədövə eşşək demişdi, adam istəmişdi, noldı?

– Dədəm deyir bizdən eşşək olacaq, adam olmayacaq.

## "ZİYARƏTDƏMƏ"

Əssəlamu əleykə, ya əhlən-qübur,
Nə yatmısız dubur-dubur?
Dirilər halva yeyir,
Siz də çuğundur.

## TƏMBƏKİ

Abbas kişinin arvadl Şüşə qarı çubuq çəkəndi. Təmbəkiyə ehtiyacı vardı. Əri alardı təmbəkini. Deyirdi:

Ay Abas, Abas, təmbəki,
Ağzın açıb məndəki,
Atılıb düşür səndəki.

## İSTEDADLI NÖKƏR-ŞAİR

Bir gün bir uzun saqqalı ağa nökəri ilə qonaqlığa gedir. Ağalar yuxarıda baş tərəfdə, nökərlər aşağı – ayaq tərəfdə oturublarmış. Bir də nökər görür ki, ağa aş yeyəndən üç düyü dənəsi saqqalına düşüb, yapışıb. Uzaqdan ağasına belə bir şeir deyir:

Ağalar ağası, qullar yəməni,
Ağa, bir söz desəm öldümə məni.
Gülşən bağçacında üç atlı gördüm,
Beş piyadə göndər, endir anı.

(Başaqa bir variantda  isə bir düyü saqqala yapışıbmış və nökər belə deyib:

Şərafət dağından ağ atlı keçdi,
Göndər beş qardaşı endirsin onu.)

Bundan sonra ağa əlini (beş piyadə - beş qardaş) saqqalına çəkib düyünü oradan götürür.

## MƏKSƏNƏM –ONUN KÖKÜNÜ KƏSSƏNƏM

Bir Bakılı kənd yerinə qonaq olur. Araya mərci şorpası gəlir. Qonaq şorpanı çox bəyənir; soruşur:

– Bunun adı nədi?

Ev yisəsi:

– Məksənəm.

Qonaq coşqunluqla deyir:

– Ə  kişi, bundan dağı-daşı əksənəm.

Gecə mərci qonağın qaynını işləməyə salır. Səhərəcən yata bilmir. Elə bir ağayı subaşın gedib gəlməkdə olur.

Səhər ev sahibindən soruşur:

– Qardaş, o axşam yediyimizin adı nəydi?

– Məksənəm

– Əyşi, onun kökünü kəssənəm.

## ƏZGİL – ƏZ GEL?

Bir ev sahibi fars qonağına dəymiş əzgil verir:

Fars qonaq yeyir və heç vaxt görmədiyi bu meyvənin adını soruşur. Ev sahibi:

– Əzgil!

– Əz gel? (Torpaqdan?). Hər ke saxt, xeyli xub saxt (kim düzəldibsə yaxşı düzəldib).

## YAĞ HARDADI?

Ay bala, ay bala, o bir Allah haqqı, balalarım ölsün, yağ hardadı? Bir az yaxantı (qatıq) vardı; tökdüm nehrəyə, çal-çal elədim; bir barmaq siyinti çıxdı, atdım vəzninin dibinə.

Aaaa Sayad, Sayad, aaaz o tərəzini gəti, beş girvənkə yağ çək Mirzəyə...

## BAYƏZİD BƏSTAMİ RƏVAYƏTLƏRİ

Bayəzid Bəstamiyə hər gün bir bəla gəlirdi; Bayazid deyirdi:

– İlahi! Çörək (əppək) verdin, bir bəla da var ki, qatlıq eləyim.

***

Bir qarı B.Bəsatmidən yükünü (doğarını) aparmağı xahiş elədi. Bəsatmi şirə Aslana əmr elədi, şir dağarı götürdü. Bəstami:

– Sorsalar B.Bastami gördüm.

Qarı:

– Bir zalımı, bir rənanı gördüm.

– Nə danışırsan?

– Bu aslan sənin mükəlləfimidir.

– Deyil.

– O şeyi ki, Allah mükəlləf eləməyib, sən ona əmr etdün. Zalım deyilmisən?

– Rəvadır.

– Sən istəyirsən ki, adamlar  görsün ki, şir sənə mütidir, sən kəramət sahibsən. Bu da rənalıq deyilmi?

– Gerçəkdir.

Bəstami tövbələndi "Pirün kimdir?" Sualına: "Bir qarıdır" – demiş.

***

Şeyx Bəstaminin qonşuluğunda bir kəbr vardı. Ona dedilər:

– Müsəlman olginən.

– Müsəlmanlıq Bəstaminin getdiyi yol isə mənim ona gücüm – taqətim çatmaz, ama əgər siz gedən yolsa mənim arzum yoxdur.

## VƏRƏSƏLİK BÖLGÜSÜ

Bir nəfər ata rəhmətə gedəndə onda 17 dəvə miras qalmışdı. Üş oğul öz arasında bölə bilmirdilər. Yoldan bir əəəb dəvəsi ilə

gəldi, söhbəti ona danışdılar və ö mürasın bölünməsini öz öhdəsinə götürdü. Dedi:

– Sizin 17 dəfəyə mənim dəvəmi də qatsaq olur 18 dəvə. Dəvələrin yarısı yəni 9-ü böyük oğulundu. Dəvələrin üçdə bir yəni 6-cı ortançı oğulun payıdı. 18 dəvənin doqquzda biri yəni 2-si kiçik oğula düşür. Deməli, 9 üztəgəl 6 üztəgəl 2 elədi 17 dəvə. Yerdə bir dəvədə qalıb o da mənim öz dəvəm. Hamıdan bölgüyə görə təşəkkür alıb, öz ərəb dəvəsini minib getdi.

## AĞILARDA ÇAŞMALAR

Bizim ana və bacılar hüzürlərdə elə ağılar deyirlər ki, həm də bunları vəziyyətə münasib elə yanğıyla söyləyirdilər ki, bunları yalnız dərdi başından aşan ana, Bacı düzə bilər.

Amma kədərli yas məclislərində də bəzən qadın çaşır, gülünc bir şey deyir. Belə oxşamalardan az qala bir lətifə kimi, rəhmətlik Fatma xanım xala (general-mayor Mustafa Nuriyevin anası, nənəmin əmisi gəlini. O qorxunc illərdən "Qızıllı Qurban ailəsiylə birlikdə: Mustafa və Şükufə bizdə nənəmə sığınmış, "ütü" keçənəcən daldalanmışdılar), Çaparlı Böyük xanım (müəllim kimi kirayənişin olduğum) və anam söyləmişdilər.

a) Bir arvadın evində bişiriləsi balığı varmış, onu bişirməyə uyğun tavası yox imiş. Elə tava fikirində olanda xəbər çıxır ki, yas düşüb. Arvad da qonşulara qoşulub gedir yasa.

Hamı ağ deyəndə bu da qoşulur və deyir:

Aşıq dava yaxşıdı,
Dərdə dava yaxşıdı.

Ağı deyəndə gözü evdəki rəfə düşür və orada balığını

bişirməyə  münasib tava görəndə,  ağının dalını yanılıb deyir:

Bizim balıq bişməyə
Sizin tava yaxşıdı.

Yanındakı arvadlar dümsükləyirlər onu ki, bu nədir dedin

b) Bir başqası:

Öldürmədi dərdün məni, ay bala,
Payız milçəyinə döndərib.
Dızzz eləyib bu divara,
Dızzz eləyib o divara.
Qonduran anan qurban,
Xalan qurban, olmayan əmim qurban.

v) Kənddə Abasalı adlı bir çoban ölmüşdü. Xalası onu belə oxşayıdı: Qabağuvun sürü qoyununa, əlüvün şobbu çomağına, sağ yanuvun sağmal qoyununa, sol yanuvun boz eşşəyinə, sənnən qardaş kimi sürü qoruyan Bozdar köpəyinə canım qurban Abbasalı heey…

q) Bir başqa dərdli qadın xalasını oxşayırdı: çəpər çəkib yol açan xala vay, şiş böyürdən[1] payım var. Çəpər çəkib yol açan xala vay piləkan sinədən[2] payım var. Çəpər çəkib yol açan xala vay, uzun azardan[3] payım var. Zeyqunnəfəsdən[4] payım var. Çəpər çəkib yol açan xala vay, göy ösgürəkdən[5] payım var…

---

[1] Qaraciyər serrozuu
[2] Sinəkirlik
[3] Vərəm
[4] Astma
[5] Göy öskürək (koklyuş)

(Bütün bu xəstəliklər onun əzizlərini aparıbmış). Özü də oxşamaq istəyən bir arvad dözmür, deyir:

– Aaaz, bu çəpəri açın, bu fağır çıxsın. Biz də dil demək istəyirik axı…

d) Tağılıda Vəsxanım adlı nişanlı bir qız hana qabağında oturub özüyçün xalça toxuyurdu. Kəndə əzgil gətiriblər, alır bir batman qoyur böyrünə; tumunu atmadan yeyir və çox ağır olan mədə-bağırsaq "pəndam" ilə həmin gecə ölür (o yerdə o zaman nə həkim, nə tibb məntəqəsi, nə imalə və s. vardı). Anası Gövhər xala axşam çağı mal gələndə qapının önündə gözəllər gözəli, yeganə qızının itkisinə tab gətirməyib bağırırdı, qızı çağırırdı:

– Ay Vəsxanım, heeey. Mal gəlir, dur qənşərinə çıx heeey…

Sonra çaşıb ağı dedi:
Qara toyuq qaq elədi
Qənəddəri şaqq elədi…

Nə demək istəyirdi? Bütün o 16 evli kənd onun səsinə ağlayardı. Çox çəkmədi, Gövhər xala da qızın dalınca dünyasını dəyişdi.

e) Ana babam Kərbəlayi Əliheydərin bibisi hüzürlüymüş. Şəhərdə başqa bir qohumun hüzürü düşür. Qədim ənənəyə görə bu "köhnə" hüzürlülər təzəyə başsağlığına gedəndə ağı deyərək girərdilər:

Aşıq haralı gəldi,
Ağlı-qaralı gəldi.
Sizin təzə hüzürə
Köhnə yaralı gəldi.

Hamı ayağa durub şaxsey gedərdi. Babamın bibisi də içəri

girir başın dəstəsilə; ev sahibləri sinə döyərək ayağa qalxır, şaxseyə başlayırlar. Bibi deyir:

Yeri-yeri yetim oğlan,
Qolunnan tutum oğlan.

Dərdli, ağlar qadınlar sinə döyür, nə deyildiyinin fərqinə varmır. Arvad:

Vurun sandıq açılsın,
İncili-mərcan seçilsin.

Onun dəstəsində tək bir ayıq qadın varmış. Bibinin ağı əvəzinə yanılıb uşaqların oyun düzgüsünü söylədiyini anlayınca arvadın qolundan tutub aşağı dartır, oturdaraq qulağına əyilir:

– Kəs, – deyir, – xalxın ağır, cavan yasına şuluqluq salma.

Oxşamaların faciəylə nəticələnəni də olub. Anam danışırdı ki, Şamaxıda Tərlan adlı bir oğlan alagözlü bir gözəli sevirmiş. Həmin qızı zəngin bir ailənin harın oğlu da istəyirmiş. Özümü, pullu tutduğu qatilmi Tərlanı öldürür. Hüzürdə Tərlanın anası belə bir ağı deyir:

Araz üstə, buz üstə,
Kabab yanar köz üstə.
Ana, məni vurdular,
Bir alagöz qız üstə.

Tərlanı öldürməklə "ürəyi soyumayan" qatil və onun adamları ananın ağısını mahnıya çevirtdirib, yığıncaqlarda, seyrlərdə, toylarda pul gücünə xanəndələrə oxutdururlar.

Nəğməyə çevrilmiş ağının nəqəratında cavanın Tərlan adını Tello kimi oxuyurlar:

Araz üstə, buz üstə – Tello,
Kabab yanar köz üstə – Tello,
Qoy məni öldürsünlər – Tello,
Bir alagöz qız üstə – Tello.

Aman Tello, Tellocan - Tello,
Canım Tello, Tellocan - Tello.
Çayda balıq yan gedər – Tello.
Açma, yaram qan gedər – Tello.

Yenə bir çobanı oxşayırlar. Gərmədən yastıqlı, eşşək çulundan yorğanlı, ömründə çay içməyən, paltarın yağış yuyan, gün qurudan, sağ yanı sağmal qoyunlu, sol yanı boz eşşəkli, əli şobbu çomaqlı, boz it Bozdar arxalı.

# ADƏT-ƏNƏNƏLƏRƏ AİD MÜSAHİBƏLƏR[1]

## ŞELLƏN, QONAĞIM, ŞELLƏN

**– Əzizə xanım, bizə niyə qonaqpərvər xalq deyirlər?**

Bizdə bütün xarici qonaqlar bir yana qalsın, biri biri-nə, yaxud bir kənddən o biri kəndə gedən adi qonaq da Allah qonağı hesab olunurdu. O qədər gözəl sözlərimiz var qonaq barədə. Görürsən ki, bir gün qabaq evə yaxşı bir şey gəlib, sabah da qonaq gəlir, onu çıxırlar həmin qonağın adına. Deyirlər, qonaq gəlməmişdən ruzusu özündən qabaq gəlir, yaxud qonağın ayağı yüngül oldu. Qonağa xidmətin o qədər rənglərini görmüşəm ki. Borc alıb qonağı yola salıblar və qonağa bildirməyiblər. Xalq arasında qonaq barədə çoxlu rəvayətlər var.

**– Bu rəvayətlərdən söhbət açardınız.**

Bir kişinin evinə qonaq gəlir və bu qonağın qalmağı uzun çəkir. Təngə gələn ev sahibi qonşu ilə danışır ki, "sən Allah, günorta çıx çölə, çörək yeyən vaxtımızda evi-mizin üstündən bir dənə tüfəng at." Qonşu deyir, yaxşı. Sabah bunlar günorta yeməyinə oturanda, evin üstündən bir dənə güllə keçir. Ev yiyəsi təşvişlə durur çıxır eyvana, başlayır söyməyə, "bir baxarsan, bunun əvəzini səndən çıxacağam." Qonaq soruşur ki, nə məsələdir? Deyir, əşi keçən il qarğaya güllə atanda səhv eləmişəm, gülləm onun qonağına dəyib. İndi and içib ki, mənim də qonağımı öldürsün. Sən qorxma qonaq qardaş, əgər o səni öldürüb eləsə, onun düz 10 qonağını öldürəcəyəm." Bunu eşidən qonaq qorxusundan həmin gün evi tərk edir. Əlbəttə, bu bir zarafatdı.

---

[1] Müsahibələri Saminə Hidayətqızı aparıb.

**– Keçən dəfə də bir başqasını danışdınız, "şellən qonağım, şellən"...**

Bir kişi yoldan keçirmiş, özü də ac və susuz imiş. Dö-yür bir qapını ki, Allah qonağı istəmirsiniz? Deyirlər, Alla-ha da qurban, qonağına da, buyur gəl. Girir içəri, görür bir culfa oturub dəzgahda nəsə toxuyur (culfa xalça toxu-yana deyirlər), dizə qədər çırmaqlı ayaqlarının altına pal-çıq tökülüb. Kürəyinə bir nehrə, bir qoluna bir ip, o biri qoluna da bir ip bağlanıb. Deyir:

– Qonaq qardaş, xoş gəlmisən.

– Xoş gəlmişəm, amma mənə de görüm o palçıq nədir?

– Əşi, görürsən də bez toxuyuram. Onsuz da ayaqlarım hərəkət edir, boş dayanıb nə edəcəyəm, arvad təndir üçün palçıq qoyub, ayaqlarımla onu tapdalayıram.

– Bəs bu kürəyindəki nehrə nədir?

– Onsuz da hərəkətdəyəm, nəhrəni arvad bağlayıb be-limə ki, çalxansın özü üçün.

– Bu sağ qolundakı ip nədir?

– Arvad taxılı yuyub dama sərib, quşları qorxutmaqdan ötəri qarovul qoyub, onun ipidir, əlim onsuz da hərəkət edir, bunlarla quşları qovuram.

– Bəs sol qolundakı nədir?

– Uşaq beşikdə yatıb, arvad dəyirmana gedəcək, hazırlıq görür, ona görə beşiyi yelləyirəm bu qolumla. Onsuz da bu əllərim hərəkətdədir.

Qonaq gələn kişi heyrət içərisində oturub baxır. Culfa deyir:

– Qonaq qardaş, ac olarasan yəqin?

– Hə, acam.

– Fikir eləmə, qonağım. Bax arvadın yuxarıda sərdiyi dən quruyacaq, onu aparacaq dəyirmana, yaxşı bir un çəkib gəti-rəcək. Nehrədən yağ çıxacaq, arvad gözəl bir xəşil bişirəcək, o

yağdan qoyacaq onun üstünə, yeyər-sən?!

– Niyə yemirəm?

– Şellən qonağım, şellən. Fikir eləmə, evdə bəhməz də var. Əgər xəşil xoşuna gəlməsə, arvad unu çəkib dəyir-mandan gələcək, yaxşı bir quymaq çalar, üstünə bu doşabdan verər, bu yağdan da qoyar, yeyərsən?!

– Niyə yemirəm?

– Şellən qonağım, şellən.

Qonaqla bağlı belə baməzə əhvalatlar danışıblar, qızım. Amma əslində qonağın haqqını ən müqəddəs haqlardan biri hesab ediblər, qonaq gəlməsi Allahdandır deyiblər. Gör nə cürə açıq ürəkli olublar ki, hətta "qonaq kafir də olsa ona hörmət eləməlisən"deyiblər.

## İRIZ EŞŞƏYİN, FEL GƏLİNİN

Bələdçimiz milli adətlərimizin gözəl bilicisi, Xalq yazıçısı Əzizə Cəfərzadədir

**– Əzizə xanım, qayınananın gəlinin başına gətirdiyi oyunlardan danışın...**

Qayınana deyir:

Mən gəlinimi az istəyirəm,
İkicə gözünü boz istəyirəm,
Oğul üzünə həsrət qalsın,
Hər doğduğunu qız istəyirəm.

Bir arvadın 3 gəlini var idi. Bu gəlinlər istəyirlər arvadın gözündən yayınıb bir tikə qənd, ya bir dişdəm çörək artıq

qoysunlar ağızlarına. Bu əzazil qəndi qənddanda sayırmış. Səhər tezdən yoxlayırmış ki, toyuqların neçəsi yumurtlaya-caq. İndi bunun gedən yerləri də var axı. Bir gün qayınana yas yerinə gedəndə gəlinlər 3-4 yumurta götürürlər. Qay-ğanaq bişirib yemək istəyəndə qapı döyülür və arvad içəri girir. Gəlinin biri bunu yuxaya bükür bağlayır qarnına. Amma qorxurlar ki, açılıb düşər yerə. Bir-birinə işarə olaraq oxuyurlar.

Birinci gəlin deyir:

Bax, bu da bir fənddi, bacı.

İkinci gəlin:

Qatmacığaz bərkdi, bacı.
Yəni bərk bağlamışam qatma ilə.

Üçüncü gəlin:

Bilsə qiyamətdi, bacı.

Gəlinin biri çörəyi götürəndə həyətdəki eşşəyə minir. Dal-dalı eşşəyi sürürlər tabağın başınacan, çörəyi götürüb qayıdırlar geri. Qayınana gedəndə tabağa əl vurmasınlar deyə evə şirə çəkibmiş. Şirənin üstü ilə yerisələr ayaqlarının izi görünür axı. Yumurta ilə çörək yeməlidirlər, ya yox.

Qayınana girir içəri. Hələ yumurtadan, bunların geyimindən xəbəri yoxdur. Baxır, tabağa qədər eşşəyin ayaqlarının izini görür və deyir: "Həəə, ırız eşşəyin, fel gəlinin".

Bəs belə bır misal da var axı, "qayınana ipək yumaq oldu düşdü gəlinin başına, gəlin dedi vay başım yarıldı..."

Bəd gəlinlərdən də dillərdə çox rəvayətlər dolaşır.

Gəlin gəldi, xan gəldi,
Evləri yıxan gəldi,
Əlində ülgüc-tiyə,
Başımızı qırxan gəldi.

Bir gün oğul evlənmək istəyir. Arayırlar-axtarırlar, şəhərdən bir qız tapırlar. Oğul görür gəlin həmişə xörəyi birinci çəkir aparır qoyur arvadın qabağına, amma fikir verir ki, anası elə günü-gündən geri gedir. Anasını güdür. Bir gün arvad gedir ərdə olan qızıgilə. Kürəkən baxır görür ki, deyəsən gəlinindən narazı olan qayınanası onlarda məskən salmaq istəyir. Fikirləşir ki, nə etsin. Qazandan küftənin birini götürüb qoyur qayınananın cibinə. Yoldaşına deyir ki, "asılqandan paltarımı götürmək istəyirdim, əlim dəydi yumru bir şeyə. Anan qazandan küftəni oğurlayıb qoyub cibinə. Bu nə deməkdir, bəyəm biz onu ac saxlayırıq?" Qız ərinin tənəsindən çox xəcalət çəkir və bunun səbəbini anasından soruşur. Məsələni başa düşən qadın axşam tərəfi oğlunun evinə qayıdır. Oğul təsadüfən yolda anasını görür və düşür bunun ardınca. Görür anası özü-özünə "Altı daş, üstü aş, yenə də oğul yaxşıdır" sözünü təkrar edə-edə gedir. Oğlan ürəyində fikirləşir ki, bu boş söz olmaz. Axşam süfrə başına yığışanda fikir verir, görür gəlin plovu qaladı, apardı qoydu qayınananın qabağına ki, ayrıca yesin. Oğul anam gətirib otuzdurur öz süfrələrində, deyir ana ye, baxım. Ana deyir ay bala, siz cavan adamlarsınız, gedin oturun yeməyinizi yeyin, mən sonra yeyərəm. Oğul əl çəkmir. Arvad məcburiyyət qarşısında qalıb yeyir. Birinci tikəni vuran kimi... Sən demə, gəlin nimçəyə bir bülöv yekə bir daş qoyub, üstündə tütyə-təbərrək bir damcı düyü töküb, vəssalam. Olub altı daş, üstü aş. Oğul bunu da qovur, deyir səndən mənim anama gəlin olmaz.

## QAYINANA

“Yaz günündə gəlinim otursun qızı qucağında...”

Qayınana çox zəhmətkeş arvad imiş. Bir dəfə deyib ay gəlin, Allah atana rəhmət eləsin, mən öləndə, məni oxşa- yanda deyərsən, ay bədbəxt qayınana, ay kərmədən yataqlı, eşşək çulundan yorğanlı, kərmə qoğalından yastıqlı, ömründə çay görməyən, paltarını yağış isladan, gün qurudan qayınanam vay...

**– Əzizə xanım, keçən dəfə gəlinlərin qayınanaların başına gətirdiyi oyunlardan danışırdınız, mənə elə gəlir sözünüz qurtarmadı...**

Qayınana-gəlin söhbəti qurtaran deyil, qızım. Bir müddət keçir. Arvad deyir ki, ay oğul, vallah, sən gedəcəksən uzaq səfərə, tək-tənha qalacağam, bəlkə bu dəfə baxtımıza yaxşısı çıxar. Oğlunun saqqızını oğurlayır, oğlan gedib birini alıb gətirir. Oğlan bu dəfə nigaran gedir səfərinə. Bunlar gəlinqayınana babat dolanırlar. Bir gun həyətə meymun oynadanlar gəlir. Camaat pulu tökür qaraçı kişinin başına. Camaat da-ğılışandan sonra gəlin yaxınlaşır kişiyə ki, “Bilirsən nə var? Gəl sənə bir dənə qoca arvad verim, elə oynamaqlar bilir, gəl görəsən. Bu cür meymun oynatmaq nədir ki, hamı meymun oynadır də. Amma bu cürəsi olmayacaq”. Sözləşir, hesablaşır, xeyli pul alıb qayınananı satır bu kişiyə. Kişi arvadı götürüb çıxıb gedir. Bu şəhər sənin, o şəhər mənim. Salıb ortalığa arvadı oynadır və pul yığır. Şəhərlərin birində oğlu görür ki, adamlar yığılıb nəyəsə tamaşa edir, hamı heyrət içindədir, məəttəl qalıblar belə bir əhvalata. Maraqlanır ki, bu nə məsələdir? Yaxınlaşıb görür anası ortalıqda, kişinin də əlində qamçı, bunu meymun əvəzinə

oynadır. “Ay dədə vay” ikiəlli qapazı çəkir başına. Camaat sayxaşandan sonra yaxınlaşır kişiyə ki, “Qardaş, bu arvadı sat mənə”. Deyir, “Yox, sən nə danı-şırsan, mən ondan o qədər pul qazanıram ki... Eylə pul verib almışam, mən onu hara satlaram”. Deyir, “Ay kişi, bu mənim anamdır, namərd insan anamı bu günə qoyub”. Axırı ki, çox yüksək pula anasını alır gətirir evə. Arvadını salır qamçının altına əzişdirir və evdən qovur. Deyir, “Ana, Allah sənə gəlin, mənə ömür yoldaşı yazmayıb. Qurtardıq biz gəlin almaqla”.

Dədə-babadan qalma çoxlu qayınana-gəlin deyimləri var.

Gəlin deyər:

Qayınanamı bağda ilan vuraydı,
Baldızıma Quran qənim olaydı,
Qayınatama Məkkə qismət olaydı,
Sevgilimə canım qurban olaydı.

Qayınanam qaynar qazan,
Əl vurmamış danqıllayır.
Baldızım-çuvaldızım,
Dəm-dəm gələr sancar məni.
Qaynım gül ağacı,
Qapıda bitər, mən neynəyim?

**– Zalım qayınanalardan da danışardınız...**

Zalım qayınanalar çoxdur. Müharibə vaxtında qonşumda bir əzazil qayınana var idi. Gəlinin qucağında uşaq oğlunu müharibəyə apardılar. Qayınana gəlinin təzə incə tuflilərini geyib quyudan su çəkir. Bu vaxt arvadın öz qızı dedi ki, “ana, ayıb deyil, o gəlinin ürəyinə sən niyə xal salırsan, yaxşı deyil, cavandır”. Qayınana nə desə yaxşıdır? “O qədər mənim kimi

kötüklərin üstündə sizin kimi çırpı doğrayıblar ki... O qədər mənim kimi küplərin yarıında sizin kimi bardaqlar sınıb ki". Müharibə uzun çəkdi. Gəlin o arvaddan heç nə görməmişdi. Amma ərinin məhəbbətinə görə qayınananın bütün əziyyətlərini çəkdi.

Belə bir rəvayət var. Qabaqlar evin damında yatardılar də. Damın bir tərəfində oğlu yatıb gəlini ilə, bir tərəfində qızı yatıb kürəkəni ilə. Baxıb görür ki, qızı ilə kürəkəni aralı yatıb. "Ay bala, soyuq olar sizə" deyib, əli ilə onları bir-birinə yaxınlaşdırır və üstlərini örtür. Keçir o yana, görür ki, oğlu ilə gəlini qucaqlaşıb yatıblar. "Aaaz, bişdi uşaq istidən ki,"deyib onları ayırır. Fikir verin, bir damda iki hava, birinə soyuq, o birinə istidir.

Gəlin gəldi haçan gəldi
Dörd ayaqlı siçan gəldi
Gecə döşək mollası
Gündüz sirrimi açan gəldi.
Mən gəlinimi çox istəyirəm,
İki gözünü boz istəyirəm,
Oğul üzünə həsrət qalsın
Hər doğduğunu qız istəyirəm.

Bir dəfə qayınana nəvəsini oynadır deyir:

Yaz günündə gəlinim otursun qızı qucağında,
Payız günündə qızım otursun oğlu qucağında.

Yaz günü adamı qaraldır, payız günü ağardır axı...
Yəni gəlini qaralsın, qız doğ-duğuna görə oğlu onu çox

istəməsin, qızı ağarsın gözəlləşsin, həm də oğlu olsun qucağında, kürəkəni onu çox istəsin.

## GÜNÜ

"A lal gəlin, kar gəlin, südün daşdı dillənsənə..."

**– Əzizə xanım, xalq arasında günülüklə bağlı çoxlu rəvayətlər dolaşmaqdadır...**

– Belə bir bayatı var:

Dağlara hünü gəldi,
Hününün mini gəldi,
Evim onda yıxıldı,
Üstümə günü gəldi.

Azərbaycanın kəndlərində günülük, çarşab, başlarına şal örtmək, yaşmaq tutmaq çox yayılmamışdı. Ərləri ilə qollaşıb at yükləyirdilər, dəvə yükləyirdilər, ona görə ki, əksəriyyəti köçəri, yarımköçəri tayfa idi. Bu daha çox şəhərlilərə aid idi. Məsəl var, "günü günü deyil, balası günüdür". Bunu sonradan gələn gəlin deyib. Çünki əvvəlkinin balası döyürdü, incidirdi bu gəlini.

Bir qız ər evinə gedəndə anası toydan sonra bunun cibinə bir dənə daş qoyur. Deyir, "qızım, bax qayınanana, qayınatana cavab qaytarma, səsin çıxmasın, bu daş dillənəndə sən də dillənərsən". Qız da bunu hərfi mənada başa düşür və ər evinə gəlib danışmır. Qarapapaq qəbiləsində adət var idi, gəlin danışmazdı. Sözü deyəcəksə, qayınanaya, balaca baldıza pıçıldayardı. Hə, bu gəlinin rəftarından, mehribançılığından,

tərbiyəsindən çox razı olan qayınana, qayınata elə bilirlər ki, gəlin laldır, kardır. Qayınana axırda məcbur olur, oğlu ilə məsləhətləşir, onun üstünə başqa kənddən arvad alıb aətirirlər. Evdəki gəlin südü qoyub ocağa bişirirmiş. Görür uzaqdan atın üstündə təzə gəlin gəlir. O zaman gəlini atla gətirərdilər. Qapıya yaxınlaşan təzə gəlin atın üstündən deyir:

A lal gəlin, kar gəlin,
Südün daşdı dillənsənə...

Günü evdəki o səsi çıxmayan gəlini elə dilləndirir ki, daş yadından çıxır. Deyir:

Yanı yəhər qaşında,
Gözü ocaq başında,
Düşübən qoymasadın...

Deyirlər, "ay aman, bizim gəlinimizin dili var imiş?" Elə atın üstündən o təzə gəlini qaytarırlar geri, gedirlər ailəsindən inciklik üçün üzr istəyirər. Gəlindən danışmadığının səbəbini soruşanda deyir, "bəs anam daş qoymuşdu cibimə ki, bu daş dinəndə, sən də dinərsən."

**– Əzizə xanım, şəriətimizə görə.kişilərə icazə verilir bir neçə arvad almaq?**

Rəsuli Xudanın dediyi şəkildə, yəni imkanı olan kişi bərabərlik məsələlərinə əməl etməklə bir neçə arvad saxlaya bilər. Amma ərin ikinci qadını almasına birinci qadın icazə verməlidir. Hansı qadın buna razılıq verər? O zaman ərindən boşanması çox mətjrsfpiyyət gətirirdi qadına. Bəzən qadınlar belə hallarda kişiyə Wazıfoq'verirdi ki, "get, döşü südlü dul

qadın al.” Elə qadın da var idi uşaq götürürdü, köynəyinin altından keçirirdi. Rəvayətlərdə deyirlər ki, Fətəli şahın qadını Ağabəyim ağa onun oğlu Abbas Mirzəni yaxasından keçirib övladlığa götürübmüş. Bu qadın övladı olmadığı halda baş hərəm idi, hətta İngiltərə imperatorunun nümayəndəsini, səfiri də o qəbul eləmişdi.

**– Klassik ədəbiyyatımızda bu məsələyə toxunulub?**

– Bizim klassik ədəbiyyatımızda “Sarı toyuq” adında bir hekayə var. Əmioğlu ilə əmiqızı evlənirlər, amma övladları olmur. Arvad çox deyir ki, “Ay kişi, evlən”. Kişi buna qətiyyən razılıq vermir. Axırda məcbur olub bazardan bir dənə sarı toyuq alıb gətirir. Qadın deyir, “A kişi, nə yaxşı toyuq almısan?” Kişi deyir, “Toyuq deyil, arvad almışam özümə”. Arvad deyir, “Məni ələ salma." Kişi toyuq üçün ayrıca otaq ayırır və özü gündəlik yediyi xörəkdən ona yedizdirir. Arvadda özündən asılı olmayaraq qaynama başlayır. Bir gün kişi görür otaqdan toyuğun səsi gəlir. Arvaddan soruşur, ”Nə olub ona?” Deyir, “Mən nə bilim, düyü aparmışdım tökəm, qığıldayır.” Arvada deyir, “Yəqin vurub eləmisən”. Qadın əsəbiləşib deyir, “Mən toyuq dili bilmirəm, bilirsən, gəl özün danış”. Səhər kişi gülə-gülə toyuğu kəsib, yaxşı toyuq-plov bişirtdirir. Deyir, “Əmiqızı, sən sarı toyuğa davam eləmədinsə, insana necə davam edəcəksən? “Belə nadir kişilər olub ki, özləri sevdiyi qadının üstünə başqa qadın gətirməyə razılıq verməyiblər. Qadınların içərisində var idi ki, həqiqətən uşağı övladlığa qəbul edirdi.

## "UZUN ƏLİM DƏDƏM EVİNDƏ QALIB..."

Qədimdə gəlini belə bəyənirdilər...

**– Əzizə xanım, keçən dəfə mənə bir söz dediniz, "Saminə, bala, uzun əlim evdə qalıb, o kitabı ver mənə"...**

– Hə, bu uzun əlin əhvalatı var, bala. Bir ailə evinə gəlin alıb gətirir. Bir neçə gün görürlər ki, gəlin oturub otağın bir qırağında, heç bir iş görmür və heç nəyə əlini vurmur. Əvvəl fikirləşirlər ki, təzə gəlindir də, hələ alışmayıb evə. Görürlər yox ey, həftə də keçdi, gəlin elə qırr edib oturub yerində, heç yerə durub eləmir. Qayınana, baldız deyir, ay gəlin, dur ayağa filan işi gör, ay gəlin, get o qabı gətir. Hər dəfə gəlin deyir ki, uzun əlim dədəmin evində qalıb.

– Gəlin, dur ayağa qabları yu.

– Uzun əlim dədəm evində qalıb.

– Gəlin, dur ayağa piyalələri oradan gətir bəri!

– Uzun əlim dədəm evində qalıb.

Ailə fikirləşir ki, bu nə olan işdir. Xəbər göndərirlər qızın atasıgilə ki, qızınız deyir uzun əlim dədəm evində qalıb, onu göndərin görək nədir? Yoxsa bu gəlin bir iş görmür. Deməli, atanın evindən oğlan evinə gəlin üçün bir dənə uzun qollu kürək, bir dənə qıra göndərirlər...

**– Qıra nədir?**

– Qarmaq kimi bir şeydir, bir də kürəyə bənzəyən bir dənə uzun qulplu bir şey.

– Ay gəlin, qabları qoy yerinə.

Gəlin qabı qoyur kürənin üstünə, uzadıb qoyur yerinə.

– Ay gəlin, qazanı gətir.

Qıranı uzadır, əşyanı qarmağa ilişdirir, gətirir yaxına. Demə,

gəlinin uzun əli bu imiş.

**– Əzizə xanım, o vaxtlar gəlin alanda o gəlinin səliqəsahmanını yoxlayardılar...**

Gəlinin səliqə sahmanını elçiliyə gedəndə yoxlayardılar. Gəlirdilər, məsələn, qapıdan içəri girirdilər, "a qızım, a qızım, bir stəkan su ver bizə". Bunlar başmaqlarını qarmaqarışıq çıxarıb giriblər içəri. Əgər qız başmaqların üstündən atlanıb gedib suyu gətirirdisə, deyirdilər yox, bunun səliqə-sahmanı olmaz. Yox, əgər su gətirmək üçün gedəndə o başmaqları cütləyib səliqə ilə qoyub gedirdisə, onda deyirdilər, hə, bu səliqə-sahmanlıdır, bunu almaq olar. Özləri ilə cavan qızları, baldızdan-zaddan götürüb aparırdılar, bu gəlini öpməliydi ki, yoxlasınlar ağzından iy gəlir, ya gəlmir.

**– Əzizə xanım, eşitdiyimə görə gəlini ən çox hamamda bəyənirdilər?**

Bu saat deyim sənə. Gəlini hamamda bəyənirdilər, boy buxunu və sair. Analar qızlarını öyrətmişdilər, hamamda yaşlı qadının başından su tökmək hörmət əlaməti, mərifət əhli olmağa işarə idi. Qız tası doldururdu su ilə, qohumduqonşudu, yaşlı arvaddı bir qab su tökürdü onun başına. Deyirdilər filankəsin qızı, balam əcəb salğalı qızdır.

Qızlar hamamda hamısı fitədə olar, yaşlı qadınlardan gizlənərdilər. Məsəllər var idi ki, hamama gedib sütun dalında gizlənib. "Ay gəlin, gəl bir kürəyimi kisələ." Belə-belə şeylər onları yoxlamaq üçün idi. Sonra tutaq ki, yaşlı qadın çıxırdı geyinməyə. O vaxtlar balaca hamam xalçaları olurdu, otururdu o xalçanın üstündə. Ayaqları axı yerdədir, gəlib onun ayağına su tökmək lazımdır, adətən bunu kisəçi qadın etməli idi, hansı qız ki, tez gəlib su tökürdü, bu mehriban xasiyyətli qız hesab olunurdu. Toylarda isə geyiminə, oynamağına fikir verərdilər.

Misal üçün deyərdilər ki, qızı bəyənmək istəyirsənsə təndirə çörək yapanda, hamamdan çıxanda, bir də toyda bəyənmə.

**– Niyə?**

– Ona görə ki, təndirin istisi ona hərarət verib gözəlləşdirib, toy fərəhləndirib gözəlləşdirib, hamamda həmçinin kisələnib yuyunub gözəlləşib. Qızı bəyən paltar yuyandan sonra, həyət süpürəndən sonra...



## NAĞIL: KASIBIN MƏKKƏ ZİYARƏTİ

Biri vardı, biri yox idi. Allahın bəndəsi çox idi. Qəndahar şəhərində mömin müsəlman çox kasıb kişi yaşayırdı. Ömürüb uzunu işləyib həm ailəsini saxlayır, həmdə Məkkə ziyarəti həvəsi ilə xırda-xırda pul-qızıl toplayırdı. Vaxt gəldi. Ziyarəti üçün var toplaya bildi. Qohum-əqrəba, arvad-uşaqla halallaşıb yola düşdü. Piyada zəvvar idi. Günə bir mənzil, təyyi-mənazil yol gedirdi. Günərin birində yol üstündə gördü ki, bir uca boylu qara çarşablı arvad zibillikdə eşələnir. Nəysə axtarır. Diqqətlə fikir verib gördü ki, arvad bir ölü toyuq tapıb qoltuğuna vurdu, getdi. Bu kişi xeyli təəccübləndi. Dedi:

− Gərək gedib görəm bu arvad zibilliyə atılmış ölü toyuğu hara aparır və neynir?

Qarabaqara arvadın ardınca gedib gördü: arvad bir kasıb daxmaya çatdı, qapıya bir dəstə uşaq yığılmışdı. Ağlaşırdılar. Arvadı göyçək yanına cumdular: − Ana, acıq. Ana yeməyə nə tapdın?

Arvad onları sakitləşdirib dedi:

− Bax toyuq alıb gətirmişəm. Siz yatın, mən onu təmizləyib bişirim. Bişən kimi sizi oyadacam.

Uşaqlar sakitləşib içəri keçdilər və yatdılar. Arvad ocaq qaladı, su qaynatı; ölü toyuğu suya basib tükünü təmizləməyə başladı...

Kişi hər şeyi anladı. Onsuz da özü kasıb olsa da ehtiyacı olanlara ən tutmaq xasiyyətiydi. Tez gəlib arvaddan soruşdu:

− Bacı bağışla sən allah bu ölü toyuğu nəynirsən?

Arvad utana-utana cavab verdi:

− Qardaş, Allahdan gizlin deyil, bəndədən nə gizlin. Baş yoldaşım daşçıydı. Usta bənna əli altında işləyirdi. Başına daş

düşüb, Allah rəhmətinə gedib. Qalmışam bir çətən külfətlə qara damın altında. Kimimiz kimsənəmiz də yoxur. Indi ölü toyuğu, murdar olsada allah məni bağışlar bəlkə, bişirib o ac balalarıma verəcəyəm.

Arvadı ağlamaq tutdu. Məkkə ziyarətinə gedən kişi bütün pullarını, azuqəsini arvada verib dedi:

− Bacı, bunları elə siziyçün göndəriblər.

− Kim? Harda? Suallarına cavab vermədən kişi evinə sarı döndü.

Arvadı onu görüb dedi:

− Əyşi, nə tez qayıtdın?

Qonşular:

− Qardaş, ziyarətin qəbul olmadı? Ağa istəyə gərək adamı.

Heç kəsə bir söz deməyən kişi öz iş-gücünə baxdı. Bir gün xəbər çıxdı ki, həccə gedənlər olub məkkədən qayıdırlar. Hamı onları "ziyarət qəbul" üçün qarşıya çıxdı. Kişi utandığından evində əyləşmişdi. Birdən bütün Məkkədən gələnlər onun qapısına gəldilər:

− Ziyarətin qəbul.

− Biz səni Məkkədə, Mədinədə, Sina dağında gördük.

− Nə yaxşı bizdən tez gəlib evə çıxmısan?

Kişi heç kəsə yenə də bir söz demədi. Amma anladı ki, allah onun yaxşı əməlini məkkə ziyarətinə bərabər tutub. Ziyarəti qəbul olub.

Odur ki dəyərlər: Məkkəyə getməkdənsə, bir ehtiyacı olana əl tut.

# XALQ MƏİŞƏTİ VƏ MƏTBƏXİNDƏN SÖZ DÜZÜMÜ

## Kabablar

Şiş kababı, təndir kababı, tava kababı, quyruq kababı, balıq kababı, ağ ət kababı, kartof kababı, badımcan kababı, toyuq kababı, hinduşka kababı, quzu kababı, basdırma kabab, içalat kababı, sacüstü kabab, dəri içində kabab, bütöv qoyun kababı, dambuq kababı, bibər kababı, saciçi (bir növ kələfır, amma sacda bişir) kabab.

## Dolmalar

Kələm dolması, yarpaq dolması, badımcan dolması, pomidor dolması, xiyar dolması, bibər dolması, alma dolması, yumurta dolması, kartof dolması, soğan dolması, heyva dolması, pip yarpağı dolması, əməküməci dolması, heyva yarpağı dolması.

## Xörək adları

Toyuqplov, paxlaplov, şüyüdplov, narqovurma plov, turşu plov, zoğal çəkmə, çığırtma plov, fisincan plov, saciçi, piti, bozbaş, küftə-bozbaş, bozartma, kələfır, qayğanaq, qaysava, qəlyə, boz qovurma, boranı, qara qovurma, sacarası, ət qutabı, iç qutabı, qarın qutabı, göyərti qutabı, balqabaq qutabı, əvəlikçilo, lobyaçilo, mərciçilo, maşçilov, zirişplov, sirkəplov, şirinplov, boyanaplov, razyanalı plov, şəştərəngi plov, səbzəplov, yar-paçilov, südlüçilov, tərçilov, küküçilov, narıcplov, turuncplov,

turşuplov, şirəplov, qırqovulplov, kəklikplov, lərgəplov, çilplov, qazplov, quzuplov, həllə, umac, bulamac, soğanbozbaşı, cır-bır, balqabaq qəlyəsi, dovğa – ayrandan, yarma, tutmac, qındı, həlmaşı, hədik, işkənə, basdırma, qovurma, şilə, şorba, südgözü, qara umac, südlü umac, əriştə, ispanaq, mütəncəm, əcəbsəndəl, narnumru.

Tutmac – ayranda bişən xaşıl.

Buğdadan bişən – yarma aşı, yarma sıyığı, həlimaşı, hədik.

Buğda nişastasından – sucuq (nimçədə), sucuq (asma), həllə tərək, noğultərək.

Düyü unundan – firni, müşrifi, balaqdərviş.

Əriştə bəylər aşı,
Xingəl onun yoldaşı.
Umac ilə bulamac
Vecsiz arvadlar işi.

**Çərşənbələrdə bişən plovlar**

Xəbərçi – Mərciplov
Yalançı – Lobyaplov
I çərşənbə - Sirkəplov
II çərşənbə - Döşəməplov
III çərşənbə - Fisincanplov
IV çərşənbə - Şirinplov (Düyüyə doşabla yağ gəsdirərdilər)

İlaxır çərşənbə - Toyuqplov
Bayramaxşamı -Toyuqplov (Turşuqovurma olmaz)

Sədri düyüsündən – Səbziqovurma, fisincan
Akülə düyüsündən – qalanları
Ənbərbu düyüsündən – Toyuqplov.

## Kasıb yeməkləri

Soğan bozbaşı, ayran dovğası, həllə, qındı, xəşil, bulamac, göyərti boranısı, çilov, yarma, yarma çilov, umac, əriştə, qara əriştə, balqabaq, kudu – qızartması, lobyalı qəlyə. Göyərti qutabı, balqabaq qutabı, mal və ya qoyun qarnının qutabı (əlinə düşsə), horra, əppəkqatığı.

## Şərbət-içkilər

Palda, paldava, zəfəran şərbəti, reyhan şərbəti, ayran, hil şərbəti, gülablı şərbət, qəndab, iskəncəbi, cecə – tut arağı, ovşara, lumu ovşarası, narıncı ovşara, nar ovşarası, bədmüşk ovşara, gülab ovşarası, albuxara ovşarası, nanə ovşarası.

## Çörək-şirniyyat

Külçə, şorqoğal, şəkərtıxma, şəkərbura, badamburma, paxlava, ballıbadı, bəyimçörəyi, südlü çörək, kömbə, sacarası, yayma, fətir, fəsəli, şitfətir, tax-tax, bozdamac.

Halva (umac), tərhalva, İsfahan halvası ədavalı, səməni – duru, sucuq – nimçədə, sucuq – asma, Şəki paxlavası, Quba paxlavası, məzə halvası: badamlı, qozlu, püstəli, firni,

balağdərvaş, müşrüfi, narnumru, doşab halva, bal halvası, püstə, badam və ya qoz halvası, qozinaki, küncüt halvası, qatmalı – (qaynayan suya yayılmış xəmir tikələyir, qatığı da çalıb üstünə tökür – içirlər, yeyirlər – kasıb).

## Çörəklərin adı

Bozdamac.
Acıtma – Sacda bişən yayılmış.
Yayma – Şirvan bölgəsində lavaşın adı.
Fətir – Qalın yayılmış yayma.
Çapıtma – Biraz kiçik ölçülü və qalın yayma.
Əlcə – Yaymanın parçası.
Qulağ – Yaymanın 1/4 hissəsi.
Yuxa – Nazik yayma.
Çırpma – Yuxanı unla çırpırlar olduqca nazik yayma olur.
Halafətir – Acıdılmamış təndir çörəyi.
Sacarası – İki sacarasında bişən acıtma çörək.
Külçə – Süd, yağ və yumurta ilə acıdılmış təndir çörəyi
Təndir çörəyi – Aıdılmış adi təndirdə bişən.

## Haşiyə: Çağ çörək

Bir gün Əzizə Cəfərzadə Pünhan Sədaya zəng edir. Soruşur ki, qızım nə edirsən? Pünhan Səda cavab verir ki, "çörək cağ eliyirəm" . Əzizə Cəfərzadə də soruşur ki, o nə olan şeydir? Səda Pünhan bədahətən bu bayatını deyir:

Gəl eliyək cağ[1] çörək,
Eyləsin cağ-cağ çörək.
Yandırmayın amandı,
Heyfdi bu ağ çörək. (Pünhan Səda)

Həftəsonu Pünhan Səda Əzizə Cəfərzadəyə dəyməyə gəlir. O da deyir oturma, o siyirtmədən kağız-qələm götür, o gün dediyin bayatını yaz, neçə gündü demisən, arada bəzi sözlərini xatırlamıram.

### Süddən düzəldilən məhsullar

Bulama, ağuz, kələkə, pişdağ, çırtdanağ, dələmə, qaymaq, pendir, şor, ayran, kəsmik, qatıq, tarıqatığı.

### Tutmalar

Xiyar, göy pomidor, badımcan, zirişli soğan, göyəm tutması, kələm tutması, bibər tutması, sarımsaq tutması, xırda qarpız, cır alma tutması.

### Ədviyyat

Darçın, zəncəfil, hil, mixək, razyana-boyana, cirə, zirə, xaşxaş, küncüt, dəfnə yarpağı, qırxbuğum, kəklikotu, mərzə, nanə, istiot, quluncan, sarıkök, zəfəran, cövüz, badyan, limon duzu, reyhan qurusu, yarpız.

Albuxara, alça qurusu, şüyüd qurusu, abqora, sirkə, urub,

---

[1] Çörəyi peçin üstə qoyub o üz, bu üz qızartmaq

nardança, narşərab, lavaşana, zirinc, əvəlik, badam, püstə, qoz ləpəsi, düyü unu, nişasta (buğda), gülab, qara çörək otu, axta zoğal, vişnə.

O qədər ki, xörək müxtəlifliyi və zənginliyinə kəşfə məharətlə … başqa elmi kəşflərə vaxt qalmayıb.

## Meyvə adları

Alça: cır alça; peyvəndi; sarı alça; qara alça; turş alça; turşa-şirin.

Qovun-yemiş: Ağaxani qov; Ağansa qovun; Ağtel qovun; Süneyvaz; Bilərcin; Füzdəli; Bozdəli; Torlu; Dəvədabanı; Şamama; Kəlik; Karrar qovun; Pirəkəşkül.

Qarpız: Ağdanə qarpız; Qaradanə qarpız.

Almalar: Qubanın ağ alması; Quzugörən; Qızıləhmədi; Qəbələ.

Əzgil: Peyvənd əzgil; Cır əzgil.

Armud: Nararmudu; Gülabi armud; Sit armud; Lətənz armud; Ağzəhri armud; Qırmızı zəhri armud; Daş armud; Kürzüki armud.

Nar: Balay Mürsəl; Vələs narı; Pirhəsən narı; Gülöyşə nar; Göyçay narı; Turş nar.

Gavalı: Albuxara gavalı; Xətmi gavalı.

Zoğal: Ağ zoğal; Qırmızı zoğal; Qara zoğal; gürcü zoğalı.

## Qab adları

Dəhmərdə, xeyri, bardağ, küpə, sini, piyala, teşt, ərsin, tabağ, navar, sac.

## Mis qab adları

Sərnic, satıl, güyüm, qana, abgərdən, piyala, xeyri, dəhmərdə, məcmei, sini, birəlli, tayqulp, ibriq, aftafa-ləyən, dolça, bəzək sandıqçası, teşt, ərsin, küp, küpçə, mərtəbə, kisa, badya.

Misdi,
Qoy ocağa olsun isti,
Döyəcdə olsun yastı,
Qıraqların qatdala olsun məcməi.

## Alətlər

Yaba, mala, dirmığ, kərki, vəl, kotan, xış, dəryaz, balta, oraq-çin, şana, bel, kürək, əskənə, malakeş, mıx, mismar, tövlə mıxı, çatı, örkən, doğanaq, ərsin, sac, teşt, dəri süfrə, eymə, tuluğ, nehrə, dağar,

## Toxuculuqla bağlı sözlər

Xalça, palaz, hana, kirkid, darağ, cəhrə, iy, dükçə, kələf, yumaq.

## Tərəkəmənin qoyun dərisindən düzəltdiyi əşyalar

Eymə, tuluğ, yannıx, motal, su – meşki, sufra, dağar, tuluğ – çalğı, tuluğ – şərab, tuluğ – nehrə, qarın – yağ.

## Yer adları ilə bağlı

Ağarxac, Ağ yoğuş, Çaparxana, Cənnatalı yolu, Topa yol.

Bakı yolunda Ömər qışlağı, Hacı Haşım obası.

Düşdük Uzundırın başına, qurbanı olduğum bir çovğun hazırladı.

Şahnazarrı xatakar kənddi. Gün batana düşşən, qıçı Mayıf dəllək var, Mədət olara düş.

Bozun boynundan aşıb gəldük, Qobunun üstündə quyu var, düşdük ora. Qoblular deyir: bu dəvə bizimdi, gecə alacağıq əlindən.

## Barmaqların adı

Baş barmaq, başala barmaq, uzun hacı, gül toppuzu, balaca bacı.

## Örpəklər

Qaz-qaz; bənirə; Yusif-Züleyxa; kəlağay zəkiyə; al-yaşıl-çərtmə; tirmə.

## Parça adları

Gendədur; qonşu bağrı çatladan; iynə batmaz, qayçı kəsməz; vaxsey Xədicə; Hacı mənə bax; küçə mənə dar gəlir; əsməşal;

qanovuz; liberti; qaymağı xara; sətin; şirməs; Hüseyni qara; məxmər; tafta; darayı; şəmsi-qəmər; alışdım-yandım; sürüşdüm-düşdüm; zifqo çiti.

## İpəklər

xamlıq, odda çəkilən; nobat-nəbat; ikiqat; təkqat; çilmə; filədur; lasti

## Geyimlər

Çuxa, tuman (şalvar),arxalıq, köynək, patava, çarıq-şatrı, çarıq qoturu, qaytarma, çarbağı, toqqa, qurşaq, kürk, cannıq, yapıncı, sırıqlı, təkbənd, bəzbənd, ləbbadə, cübbə, çəpkən, tuman, qofta, arxalıq, kalağay, şal, çərtmə, al-yaşıl, alınnıq.

## Rəqs havaları

Qıtqılıda; Şalaxo; Qazağı; Dərbəndi; Nəlbəki; Əsgəri; Uzundərə; Qaytağı; Salami; Nazeləmə; Cəngi; Vağzalı.

## Körpəyə alxış

Çörəyli-köynəyli olsun; gül daban olsun; ayağı düşsün, dili düşsün, sayalı olsun.

## Əkinə-biçin

Biçin biçiləndə qotman, dərz, bafa bağlanır. Buğda xırmanda döyülür, qurulududulur, dəyirmanda döyülüb un edilir.

Ac olanlar dəndən ağzına ovut atır.
Buğadan ütələmə.

## Ləğəblər

Dahradı, cıcığ, dındığ, qayış, maçı, ərkək Cabbar, donqa Mahmud.

## Əski deyimlər sözlüyü

Aarmaq* – ayırd etmək.
Allaf – ə. Taxıl, un, yaxud yem, ot və s. alverçisi. Allaf dükanı.
Baqqal – ə. Keçmişdə ərzaq malları satan dükançı.
Başım qağdı* – Çox məşğulam.
Bəzzaz - ə. Parça, arşınmalı satan tacir.
Buğ – Dərvişlərin çaldığı buynuzdan düzəldilmiz çalğı aləti.
Calağay* – d. yerini, danışığını bilməyən.
Caranqo – d. İçi boşalmış motala su töküb çalxalayıb çıxarılan və "şor" əvəzinə istifadə edilən sulu şor.
Çək-çəki balığı – Arıq yöndəmsiz adam.
Çərçi – ə. Gəzərək xırda alver edən adam, xırdavatçı.
Çoynaq – d. 1. Çolaq, şikəst. 2. Arıq.
Dəliva – d. Dəlisoy, şıltaq (əsasən gənc qızlar haqqında)
Dəmdəməki* – d. Öz hərəkətində, sözündə, fikrində sabit olmayan, tez-tez fikrini dəyişən, hərdəmxəyal.

---

* Anam Böyükxanımdan eşitdiyim, ədəbi-bədii dildə görmədiyim sözlər. – Ə.C.

Dəmşalağ* – d. 1. Pinti, səliqəsiz 2. Yüngül xasiyyət (işini bilməyən qadınlar üçün: dələgəy-dəmşalağ arvaddır deyərlər) 3. Əlindən iş gəlməyən adam.

Dəyirman xoruzu – 1. Qırmızı döyüşkən xoruz. 2. Özündəb razı, yekəpər adam anlamında da işlənir.

Dəvə daşı – çayın içində çox böyük daş.

Dindilo – d. 1. Dil-dil ötən gənc qız. 2. Tənbəl, işbilməz.

Faqqı– d. Bic, hiyləgər. Özünü faqqılığa vurma – Kələklə özünü bilməməzliyə qoymaq.

Əm – d. Çarə, əlac, dərman.

Ənciş-vənciş (əncivənc) – d. 1. dağınıq, alt-üst. 2. Dağıdan, alt-üst edən.

Ənciş-vənciş eləmək – d. Dağıtmaq.

Ətəbərə* – d. Caranqo, içi boşalmış motala su töküb çalxalayıb çıxarılan və "şor" əvəzinə istifadə edilən sulu şor.

Əttar – ə. Ətirli şeylər, ədəvat və s. satan adam.

Gicəsula – d. Ağıldan kəm, ağısız, gicbeyin.

Hapıtdı* – d. 1. Yersiz söz deyən, boşboğaz. 2. Qəfil, tələsik.

Hayıxmaq* – d. 1. Oyamaq. 2. Qızlrın yeniyetməlik dövrünə qədəm qoyması. 3. Hücüm etmək.

İlmanqı – d. ılıq.

İmamlı cücəsi – Yoluq, zəif heyvan; arıq, zəif adam.

İmamhüseyn cöngəsi – Ziyadə kök adama deyilir.

İsfəndiyar – Dərvişlərin çaldığı buynuz düzəldilmiş tütəyəbənzər alət, məcazi mənada – fəryad.

Kələxana gömuşu – Yekə, kök adama deyilir.

Kəbə ceyranı kimi yanırlar – Susamış uşaq.

Küçül tükü – Üzdə yetim (tək çixmış) tük.

Kərəvəngə - d. Problemli iş əmələ gəlməsi.

Lecan – d. Bol.

Ləvərə* – d. 1. Axmaq , başıboş, 2. zəif.

Məmələ satan – d. Burada: mal dəyişmə yolu ilə alver.

Navar – d. 1. Toxunma şeylərin kənarına tikilən parça, 2. Heyvanı yüklədikdə belinə qoyulan içi küləşlə doldurulmuş torba; yəhəraltı. (Ana uşağı çağıranda o, "nə var?" cavabı verirdisə, ana ona deyirdi: "Navar, dalında var")

Nödərəməz* – d. Yekə, zırpı adam.

Ovsana – osana (ovsanadan çıxarmaq) – d. Edilən yaxşılığa qiymət verməmək; unutmaq, qiymətdən salmaq. ("Allah ovsanaya salsın", "Ovsanadan çıxmasın" deyimləri də vardır.)

Pəpey olma – d. Baş qoşma, boş ver, bənd olma.

Pələşo gəlmək* – d. Kələk gəlmək.

Pərpilətək – Pərvanə kimi cirpinan.

Qaltaq – 1. Yəhərin ağacdan olan hissəsi. 2. Söyüş kimi - əxlaqsız qadın mənasında da işlədilirdi.

Qazalağ – Araba iki iri çarxlı (Bakı).

Qurdu ulayıb* – xeyrə uğrayıb, varlanıb.

Şan – d. 1. Əlamət, nişan. 2. Şöhrət, ad-san. 3. Arı şanı.

Şarto* – Boş motalın 2-ci dəfə yuyulmasından alınan sulu pendir.

Şəro – 1. Zarafatçıl, hiləgər. 2. Şoraba.

Şilan* – d. Bol yeməkli qonaqlıq

Sıpqırmaq* – d. Son damlayacan süzmək

Sonalamaq* – d. 1. Seçmək. 2. Qayğı göstərmək.

Şoynağ – d. Səfeh, yerini bilməyən

Sübüdmək* – d. Bir işi uzatmaq, get-gələ salmaq

Şüllü* – d. 1. Bir növ südlü xörək. 2. Duru xəmir xörəyi.

Unamağ* – d. Xatırlamaq, ağlına gətirmək.

Uruğa – d. Doğar, qısır qalmayan.

Varsağılamaq* – d. Uzun boşboğazlıq.

Xişdək – d. 1. Paltarda köbə, 2. Şumlanmış sahə arasında qalan kiçik xam yer.

Yekistidrmək* – d. Tələsdirmək.

Zara* – d. Guya.

Zabitəli adamdı – d. Ciddi adamdı.

Zare* – ə. Əkinçı, rəncbər.



*Son illərdə anam Əzizə Cəfərzadənin əsərlərində kəlağayı və papaqla əlaqədar iki məqalə çap etdirmişəm. Bu məqalələr elə bu kitabda verilənlərin sanki bir davamıdır. Buna görə həmin məqalələrimi sizinlə bölüşürəm.*

***Turan İbrahimov***

## Əzizə Cəfərzadənin kəlağayı sevgisi

Bəlkə bir ilə yaxındır ki, Facebook səhifələrində Güllü Tomarlının təxminən hər gün milli kəlağayılarla çəkdirdiyi müxtəlif fotolarına baxıb, ürəyimdə anam Əzizə Cəfərzadəyə xitabən deyirəm: "Əkdiyin toxumlar cücərir, ana!"

Çünki milli irsin qorunub gələcək nəsillərə çatdırılmasında Əzizə ananın rolu çox böyük olmuşdur. Bunu istər əsərlərində, istərsə də apardığı tədqiqatlarda görmək mümkündür.

Mən Əzizə ananın kəlağayılı şəkillərini Güllü xanımla paylaşanda, o məndən bu haqda yazı yazmağımı xahiş elədi. Mən də "gərək əvvəlcə ananın əsərlərinə baxam, görüm bəlkə kəlağayı haqqında maraqlı nəsə yazıb" deyə Güllü xanımdan vaxt istədim.

Əzizə Cəfərzadə, bu haqda bədii əsərlərində nə yazıb deyə 2021-ci ildə nəşr etdirdiyim "Seçilmiş əsərləri"nin 12 cildinə ("Elm və təhsil, 2021) və əlimdə hal hazırda işlədiyim 13-14-cü cildlərə baxanda, heyrət etdim. Əzizə ana, bu cildlərdən 1-cidə 15 yerdə, 2-cidə 9, 3-cüdə 7, 4-cüdə 7, 5-cidə 4, 6-cıda 9, 7-cidə 10, 8-cidə 3, 9-cuda 5, 10-cuda 2, 11-cidə 4, 12-cidə 12, 13-cüdə 2, 14-cüdə 4 dəfə kəlağayıdan bəhs edir. Cildlərə daxil olmayan əsərlərindən "Səyyah"da ("Eldən-elə") (MİMTA yayımları, 2022) - 11, "Aləmdə səsim var mənim"də ("Şərq-Qərb", 2006) -

16, “Zərrintac-Tahirə”də (“Göytürk”, 1996) - 2, “Anamın nağılları”nda (MİMTA, “N/R” NPM, 2020) – 4, ““Gülüstan”dan öncə”də (“XAN”, 2016) – 2, “Tanıdıqlarım, sevdiklərim xatirələrimdə” də (“XAN”, 2021) - 3, “Folklor araşdırmaları”nda (“Elm və təhsil”, 2020) - 3 , “Gündəliklər”ində (ancaq 1981-1990 illər, əlyazması) - 7 yerdə kəlağayıdan bəhs olunur. “Bakı-1501” (“XAN”, 2022) və “Bəla” (“XAN, 2016) əsərlərində kəlağayı haqqında söz açmadığı da ortaya çıxdı. Beləliklə, mənə aydın oldu ki, Əzizə Cəfərzadənin yazılarında 141 yerdə kəlağayıdan danışılır. Ortaya çıxan bu saydan sonra marağım daha da artdı. “Görəsən Əzizə ana kəlağayı haqqında nələr yazıb?” deyə düşünərək əsərlərində kəlağayı ilə bağlı məqamları sıraladım. İlk kitabı olan “Natəvan haqqında hekayələr”də kəlağayının çutqu üstündə bağlanlanmasının təsviri verilmişdir:

“Həmayil Qonçaya “Səni bəyim çağırır” dedikdə nəsə duymuşdu. Qarı tərtəmiz yuyunub-bəzənmiş, köhnədən qalma yaxası zərli kimxa kürdüsünü geymiş, qara kəlağayısını çutqunun üstündən boynuna sarımış və ucunu gətirib çənəsinin altında bənd etmişdi.” (“Seçilmiş əsərləri”, I cild, s. 63).

“Sərvinaz yaşmağı burnunun üstünə qaldırmış, al kəlağayısını qaşlarının üstünə çəkmiş, həyadan qızaran üzünü dostlarından gizlətmişdi, amma sevincdən qəlbi quş ürəyi kimi çırpınırdı.” – (I cild, s. 80). Burada isə yazıçı, al kəlağayı ilə yaşmaqlanmanı təsvir etmişdir.

“Əsasən kasıb ailədən olan gənc qızların çutqu üstündən başlarına bağladıqları al-yaşıl, ucuz kəlağayılar onları sonalara bənzədirdi.” (I cild, s. 88). Əzizə Cəfrəzadə al-yaşıl kəlağayı taxan qızları yaşılbaş sonalara bənzətmişdir.

“Suda ördəklər üzür, gölçəyə baş vurub silkinirdilər. Onların bəzəkli başları gəlinlərin alnına çərtilmiş al-yaşıl çərtmə-

kəlağayılar kimi bərq vururdu." (I cild, s. 178). Burada isə yazıçı kəlağayının "çərtmə" üsulla bağlanmasını təsvir edərək quşları, al yaşıl kəlağayı bağlamış qızlara bənzətmişdir.

"Natəvan haqqında hekayələr"də yazıçı "al", "al-yaşıl", "abı haşiyəli qara" "qara haşiyəli ağ", "dördrəng basqal" kəlağayısı kimi müxtəlif rəng və bəzəkli növlərində də danışmışdır.

Əzizə Cəfərzadənin "Tanıdıqlarım, sevdiklərim xatirələrimdə" əsərində məhşur Basqal kəlağayılarının vətənindən olan Xalq yazıçısı, Əbülhəsənlə kəlağayıya aid olan belə bir xatirə də var: "Öz şagirdlərinin, yetirmələrinin uğuruna qəlbən sevinən ikinci bir adam nadir tapılar. Yadımdadır: "Aləmdə səsim var mənim" romanımı necə də bir sevinclə qarşıladı. Elə bil romanı özü yazmışdı, uğurum da onunuydu. Millətini, doğma yurdunu qəlbən sevən insan kimi hələ bir sözarası dedi də: "Qız, Şirvanın hər yerinin nemətlərinin adını çəkmisən, bəs Basqal kəlağayısının adı niyə düşməyib qələminə?". "Ustad, dedim, roman hələ jurnalda bitməyib, ikinci hissəsi çıxanda Basqalı da, kəlağayısını da görəcəksiniz". (s. 77) Əlbəttə, bu cümlələr Əbülhəsən müəllimin Basqal kəlağayısına böyük məhəbbətini və bunu Əzizə anaya da təlqin etməsini göstərir. Yazıçı, "Aləmdə səsim var mənim" romanında yuxarıda qeyd etdiyimiz kmi 16 dəfə kəlağayıdan bəs etmişdir.

Amma görünür ki, kəlağayımıza da ögey – düşmən münasibətdə olanlar da olub. Necə ki, Süleyman Rüstəmin "Kəs səsini, ötmə tar! Ötmə dedim, ötmə tar. İstəməyir proletar səndə çalınsın Qatar." misraları və ona qarşı yazılmış Mikayıl Müşfiqin "Oxu tar, oxu tar, de, səni kim unudar" sözləri kimi. Əzizə Cəfərzadə "Folklor araşdırmaları" kitabında kəlağayı haqqında belə yazıb: "Geyimlərimizdə də belədir. Milli nə varsa, «xala-bacı» hesab etmiş, Avropaya can atmışıq. Başqa xalqların yüngül

əxlaqlısının geyimini kinoda görüb mənimsəmişik. Orta Asiyada alim, aktrisa, kolxozçu öz milli, şahı ipəyindən tikilən paltarını, araqçınını saxlayıb. Biz başımıza kəlağayı örtməyi ayıb bilmişik. Böyük bir yazıçımız vaxtilə mənə «O kəlağayını sənin başına örtən babaların sümüyü də əlimə düşsə, yandırardım» demişdi." (s. 247).

Bütün belə təzyiqlərə baxmayaraq yuxarıdan göründüyü kimi Əzizə Cəfərzadə öz əsərlərində hər bir fürsətdə, hələ 1963-cü ildə çap etdirdiyi ilk kitabından başlayaraq kəla-ğayıdan yazıb, onu təbliğ edib. Özü də tək yazılarında deyil, həm də özü kəlağayı örtməklə bu baş örtüyünü yaşadıb. İraq və İran səfərlərinin fotolarına da baxdıqda görürük ki, rəsmi iclaslarda da, tarixi abidələrə baxmağa gedəndə də bizim milli kəlağayı Əzizə Cəfərzadənin başında olub. "Seçilmiş əsərləri"n 13-cü cildində yer alan ildə İraq səfəriylə bağlı qeydlərdən oxuyuruq:

"Hər bir dəstə məni maraqla qarşılayır, salamlayır. Mənim kəlağayım xüsusi marağa səbəb olub." (s. 125)

"Parkın xiyabanları ilə işə tələsən tək-tük yerlilər mənə qəribə bir maraqla baxırlar: Qara ərəbi don, çaxçur, kəlağay." (s. 297)

İllər boyu xarici ölkələrə gedəndə və xaricdən qonaqlar gələndə də Əzizə ananın qadınlara və eləcədə kişilərə qadınları üçün hədiyyə etdiyi əşya əsasən kəlağayı olmuş-dur.

Gündəliklərdən (23.03.1981) oxuyuruq ki, "… bu gün Məmməd Araz O.Yavuz Aqpınarı yanıma gətirdi. Nəcib adama bənzəyir. M.F.Axundovun tədqiqatçısıdır. Əsərlərimi A.Zamanovun vasitəsilə alıb oxuyub, sevib (deməyinə görə) və gəlib məni görmək istəyib... Qızına gözəl bir soğanı kəlağayı və qadını üçün "Yemək kitabı"mızı bağışladım."

"Seçilmiş əsərləri", 14-cu cilddə yazıçının Hələbdə,

Hindistanda və başqa yerlərdə hədiyyə etdiyi kəlağayılar haqqında oxuyuruq:

“Mən Hələbə səfərimi təşkil edən Nasra, anası üçün bir soğanı kəlağayı və Bakı prospekti bağışladım.” (s. 29)

“Bacısına bir kəlağayı, o da mənə bir əl tikməsi hədiyyə etdi.” (s. 90)

“Cənab Ram Kohli və bizim başçımız Hüseyn Həsənov xoş sözlər danışdılar. Hindistan-Sovet dostluğuna dair. Başçımız onlara kitablar bağışladı, mən isə qızılgül rəngli, çəhrayı bir kəlağayı saldım xanımın çiyninə. Bu nərmənazik, qarabuğdayı hind gözəli nazla çiyinlərini oynadıb “lap rəngimə düşür” – dedi.” (s. 106)

Əzizə Cəfərzadə, evinə gələn müxtəlif xalqların nümayəndələrinə milli paltarlarımız və baş örtülərimizi göstərir, istəyənləri də geyindirib şəkil çəkdirmişdir. Belə xanımlardan birinin–İngiltərədən gəlmiş Kembric Universitetinin müəlliməsi ingilis xanım Luis Haşimnin bir neçə fotosu arxivimizdə durur.

Yazıçı “Vətənə qayıt” romanında kəlağayının yarışda qalibə bir nəmər, hədiyyə kimi verilməsindən danışır: “Elə bu anda üzü niqablı Şəbnəm bəyim süvari paltarı geymiş bir dəstə qızla birlikdə eyvanda göründü. Onun əlində al rəngli “Şamaxı” (Çox halda kəlağayılar toxunduğu şəhərin adı ilə sadəcə “Gəncə”, “Şamaxı”, “Basqal” və s. adlanırdı. - Tİ) kəlağayısı vardı. Nəmər bu idi. Birinci gəlib çıxan süvari bu nəməri alacaqdı.

...

İndi artıq Ələmşahın mindiyi boz ürgə ilə Xosrov ağanın Qəmər dayı yanaşı gəlirdi. Darvaza önündəki geniş meydançaya çataçatda boz ürgə, Qəmər daydan azacıq irəli sıçradı və eyvanın önünə birinci yetişdi. Ələmşah dodaqlarındakı qalib təbəssümü ilə Şəbnəm bəyimin əlində tutduğu al kəlağayını havada qapdı,

sağ əlini başının üstünə qaldırdı, onu alqışlayan kütləni salamladı... "Yağı düşməni yenib, doğma diyarın xilası üçün qərar qoyulmuş töhfəni də beləcə ala bilsəydim" sözləri qəlbindən keçdi..." (II cild, s. 214, 217).

"Yad et məni" romanında həm rəng, həm də naxış haqqında yazır: "Qaratel başına soğanı rəngdə, mixəyi haşiyəli kəlağayı örtmüş, hər iki ucunu da bəndləyib arxaya atmışdı. Şirvan xanımlarına məxsus olmayan bu geyim Cavadı da maraqlandırmışdı." (III cild, s. 37).

"Kəlağayısını Kərbəlaya gedənlərlə nəzir göndərdi." (III cild, s. 93).

"Qonşudan, faytonun dalınca bir dəstə yaşmaqlı zənən, əllərində tutduqları zərli boğçalarla hərəkətə gəldi. Qabaqda, belinə al Basqal kəlağayısı bağlanmış, əlində güzgü tutan Hacı Cavad aram addımlarla irəliləyirdi. Elə bil Şirvanın əbədi xəlfəsi heç qocalmamışdı." (III cild, s. 282). Yazçı, toylarda olan adətlərdən birini də burada yada salır.

"Sabir" romanında kəlağayının dünyada məhşur olmasını bir daha vurğulayır: "Vaxtilə burada ipək karxanalarından Türkiyəyə, İrana, Hindistana xam ipək aparılır, "Şamaxı kəlağayısı", darayısı barmaqla göstərilir, ingilis kralının daimi nümayəndəsi, daim burada əyləşib saray ərkanının xüsusilə sevə-sevə geydiyi ipəyi buradan alıb Londona göndərir, multani tacirləri burada həmişəlik yurd salırdı." (IV cild, s. 109).

""Gülüstan"dan öncə" romanında sadə kənd qızı Yasəmənin oxuyuruq: "Sadə geyimində belə gözəldi. ... Güllü çit tumanı, şirməst arxalığı, abı yelənli ağ kəlağayısı vardı. Belindən aşağı süzülən qalın hörüklərinə öz əlləri ilə rəngbərəng yun iplərdən toxuduğu qotazlı saçbağı hörmüşdü. Amma əlləri xınalıydı, ayaqları xınalıydı." (s.6) Yazıçı cəmi 3 cümlə ilə XIX əsr

Azərbaycanlı qızını necədə ustalıqla təsvir edib.

"Bir səsin faciəsi" romanında Qurban adət-ənələrinin təsviri verilir: "Qurban bayramına az qalırdı. ... Hamısı da seçmə, burma buynuzlu, ağ qoçlardı, hamısının da təpəsinə, belinin ortasına, qabaq ayaqlarının dizlərinə al xına yaxılmışdı. Boğazlarına əlvan Basqal kəlağayıları bağlanmışdı." (V cild, s. 291-292).

"Xanım — Rübabə Sultan onu — döyülmüş ədviyyatı kəlağayıdan keçirdib undan da zərif bir hala saldı." (VI cild, s. 94).

"Onun başında ağ, kənarı badımcanı haşiyəli kəlağayı vardı. Bu kəlağayını başına dolayıb, uclarını arxasında düyünləyib kürəyinə atmışdı." (VI cild, s. 130).

Aşağıdakı bir neçə nümunədə Əzizə Cəfərzadə inac və adətlərdə kəlağayının istifadəsini ifadə etmişdir.

"Adam var, sınağı nə cürdü: Axşam vaxtı pul dəyişməz, pul verməz. Axşam vaxtı qonşuya bir şey verməz. Ələyə gələnin başından kəlağayısını götürər." (VI cild, s. 174).

Yazıçı, "Xəzərin göz yaşları" romanında nişan mərasimi zamanı gəlinə kəlağayı örtülməsindən bəhs edir: "Ağ kəlağayının şövqü ağ üzünə, ağ alnına, al yanaqlarının şövqü ağ kəlağayıya düşmüş Əsmər utana-utana içəri girdi. Ruzigar xanım yerindən qalxdı, zəkiyyə örpəyi kəlağayının üstündən onun çiyninə, başına saldı, üzüyü barmağına keçirtdi." (VII cild, s. 53).

"Yazıçının son romanı Məhəmməd Füzuli haqqında olan "Eşq sultanı"da gəlin aparma adətinin təsviri belədir: "Yerli adətlə, elə bütün türk qəbilələrində gəlin at üstündə gedər ər evinə. At muraddı, muradına çatırdı, ona görə də at üstündə gedirdi. Amma belə yaxın evlərdə adətən daha at lazım

olmurdu. ... Tayfanın ağsaqqalları dörd əkabir (Ağsaqqallar, başbilənlər - Tİ) seçmişdi. Bu dörd əkabir böyük bir al kəlağayının hərəsi bir ucundan tutmuşdu." (VII cild, s. 333).

Kasıblıq dövrünün nişanında kəlağayı yenə vacib bir element olub: "... nişan qoyduq, bir al alın kəlağayısı, bir də anamdan qalma yaqut qaşlı qızıl bir üzüyümüz vardı, onu apardıq." (VIII cild, s. 283) ("Sahibsiz ev" hekayəsində).

Yazıçı 1990-cı illərə qədər bölgələrimizdə toy maşınlarına, yeni alınmış maşına qırmızı kəlağayı bağlanma adətini "Ata haqqı" povestində təsvir etmişdir: "Gülsüm cəld bir al kəlağayı gətirib qardaşının maşınının böyür güzgüsünə bağladı." (XI cild, s. 353)

"Gözlənilməyən gəliş" povestində yazıçı 4 rənglə boyanmış Basqal kəlağayısını oxucu üçün canlandırmışdır: "Səttar əfəndi, əlini uzadıb "al-yaşıl", "çərtmə" adlanan kəlağayını götürdü, açdı. Al-sarı-yaşıl və göy rənglə dörd küncü boyanmış Basqal kəlağayısı vaxtilə gəlinlərin yaraşığı, bəzəyi idi." (XII cild, s. 166)

"Anamın nağılları" kitabında "Salatın ana" hekayə-nağılında yazıçı toya hazırlıq zamanı kəlağayı təsvirini verir: "Allı-güllü toy başlandı, tamaşasına oymaq-oymaq el-oba yığışdı. Salatının qapısında şülən qazanları asıldı. Yaba dırnağında, üstünə al kəlağayı çəkilmiş qaramıq gətirildi. Bəy, damda çimib gəldi, duz-üzərlik yandırıldı, tüstüsü bəyə verildi, boynuna al-yaşıl kəlağayı sarıldı." (s. 213-214)

Yazıçı Əzizə Cəfərzadə, toyda bəyə, xörək bişirənlərə, bəy tərifində bəyə və aşığa xələt-hədiyyənin kəlağayıdan verilməsi adətini də yada salır: "O bilirdi ki, toy da eləyəcək, bəy də duracaq, başı üstündə çörək də kəsəcəklər, duz, üzərlik də dolandıracaqlar, boynuna al-yaşıl kəlağayılardan xələt də dolayacaqlar. Bacıları, qardaşları, istəkli qohumları qabağında

oynayacaqlar." ("Səyyah", s. 74)

Yazıçı "Aləmdə səsm var mənim" romanında da bu mövzudan yan keçməyib: "Hələ uzun illər, qərinələr keçə- cək, Şərqin bir sıra ölkələrində "Şamaxı" adlı kəlağayı örtüləcək, uzaq Hindistanda indi də "Şirvani" adlandırılan geyimələri kişilər sevə-sevə geyəcəklər..." (s. 428)

Əzizə Cəfərzadə "Folklor araşdırmaları" kitabında bir rəvayəti verməklə, kəlağayı, baş örtüyü ataraq qanlıları sakitləşdirməyə, barışdırmağa xidmət edən bir adəti yada salır: "Dar ağacı qurulubmuş, meydan süpürülüb-sulanıbmış. Taxt-rəvan hazırlanıbmış. Şah gəlib əyləşən kimi, bir qadın başından kəlağayısını açıb şahın ayaqları altına atır. Şah deyir:

– Qadın, sən ismət pərdəsini üzündən götürüb «aman» diləyirsən." (s. 30)

Yazıçı, əsərlərində "herati", "soğanı", "noxudu rəngli", "ağ haşiyəli qara", "abı haşiyəli zərif ağ", "abı yelənli ağ", "badımcanı haşiyəli qara", "al-yaşıl" kimi müxtəlif rəng və naxışlı kəlağayı adlarını çəkmiş, "alnına bağladığı çərtmə kəlağayı", istehsal yerinə görə Basqal, Şəki, Şirvan, Gəncə adlı kəlağayılarının mövcudluğunu qeyd etmişdir.

Əzizə ana qonaqlarına kəlağayı hədiyyə etdiyindən yuxarıda danışmışdım. Yazıçı, bu adətin hələ neçə əsr əvvəllər də mövcud oluğunu hesab edər: "Özü də hər dəfə çavuş səsi eşidən kimi məhləyə çıxır, Kərbəlaya gedənlərdən yaxın adam varsa onunla, yoxsa elə çavuşun özü ilə bacısı ərinə məktub yazır, arada Şirinbəyim üçün Şamaxı kəlağayısı, Basqal alınlıq çərtməsi göndərirdi." ("Səyyah", s. 56). Kəlağayılar böyüklüyünə görə də fərqlənir. Yazıçı, böyük ölçülü–baş kəlağayısı, kiçik ölçülü–çətmə və ya alın kəlağayısı şəklində bunları əsərlərində qeyd etmişdir.

"Gözlərinin yaşını kəlağayısının ucuyla silə-silə" – bu şəkildə

ifadələr demək olar ki, bir çox əsərlərində yer alıb. Təəssüf ki, nənə, ana, bacılarımızın göz yaşları da zaman-zaman kəlağayı ilə silinib. Bu da yazıçının nəzərindən çıxmayıb.

Əzizə Cəfərzadə? Azərbaycan televiziyasında "Klassik irsimizdən", "İncilərmiz", "Aşıq Pəri məclisi", ir sıra XIX əsr poetik məclisləri haqqında seriya verilişlərin ssenarisini yazmış və aparıcısı olmuşdur. Bu verilişlərdə milli geyim və kəlağayı gətirilməsinə çalışmışdır. Gündəliklərini oxuduqda, televiziyada Aşıq Pəri məclisinə də gedərkən kəlağayını özüylə evdən apardığını öyrənirik. Məlumdur ki, Əzizə Cəfərzadə ilk dörd "Aşıq Pəri məclisi"ninin ssenarisini yazıb və TV-də verilişi özü aparıb! Bu ssenarilər Ev arxivində mühafizə olunur. O, ilk verilişlərin birində çəkilmiş fotoda cəmi iki qadının başında kəlağayı olduğu görünür. Sevindirici haldır ki, bu gün də davam etməkdə olan bu məclisin proqramlarında kəlağayı artıq hamı üçün vacıb atribut olmuşdur.

Əsas odur ki, Azərbaycan xanımları bu gün milli qürurumuz olan kəlağayıya yenidən rəğbət və məhəbbətlə yanaşırlar. İndi kəlağayı bir geyim elementi kimi, hər xanımın qarderobunun yaraşığına çevrilib, geyimlərini bəzəyir. Bu cür yanaşma Əzizə nənədən nəvələrinə, mənim qızlarıma da keçib.

Əzizə ananın 100 yubileyi günü kiçik qızım Aydan İbrahimova Əzizə nənəsinin evində qorunan milli paltar, gümüş kəmər və öz kəlağayısı ilə, nənəsinin otağında xatirə fotolar çəkdirdi.

Aydan nişanlandığı gün də qayınanası onun başına al-əlvan yaylıq bağlanmışdı:

Hələ kiçik qızım evdən də, Əzizə nənəsinin xatirəsinə hörmətlə qırmızı duvağla çıxmışdı! Bu duvağı da qabaqlar qırmızı kəlağayılardan edərlərmiş. Bu Amerika və İngiltərədə ali

təhsil almış və son dərəcə müasir yaçam tərzinə sahib olan qızımın milli ənənələrə və dəyərlərinə sadiqliyinin sübutudur.

Bu günlərdə Türkiyədə yaşayan dostum, bir Azərbaycanlı toyunda kəlağayı ilə rəqs videosunu göndərmişdi. Türkiyədə yaşayan həmvətənlərimizin kəlağayımızı belə əzizləyib, şərəfləndirməsi sevindirici bir haldır.

Mən də Londonda BP şirkətində işlədiyim dövrdə Nov-ruz bayramını təntənəli surətdə 2007 və 2008-ci illərdə orada qeyd etdik. Burada da milli geyimlərimiz və kəlağayılarımız öz gözəlliyi ilə məclisi bəzəyirdi.

Əzizə Cəfərzadə qeyb olmaq olan milli sənətlərimizlə bağlı təşvişini belə dilə gətirmişdir: "Bizim qədim əl sənətlərimiz, misgərlik, zərgərlik, güləbətin düzmək, əlvan kəlağayılar, qanovuzlar, dünya şöhrətli darayı toxuyan zərbaflarımız harada qalıb? Neyçün öldü bu sənətlər? Milli mənliyimizi, milli mədəniyyətimizi dərin kökləri ilə qoparıb adımızı belə bizə unutduran qanlı düşmənimiz! Lənətə gəlsin! Və unutmayaq! Və dünyaya sübut edək ki, biz haqqımızda yayılan şaiyələrə, böhtanlara baxmayaraq, milli mədəniyyətimizi, abidələrimizi diriltmək və yaşatmaq qabiliyyətinə malik, dərin kökləri ilə torpağına, millətinə bağlı, bütün bunları gələcək nəsillərimiz üçün qorumağı bacara bilən, ləyaqətini, qürurunu heç bir demaqogiyaya dəyişməyən Azərbaycan türkləriyik. Biz buna inanırıq." (XVI cild, s. 149).

Əlbəttə ki, bu günlərdə Əzizə Cəfərzadənin ruhu kəlağayı sarıdan şaddır. Çünki onun həm Azərbaycan Dövlət Universitetdə müəllimi, sonra kafedra müdiri professor Mir Cəlal Paşayevin və onunla bu Universiteti birgə bitirmiş Mir Cəlal müəllimin həyat yoldaşı Püstə xanımın nəvəsi, Respublikamızın birinci vitse-prezideti, birinci xanım Mehriban

Əliyeva Basqala gedib kəlağayıya naxış vurur, kəlağayı örtüb şəkil çəkdirir! Kəlağayı dövlətimizin dəstəyini və xalqımızım məhəbbətini geri qaytarıb.

Əzizə ana, sənin əsərlərində 140 dəfəyə yaxın kəlağayıdan bəs etməyin, illər boyu apardığın təbliğat boşuna getməyib. Ruhun şad olsun. Güllü Tomarlı kimi fədakar qızların bu gün sənin başladığın bu işi layiqincə davam etdirir və Azərbaycan gəncliyinə bu kəlağayının gözəlliyini çatdırır, ona qarşı sevgi və məhəbbət yaradır. Onun bu işləri Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin 2022-ci il kiçik qrant müsabiqəsində Elm, Təhsil, Mədəniyyət və Azərbaycançılıq ideyasının təbliği məsələləri üzrə "Azərbaycan kəlağayısı minillərin yadigarı" layihəsinin qalibi elan olunub. Bu münasibətlə biz Güllü xanım Tomarlını və layihədə iştirak edən bütün insanları təbrik edir, onlara işlərində uğurlar arzulayıram.

## Əzizə Cəfərzadə əsərlərində papaq – kişilik və qeyrət rəmzi kimi

V-VI əsrdən XX əsr daxil olmaqla 1400 ilə yaxın bir tariximizi romanlarında canlandıran Xalq yazıçısı, professor Əzizə Cəfərzadə milli etnoqrafiya və milli kimliyimizi, dövrünə görə milli geyimlərimizi, adət-ənənəmizi, milli mətbəximizin elementlərini əsərlərində ustalıqla təsvir etmişdir.

Güllü Tomarlının son illərdə kəlağayımızla bağlı apardığı tədbirlərdə və nəşr etdirdiyi kitablarda mən də anam Əzizə Cəfərzadə yaradıcılığında kəlağayı mövzusunda məqalələrimlə iştirak etmişəm. Güllü xanımın 2025-ci ildə "Papaq qeyrətdir, kəlağayı ismətdir" adlı bir layihə üzərində çalışacağını eşitdəndə çox sevindim və bu məqaləmlə həmin layihəyə dəstək vermək

qərarına gəldim.

"Əzizə Cəfərzadənin kəlağayı sevgisi" adlı məqaləmdə qeyd etmişdim ki, yazıçının əsərlərində 141 dəfə kəlağayı haqqında yazdığının şahidi oluruq. Bu dəfə mən Əzizə ananın papaq haqqında hansı əsərlərində nə yazdığını öyrənməyə çalışdım. Əzizə Cəfərzadənin bütün əsərlərində axtarış etdim və gördüm ki, 25 roman-povestində 277 dəfə və 120 hekayəsində 36 dəfə papağa yer verilib. Deməli, yazıçı kəlağayıdan çox papaq haqqında yazıb. Bunun bir çox səbəbləri var. Birincisi, onun əsərlərində kişi obrazları çoxdur və onların baş geyimi – papaq, onun növləri müxtəlif təsvirlərdə göstərilir. İkincisi, papaq bir çox başqa mənalarda, anlamlarda da işlədilir. Üçüncüsü, bəlkə də ən önəmlisi Əzizə Cəfərzadənin ana babası Əliheydər hafizi-Quran, həm də papaqçı olub. Bunun da çox maraqlı tarixçəsi var. Əliheydər və Rübabə xanım biri-birilərini istəyirmişlər. Elçi gəliblər. Soruşublar ki, oğlanın sənəti nədir? Cavab veriblər ki, hafizi-Qurandır, yəni Quranı əzbərdən bilir. Deyiblər ki, bu hələ sənət deyil. Sənəti olmadığı üçün də qızı vermirik. Bundan sonra Əliheydər papaqçılıq sənətini öyrənib və sənətə yiyələndikdən sonra Rübabəni ona veriblər. İnqilabdan sonra bu sənət ona ailəsinə çörək qazanmağa imkan yaradıb.

Əzizə Cəfərzadə o şəxsdir ki, "Oxuma tar", "Çadra daloy", "Papaq daloy" şüarı altında və repressiyalar yolu ilə bizlərə milli kimliyimizi unutdurmaq, milli şüurumuzu, tariximizi məhv üçün intensiv iş aparan sovet quruluşunun (eləcə də Azərbaycanda yüksək vəzifələrdə oturan ermənilərin) aktiv fəaliyyətdə olduğu dövrü öz gözləri ilə görüb. Bütün bu qeyri-maddi milli sərvətlərimizi qorumaq üçün yazıçı öz tarixi əsərlərində etnoqrafiyamıza xüsusi diqqət, qayğı ilə yanaşıb, geniş yer verib.

Yazıçının bu dövrlərdən bəhs etdiyi əsərlərdən bir neçə nümunəyə baxaq:

"Küçələrdə arabalara, maşınlara, artistləri müxtəlif eybəcər geyimdə geyindirib, molla, burjuy və s. şəkillərə salıb ələ salırdılar, biabır edirdilər. Rüsvayçılıq idi. Küçələrdə arvadların az qala başlarından çadralarını götürürdülər. **Kişilərin başından papağını götürüb şapka keçirirdilər**, çadra-daloy, **papaq-daloy** aləmi bürümüşdü. Mollalar, ruhanilər çox böyük əzablarla təqib olunurdular." ("Seçilmiş əsərləri", VI cild, 2021, "Rübabə sultanım" romanı, s. 111-112)

"Piyanardı, nə bilim, qəmsəməldi, nədi, elə küçədə çarşablı arvad görən kimi "çarşab daloy, çadra daloy" deyib, çarşabını dartıb alırdılar əlindən, qoyurdular küçədə, avarada. Kişi xaylaqlarını da **papaqda** görən kimi, "**papaq daloy, papaq daloy**", deyib çığırır, keçirdirdilər bir iki qəpiklik köhnə çit şapkanı başına, **papağı** götürüb aparırdılar." ("Seçilmiş əsərləri", VII cild, 2021, "Xəzərin göz yaşları" romanı, s. 36).

"Bir yük maşınında molla, yekəqarın "burjuy" və keşiş paltarı geymiş artist dəstəsi gedirdi. Hamı onlara baxıb gülür, sataşırdılar. Bəzi cavanlar arvadlara "çadra daloy", kişilərə "**papaq daloy**" deyib qışqırırdılar." ("Seçilmiş əsərləri", XII cild, 2021, "Səməndər quşu" povesti, s. 44)

"– Sən o molla bacıya baxma, özündən muğayat ol. Hər bir insan özü qoruyur öz namusunu, qızım! "Çadra daloy" olanda nə olar?

– Yox, Məşədi bacı, demə. Kişilərin başından **papağı**, **qeyrəti** götürdülər, arvadların başından çarşabı, örpəyi götürdülər, hörməti, həyanı-abırı götürdülər, bacı. Mən bu hökumətdən nə desən, gözləyirəm.

Məşədi Gülsüm təşvişlə qapıya tərəf baxdı.

– Bir az yavaş danış, eşidən olar.” (“Xəzərin göz yaşları”, s. 76)

Bəli, əsərləri tam oxumasaq da, bu dörd nümunə o dövrün ab-havasını hiss etməyə imkan verir, xüsusən sonuncu nümunədəki “yavaş danış, eşidən olar” replikası! İnsanlarda sovet repressiya maşınının yaratdığı bu qorxu, beyinlərdə aparılmış bu transformasiyanın qalıqları hələ də cəmiyyətdə mövcuddur.

Əzizə Cəfərzadənin yuxarıda sadaladığımız əsərlərində dövrünün dəbinə, tikiliş formasına, tikildiyi materialına, onun rənginə, ölçüsünə, üzərinə sarıdılmış və ya sancılmışlara görə **çoxsaylı milli papaq növlərinin təsviri vardır**:

“Ağ papaq”, “sivri papaq”, “hündür papaq”, “motal papaq”, “şiş uclu “motal” papaq”, “iri motal papaq”, “uzun şiş papaq”, “darab papaq”, “qara Buxara papaq”, “qara Buxaradan kiçik papaq”, “şiş keçə papaq”, “qara dəridən papaq”, “drap papaq”, “yanları basıq “əmiri papaq””, “ucu şiş, dəri papaq”, “saçaqlı türkmən papağı”, “sür dəridən papaq”, “əmiri drap papaq”, “xırda, qara rəngli qaragül dərisindən papaq”, “boz gümüşü Buxara dərisindən papaq”, “boz rəngli Buxara papaq”, “çalpapaq”, “qulaqlı papaq”, “ağ daqqa papaq”, “keçə papaq”, “sivri uclu keçə papaq”, “təpəsi qırmızı, çevrəsinə yaşıl ipək sarınmış papaq”, “samur dərisindən kiçirək, yüngül papaq”, “şiş xəz papaq”, “ağ quzu dərisindən papaq”, “çox iri, mixəyi qoyun dərisindən olan yekə papaq”, “şikari papaq”, “qalmığı papaq”, “Dərvişlərin başında sikkə adlanan uzun, təpəsi yastı keçə papaq”, “bütöv bir qoyunun uzun tüklü dərisindən olduqca böyük papaq”, “ətrafına sarıq sarınmış şiş uclu papaq”, “tayqulaqlı bir papaq”, “hərbi papaq”, “qızıl ulduz nişanlı əsgər papağı”, “dəmir papaq”, “qara meşin papaq”, “qazmaçı papağı”

və s. (42 müxtəlif növ!). Bundan əlavə yazıçının əsərlərində papaqçılıqla bağlı bir sıra yerlərdə “papaqçı”, “papaqçı dükanı”, “papaqçıbazar“ sözləri keçir və onlar haqqında danışılır.

Qədim fotolara baxdıqda, doğrudan da, bu qeyd olunan papaq növlərinin Azərbaycanda əsasən XIX əsrin sonu XX əsrin əvvəllərinə kimi mövcud olduğunu görürük. Onlardan yalnız bir neçə növü sovet dövründən bu günlərə gəlib çata bilib. O da əsasən xanəndə və mollalarımızın başında. Çox az bir sayda digər vətənpərvər vətəndaşlarımızın və gənclərimizn başında milli identifikasiya simvolumuz olan papaqlara rast gəlirik. Qloballaşma və sovetləşmə siyasəti xalqların milli və mənəvi dəyərlərini məhv etməyə çalışmışdır. İndi dünyanın hər bir yerində gördüyümüz adamlar sanki eyni bir paltar geyirlər. Heç bir milli element mövcud deyildir.

Əzizə Cəfərzadə əsərləridə **papaq sözü daxil olan ideomalara**[1] **və deyimlərə** də çox rast gəlinir. Bir neçə nümunə gətirək:

“Lənət olsun o zəmanəyə ki, **doğru danışanın papağının qulağı cırıqdı**. Lənət olsun o zəmanəyə ki, həqiqət deyənin dili kəsilir, əhli-beyti möhtac olur...” (“Aləmdə səsim var mənim”, 2024, s. 491) M.Ə.Sabirin “Hophopnamə”sində də “doğru danışanın papağının qulağı yırtıq olur” şəklində istifadə olunan bu məsəl “düz danışan adama təqiblər olunur” mənasındadır.

“— Buy, hələ bir fəxr eləsinlər, sevinsinlər, **papaqlarını göyə atsınlar** ki, sənin kimi bir xanım onların toyuna gəlibdi.“ (“Seçilmiş əsərləri”, VII cild, 2021, “Eşq sultanı” romanı, s. 301-302) “Papağı göyə atmaq” – sevinmək mənasında işlədilir.

---

[1] İdeom – yun. Yalnız müəyyən bir dilə xas olan və mənası tərkib hissələrini təşkil edən sözlərin ayrı-ayrılıqda götürülən mənası ilə düz gəlməyən, parçalanmayan söz birləşməsi; ifadə.

"Ata-anası — Qasımla Balaxanım onun "**başına papaq**" qoymuş, kişilər çərgəsinə çıxartmışdılar. İlklərini "başgöz" eləmiş, əl-ayağını küçədən yığmış, aşıq-aşıq oynayan məhəllə uşaqlarının dəstəsindən ayırmışdılar." ("Seçilmiş əsərləri", IX cild, 2021, "Pencək" hekayəsi, s. 211-212 ). "**Başına papaq**" qoymaq deyimi "evləndirmək" mənasında işlədilmişdir.

"**Başıpapaqlı**" və ya "**papaqlı**" bir mənalı olaraq kişi sözünün sinonimi kimi işlədilir. Əzizə Cəfərzadə əsərlərindən bir neçə nümunəyə nəzər yetirək:

"Hə, sən onda lap uşağıydın. Bir qırğın oldu, qıyamata getdi. Xanın körpə uşaqlarınacan qırdılar o zalım dinsizlər. Az qala Qarabağda bir **başıpapaqlı** qoymamışdılar. Qırılan qırıldı, qalan qorxusundan qaçıb İrana, Türküstana, Ərəbistana başını apardı. Xan atam deyirdi ki, İbrahimxəlil xan çox tədbirli, ağılbənd adamıydı. Amma nahaq yerə inanmışdı o kafirlərə." (""Gülüstan"dan öncə", "XAN" nəşriyyatı, 2016, S.170). Bu nümunə də yazıçının Qarabağ xanı İbrahimxəlilnin rus təbəsinə daxil olduqdan heç bir il də keçməmiş, ermənilərin təşviqi və əli ilə, xəyanətkarcasına ruslar tərəfindən qətlə yetirilməsi hadisəsi haqqında danışıldığı bir parçadandır.

"**Evlər başıpapaqlısız qalmışdı,** kişilər əllərinə keçən silaha sarılıb, nizami yağı qoşunların, sonra da onları əvəz edən müxtəlif başıpozuqların, xanlıq, bəylik, ağalıq iddiasına düşənlərin qabağını saxlamağa çalışırdılar." ("Seçilmiş əsərləri", II cild, 2021, "Vətənə qayıt", s. 29)

"Cavan arvadlardan **papaq** və şalvar geyib vuruşanlar cərgəsinə qoşulan az deyildi." ("Zərrıntac-Tahırə", 2023, s. 160)

"— Getməliyəm, Güləli qızı! Elin gəlini-qızı da qılınca qurşananda **başıpapaqlıların** evdə oturmağı ayıbdı." ("Bakı-1501", "XAN" nəşriyyatı, 2023, s. 111)

“Yenə zənən xeylağının artıqca yerə Misgərbazara gəlməsini rəva görməmişdi: “Necə olsa başı açıqdı, **papaqlısı yoxdu**, naməhrəm gözlərdən nə qədər iraq olsa, bir o qədər yaxşıdı”.” (“Vətənə qayıt”, s. 26)

“Nəsillərində kişi qısmından bir **başıpapaqlı** qalıbmış, o da bizimki...” (“Seçilmiş əsərləri”, V cild, 2021, “Bir səsin faciəsi”, s. 242-243).

“**Başıpapaqlısı** olmayan evlərdə arvad naxıra getməz, onu qonşu **başıpapaqlı** əvəz edərdi.” (Bakı-1501”, S.39). Yazıçı burada kəndlərimizdə olan qeyrət və gözəl insani adət nümunəsini də dilə gətirib.

**“Papağını yerə soxmaq” –** rüsvay etmək, hörmətdən salmaq mənasında Əzizə Cəfərzadə əsərlərində geniş istifadə olunmuş frazeoloji birləşmədir. Bir neçə belə nümunəyə nəzər yetirək:

“Məşədi Səməndər isə artıq onu tanımışdı. Amma kişi bacısı oğluna yaxınlaşmağa cürət eləmirdi. Axı yaxınlaşıb nə deyəcəkdi? “**Deyiklin qoşulub qaçıb, atasının, əmilərinin papağını yerə soxub**”, — bunumu deyəcəkdi?” (“Səyyah (Eldən-elə)”, 2022, s. 79)

“– Cəzasıdı. Hökmünü özü verib. **Papağımızı yerə soxub**.” (“Bəla”,”XAN” nəşriyyatı, 2016, s. 121)

“**Əlinin papağını Vəlinin başına qoymaq**” deyimi çox vaxt çətin vəziyyətdən birtəhər çıxmaq mənasında işlədilir. Bu xalq deyimini yazıçı öz obrazlarının dilindən səsləndirib: “Vallah, **Əlinin papağını Vəlinin başına qoysa** da, düzəldirdi, möhübimizi düzürdü.” (“Rübabə sultanım”, S.270 )

Havanın soyuqluğunu təsvir zamanı yazıçı ana dilimizin şirin deyimlərindən istifadə edərək yazır: “**Payızın orta ayından yazın ortasınacan kişinin papağını da atsaydın, dalısıycan buralara gəlməzdi**.” (“Vətənə qayıt”, s. 247).

Əzizə Cəfərzadə "**papaqaldıqaç**" kəlməsini müxtəlif əsərlərində işlətmişdir. Bunların heç biri uşaqların papaqla oynadığı qədim oyunla əlaqədar deyil. Yazıçı əsərlərində "**papaqaldıqaç**" kəlməsini qarışıq bir yer və zamanə mənasında işlədib. Aşağıdakı iki nümunəyə baxaq:

"Bazara bir çaxnaşma düşdü ki, "**papaqaldıqaç**" oyunu onun yanında "dinmə-lalıq" oyununa oxşardı." (Zərrintac-Tahirə", s. 21). Yazıçı iki qədim uşaq oyunun adından istifadə edərək onları yada salır və bazardakı qatma-qarışıqlığı təsvir edir.

"Təkcə "Molla Nəsrəddin"in 1908-ci ildə çıxan, tam əlli iki nömrəsini nəzərdən keçirsək, bu "bölhaböl", "**papaqaldıqaç**" dünyasında Avropanın, birinci növbədə isə İngiltərə, Almaniya və Fransanın rolunu, qəsbkarlıq müharibəsinin hazırlandığını, elə indidən işarə gözlədiyini, güclülərin zəifləri qamarlamağa başladığını aydın görərik. "Avropa və Osmanlı" karikaturasında dörd səhnəcik var: 1-cidə iblis şəklində çəkilmiş avropalı osmanlıya deyir: "gəl yuxulayaq", 2-cidə yuxulamış osmanlının fəsini avropalı götürür. 3-cüdə osmanlı oyanıb **papağının qaçırıldığını** anlayır, 4-cüdə o, avropalıya göz ağardırsa da, avropalı heç bir şey olmamış kimi özünü yuxuluğa vurur." ("Seçilmiş əsərləri", IV cild, 2021 "Sabir", s. 190). Görünən odur ki, yaşadığımız bu dövr yenə də yazıçının təsvir etdiyi mərhələyə gəlib çatıb. Bu nümunədə Əzizə Cəfərzadə, digər əsərlərində də müşahidə etdiyimiz bədii əsər çərçivəsində qısa olaraq elmi və ya publisistik formada yazı daxil etmək kimi təsvir üsulundan istifadə edib.

Əzizə Cəfərzadənin "Aləmdə səsim var mənim" romanında belə bir mükalimə də var: "—Sö-öləsən, meyidüvü görüm, day bu camaatda qeyrət qalmayıb...

Balam **papağı isti-soyuq üçün qoyullar** da...

—Allahü əkbər, camaat arı yeyib, namusu dalına atıb." (S.283). Bəli, dünyanın çox yerində papağı isti-soyuq üçün qoyublar. Bizim vətənimizdə başımızda gəzdirdiyimiz papağın məziyyəti, önəmi isə bambaşqadır. **Papaq qeyrət, namus, ləyaqət, mənlik, şərəf nişanəsidir, bir milli identifikasiya, bir milli qürur elementidir.**

Əzizə Cəfərzadə "Natəvan haqqında hekayələri"ndə Xan qızı qız qaçırılma məqamına rast gəlib və qızı yaramaz bəylərin əlindən aldığı zaman belə deyir: "Nişanlı qızı zorla qaçırdan **başına papaq qoyar**?" ("Seçilmiş əsərləri", I cild, 2021, s. 83)

"Bir səsin faciəsi" romanındasa yazıçı yazır: "Qıza əl atan olar, bəlkə... Axı cahıl-cuhul bilir ki, qız təkdi. **Başıpapaqlı** yoxdu evdə...

– Haqlısan, arvad düz bilmisən. Qızı güdən var. Bir zəfər toxundurarlar, **sonra gərək başımızda papaq gəzdirməyək**. Bura Şirvandı ha... Sabahdan qızı gəti, yanımızda o yankı otaqda sənnən yatsın." (s. 329). Bəli, bizim xalqda namussuz, qeyrətsiz adamın papaq qoyması mümkün deyil. Çünki **papaq şərəf və ləqayət nişanəsidir**.

Yazıçının bir sıra əsərlərində **papağın namus, qeyrət ünsürü kimi** verildiyi bir neçə parçaya baxaq:

"Məhəmməd gəlib ona çatdı: böyründə dayandı, bir söz soruşmadı. İsmayıl qardaşına baxmağa qorxurdu, ona elə gəlirdi ki, indicə Qaranın gözləri gözünə sataşsa, sıx qara çatma qaşlarını, indi allığı solmuş buğdayı simasını görsə, hönkürüb ağlaya bilər, qəsdini yerinə yetirə bilməz, sonra da baş götürüb camaat içinə çıxa bilməz, **"papaq, namus"** daşlarına duruş gətirməz." ("Aləmdə səsim var mənim", s. 285)

"Xəncəri dayayıb ürəyinə deyib: "İt işinə göndərsən də qayılam, elərəm, amma Seyidalının **papağını yerə soxmağa**

**qoymaram**”.” (“Seçilmiş əsərləri”, I cild, 2021, “Qobustan çökəklərində” romanı, s. 205)

“O yüz qaçağın içində xəncəri ürəyinə dayayıb, səni binamus eləməyə qoymayıb. **Papağını yerə soxmayıb**. O it uşağına qulluqçuluq-nökərçilik eləyib... Təmizliyin saxlayıb... Sən isə... Onun ləçəyi Muxtar kimilərin mininin papağından şərafətlidi...” (“Qobustan çökəklərində”, s. 323-324)

“Hə, hə, elə məktəbdə oxuduğu “Mərd ilə namərd” nağılına bənzədirdi həyatını: “O, arvad ləçəyi ilə dar günümdə mərdlik elədi, tutdu məni; mən **kişi papağımla** namərdlik eləyib atım onu?” (“Seçilmiş əsərləri”, XII cild, 2021, “Qorxulu həqiqət” hekayəsi, s. 350-351)

Əlbəttə ki, papaq bir şərəf və namus elementi olduğu üçün ona and içiblər: “Yoxsa bu **papaq mənə haram olsun**, yalan deyirəmsə, çəngi ləçəyi başıma olsun.” (“Qobustan çökəklərində”, s . 206)

Yazıçının bir neçə əsərində toxunduğu bu qanlı-qadalı sovet dövrünün – qırmızı terrorun başladığı illər, daha sonra repressiya illərində papaq, qeyrətlə eyniləşdirilir: “— Yəni deyir **qeyrət köhnəlib**, verilib muzeyə, çadra kimi, **papaq kimi**...” (“Qobustan çökəklərində”, s. 279)

“Allah, qarğa deyil ki, göz ova. Gec elədi, güc elədi. Bəs bigünah qocanın, təqsirsiz yetimlərin ahı yerdə qalardı? **Bu dünyada başında papaq olan qeyrətli bir kişi yox idi**?”. (“Vətənə qayıt”, s. 405)

Erməni düşmənlərimiz də bizim papağa olan hissiyyatımızı gözəl bildikləri üçün hələ Azərbaycanda yaşayıb, çörəyini yeyib, suyunu içib, havasını udduqları vaxtlarda törətdiklərini, Əzizə Cəfərzadə “Qara qayalar” hekayəsində ürək ağrısıyla təsvir edir: “Hansısa bir tək **çobanın papağını dığalar futbol topuna çevirib**

**oynadır**, bu ona, o buna atır, ya əlləriylə tulazlayır, ya ayaqlarıyla təpikləyirdilər.” (“Seçilmiş əsərləri”, IX cild, 2021, s. 331).

Əlbəttə ki, bir folklorçu və adət-ənənlərimizin qoruyucusu, təbliğatçısı kimi Əzizə Cəfərzadə Novruz şənliklərinin təsvirininə də əsərlərində yer vermiş və “**papaq atmaq**” adətinini xüsusi qeyd etmişdir: “— Tonqal qalardıq uşaqlıqda, üstündən atılardıq uşaqlıqda... Məşəl düzəldər, fırladardıq uşaqlıqda... “Qurşaq atar, yaylıq sallar, **papaq atardıq”**... Yumurta döyüşdürərdik, boyardıq uşaqlıqda...” (“Seçilmiş əsərləri”, IX cild, 2021, “Müdrik qərar (Atın faciəsi)” hekayəsi, s. 288).

Tarixən Azərbaycan milli geyiminin bir mühüm hissəsi olan papaq, kişi əhalisinin bütün təbəqlərinin geyməsi üçün vacib olmuşdur. Ona görə də qədim zamandan kişi və papaqlı-başıpapaqlı kəlmələri bir sinonim ki, istifadə edilib. Papaq, ölkəmizdə həmişə həm qeyrət, həm də şərəf nişanəsi kimi qiymətləndirilmişdir. O, XX əsrdəki məcburi sovetləşmə və qlobalaşma çərçivəsində milli bir ünsür olaraqdan qəsdən yadlaşdırılmağa və unutdurulmağa sövq edilmişdir. Beləliklə də milli identifikasiya, milli kimlik kimi tanınan papaq təəssüf ki, millətimizə yad olan, dünyada universal şapka, kepka, beret, panama, toxunma papaq, beysbol papağı, qulaqlı papaq, şlyapa və s. növlərinə çevrilmişdir.

Əminəm ki, Güllü xanım Tomarlının "Papaq qeyrətdir, kəlağayı ismətdir" layihəsi bu sahədə öz bəhrəsini verəcəkdir. Hamımızın başında şərəflə daşıdığımız milli papağımız olacaq, dünyanın hər yerində uzaqdan bizi görüb tanıyacaq və deyəcəklər: “Bu azərbaycanlıdır!”.

**Turan İbrahimov**

# DƏFTƏR – 8: HEYVANLAR HAQQINDA ŞEİRLƏR

## Keçi

Dedik beş keçi ayranı bizə bəsdi,
Acığcan kilkəbaş təkəni kəsdi.
Keçinin üzməydə var idi qəsdi,
Degir banıstana hay sökə-sökə.

İtlədi birini uğurudu azca,
Ürəyimdə qalmadı yağ da.
Zol çıxıb çağırardı dağda,
Degir banıstana hay sökə-sökə.

Çıxeyduğ bu qışdan göreydük yazı,
Ayransız qoymusan yetim Eyvazı.
...
Eyvaz da qalıbdır hay sökə-sökə.

Üç manata verdi bizə bir keçi,
Heç bilmədik nədir sözünün veci.
Yanaldı belinə çəkdi ağaçı,
Döydü basnıstana hay sökə-sökə.

## Darı

Darı boynuyun əyənisən,
İtin paxır ləyənisən.
Sərçə, bildirçin yemisən,
Layaqsan heyvana, darı.

Bacalardan çıxır tütün,
Yemək olmaz birin bütün.
Dağıdır uşaların ordun,
Kim getsin dərmana, darı.

## Cöngə

Üç gün – üç gün qaldım çalada yalğuz,
Axşam olcaq oldu çarx ayaz-ulduz.
Ulaşır çaqqallar, xortuldar donuz,
Ölmiyeydim bir Qurbanı göreydim.

Ayazımı tutub qırovların palçığı,
Baoğazımı tutub qası saman qılçığı.
Ölmiyeydim bir yeyədim tarçığı,
Hayxırıban bir bucağın görəydim.

Yiyəm nə dam tikdi, nə də getdi avara,
Beş mal ilə qısnayıbdır duvara.
Məni qoydu vətənimdən avara,
Hayxırıban bir də carı görəydim.

## Əbilin ulağı

Ay ağalar tərif edin bu Əbilin ulağın,
Salıban mal damına mic vurubdur qulağın.
Nəxuna arpa yeməz, dadanıbdur navalaya,
Evdə olan arpanı arvad vərib gavaliya.
Çekibən şor bulağa birki gəldi ayağına,
Götürüb çuval çapanı düşdü kömür sorağına.

## OYUNLAR

**I Naqquli** (şumaqədər) − müəyyyən şişuclu ağacı, səkinin qırağından nörbəylə palçığa çıxarırlar. Uduzan bu sözləri deyir və qaçır: Çaşka, lojka, sup-kartoşka, naqquli...

**II Südlü sümük** – Ay işığında oynanılır. Sümük atırlar. Hara düşdü bilinmir. Axtarırlar. Kim tapdı o udur.

**III Qapqara qazan** – Mal-heyvan gələndən sonra, qaranlıq düşəndə oynayırlar. Bir növ "gizlənpaç" oyunu növüdür. Uşaqlardan biri gözünü bağlayıb belə oxuyardı:

Qapqara qazan,
Qapqara qazan,
Yerüvü bərkit,
Gəldim ha!...

Bu oxunan vaxt başqa uşaqlar qaçıb gızlənərdilər. Sonra uşaq gözlərini açıb gizlənən oyunçuları axtarardı.

**IV Çoban və qurd –** Əvvəlcə oyunçular bunu deyirlər:

Qurd − Əmək-əmək pulum var.
Çoban – Sürü-sürü qoyunum var.
Qurd – Mən qurdam alaram.
Çoban – Mən çobanam vermərəm.

Sonra qurdala çoban əlləşir; qurd dartıb aparmaq istəyir; çoban vermir.

**V Halay, bəylər, halay –** Oyunçular iki dəstəyə bölünürlər: biri qızıl, o biri gümüş dəstə.

Bəy – Halay, halay, halay.
Bəylər – Qolay.
Bəy − Qızıl düşür; kim kimə düşür?
Bəylr – Gümüş
Beləcə hər oyundan əvvəl püşklə bölüşürlər.

**VI – Bənövşə, bizdən sizə kim düşər**

− Bənövşə, bəndə düşə!
− Sizdən bizə kim düşə?
− Adı gözəl, özü gözəl − Flankəs.

Rəqib dəstədən iki nəfər əl-ələ turur. Adı çağrılan oyunçu qaçaraq o əlləri qırıb keçməyə çalışır. Qırıb keçə bir nəfəri götürüb öz dəstəsinə qayıdır. Qıra bilməsə özü orada qalır.

# NƏĞMƏLƏR VƏ MEYXANALAR

## Dur, get, oğlan sabah oldu

Sabah  olar atlar gələr,
Dörd bir yanı tozlar gələr,
Tamaşana yadlar gələr.

Nəqarət:
Dur, get, oğlan sabah oldu,
Yandı bağrım kabab oldu,
Mənim canım qurban sənə,
Sənin canın həlak oldu.

Sabah olar qazlar gələr,
Dörd bir yanı otlar gələr,
Tamaşana qızlar gələr.

Nəqarət:

## Sən dəli, mən dəli, qayıt gəl bəri

Araqçın tikmişəm sapı özündən,
Tutum biləngindən, öpüm üzündən.
Haqq-sayım gəlsin yarın gözündən,
Sən dəli, mən dəli, qayıt gəl bəri.

Araqçın tikmişəm tamam naxışdı,
Bayıra çıxmaram, bayır yağışdı.
Sən gedən neçə payızdı, qışdı,
Sən dəli, mən dəli, qayıt gəl bəri.

Şirvanın yolları tama badımcan,
Qolunda bilərzik, boynunda mərcan.
Geidrsən, kağız yaz, olum xətircam,
Sən dəli, mən dəli, qayıt gəl bəri.

Şirvanın yolları çəlləkbəçəllək,
Al tuman istərəm, çineyi köynək,
Gözlərəm yolunu, olaram hələk,
Sən dəli, mən dəli, qayıt gəl bəri.

Şirvan oğulları olub gəzəri,
Quruyub bağları, tşküb xəzəliş
Mənim yarım Şamaxının gözəli,
Sən dəli, mən dəli, qayıt gəl bəri.
*(qonşı Səmərruxdan toplanıb)*

***

Geyibsən qırmızı, olubsan göyçək,
Qızılgül deyilsən, suyundan içək.
Nazlı yar qapısın nə üzlə keçək,
Keçsəm öldürərlər, keçməsəm ölləm.

***

Quşumu atdım Sonaya,
Getdi gəmişdi Tonaya.
Yarın telində xınaya,
Qaldım yalvara-yalvara.

***

Eyvay nənə, tanqı gəldi,
Üyəyimə yanqı gəli.
Kişmişnən çay içməkdən,
Dişlərimə sancı gəldi. *(Təbriz)*

***

## Xırda qız

Səhər-səhər gərdəyinə girmişəm,
Səhər-səhər tellərini hörmüşəm,
Səhər-səhər Xırda qızı görmüşəm,
Ay boyuna qurban olum, xırda qız,
Ay gözünə heyran olum, Xırda qız.

Yol verənə, yol verənə görkəzin,
Əllərini dərd bilənə görkəzin,
Dillərinə dil verənə görkəzin,
Ay boyuna qurban olum, xırda qız,
Ay gözünə heyran olum, Xırda qız.

Mina gəlin verə növraq toyuna,
Mina gəlib qurban ola boyuna,
Mina gəlib heyran ola muyuna,
Ay boynuna qurban olum, xırda qız,
Ay gözünə heyran olum, Xırda qız.

## Bakı kəndləri haqqında meyxana

Bu, Mərdəkandır qadan alım sənin.
Yaxşı məkandır qadan alım sənin.

Neftikom eylər bura diqqət inan.
Dop-doludur Buzovna qıssa tuman.
Maştağaya kimdir, ay oğlan, baxan?
Yeri şorandır qadan alım sənin.

Pir şağanın varsa gözəl havası,
Şor su üçün ərşə çıxıb nəvası.
Şollar suyu olsa da gər davası,
Tapılmaz əlan qadan alım sənin.

Nardaranın at o yana daşını.
Paslı olur dəlləyinin maşını.
İslatmamış qırxır elin başını.
Yaman məkandır qadan alım sənin.

Bir yuvadır Ləş də bayquşlara,
Bilgəh isə məskən əli boşlara,
Doxturu yoxdur baxa naxoşlara.
Tapılmaz əlan qadan alım sənin.

Fatmeyi düz yol, Zirə həsrət çəkər.
Novxanı şirin suya minnət çəkər.
Bax, Goradil gör nə müsibət çəkər?
Ahu-fəğandır qadan alım sənin.

## MÜASİR FOLKLOR VƏ MƏZƏLƏR

### İki Məmməd bir çəpişi canavara verən ili

O ili məzuniyyətimizi kənddə keçirirdik. Qardaşım Məmmədlə, ərim Mamed (belə seçirdik Məmmədləri) ovçuydular. Arabir çıxıb daşlardan kəklik gətirirdilər. Bir gün söz çıxdı ki, bu yeddipara Udulu kəndlərinin ərazisinə canavar dadanıb. Kəndlərdən: Şorbaçı, Paşalı, Ağanədirli, Cəngən, Tağılı, Tava və Qubalı kəndlərindən neçə heyvan parçalayıb, nə qədər ziyanlıq vurub. Qocalar bizim Məmmədlərə yapışdılar ki:

– Kəkliyə nə var? Gətirib yeyirsiz. Camaata kömək eləyin. Vurun o namərdi.

Hər iki Məmməd bir neçə gün canavarı izlədilərsə də, özünə rast gəlmədilər; qanlı izini, parçalanmış heyvan leşindən dağa-dərələrə-kahalara tərəf gedən izini gördülər.

Axırı bu qərara gəldilər ki, bir çəpiş aparıb o ləpirlərdən birinin yanındakı yovşanlığa bağlasınlar. Özləri aralıda – güllə mənzilində pusquda dursunlar. Gecə çəpişin mələrtisinə gələndə vursunlar onu. Elə də elədilər. Səyyadın "mindiyi" çəpişin şəklini fotoya aldım. İndi də məndədi.

Bəli, Məmmədlər getdilər. Gecə yarıyacan çəpiş mələdisə də, insan iyi almış təcrübəli canavar hardansa kahasından çıxmadı. O birisi gecə də belə. Məmmədləri iki gecənin yuxusuzluğu yorur, çəpiş mələyir, canavar gəlmir ki, gəlmir. Ovçuların biri yerlərini dəyişib xeyli aralıda pusmağı məsləhət görür.

– Yoox, qardaş, o mərdiməzar fürsət tapıb çəpişi gözümüzün qabağında parçalar.

Nə isə. Çəpiş də götürüb gecəyarısı evə döndülər və bu əhvalatı danışanda mən rezyume verdim:

– Hə, lap tarixə düşərdiniz. "Hacabdulla it küçüyü doğan ili nağılı və ya "mütrif dəftəri"ndəki Qasım əmi bir hadisənin nə vaxt baş verdiyini soruşanda deyərdilər:

"Hə, iki Məmməd bir çəpişi canavara verən ili" olub filan şey. Dilimizdə sonra ailə misalı oldu.

**Seyidov Fazil Dərbəndinin məzələrindən**

a) Bir gün Manaf Süleymanov Fazil müəllimin yanına – Əlyazmalar Fonduna gəlir:

– Fazil müəllim, – deyir, – sizdə qədim əl yazmalarında bəlkə bir dərman-davaya rast gələsən. Axı mən dazam deyə qızlar məni bəyənmir.

Fazil müəllimin "baş üstə" deyir. O gündən hər üçdə-beşdə Manaf Süleymanov Fazil müəllimə xırda-para hədiyyələr gətirib gəlir. Dərmanı unutmamağı xahiş edir. Hədiyyələr Cahan müharibəsinin ağır illərində bir stəkan qoz, fındıq, nə isə buna bənzər şirniyyatdan-zaddan olur. Bir gün Manaf yenə gəlir; yorulub, soruşur:

– Fazil müəllim, bir şey tapa bilmədin?

Fazil müəllim əlini başına atıb araqçınını çıxarır, öz dazını göstərir:

– Manaf, keçəl çarə bilsə, öz başına elər.

b) Fazil müəllim çox bilikli, Şərq ədəbiyyatı, xətlər, qədim əlyazmaları tanıyan, dərin savadlı adam idi. Şer, xüsusən satiralar yazar, hansı idarəyə işi düşsə, başçısına bir şer ithaf edərdi. Elmi-tədqiqi məqalələri vardı. Əruzu gözəl bilirdi. Bir gün folklorşünas Əhliman Axundov müdafiə etdi. Fazil isə çox gecikirdi. Danlağımıza qarşı əllərini qaldırıb dedi:

Ey Xuda, bəs alim olsun Əhliman, mən olmayım,
İçsin elmin konyakın, olsun piyan, mən olmayım.

Qərəz, çox təkidlərimizdən sonra Fazil müəllim o nəhayət ki, işini səliqəyə salıb müdafiə etdi, əruzla ilgili.

Folklorşünas professor Məmmədhüseyn Təhmasib onu belə təbrik etdi:

Failatun, failatun, failatun failat
İki qıssa bir uzunla Fazil oldu kandidat.

v) Fazil müəllimi çox tərifləyirdim evdə, bizə öyrətdiklərindən danışırdım. Bir dəfə ömür yoldaşım məni götürməkçün idarəyə gəldi. Fazil müəllimlə çox mehriban görüşdü. Fazil müəllim dedi:

– Mamed, mənə Moskvadan bir təzə dəb fetr şlyapa al gətir.

Mamed təyyarəçiydi, tez-tez Moskvaya və başqa yerlərə uçurdu. O zaman Bakıya yaxşı "şeylər" Moskvadan gəlirdi. Fazilin xahişinə qarşı Mamed sağ əlini sağ gözünün üstünə qoyub dedi:

Baş üstə, göz üstə. Ölçüsü neçə olsun?

– 55.

Mamed təəccübləndi:

– Belə kiçik? Fazil müəllim, Əzizə evdə Sizi o qədər tərifləyib, biliyinizdən danışıb ki, mən elə bilirdim Sizin başınızın ölçüsü azı bir 66 olar.

Fazil müəllim güldü, həmişəki hazırcavablılığıyla dedi:

– Mamed, mənim başım "squşonnu"du, ürəyim "bezrazmernı".

***

Aktyor Əmir Dadaşlı meypərəstmiş bir gün, bədahətən deyir:

Paxmelim şiddətlidü saqi əsəbləşdim yenə!
Abi-ənqurum zəifdir, gövhərindən ver mənə.

Kazım Ziya ordaymış deyir:

Əla amma əruz ? paxmel …… verir:

Əmir Dadaşlı dərhal düzəldir:

Bədxumaram, bədxumar, saqi əsəbləşdim yenə,
Abi –Ənqurun zəifdir, cövhərindən ver mənə.

***

**Müəllifi bilinməyən zarafatyana şeir**

Mən deyirəm lənginən,
Çərpələng olub göyə millənginən.
Şairsən? Bir kəlmə dillənginən.
Mələk xanımı götürüb bizə gilləngilən.

# ƏLAVƏ

## YUSİF VƏZİR "FOLKLOR YOLUNDA"

1884-ci ildə Tiflisdə nəşrə başlamış "Zbornik materialov dlya mestnostey i vremen Kavkaza" adlı məcmuə türk folklorunun toplanması yolunda ilk addımlar atmışdır. Qori və İrəvan seminariyalarını bitirmiş müəllimlər eşidib öyrəndikləri xalq məhsulunu bu məcmuələr vasitəsilə nəşrə çalışmışlar. İlk topləyış təsadüfi olmuş, heç bir sistem və plana tabe olmamış, təbiidir ki, qüsurlardan da xilas ola bilməmişdir: "toplanılan yer göstərilməmiş, yerli şivə saxlanılmamışdır...

Dar bir oxucu dairəsi üçün nəşr olunan bu məcmuələr geniş kütlənin malı ola bilməzdi; məktəb yoxluğu və savadsızlıq da bura əlavə olunarsa, məsələ aydınlaşar. Folklorun ayrı-ayrı xırda parçaları ilk dəfə olaraq məktəb kitabları vasitəsilə geniş kütlə arasına yayılmışdır. Bu yolda da ilk addımı türk atmamışdır. Çernyaviskinin — Vətən dili"si ilk təşəbbüsüdür.

1905 inqilabından sonra folklora qarşı maraq artırsa da, toplanan materiallar çap olunmayır. Meydana ancaq bir iki risalə çıxır: Məsələn İrəvanda basılan "Atalar sözü" Bakıda nəşr olunan "Balalara hədiyyə" (Köçərli), "Sofi Şeyda" (Qənizadə S.M), "Məlik Məhəmməd"(Çəmənzəminli) və "Arvad ağısı" (Mirzə Abbas Abbaszadə).

Nəzəri sahəyə bir az əl atan Köçərli aramızda ağızdan-ağıza dolaşan bu geniş ədəbiyyatı təmamilə bizim məhsul deyə qəbul etmiş halbuki, dar milli çərçivədən sıxılaraq,

folkloru dünya miqyasında tədqiq edəriksə, başqa nəticələrə gələrik.

("Ədəbiyyat qəzeti" 22 dekabr 1934-il № 18 s. 2).

## İNFORMATORLAR HAQQINDA MƏLUMAT

1. Ağabanı, Tava kəndi, Udulu.
2. Ağaxanım (Ayxanım, Axanım) Xəlfəqulu qızı Zülfüqarova (1890, Ərdəbil – 1979, Tağılı), əslən Şahsevəndir, 1920-ci illərdə Ərdəbildən Tağılıya qaçırlıb.
3. Bacıxanım Ağalar qızı, Laçın
4. Badam Məşədi Oruc qızı, Tağılı kəndi, Udulu
5. Bəyim İbrahimova, müəllim, Göyçay, 1976
6. Bikə Nağı qızı Qasımova, Tağılı kəndi, Udulu
7. Böyükxanım Cəfərzadə (1902, Şamaxı – 1976, Bakı) – Əzizə Cəfərzadənin anası
8. Cənnət Bəşir qızı Mirzəyeva , Tava kəndi, Udulu
9. Eldar Mürsəl oğlu Kərimov, Oğuz rayonu Zərdab kəndindən toplayıb Əzizə Cəfərzadəyə göndərən.
10. Əminə İslam qızı Məmmədova, Tava kəndi, Udulu.
11. Əminə Hacı Şıxbala qızı, Bilgəh kəndi, Bakı.
12. Əsəd (Məşədi Əsəd) Məmiş oğlu Əsədov, Tağılı kəndi, Udulu.
13. Fərrux Alışan oğlu Həşimov, Tağılı kəndi, Udulu.
14. Gülara, Tava kəndi, Udulu.
15. Gülcənnət Əlimusa qızı Zeynalova (1939-1998), Tava kəndi, Udulu, Əzizə Cəfərzadənin qardaşı Əhmədin baldızı.
16. Güldəstə nənə (1885-1965), Tava kəndi, Udulu.
17. Güllü Sadıqova, Oxçuoğlu, Amasiya bölgəsi, 60 yaşında
18. Gülnobat Bəhram qızı Səmədova (1902–1972), Tava kəndi, Udulu, Əzizə Cəfərzadənin qardaşı Əhmədin qayınanası.
19. Gülzaman Qəribov, Tava kəndi, Udulu

20. Hümmət Məhəmməd oglu Sadıqov (1927-1986), Tava kəndi, Udulu

21. Məlahət Həsənağa qızı Zülfüqarova – Fərəcova (01.01.1960), Tağılı kəndi, Udulu

22. Mələk Abdulla qızı (1898, Şörbaçı k.– 1984, Tağılı k.).

23. Mələk (Qara Mələk) Mirzəcan qızı Fərhadova, Tava kəndi, Udulu, 85 yaşında

24. Məryəm (Qara Məryəm) Əlirza qızı Məmmədova, Tava, Udulu

25. Sabah (Kor Sabah), Şorbaçı kəndi, Udulu

26. Salatın Şirin qızı Qurbanova, Tava kəndi (Mələyin anası)

27. Səlbi Mustafayeva, Oxçuoğlu, Amasiya bölgəsi, 90 yaşında

28. Seyid Rübabə (1873, Şamaxı –1939, Məşhəd, İran) - Əzizə Cəfərzadənin nənəsi, anası Böyükxanım Cəfərzadənin anası.

29. Simuzər Quluyeva, Oxçuoğlu, Amasiya bölgəsi, 110 yaşında

30. Sona xanım Hacıağa qızı Həsənova – Qubalı kəndi, Udulu.

31. Sürahi qarı Rzayeva, Tava kəndi, Udulu.

32. Şəfiqə qarı, Paşalı kəndi, Udulu.

33. Şərəbanı İbad qızı Ağayeva, – Tava kəndi, Udulu

34. Şma qarı, Ağüzüm, Türkiyə – Oxçuoğlu, Amasiya bölgəsi, 120 yaşında

35. Şükufə Əziz qızı Zülfüqarova – Məmmədova (1939 - 2024), Tağılı kəndi, Udulu.

36. Ümmülbəni Fərəc qızı Məmmədova (1902 - 2011) – Paşalı kəndi, Udulu

37. Xanım Məhəmməd qızı Əsgərova, Tava kəndi, Udulu.

38. Xeyrənsə Əlican qızı Rəhimova– Tava, Udulu

39. Xeyri Xankişi qızı (1880 -1946), Şorbaçı kəndi, Udulu, Əzizə Cəfərzadənin analığı.

40. Yeganə Heydərova, Gürcüstanın Borçalı bölgəsi.

41. Zabitə (Zabta) Cəfərzadə (1932–2009) Tava kəndi, Udulu, Əzizə Cəfərzadənin qardaşı Əhmədin həyat yoldaşı.

42. Zəriş Ağayeva– Tava kəndi, Udulu

43. Zərqələm Məmmədova, Paşabəyli kəndi, Xındırısatan, Ağdam rayonu.

44. Zərxanım Rəşid qızı Cəfərzadə - Zülfüqarova (1929 – 2021) – Tağılı kəndi, Udulu, Əzizə Cəfərzadənin qardaşı Məmmədin I həyat yoldaşı.

45. Zöhrə Mehdiyeva, Oxçuoğlu, Amasiya bölgəsi, 70 yaşında

46. Züleyxa Bəşir qızı Xanbabayeva – Tava kəndi, Udulu.

`



## BAYATI MÜƏLLİFLƏRİ HAQQINDA MƏLUMAT

1. Həlimə Vəliqızı – jurnalist-şairə.

2. Pünhan Səda (4 sentyabr 1959) - şairə.

3. Xuraman Vəfa (Xuraman Məcid qızı Vəfa; 9 iyul 1959, Xaçmaz) —hüquqşünas, iqtisadçı, yazıçı-jurnalist, şairə.

4. Əzizə Cəfərzadə - yazıçı, professor, kitabın müəllifi.

5. Gülnigar Rəhimli (Rəhimova) – şairə,

6. S. Murtuz (Sadıq Murtuzayev (1927-2021)) – filologiya elmləri namizədi, Azərbaycan dövlət və partiya xadimi.

7. Udulu Musa (18. Bozum-18 Tağılı), şair, Əzizə Cəfərzadənin ulu babası – atası Məhəmmədin babası

8. Zal qızı Gülnaz nənə XIX əsrin sonu XX yüzilliyin əvvəllərində Qazax mahalında yaşayıb. Məşhur Qaçaq Kərəmin nəslinə mənsub olub. Zal qızı Gülnaz Xalq şairi Hüseyn Arifin ulu nənəsidir.

9. Zabit Şirvani – şair, XVIII əsrdə Şamaxıda anadan olub və XIX əsrdə orada da vəfat edib.

# ƏDƏBİYYAT


1. Azərbaycanın aşıq və şair qadınları / toplayıb tərt. ed. Ə.Cəfərzadə [ön və son söz]; red. M.Ələkbərli; rəssam M.Rəhmanzadə. Bakı: Gənclik, 1991. – 288 s. [Yeni nəşri (ixtisarla) Azərbaycan qadın şairləri antologiyası /tərtib ed. Ə.Cəfərzadə ; ön sözün müəl. N.Rəfibəyli; red.: T.Qaraqaya, L.Əliyeva. Bakı: AVRASİYA PRESS, 2005. – 256 s.]

2. Azərbaycanın şair və aşıq qadınları. II cild / tərt. ed. Ə.Cəfərzadə [ön söz]; red. heyyəti: S.Əliyeva, R.Əfəndiyeva, R.Ləman. Bakı: Maarif, 2003. – 280 s.

3. Cəfərzadə Əzizə, Cəfərzadə Məmməd, Cəfərzadə Əhməd. Biz Cəfərzadələr / red. Kəmalə Cəfərzadə [ön söz]; naşir T.İbrahimov [son söz]. Bakı – Şirvannəşr. 2001. – 304 s.

4. Cəfərzadə Əzizə. Aləmdə səsim var mənim: [roman: ilk dəfə tam mətn] / red.: T.İbrahimov [ön söz], Ə. Aslanoğlu (buraxıl. məsul və red.); üz qabığı rəssamı F.T.Manafov; Bakı: MİMTA Yayımları, 2024. – 535 s.

5. Cəfərzadə Əzizə. Anamın nağılları / tərt. və səsl. N.Cəfərzadə; red. Ə.Aslanoğlu; buraxıl. məsul S. Ramizoğlu; Bakı: Nurlar, 2020. – 286 s.

6. Cəfərzadə Əzizə. Bakı-1501: [roman] / red. N. Cabbarlı; naşir M. Xan; Bakı: XAN, 2016. – 348 s.

7. Cəfərzadə Əzizə. Bəla : [roman] / red. N. Cabbarlı; naşir M. Xan; Bakı: XAN, 2016. – 126 s.

8. Cəfərzadə Əzizə. Bir səsin faciəsi : [roman] / red. C.Qədir; naşir S.Şahmursoy; Bakı: Xan, 2022. –151 s.

9. Cəfərzadə Əzizə. Cəlaliyyə : [roman] / red. və buraxıl. məsul Ə. Aslanoğlu; üz qabığının rəsmi F.T.Manafov. Bakı: MİMTA Yayımları, 2024. – 180 s.

10. Cəfərzadə Əzizə. Əllərini mənə ver : [povest] / naşir M.Xan; Bakı: Mücrü, 2024. – 43 s.

11. Cəfərzadə Əzizə. Eşq sultanı : [roman] / red. Ə.Aslanoğlu; buraxıl. məsul S. Ramizoğlu; ön söz müəl. V.Sultanlı, son söz müəl. Bakı: MİMTA Yayımları, 2023. – 213 s.

12. Cəfərzadə Əzizə. Folklor araşdırmaları / tərt. ed., ön söz və izahların müəl. K.İslamzadə; red. K.Cəfərzadə, A.Ramazanova; naşır T.İbrahimov [son söz]; Bakı: Elm və təhsil, 2020. – 294 s.

13. Cəfərzadə Əzizə. "Gülüstan"dan öncə : [roman] / red. N. Cabbarlı; naşir M. Xan; Bakı: XAN, 2016. – 237 s.

14. Cəfərzadə Əzizə. Hun dağı : [povest] / red. və buraxıl. məsul Ə.Aslanoğlu; Bakı: MİMTA Yayımları, 2024. – 126 s.

15. Cəfərzadə Əzizə. Natəvan hekayələri / red. T. İbrahimov [ön söz]; buraxıl. məsul Ə. Aslanoğlu; üz qabığı ill. Qəmər Əlif; Bakı: MİMTA Yayımları, 2022. – 165 s.

16. Cəfərzadə Əzizə. Qobustan çökəklərində : [roman] / red. P.Bayram; naşir İ.Tomar. Bakı: Kosmo, 2023. – 150 s.

17. Cəfərzadə Əzizə. Sabir : [roman] / red. Ə.Ağalarov; naşir Y.İlhamoğlu. Bakı: Çapar, 2023. – 265 s.

18. Cəfərzadə Əzizə. Şanapipik: [uşaqlar üçün hekayələr] / red. P.Bayram, naşir M.Xan; Bakı: Mücrü, 2023. – 152 s.

19. Cəfərzadə Əzizə. Seçilmiş əsərləri. Cild I ("Natavan haqqında hekayələr" və "Qobustan çökəklərində" romanı) / tərtibatçı və red. P.Bayram; ön söz müəl. V.Sultanlı; naşir T.İbrahimov[son söz]. Bakı: Elm və təhsil, 2021. – 349 s.

20. Cəfərzadə Əzizə. Seçilmiş əsərləri. Cild II ("Vətənə qayıt" romanı) / red. S.Məmmədova; naşir T.İbrahimov. Bakı: Elm və təhsil, 2021. – 423 s.

21. Cəfərzadə Əzizə. Seçilmiş əsərləri. Cild III (“Yad et məni” romanı) / red. K.Məmmədova; naşir T.İbrahimov. Bakı: Elm və təhsil, 2021. – 367 s.

22. Cəfərzadə Əzizə. Seçilmiş əsərləri. Cild IV ("Sabir" romanı) / red. Ə.Ağalarov; naşir T.İbrahimov. Bakı: Elm və təhsil, 2021. – 322 s.

23. Cəfərzadə Əzizə. Seçilmiş əsərləri. Cild V ("İşığa doğru" və "Bir səsin faciəsi" romanları) / red. V.Sultanlı; naşir T.İbrahimov. Bakı: Elm və təhsil, 2021. – 391 s.

24. Cəfərzadə Əzizə. Seçilmiş əsərləri. Cild VI ("Rübabə sultanım" romanı) / red. K.Cəfərzadə; naşir T.İbrahimov. Bakı: Elm və təhsil, 2021. – 352 s.

25. Cəfərzadə Əzizə. Seçilmiş əsərləri. Cild VII ("Xəzərin göz yaşları" və "Eşq sultanı" romanları) / red. V.Sultanlı; naşir T.İbrahimov. Bakı: Elm və təhsil, 2021. – 458 s.

26. Cəfərzadə Əzizə. Seçilmiş əsərləri. Cild VIII (“Hekayələr (1937-1965)”) / tərtibatçı və red. P.Bayram [ön söz]; naşir T.İbrahimov. Bakı: Elm və təhsil, 2021. – 346 s.

27. Cəfərzadə Əzizə. Seçilmiş əsərləri. Cild IX (“Hekayələr (1965-2003)” və “Kirpi” jurnalında çap olunan satirik hekayələri”) / tərtibatçı və red. P.Bayram; naşir T.İbrahimov. Bakı: Elm və təhsil, 2021. – 372 s.

28. Cəfərzadə Əzizə. Seçilmiş əsərləri. Cild X (“Povestlər (1946-1967)”) / tərtibatçı və red. P.Bayram [ön söz]; naşir T.İbrahimov. Bakı: Elm və təhsil, 2021. – 418 s.

29. Cəfərzadə Əzizə. Seçilmiş əsərləri. Cild XI (“Povestlər (1969-1982)”) / tərtibatçı və red. P.Bayram; naşir T.İbrahimov. Bakı: Elm və təhsil, 2021. – 380 s.

30. Cəfərzadə Əzizə. Seçilmiş əsərləri. Cild XII ("Povestlər (1982-2002)") / tərtibatçı və red. P.Bayram; naşir T.İbrahimov. Bakı: Elm və təhsil, 2021. – 440 s.

31. Cəfərzadə Əzizə. Seçilmiş əsərləri. Cild XIII ("Səfərnamələr (1965-1986)")/ tərtibatçı və red. P.Bayram [ön söz]; naşir T.İbrahimov [son söz]. Bakı: Elm və təhsil, 2022. – 428 s.

32. Cəfərzadə Əzizə. Seçilmiş əsərləri. Cild XIV ("Səfərnamələr (1977-1996)") / tərtibatçı və red. P.Bayram; naşir T.İbrahimov. Bakı: Elm və təhsil, 2022. – 382 s.

33. Cəfərzadə Əzizə. Seçilmiş əsərləri. Cild XV ("Pyeslər (1961-1986)")/ tərtibatçı və red. P.Bayram [ön söz]; naşir T.İbrahimov. Bakı: Elm və təhsil, 2024. – 414 s.

34. Cəfərzadə Əzizə. Seçilmiş əsərləri. Cild XVI ("Pyeslər (1987-1999)") / tərtibatçı və red. P.Bayram; naşir T.İbrahimov. Bakı: Elm və təhsil, 2024. – 366 s.

35. Cəfərzadə Əzizə. Seçilmiş əsərləri. Cild XVII ("Televiziya və radio proqramlarının ssenariləri") / tərtibatçı və red. P.Bayram [ön söz]; naşir T.İbrahimov. Bakı: Elm və təhsil, 2024. – 505 s.

36. Cəfərzadə Əzizə. Səyyah: (Eldən-elə) : [roman] / red.: T. İbrahimov [ön söz], Ə. Aslanoğlu buraxıl. məsul və red.; üz qabığı rəsmi F. T. Manafov; Bakı: MİMTAyayımları, 2022. – 429 s.

37. Cəfərzadə Əzizə. Tanıdıqlarım, sevdiklərim xatirələrimdə / tərt. T. İbrahimov; layihə rəhbəri Ş. Sadiq; red. C.Qədir; naşir S.Şahmursoy; Bakı: Xan, 2021. – 386 s.

38. Cəfərzadə Əzizə. Uşaq hekayələri / tərt. və red. P.Bayram [ön söz]; naşir T.İbrahimov [son söz]; Bakı: Elm və təhsil, 2021. – 166 s.

39. Cəfərzadə Əzizə. Vətənə qayıt: [roman] / buraxıl. məsul Ə. Aslanoğlu; rəssam M.Rəhmanzadə; üz qabığı rəsmi Fuad Tahir Manafov. Bakı: MİMTA Yayımları, 2025. – 375 s.

40. Cəfərzadə Əzizə. Xəzərin göz yaşları: [roman] / red. V.Sultanlı; naşir İ.Tomar. Bakı: Kosmo, 2022. – 183 s.

41. Cəfərzadə Əzizə. Zərrintac – Tahirə : [roman] / red. Kəmalə Səlim Müslümqızı [ön söz]; şeirləri Azərb. dilinə tərc. ed. K.Ağayeva; naşir T.İbrahimov; Bakı: SkyG, 2023. – 306 s.

42. Əzizə Cəfərzadə: Biblioqrafiya / Azərb. Resp. Mədəniyyət Nazirliyi, Azərb. Milli Kitabxanası; tərt. ed. G.Əfəndiyeva; elmi red. K.Tahirov; red. A.Koçak; ön sözün müəl. V.Sultanlı. Bakı: Zərdabi Nəşr, 2022. – 527 s.

43. İbrahimov Turan. Anamın kəlağayı sevgisi. S. 107-110. // Anam kəlağaylı bir muğamıydı... / "Mirvarid Dilbazi Poeziya Məclisi" İctimai Birliyi; red. Güllü Eldar Tomarlı [ön söz]; tərt. Vüsal Seyranoğlu Bakı: Elm və təhsil, 2023. – 188 s.

44. İbrahimov Turan. Əzizə Cəfərzadə əsərlərində papq – kişilik və qeyrət rəmzi kimi. S. 97-108. // Babamın papağı, nənəmin kəlağayısı. / "Mirvarid Dilbazi Poeziya Məclisi" İctimai Birliyi; top. və tərt. edəni Güllü Eldar Tomarlı [ön söz]; red. Vaqif Osmanlı Bakı: Elm və təhsil, 2025. – 180 s.

45. İbrahimov Turan. Əzizə Cəfərzadənin kəlağayı sevgisi. S. 29-48. // Azərbaycan kəlağayısı min illərin yadigarı / "Mirvarid Dilbazi Poeziya Məclisi" İctimai Birliyi; tərtibatçı və red. Güllü Eldar Tomarlı [ön söz]; Bakı: Elm və təhsil, 2022. – 193 s.

46. Nanaylar / topl., tərt. ed.: Əzizə Cəfərzadə, Əhməd Cəfərzadə [ön söz]; naşır T. İbrahimov [son söz]. Bakı: Elm və təhsil, 2021. – 80 s.

**Bu kitabın tərtibində Əzizə Cəfərzadənin Ev Arxivindən götürülüb istifadə edilmiş əlyazmalarının siyahısı:**

1. Ağbaba (Amasiya) nanayları (1960-1962) // Əzizə Cəfərzadənin Ev Arxivi, Fond 'P', Qovluq № 117, Sənəd № 3, vərəq – 2.
2. Araz bayatıları (27.07.2000) // Əzizə Cəfərzadənin Ev Arxivi, Fond 'P', Qovluq № 2, Sənəd № 3, vərəq – 4.
3. Azərbaycanın aşıqları və şair qadınları (II nəşri) (1989-1991) // Əzizə Cəfərzadənin Ev Arxivi, Fond 'P', Qovluq № 70, Sənəd № 1, vərəq – 323.
4. Azərbaycanın qadın şair və aşıqları (01.01.1988) // Əzizə Cəfərzadənin Ev Arxivi, Fond 'P', Qovluq № 68, Sənəd № 1, vərəq – 50.
5. Bacı bayatıları (01.10.1999) // Əzizə Cəfərzadənin Ev Arxivi, Fond 'P', Qovluq № 2, Sənəd № 7, vərəq – 4.
6. Dostlara məktub (mətində öz bayatıları da var) (1980-1992) // Əzizə Cəfərzadənin Ev Arxivi, Fond 'P', Qovluq № 8, Sənəd № 7, vərəq – 17.
7. Əzizə Cəfərzadə xəlqiyyət dəftərləri. Bakı (Nənəsi Seyid Rübabədən) və Şamaxı rayonu Tağılı kəndindən (Analığı Xeyri Xankişi qızından): Şeirlər və bayatılar (1935-1950) // Əzizə Cəfərzadənin Ev Arxivi, Fond 'D', Dəftər № 5, vərəq – 9.
8. Əzizə Cəfərzadə xəlqiyyət dəftərləri. Bayatılar (1960-1995) // Əzizə Cəfərzadənin Ev Arxivi, Fond 'D', Dəftər № 4, vərəq – 16.
9. Əzizə Cəfərzadə xəlqiyyət dəftərləri. Heyvanat haqqında şeirlər (Keçi, Cöngə, Əbilin ulağı, Darı) (1958-1962) // Əzizə Cəfərzadənin Ev Arxivi, Fond 'D', Dəftər № 8, vərəq – 8.

10. Əzizə Cəfərzadə xəlqiyyət dəftərləri. Qaçaq Cəbi oöli Cavad haqında şeir (1958-1962) // Əzizə Cəfərzadənin Ev Arxivi, Fond 'D', Dəftər № 6, vərəq – 2.

11. Əzizə Cəfərzadə xəlqiyyət dəftərləri. Qazıməmməd, Əlibayramlı, Bakı və Şamaxı rayonlarından: Bayatılar (1960-1995) // Əzizə Cəfərzadənin Ev Arxivi, Fond 'D', Dəftər № 1, vərəq – 35.

12. Əzizə Cəfərzadə xəlqiyyət dəftərləri. Qazıməmməd, Əlibayramlı, Bakı və Şamaxı rayonlarından: Pəvayət, idiomatik ifadə, atalar sözü, orjinal məsəl və unudulmaqda olan sözlər (1960-1995) // Əzizə Cəfərzadənin Ev Arxivi, Fond 'D', Dəftər № 3, vərəq – 30.

13. Əzizə Cəfərzadə xəlqiyyət dəftərləri. Qazıməmməd, Əlibayramlı, Bakı və Şamaxı rayonlarından: Tapmaca, yanıltmac, düzgü, oyun nəğmələri, ayin və s. (1960-1995) // Əzizə Cəfərzadənin Ev Arxivi, Fond 'D', Dəftər № 2, vərəq – 43.

14. "Əzizə nənə – 75" nəvələri Nəsrin və Aydanın bayatılarla təbriki (29.12.1996) // Əzizə Cəfərzadənin Ev Arxivi, Fond 'P', Qovluq № 148, Sənəd № 7, vərəq – 2.

15. Folklor nümunələri (1975-1995) // Əzizə Cəfərzadənin Ev Arxivi, Fond 'P', Qovluq № 117, Sənəd № 13, vərəq – 5.

16. Folklor yolunda (Yusif Vəzirin məqaləsi) (22.12.1934) // Əzizə Cəfərzadənin Ev Arxivi, Fond 'P', Qovluq № 34, Sənəd № 32, vərəq – 2.

17. Gün adları (Eldar Baxışa) (21.03.1995) // Əzizə Cəfərzadənin Ev Arxivi, Fond 'P', Qovluq № 23, Sənəd № 1, vərəq – 2.

18. Heyvanatla bağlı (sözlər) (1999-2003) // Əzizə Cəfərzadənin Ev Arxivi, Fond 'P', Qovluq № 18, Sənəd № 46, vərəq – 4.

19. Qeyd dəftəri (Adam adları siyahısı, atalar sözləri, bayatılar, xalq hekayələri, "Fələk kimdir?" yazısı və s.) (1970-1980) // Əzizə Cəfərzadənin Ev Arxivi, Fond 'P', Qovluq № 110, Sənəd № 15, vərəq – 22.

20. Qeyd dəftəri (Adam adları siyahısı, atalar sözləri, Həzrət Əlinin ibrətamiz kəlamları, bayatılar və s.) (1975-1995) // Əzizə Cəfərzadənin Ev Arxivi, Fond 'P', Qovluq № 110, Sənəd № 6, vərəq – 8.

21. Qeyd dəftəri (Atalar sözləri, bayatılar, Kazım Ziya ilə aktyor Əmir Dadaş arasında kiçik zarafat) (1970-1990) // Əzizə Cəfərzadənin Ev Arxivi, Fond 'P', Qovluq № 110, Sənəd № 1, vərəq – 50.

22. Qeyd dəftəri (Bayatılar) (1954-1960) // Əzizə Cəfərzadənin Ev Arxivi, Fond 'P', Qovluq № 110, Sənəd № 13, vərəq – 48.

23. Qeyd dəftəri (Bayatılar) (1985-1997) // Əzizə Cəfərzadənin Ev Arxivi, Fond 'P', Qovluq № 157, Sənəd № 14, vərəq – 60.

24. Qeyd dəftəri (Bayatılar, (1983-1987) // Əzizə Cəfərzadənin Ev Arxivi, Fond 'P', Qovluq № 111, Sənəd № 3, vərəq – 6.

25. Qeyd dəftəri (Bayatılar, deyimlər, kiçik yumoristik hekayələr, xalq hekayələri və s.) (1960-1968) // Əzizə Cəfərzadənin Ev Arxivi, Fond 'P', Qovluq № 111, Sənəd № 9, vərəq – 35.

26. Qeyd dəftəri (Bayatılar, Hundan əvvəlki dildən bəzi sözlər lüğəti, Şərq ədəbiyyatında rəqəmlərin mənası və əbcəd səğir və əbcədi kəbir haqqında qısa qeydlər) (1981-1990) // Əzizə Cəfərzadənin Ev Arxivi, Fond 'P', Qovluq № 157, Sənəd № 12, vərəq – 13.

27. Qeyd dəftəri (Bayatılar, özünün "Mənim" , "Qara gözlüm, gəl bəri!" qoşmaları və s.) (1978-1987) // Əzizə Cəfərzadənin Ev Arxivi, Fond 'P', Qovluq № 110, Sənəd № 12, vərəq – 20.

28. Qeyd dəftəri (bayatılar, şeirlər və s.) (1980-1990) // Əzizə Cəfərzadənin Ev Arxivi, Fond 'P', Qovluq № 111, Sənəd № 17, vərəq – 54.

29. Qeyd dəftəri (Bayatılar, şeirlər, "Сборник материалов для описания местностей племен Кавказа" выпуск 31, Тифлис, 1902" kitabından Xilafət dövrünə aid qeydlər, Azərbaycana aid qeydlər) (1968-1970) // Əzizə Cəfərzadənin Ev Arxivi, Fond 'P', Qovluq № 111, Sənəd № 5, vərəq – 40.

30. Qeyd dəftəri (bayatılar, şeirlər, xalq hekayələri, kasıb xörəklərinin adları, 2 nağıl təkərləməsi, əmək mahnıları, mis qab adları və s.) (1975-1995) // Əzizə Cəfərzadənin Ev Arxivi, Fond 'P', Qovluq № 110, Sənəd № 5, vərəq – 94.

31. Qeyd dəftəri (bayatını müxtəlif türk xalqlarında adları, ağılar haqqında, "Bayatı" məqaləsi, "Həsbi-hallar" haqqında, qayınana-gəlin və günülük kimi qadın münasibətlətində yaramnış "deyişmə"lər haqqında, Qadınlar arasında yaranmış əmək mahnıları və s.) (1995-1996) // Əzizə Cəfərzadənin Ev Arxivi, Fond 'P', Qovluq № 157, Sənəd № 11 , vərəq – 96.

32. Qeyd dəftəri (Kiçik xalq hekayələri, bayatılar, kiçik hekayələr, öz bayatıları və s.) (1984-1985) // Əzizə Cəfərzadənin Ev Arxivi, Fond 'P', Qovluq № 109, Sənəd № 3, vərəq – 23.

33. Qeyd dəftəri (öz bayatı və şeirləri, nağılları, şeirlər və s.) (1975-1990) // Əzizə Cəfərzadənin Ev Arxivi, Fond 'P', Qovluq № 157, Sənəd № 4, vərəq – 166.

34. Qeyd dəftəri (öz bayatıları və s.) (1986-1988) // Əzizə Cəfərzadənin Ev Arxivi, Fond 'P', Qovluq № 157, Sənəd № 7, vərəq – 54.

35. Qeyd dəftəri (Şəhidlərə aid öz bayatıları) (19-21.01.1990) // Əzizə Cəfərzadənin Ev Arxivi, Fond 'P', Qovluq № 110, Sənəd № 8, vərəq – 8.

36. Qeyd dəftəri (Şeirlər, bayatılar, aralar məsəli) (1980-1992) // Əzizə Cəfərzadənin Ev Arxivi, Fond 'P', Qovluq № 111, Sənəd № 13, vərəq – 25.

37. Qeyd dəftəri (xalq deyimləri, bayatılar, xalq hekayələri) (1970-1980) // Əzizə Cəfərzadənin Ev Arxivi, Fond 'P', Qovluq № 110, Sənəd № 17, vərəq – 40.

38. Qeyd dəftəri: müxtəlif şeir və bayatılar, afarizimlər (1980-1985) // Əzizə Cəfərzadənin Ev Arxivi, Fond 'P', Qovluq № 108, Sənəd № 1, vərəq – 40.

39. Qeyd dəftəri: müxtəlif şeir və bayatılar, aforizmlər, atalar sözləri (1976-1980) // Əzizə Cəfərzadənin Ev Arxivi, Fond 'P', Qovluq № 108, Sənəd № 2, vərəq – 340.

40. Qeyd dəftəri: Müxtəlif şeirlər, bayatı və qeydlər (1965-1970) // Əzizə Cəfərzadənin Ev Arxivi, Fond 'P', Qovluq № 108, Sənəd № 3, vərəq – 20.

41. Qeyd dəftəri: Müxtəlif şeirlər, bayatılar // Əzizə Cəfərzadənin Ev Arxivi, Fond 'P', Qovluq № 110, Sənəd № 21, vərəq – 59.

42. Şəhidlərimizçün söylənən ağılar (27.10.1997) // Əzizə Cəfərzadənin Ev Arxivi, Fond 'P', Qovluq № 5, Sənəd № 11, vərəq – 3.

43. Şirvan bayatıları (1970-1980) // Əzizə Cəfərzadənin Ev Arxivi, Fond 'P', Qovluq № 153, Sənəd № 5, vərəq – 2.

44. Şövkət Hicran İmami 2 iyun 1999-cü il televiziyada çıxışı ilə əlaqədar məktubu və 14 bayatısı (02.06.1999) // Əzizə Cəfərzadənin Ev Arxivi, Fond 'P', Qovluq № 126, Sənəd № 41, vərəq – 2.

45. Şövkət Hicran İmaminin qəzəli və bayatıları (01.09.2000) // Əzizə Cəfərzadənin Ev Arxivi, Fond 'P', Qovluq № 126, Sənəd № 63, vərəq – 2.

46. Sürahi qarının dediyi bayatılar (1935-1939) // Əzizə Cəfərzadənin Ev Arxivi, Fond 'D', Dəftər № 7, vərəq – 14.

47. Tarixi bayatılar (19.09.1976) // Əzizə Cəfərzadənin Ev Arxivi, Fond 'P', Qovluq № 38, Sənəd № 2, vərəq – 7.

48. Tariximizlə səsləşən bayatılar (1980-1985) // Əzizə Cəfərzadənin Ev Arxivi, Fond 'P', Qovluq № 38, Sənəd № 5, vərəq – 5.

49. Yeni bayatılar (08.01.2001) // Əzizə Cəfərzadənin Ev Arxivi, Fond 'P', Qovluq № 38, Sənəd № 3, vərəq – 10.

50. Yeni yaranan bayatılar (23.07.1999) // Əzizə Cəfərzadənin Ev Arxivi, Fond 'P', Qovluq № 9, Sənəd № 5, vərəq – 8.

# KİTABIN İÇİNDƏKİLƏR

**ƏZİZƏ CƏFƏRZADƏ ƏSƏRLƏRİNDƏ İSTİFADƏ EDİLMİŞ FOLKLOR ÖRNƏKLƏRİ** ........................................ 3

**"NATƏVAN HAQQINDA HEKAYƏLƏR"DƏN** .............. 4

**ROMANLARDAN** ................................................................ 6

"Aləmdə səsim var mənim"dən ........................................ 6
"Vətənə qayıt"dan ..............................................................12
"Yad et məni"dən ..............................................................13
"Bakı-1501"dən ..................................................................16
"Sabir"dən ..........................................................................18
"Qobustan çökəklərində"dən ............................................18
"Anamın nağılları"ndan.....................................................20
"Səyyah (Eldən-Elə)"dən...................................................24
""Gülüstan"dan öncə"dən ..................................................26
"Zərrintac-Tahirə"dən .......................................................30
"İşığa doğru"dan ...............................................................31
"Bir səsin faciəsi"ndən.......................................................31
"Rübabə sultanım"dan .......................................................32
"Xəzərin göz yaşları"dan ...................................................34
"Eşq sultanı"ndan...............................................................36

**POVESTLƏRDƏN**..............................................................**39**

"Qaratel"dən .......................................................................39
"Bir zərrə iz..."dən ..............................................................39
"Əllərini mənə ver"dən.......................................................39
"Hun dağı"ndan ..................................................................40
"Cəlaliyyə"dən.....................................................................40
"Ata haqqı"ndan..................................................................43
"Səməndər quşu"ndan .........................................................43
"İki ana"dan .........................................................................46

“Qorxulu həqiqət”dən ....................................................46
“Nənəmin dəfni”ndən ....................................................46
“Xəyalım mənim”dən ....................................................46

**“HEKAYƏLƏR”DƏN ....................................................47**

“Xəzər”dən ....................................................47
“Bülbülün nağılı”ndan (rəvayət) ....................................................47
“Kölgə”dən ....................................................47
“Qızbikə-Qız qalası”ndan ....................................................47
“Anaların xası”ndan ....................................................48
“Simavər”dən ....................................................48
“El qızı“dan ....................................................48
“Onda və indi”dən ....................................................49

**“SƏFƏRNAMƏLƏR”DƏN ....................................................49**

**“GÜNDƏLİKLƏR”DƏN ....................................................50**

**“AZƏRBAYCANIN AŞIQ VƏ ŞAİR QADINLARI” (1991) KİTABINDAN ....................................................52**

Gülgəz ....................................................53
Pərnaz ....................................................54
Zeynəb Zərbəli qızı ....................................................57
Püstə Şikar qızı ....................................................59
Başxanım Şəfi qızı ....................................................60
Gülgəz Maqsud qızı ....................................................61
Ağcaqız ....................................................63
Gülümsoltan ....................................................65
Nayıb Şirvani ....................................................66
Aşıq Sənəm ....................................................69
Göyçək nənə ....................................................88
Həcər ....................................................88

**XƏLQİYYAT DƏFTƏRLƏRİDƏN BAYATILAR** ..................90
Dəftər – 1..........................................................................90
Dəftər – 2..........................................................................112
Dəftər – 5: Udulu Musanın bayatıları və gəraylıları ......112
Dəftər – 7: Sürahi Qarının dediyi bayatılar.....................117
Dəftər – 9 Toy bayatıları ..................................................119
Dəftər – 12: Nanaylar və başqa Amasiya folkloru..........120
Dəftər – 13: Aşiqanə bayatılar .........................................137
Cib dəftərlərindən bayatılar və başqa şeir nümunələri .139
Cib dəftəri – P-153-05: Şırvan-Boyat bayatıları...............167
Zabitə Cəfərzadədən əlavə toplanmış bayatılar.............169
Şükufə Zülfüqarovadan əlavə toplanmış ağılar .............177
Zərxanim Cəfərzadədən əlavə toplanmiş bayatı və ağılar
..........................................................................................178
Ermənistan bölgəsindən bayatılar ...................................181
Oğuz rayonu Zərdab kəndindən bayatılar .....................183
Borçalı bayatıları ..............................................................189
Xındırstan bayatıları ........................................................193
Zal qızı Gülnaz nənənin bayatıları və qoşması ..............194
Zabitdən bayatılar.............................................................196
Gülnigar Rəhimlinin (Rəhimova) bayatıları ...................197
Tamaşaçı Yeganə Heydərovanın bayatılı məktubu .......208
**ƏZİZƏ CƏFƏRZADƏNİN ÖZ BAYATILARI**.....................**209**
Şəhidlərə . .........................................................................215
Araz bayatıları...................................................................217
**ŞƏHİDLƏRİMİZƏ** ...........................................................**223**
Şəhidlərimiz üçün söylənən ağılar ..................................223
Qurban olum ....................................................................225
Başını uca tut, Vətən! .......................................................226
Şəhidlərin cümə axşamı....................................................228

Haray (Şəhidlərin ilinə) ....................................................231
Haray .......................................................................................237
Fəryad ......................................................................................239

**ƏZİZƏ CƏFƏRZADƏYƏ HƏSR EDİLMİŞ BAYATILAR.242**

Səadət Buta ..............................................................................242
Xalq artisti, opera müğənnisi Lütfiyar İmanov ..............242
Suraya xanım, Füzuli rayonu.............................................243
Qardaşı Əhməd Cəfərzadənin ad gününə yazdığı bayatılar .................................................................................243
Oğlu Turan İbrahimovun Əzizə Cəfərzadənin 75 illiyinə yazdığı bayatılar: ...............................................................245
Şövkət Hicran adlı bir oxucunun məktub və bayatilari.246

**DƏFTƏR – 2: TAPMACA, YANILTMAC, DÜZGÜ, OYUN NƏĞMƏLƏRİ.....................................................................250**

Tapmacalar..............................................................................250
Yanıltmaclar ...........................................................................252
Düzgülər..................................................................................254
Əfsunlar...................................................................................263
Oxşamalar...............................................................................266
Qarğış, bəddua.......................................................................269
Ağılar .......................................................................................269
Vəsfi-hallar .............................................................................270
Deyimlər..................................................................................270
*Tərəkəmə deyimləri* ..........................................................*314*
*Əzizə Cəfərzadənin deyimləri*..........................................*315*
Sanamalar................................................................................320
Qaravəllilər.............................................................................322

**DƏFTƏR – 3: RƏVAYƏT, İDİOMATİK İFADƏ, ATALAR SÖZÜ, ORİJİNAL MƏSƏL VƏ UNUDULMAQDA OLAN SÖZLƏR...................................................................................325**

**ADƏTLƏR, İNACLAR**........................................................334
Şərqdə müxtəlif qiymətli daşlar haqqında......................336
İltəhvil süfrəsində yeddi "S"........................................337
**XALQ HEKAYƏLƏRİ**........................................................338
Baxt haqqında üç rəvayət...............................................339
Müdrik qayınana.............................................................340
Səbətə girən....................................................................343
"Ulağın dayısı"...............................................................344
Toyda qalmaqal...............................................................344
Qayınana və gəlinlər.......................................................345
Altı daş, üstü aş, genə oğlumun evi. ...............................347
Sən yaşda adamın qoltuğu altında balıq bişər................348
Bişəndə baaax bu boyda uzanır.......................................349
Səni yanasan, toyuq aparan............................................350
Cıqqıdı Həsən padşah olub.............................................351
Adını çəkmə, gətir bas belimə........................................352
Ay qoz ağacı. ..................................................................353
Oynaş..............................................................................353
Şah Abbas və arvadı.......................................................355
Culfa...............................................................................356
Şanapipik (hop-hop).......................................................357
İsaq-Musaq quşu.............................................................358
Salxım saçaqlı söyüd.....................................................358
Qismət............................................................................359
Xalçaçıların iki əmək mahnısı........................................359
Baş tutmayan gəlin görməsi...........................................360
Keçər bu günlər, bacı. ....................................................360
Səkinə gəlir qızıynan......................................................361
Yanıq xörək....................................................................361
Baldırım vay...................................................................362
Üç bacı – sənə demədim.................................................363

Bir qaravəlli ....................................................................364
Aparım qudama, qudama! .............................................364
Toyuğun dərdi ...............................................................365
Fıl həkımı.........................................................................365
Səndə o bacarıq?............................................................366
Qurana güllə atılmaz! ....................................................367
Sənin atanın tövləsində ................................................367
Şah tənbəli ......................................................................368
Atası iki alardı .................................................................368
Xeyir qənşərinə çıxsın ...................................................368
Azarlı o biri otaqdadı......................................................369
Zəlzələ döyül, nənnidi ....................................................369
Ay Azad ...........................................................................369
Zəhrımar al gətı...............................................................370
Çırta-pırtlılar ..................................................................370
Yadıma yağlı söyüş düşdü ............................................371
Çəyırtkə gəlir ...................................................................372
İki ağdan dür törər.........................................................372
Kolxoza aid 2 bayatı.......................................................373
Gətirib lov xəbəri ............................................................373
Qəbrini qazan ağlar .......................................................373
Birdi, pirdi! .....................................................................374
Əti suya salıblar .............................................................374
Qayınananın arzuları.....................................................375
Qayınatanın köynəyi .....................................................375
"Paytaxt" .........................................................................375
Novruz.............................................................................376
Xəyalpilov, xəyalpərvər qatıqsatan .............................376
Şah Abbas iki kasıb kişi .................................................377
Üzük falı və nənəm........................................................378
Molla Reyhan .................................................................384

Loğman və şagirdi ....................................................385
"Üzrü günahından betər" ............................................386
"Cuhud ağacı"...............................................................387
Pəltək qızlar..................................................................387
Qayınana-gəlin söhbətləti ...........................................388
Həmşəri hambalının uydurmaları.................................389
Qayınana və üç gəlin ...................................................391
Cöngə oğurluğu ...........................................................391
Töhfə Müşərrəf xanım .................................................392
Qarın dartan-yırtan qoca ..............................................392
Ocaya gedən .................................................................393
O motalda da payım var...............................................393
Ay kişi, neynirsən?........................................................393
Yetirməmisən – ötürmüsən .........................................394
Bacadüzəldən ...............................................................394
Lovğalanma..................................................................395
Böhtan və qiybət nəticəsi..............................................396
İki qonşu .......................................................................396
Ağzin şirin olsun...........................................................396
Ənuşirəvana, gözün aydın!...........................................397
Ay arvad, nə yedin?.......................................................398
Ay Molla Möhsün… ....................................................398
Bir gün sən, bir gün o…...............................................403
Fala baxdırmışdım .......................................................404
Gəlin başı batmış… ......................................................404
Sən gedəli çörək yeməmişəm.......................................405
Biri də bu köndələn yatan… ........................................405
Onu kim alar?...............................................................405
Halvaya duz qatmazlar ................................................406
Bilirəm..........................................................................406
Mən gəlinə nə dedim ki................................................408

"Səbir daşı" ....................................................................408
Keçəl Gülarə xaladan bir sərnic ayran gətir....................410
Gönnən zəkat ...............................................................411
İslamçı və xalqçı iki qardaş eyni cüməlni deyir.............412
Nə sənin baban bilir, nə də mənim.................................412
Çustçu və baqqal............................................................413
Dünyanın nazü nemətindən gözü duyan bala ...............414
Qoyma yer tərpənsin.....................................................414
Nədən bildin xəstəyəm?..................................................415
Hərənin öz dərdi özünə bir dəvədi ................................415
O dünyada nə var?..........................................................416
Yəhudiyə verilmiş əmanət .............................................416
Aman, əlaman ...............................................................417
Ya Rəb, mənə sən yetirmə tövbə....................................417
İriz  eşşəyindi ...............................................................417
Qurban olasız bu arvadlara............................................418
Mirzəmmədin eşşəyi də indi kəlik yeyir........................418
Atdım dəydi ..................................................................419
Soruşum ki, dərdi də açılsın............................................419
Təsbeh ...........................................................................419
Qızıllı Zabitənin dərdi ...................................................419
Dədəm dədövə eşşək demişdi, noldı?.............................420
"Ziyarətdəmə" ..............................................................420
Təmbəki ........................................................................420
İstedadlı nökər-şair ........................................................421
Məksənəm – onun kökünü kəssənəm ............................421
Əzgil — əz gel?..............................................................422
Yağ hardadı? ..................................................................422
Bayəzid Bəstami rəvayətləri...........................................422
Vərəsəlik bölgüsü...........................................................423
Ağılarda çaşmalar ..........................................................424

**ADƏT-ƏNƏNƏLƏRƏ AİD MÜSAHİBƏLƏR**....................429
Şellən, qonağım, şellən ....................................................429
İrız eşşəyin, fel gəlinin......................................................431
Qayınana..............................................................................434
Günü ....................................................................................437
"Uzun əlim dədəm evində qalıb..." ..................................440
**NAĞIL: KASIBIN MƏKKƏ ZİYARƏTİ**...............................443
**XALQ MƏİŞƏTİ VƏ MƏTBƏXİNDƏN SÖZ DÜZÜMÜ**..445
Kabablar..............................................................................445
Dolmalar .............................................................................445
Xörək adları ........................................................................445
Çərşənbələrdə bişən plovlar.............................................446
Kasıb yeməkləri..................................................................447
Şərbət-içkilər.......................................................................447
Çörək-şirniyyat ..................................................................447
Çörəklərin adı.....................................................................448
Süddən düzəldilən məhsullar...........................................449
Tutmalar .............................................................................449
Ədviyyat..............................................................................449
Meyvə adları.......................................................................450
Qab adları ...........................................................................450
Mis qab adları.....................................................................451
Alətlər .................................................................................451
Toxuculuqla bağlı sözlər ...................................................451
Tərəkəmənin qoyun dərisindən düzəltdiyi əşyalar .......451
Yer adları ilə bağlı..............................................................452
Barmaqların adı..................................................................452
Örpəklər..............................................................................452
Parça adları.........................................................................452
İpəklər.................................................................................453

Geyimlər ......................................................................453
Rəqs havaları ...............................................................453
Körpəyə alxış ...............................................................453
Əkinə-biçin ...................................................................453
Ləğəblər .......................................................................454
Əski deyimlər sözlüyü...................................................454
Əzizə Cəfərzadənin kəlağayı sevgisi (T.İbrahimov) ......458
Əzizə Cəfərzadə əsərlərində papaq – kişilik və qeyrət rəmzi kimi (T.İbrahimov) ...............................................469
**DƏFTƏR – 8: HEYVANLAR HAQQINDA ŞEİRLƏR ........480**
**OYUNLAR** ....................................................................482
**NƏĞMƏLƏR VƏ MEYXANALAR** ......................................484
Dur, get, oğlan sabah oldu ..............................................484
Sən dəli, mən dəli, qayıt gəl bəri.....................................484
Xırda qız ........................................................................486
Bakı kəndləri haqqında meyxana ....................................486
**MÜASİR FOLKLOR VƏ MƏZƏLƏR** ..................................488
İki Məmməd bir çəpişi canavara verən ili.......................488
Seyidov Fazil Dərbəndinin məzələrindən....................489
Müəllifi bilinməyən zarafatyana şeir...............................491
**ƏLAVƏ** .........................................................................492
Yusif Vəzir “Folklor yolunda” ........................................492
**İNFORMATORLAR HAQQINDA MƏLUMAT** .................494
**BAYATI MÜƏLLİFLƏRİ HAQQINDA MƏLUMAT** .........497
**ƏDƏBİYYAT**..................................................................498

ƏZİZƏ CƏFƏRZADƏ

# ELMİ ƏSƏRLƏRİ

## VII CİLD

### XƏLQİYYAT DƏFTƏRLƏRİ

Bakı-2026

Yığılmağa verilmişdir: 22.02.2026
Çapa imzalanmışdır: 9.04.2026
Şərti çap vərəqi: 32.5
Formatı: 60x84 1/16
Tiraj: 200

Kitab "SkyE"-də çap olunmuşdur



ƏZİZƏ CƏFƏRZADƏ

# ELMİ ƏSƏRLƏRİ

VII

CİLD

XƏLQİYYAT DƏFTƏRLƏRİ